# POLİTOLOGİYA

## *Dərslik*

*(Yeniləşmiş təkrar nəşr)*

*Azərbaycan Respublikasının Təhsil Nazirliyi Elmi-Metodik Şurası, "Sosial-siyasi elmlər" bölməsi tərəfindən təsdiq edilmişdir. (8 iyun 2004-cü il tarixli iclasın 06 saylı protokolu)*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

*Bakı - 2008*

**Redaktor:** *dosent, fəlsəfə elmləri namizədi* ***Teymurlu M.Ə.***

**Rəyçilər:** *professor, fəlsəfə elmləri doktoru* ***İmanov H.R.***
*dosent, fəlsəfə elməlri namizədi* ***Əfəndiyev M.Ə.***

***Dərslik respublika ali məktəblərinin aşağıdakı müəlliflər kollektivi tərəfindən hazırlanmışdır:***

Dosent f.e.n. Vahidov F.Q., dos.f.e.n. Teymurlu M.Ə., Ön söz, Fəsil II, III. Dosent f.e.n. Teymurlu M.Ə., f.e.n. Abdiyeva Ə.M., dos. f.e.n. Cəfərova V.M., baş müəll. İmanov P.Ə., Fəsil IV, V, IX, XII, XIV, XV. Dos. f.e.n. İsmayılov Ş.M. Fəsil I. Dos. f.e.n. Rüstəmov A.S., Fəsil XI. Dos. f.e.n. Əliyev S.H. Fəsil VII. Dos. f.e.n. Zeynalov E.G., dos. f.e.n. Hüseynov H.F., Dos. Məmmədov E.H., müəll. f.e.n. Şirinova N.F. Fəsil V, IX, XIV, XV. Dos. f.e.n. Məmmədov H.Q. Fəsil VI, XVII. Dos. f.e.n. Piriyev A.M. Fəsil XVI. Dos. f.e.n. İbadov N.S. Fəsil VIII, X. Dos. f.e.n. İsmayılov D.Y. Fəsil XIII. iddiaçı Həsənov M.Z. Fəsil VIII.

***Siyasət elminin məcmusunu, təkamülünü və müasir nəzəri problemlərini əhatə edən bu dərslik ali və orta ixtisas məktəblərinin bakalavr, magistr, aspirant və müəllimləri, habelə politologiyanı müstəqil öyrənənlər üçün nəzərdə tutulmuşdur.***

**ISBN 5-86-874-070-21**

**© E.Zeynalov**

# Ön söz

Müasir dövrdə dövlət müstəqilliyini bərpa etmiş və demokratik inkişaf yolu seçmiş respublikamızda insanların politologiyaya marağı artmışdır. Demokratik dövlət quruculuğunun nəticəsi olaraq respublikamızda siyasi partiyaların fəaliyyəti genişlənmiş, müxtəlif siyasi baxışları əks etdirən kütləvi informasiya vasitələrinin - televiziya kanallarının, qəzet və jurnalların cəmiyyətə, ictimai rəyə təsiri güclənmişdir. Bütün bunlar cəmiyyətimizdə gedən prosesin, demokratik dəyişikliklərin, insanların siyasi fəallığının və siyasətə marağının artmasının göstəricisidir. İndi insanlar siyasət haqqında təlimə siyasi həyatda rast olunan təsadüflərdən, gözlənilməz hadisələrdən uzaqlaşmağın, cəmiyyətin elmi əsaslarla və müvəffəqiyyətlə idarə edilməsinin, qarşıdakı problemlərin aradan qaldırılmasının və məqsədlərə nail olmağın mühüm vasitəsi kimi baxırlar.

Hazırki şəraitdə respublikamızda nəzərəçarpan demokratik dəyişikliklərin, siyasi mühitdə plüralizmin bərqərar olması, müxtəlif istiqamətli ictimai-siyasi təşkilatların və hərəkatların meydana gəlməsi siyasi prosesləri mürəkkəbləşdirməklə yanaşı, onlara marağı da artırır. Cəmiyyətin siyasi mühitində yaranmış demokratik şərait siyasi biliklərin, xüsusilə politologiyanın tədrisinin keyfiyyətinin yüksəldilməsini vacib və əhəmiyyətli məsələlərdən birinə çevirmişdir. Bu gün siyasət və təkmil siyasi biliklər cəmiyyətin həyat tərzinin ayrılmaz hissəsinə, siyasi hazırlıq səviyyəsinin yüksəldilməsi isə vacib tələbata çevrilmişdir. Bununla əlaqədar olaraq, ali təhsil tələbəyə təkcə baza təhsili, əməyə düzgün münasibət, təşkilatçılıq və idarəetmə vərdişləri deyil, həmçinin, siyasi davranış, siyasi mədəniyyət və siyasi prosesləri qiymətləndirmə bacarığı aşılayır. Təhsilin bu modelini həyata keçirmək üçün

onun humanistləşdirilməsi, mütəxəssislərin hazırlanmasında humanitar biliklərə mühüm yer verilməsi, tələbələrin mənəvi və yaradıcı qabiliyyətlərinin inkişafı üçün münbit şəraitin yaradılması dövrün tələbinə çevrilir. Ali təhsilin humanistləşdirilməsinə tələbat hər şeydən əvvəl, ondan irəli gəlir ki, təhsilini başa vuran məzunların bir çoxu təkcə professional fəaliyyətlə kifayətlənmir, həmçinin, idarəetmə prosesində də iştirak edir. Bu, onlardan humanitar elmlər, o cümlədən politologiyaya dair biliklərin olmasını tələb edir.

Etibarlı vasitələrdən ən mühümü təhsil müəssisələrində siyasi biliklərin tədris edilməsidir. Bu çətin və məsuliyyətli vəzifənin yerinə yetirilməsinə politologiya fənni xidmət edir.

Dərsliyin işlənməsində Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının, Bakı Dövlət Universitetinin, Naxçıvan Dövlət Universitetinin, Azərbaycan Dillər Universitetinin, Azərbaycan Texniki Universitetinin və Azərbaycan Memarlıq və İnşaat Universitetinin alimləri iştirak etmişlər. Onlar politologiya elminin müxtəlif sahələri üzrə tanınmış mütəxəssisləridir.

Dərslik yuxarıda göstərilən vəzifələrin yerinə yetirilməsi məqsədi ilə politologiya fənni üzrə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş tədris proqramına uyğun olaraq hazırlanmışdır.

Müəlliflər kitabın işıq üzü görməsində xidmətlərinə görə dosent Elmidar Zeynalova və Füzuli Surxayevə minnətdarlıq edirlər.

Redaktor, dərsliyin məsləhətçisi
Fəlsəfə elmləri namizədi,
***dosent, Teymurlu Məhəmməd***



# FƏSİL I

# POLİTOLOGİYANIN PREDMETİ, CƏMİYYƏTDƏ YERİ VƏ ROLU

## *§ 1. Siyasət və onun mahiyyəti, politologiyanın predmeti*

Müasir dövrümüzün mühüm xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, bu dövrdə siyasi proseslərin əhatəliliyi və intensivliyi durmadan yüksəlir, sosial-siyasi proseslərin əhəmiyyəti və fəaliyyət dairəsi genişlənir. Bütün bunlar, cəmiyyətdə siyasi problemlərin həllinə, onların fəaliyyətinə marağı artırır, müxtəlif təbəqələrin, bütövlükdə, bəşəriyyətin siyasiləşməsinə səbəb olur, "siyasət" termininin ictimai leksikonda daha möhkəm qərarlaşmasına gətirib çıxarır. Siyasət ictimai fəaliyyətin bütün tərəflərini əhatə etdiyi üçün hər bir cəmiyyət üzvü siyasi proseslərin iştirakçısına çevrilir, çoxsahəli ictimai fəaliyyətin müxtəlif tərəfləri barəsində fikir yürütmək imkanı əldə edir. Təsadüfi deyildir ki, qədim yunan siyasi xadimi Perikl deyirdi: "Cəmiyyətin çox az bir qismi siyasəti yaradır, onun haqqında fikir yürütmək qabiliyyəti isə hamıya məxsusdur".

"Siyasət"" anlayışı leksikonumuza ərəbcədən daxil olmuşdur. "Politika"" anlayışı isə mənşə baxımından yunan sözü olub, mənası "dövləti idarə etmək sənəti"" deməkdir. Hazırda demək olar ki, dünyanın bütün dillərində işlədilən və beynəlxalq status almış bu sözün əsasında "polis" (qədim yunanlar şəhər-dövlətləri belə adlandırırdılar) anlayışı durur. Sonralar bu söz Aristotelin məşhur "Politika"" traktatının təsiri altında dövlət hakimiyyəti və onun idarə olunması məsələlərinə aid edilmişdir. Buradan belə bir nəticəyə gəlmək olar ki, siyasət və onun inkişaf qanunauyğunluqlarını öyrənən elm mənasını verən "politologiya" sözünün əsasında iki yunan mənşəli "politika" - dövlət və ictimai iş, "loqos" - təlim, elm sözləri durur. Deməli, politologiya sözünün hərfi mənası siyasət haqqında

təlim və ya elm deməkdir. Lakin politologiyanın siyasət haqqında elm olduğunu demək, bu elm haqqında çox ümumi, həmçinin, bəsit təsəvvür yaradır. Belə ki, təbii olaraq, bunun ardınca bir sual meydana çıxır: siyasət nədir və onun mahiyyəti nədən ibarətdir?

Siyasətin meydana gəlməsini siniflərin və dövlətin yaranması ilə izah etmək cəhdi, onu sinfi nöqteyi-nəzərdən əsaslandırmağa yönəldilmiş səylərlə bağlıdır. Halbuki siyasətin tarixi daha qədim dövrlərə gedib çıxır. Belə ki, ibtidai insanların tayfa iyerarxiyasındakı, tayfalar arasında münasibətlərinin tənzimlənməsi primitiv siyasətin ilk cücərtiləri kimi qəbul olunmalıdır. Lakin belə bir faktı da inkar etmək olmaz ki, siniflərin və dövlətin meydana gəlməsi, siyasəti və siyasi münasibətləri yeni, daha təkmil mərhələyə qaldırdı və bu proses siyasətin əhəmiyyətinin artmasına və onun məzmunca zənginləşməsinə səbəb oldu. Çünki cəmiyyətin inkişafının müəyyən mərhələsində meydana çıxan siyasi münasibətlər, müxtəlif siniflər, ictimai təbəqələr, siyasi təşkilatlar və beləliklə, müxtəlif maraqlar arasındakı münasibətləri tənzimləyir və bu prosesdə ayrı-ayrı siyasi ideya və nəzəriyyələrlə ifadə olunur.

Siyasət haqqındakı düşüncələrin diapazonu geniş, ona verilən təriflər isə müxtəlifdir. Platon siyasəti insanları idarə etmək haqqında bilik və bacarıq tələb edən sənət adlandırırdı.

Görkəmli Azərbaycan alimi və filosofu Nəsrəddin Tusi "Əxlaqi-Nasir"" əsərində qeyd edirdi ki, ictimai əməyi təşkil etmək, istehsal prosesində özbaşınalıq və hərc-mərcliyə yol verməmək üçün müəyyən tədbirlərə ehtiyac duyulur ki, bütün bu tədbirlər toplusu siyasət adlanır.

N.Makiavelli özünün məşhur "Hökmdar"" və "Dövlət"" əsərlərində siyasəti xalqın oyanan ruhunu, dəyişikliyə olan istəyini həyata keçirmək vasitəsi hesab edirdi.

M.Veber göstərirdi ki, siyasət hakimiyyətdə iştirak etmək və hakimiyyətin bölüşdürülməsinə təsir göstərmək istəyidir.



Məşhur fransız politoloqu R.Aron yazırdı ki, siyasət həm liderlər, həm də sosial qruplar arasında hakimiyyət uğrunda mübarizədir.

O.Şpenqler qeyd edirdi ki, siyasət özünün yüksək mənasında həyat, həyat isə siyasətdir.

Bütün bu yanaşmalar göstərir ki, siyasətin ictimai həyatın digər sahələri ilə bağlılığı ona müxtəlif təriflərin verilməsi ilə səciyyələnir. Bu tərifləri aşağıdakı kimi qruplaşdırmaq məqsədəuyğundur:

***Birincisi,*** hesab edirlər ki, siyasət böyük sosial qruplar, ilk növbədə, siniflər və xalqlar arasındakı münasibətlər sahəsindəki fəaliyyətdir. Tarixi baxımdan siyasətin yaranması sosial bərabərsizliyin meydana gəlməsi və ya sosial qrupların mənafeyinin toqquşması ilə bağlıdır və siyasət bu mənafelərin barışdırılması, nizamlanması, istiqamətləndirilməsi aləti kimi meydana gəlir.

***İkincisi,*** belə qəbul edirlər ki, siyasət müəyyən sosial institutlar və cəmiyyətin siyasi strukturunu təşkil edən dövlətin, siyasi partiyaların, ictimai təşkilatların fəaliyyət sahəsidir. Siyasətin ən mühüm cəhəti, hətta onun məqsədi dövlət hakimiyyətidir. Siyasət hər şeydən əvvəl dövlətin təşkilində, onun fəaliyyətinin istiqamətləndirilməsində, dövlət fəaliyyətinin formalarının, vəzifələrinin, məzmununun müəyyən edilməsində iştirak etmək deməkdir. Deməli, hər hansı bir problem dövlətin, siyasi partiyaların və ya ictimai təşkilatların mənafeyinə toxunursa, siyasi xarakter alır.

***Üçüncüsü,*** belə bir fikrə istinad olunur ki, hakimiyyət problemi siyasətin əsasını və onun məqsədlərini müəyyənləşdirir. Çünki hakimiyyət ictimai həyatın müxtəlif tərəflərində bir sinfin digər sinif, bir sosial qrupun digər sosial qrup, şəxsiyyətin kütlə üzərindəki münasibətlərində özünü büruzə verir. Deməli, siyasət liderlər və sosial qruplar arasında hakimiyyət uğrunda mübarizədir. Başqa sözlə, siyasət dövlətin daxilində və ya dövlətlər arasında hakimiyyətə, hakim mövqeyə yiyələnmək, hakimiyyət bölgüsündə iştirak etmək

səyləridir.

Nəhayət, ***dördüncüsü***, siyasəti çox vaxt sənət, ustalıq, məharət kimi müəyyən edirlər. Siyasət təkcə bilik deyil, həmçinin siyasi manevretmə və kompromislər ustalığı, kütlələrə siyasi təsiretmə məharəti, onları ətrafında toplamaq və istiqamətləndirmək bacarığı tələb edir. Siyasi məharət və ya bacarıq tələb edir ki, az zəhmət və ya itki ilə məqsədə, təmsil etdiyin siyasi qrupun, partiyanın, ictimai hərəkatın, nəhayət, dövlətin mənafelərini əsas tutaraq, istədiyinə nail olasan.

Siyasətin müxtəlif tərəflərinin fərqli istiqamətlərdən səciyyələndirilməsi onun çoxşaxəli xarakteri haqqında fikir yürütmək imkanı verir. Siyasət bir-biri ilə sıx əlaqədə olan üç əsas istiqamətdə fəaliyyət göstərir: 1) ictimai həyatın mühüm sahəsi kimi; 2) sosial subyektlərin fəallığının göstəricisi kimi; 3) sosial münasibətlərin bir növü kimi.

***Birinci*** aspektdə siyasət, cəmiyyətin strukturunun mühüm elementi kimi çıxış edir və cəmiyyət həyatında əsaslı rol oynayır. Aristoteldən başlayaraq bir çox tədqiqatçılar göstərdilər ki, siyasətə ümumi və şəxsi maraqların uzlaşmasında, asayişin qorunmasında, ümumi əhəmiyyət kəsb edən məqsədlərin həyata keçirilməsində, idarəetmə fəaliyyətinin, ehtiyatlara nəzarət edilməsi və onlardan istifadənin tənzimlənməsində mühüm rol ayrılır.

***İkinci*** aspektdən yanaşma sosial subyektlərin fəallığı, insan fəaliyyətinin müxtəlif növləri və bilavasitə insanın sosial davranışı ilə bağlıdır. Siyasəti məhz bu baxımdan araşdıran M.Veber göstərirdi ki, insanlar siyasətlə məşğul olmalarına və ona münasibətlərinə görə, başqa sözlə siyasi fəallıqlarına görə fərqlənirlər.

***Üçüncü*** istiqamətə gəlincə qeyd olunmalıdır ki, hələ vaxtilə Aristotel siyasəti insanlar arasındakı ünsiyyətin ən yüksək növü kimi qiymətləndirirdi. Fransız materialistləri və marksistlər isə siyasət haqqında fikirlərini ümumiləşdirərək göstərirdilər ki, bu fenomen siniflərlə, dövlət hakimiyyəti



arasındakı münasibətləri nizamlayır. XX əsrdə meydana gələn konsepsiyaların bir çoxu belə bir istiqaməti əsas götürürdü ki, siyasətin məqsədi meydana çıxan müxtəlif münaqişələri həll etməkdən və cəmiyyətdə konsensusa nail olmaqdan ibarətdir.

Qeyd etmək yerinə düşər ki, siyasət müxtəlif səviyyələrdə təzahür edə bilər:

*1. Aşağı səviyyədə* həyata keçirilən siyasət, əsasən yerli problemlərin (yaşayış şəraiti, məktəb, universitet, ictimai nəqliyyat, məişət xidməti və s. bu kimi məsələlər) həll edilməsini nəzərdə tutur. Bu səviyyədə həyata keçirilən siyasi fəaliyyət, fərdi və ya yerli təşkilatlar səviyyəsində həyata keçirilir.

*2. **Lokal səviyyə*** problemlərin həllinə dövlət müdaxiləsi tələb edir. Bu səviyyədə həyata keçirilən siyasət, müəyyən rayonun iqtisadi inkişafında maraqları olan qruplar və ya təşkilatlar vasitəsi ilə həyata keçirilir.

*3. **Milli səviyyədə*** dövlət və onun mövcud ehtiyatlara nəzarəti, həmçinin, ehtiyatların bölüşdürülməsi ilə bağlı olduğu üçün siyasət nəzəriyyəsində ən mühüm əhəmiyyətə malikdir.

*4.* Beynəlxalq səviyyədə siyasi fəaliyyətin subyektləri kimi, suveren dövlətlər çıxış edir və bu mərhələ dövlətlərarası beynəlxalq münasibətlərin tənzimlənməsini nəzərdə tutur.

İctimai həyatın mühüm, eyni zamanda özünəməxsus forması kimi siyasətin cəmiyyət həyatındakı rolu, onun üç əsas xüsusiyyəti ilə universallığı, əhatəliliyi və həyatın müxtəlif tərəflərinə təsir göstərmək gücü ilə müəyyən edilir. Məhz bu baxımdan siyasət cəmiyyətin müxtəlif problemlərinə təsir göstərir, dövlətin, siniflərin, sosial təbəqələrin, insanların arasında mövcud olan siyasi münasibətlərin tənzimlənməsində mühüm vasitəyə çevrilir. Deməli, siyasət cəmiyyətin müxtəlif tərəflərinə təsir göstərməklə yanaşı müxtəlif funksiyaları yerinə yetirmiş olur: cəmiyyətin bütövlüyünü, stabilliyini təmin edir; idarəetmə və tənzimləməni həyata keçirir; səfərbərlik,

səmərəlilik, rasionallaşdırma, siyasi sosiallaşdırma vəzifələrini yerinə yetirir və s.

Siyasəti dərk etmək, onun cəmiyyət həyatındakı rolunu üzə çıxarmaq və ona münasibət bildirmək səylərinin tarixi qədim dövrlərə, xüsusilə, dövlətin meydana gəlməsi ilə bağlıdır. İlk zamanlarda siyasət dini-mifoloji baxımdan nəzərdən keçirilir, hakimiyyətin ilahiliyi və hakimin allahın elçisi olması haqqında nəzəriyyə təbliğ olunurdu. Təxminən bizim eranın birinci minilliyinin ortalarından etibarən, siyasət haqqında nəzəriyyələr nisbətən müstəqilləşərək və əvvəlki mütləq mifoloji təsirlərdən qurtularaq, fəlsəfi biliklərin əsaslarından birinə çevrildi. Bu proses hər şeydən əvvəl Konfutsi, Platon, Aristotel kimi dahilərin tədqiqatlarında siyasi nəzəriyyəyə xüsusi yer ayırmaları və siyasəti mühüm hadisə kimi qiymətləndirmələri ilə bağlı idi.

Orta əsrlərdə siyasət, hakimiyyət, dövlət və s. bu kimi problemlər N.Makiavelli, T.Hobbs, C.Lokk, Ş.Monteskye, J.J.Russo, H.Hegel kimi fəlsəfi və siyasi fikrin böyük nümayəndələrinin tədqiqatları sayəsində keyfiyyətcə yeni nəzəri səviyyəyə qalxaraq dini-etik və mifoloji baxışlardan uzaqlaşdı və ictimai müqavilə, milli müstəqillik, hakimiyyətin bölüşdürülməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlət kimi konseptual şərhlər və anlayışlarla zənginləşdi.

XIX əsrin ikinci yarısında siyasi elmin müstəqilləşməsi, onun müasir məzmununun formalaşmasına və əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Həmin dövrdən başlayaraq politologiya müstəqil elm sahəsinə çevrildi, onun müxtəlif istiqamətlərini araşdıran elmi mərkəzlər yaranmağa başladı. XIX əsrin sonlarında London universitetinin nəzdində "London iqtisadiyyat və siyasi elmlər" məktəbinin əsası qoyuldu, 1857-ci ildə isə Amerikanın tarixində ilk dəfə olaraq Kolumbiya universitetində siyasi elmlər kafedrası açıldı. Bir qədər keçdikdən sonra Yel, Priston, Harvard universitetlərində də bu tipli kafedralar fəaliyyətə başladı və 1903-cü ildə Amerika siyasi elmlər assosiasiyası yaradıldı.

II Dünya müharibəsindən sonra həm ABŞ, həm də digər



Qərb ölkələrində siyasi elm daha intensiv sürətlə inkişaf etdi. 1948-ci ildə Paris şəhərində YUNESKO-nun təşəbbüsü ilə keçirilən kollokviumda siyasi elmin problemləri nəzərdən keçirildi. Kollokviumun qəbul etdiyi sənəddə siyasi elmin məzmunu və onun qarşısında duran əsas problemlər müəyyən edilirdi. Sənəddə göstərilirdi ki, siyasi elmin öyrənilməsi və tədqiqinin əsas problemləri aşağıdakılardır: *1)* siyasi nəzəriyyə və siyasi fikir tarixi; *2)* siyasi institutlar; *3)* partiyalar, qruplar, ictimai rəy; *4)* beynəlxalq münasibətlər. 1949-cü ildə YUNESKO-nun təşkilatçılıq səyləri nəticəsində Politoloqların Beynəlxalq Assosiasiyası yaradıldı və politologiya bir tədris fənni kimi ABŞ və Qərbi Avropa universitetlərinin proqramlarına daxil edildi.

Təəssüf ki, keçmiş SSRİ-də 1970-ci illərə qədər politologiya burjua elmi, mürtəce burjua ideologiyasının daşıyıcısı və təzahürü kimi qiymətləndirilmiş, daim tənqidə məruz qalmışdır. Keçmiş SSRİ məkanında bu elmin inkişafına şərait yaradılmamasının əsas səbəbi ictimai nəzəriyyələrin inkişafı üçün demokratik şəraitin olmaması, marksist-leninçi nəzəriyyədən uzaqlaşmağa və hadisələrin real qiymətləndirilməsinə imkan verilməməsi, totalitar rejimin yaranması ilə nəticələnən nəzəriyyənin təbliği, aşkarlıq və siyasi plüralizmə laqeyd münasibətin formalaşması, qabaqcıl ölkələrin təcrübəsinin və müvəffəqiyyətlərinin inkar edilməsi idi. Politologiya elminin təbliğinə və öyrənilməsinə bu laqeyd münasibət sosial mühitdə süstlük yaranmasına gətirib çıxartdı və yalnız SSRİ-nin dağılması, dünyada baş verən siyasi dəyişikliklər, keçmiş postsovet məkanında müstəqil dövlətlərin yaranması, ölkələr arasında inteqrasiya proseslərinin artması, ictimai şüurun siyasiləşməsi, siyasi plüralizmin və çoxpartiyalılığın inkişafı ilə əlaqədar olaraq keçən əsrin 80-ci illərindən etibarən politologiya keçmiş SSRİ məkanında və o cümlədən respublikamızda müstəqil elm sahəsi kimi tanındı və inkişaf etməyə başladı.

Bəs politologiyanın predmeti nədir və bu elm nəyi öyrənir? **Politologiya insan fəaliyyətinin xüsusi sahəsi olan siyasət**

**haqqında elm olub hakimiyyət münasibətlərini, cəmiyyətin siyasi təşkilini, siyasi münasibətlərin istiqamətini - insan, cəmiyyət, dövlətlər arasındakı norma və prinsiplərin fəaliyyətini öyrənir.** Siyasət haqqında elm kimi politologiya siyasi həyatın maddi, mənəvi və praktik tərəflərini əhatə edərək, siyasətin ictimai həyatın digər tərəfləri ilə qarşılıqlı əlaqəsini araşdırır. Politologiyanın predmetinə siyasi institutların, siyasi proseslərin, siyasi münasibətlərin, siyasi ideologiya və mədəniyyətin, siyasi fəaliyyətin və s. mühüm problemlərin öyrənilməsi və tədqiqini aid etmək olar.

Müasir politologiyanın öyrəndiyi mühüm problemlərə aşağıdakıları aid etmək olar: **çağdaş siyasi sistemlər və rejimlər; idarəetmə formaları və dövlət quruluşları; siyasi stabillik və siyasi risk; partiya və seçki sistemləri; insan və vətəndaşın siyasi hüquqları və azadlıqları; vətəndaş cəmiyyəti və hüquqi dövlət; siyasi davranış və şəxsiyyətin siyasi mədəniyyəti; siyasi kommunikasiya və kütləvi informasiya vasitələri; siyasətin dini və milli aspektləri; siyasi münaqişə və böhranların həll edilməsinin vasitə və metodları; beynəlxalq siyasi münasibətlər, geosiyasət, siyasi qloballaşma və s.**

Siyasətin mürəkkəbliyi və çoxşaxəliliyi onun ictimai hadisə kimi həm makro, həm də mikro səviyyələrdə tədqiqinə imkan yaradır. Birinci halda elə siyasi hadisələr və proseslər tədqiq olunur ki, onlar əsas hakimiyyət və idarəetmə institutları çərçivəsində fəaliyyət göstərərək, bütövlükdə ictimai sistemə aid olur. İkinci səviyyədə siyasi mühitdə fərdlərin və kiçik qrupların fəaliyyəti araşdırılır. Politologiyanın tədqiqat obyekti və predmetinin təhlili "nəzəri"" və "tətbiqi"" politologiya anlayışlarının mahiyyətinin araşdırılmasını da tələb edir. Nəzəri politologiya siyasi hadisələri idraki baxımdan, müəyyən elmi biliklər formalaşdırmaq məqsədilə tədqiq edirsə, tətbiqi politologiya siyasi mühitdə və real siyasi gerçəklikdə baş verən dəyişiklikləri, onların inkişaf istiqamətlərini öyrənir, siniflərin, partiyaların, sosial, etnik, dini qrupların siyasi fəaliyyətini araşdırır.



Siyasətdə cəmiyyət, həyatının müxtəlif sahələrinin iqtisadiyyat, dövlət quruculuğu, hüquq, sosial problemlər, etno-milli və dini münasibətlər, sosial struktur sahələrində fəaliyyət göstərən qrupların maraqları toqquşur. Məhz bu baxımdan, politologiya cəmiyyətin siyasi həyatında siniflərin və sosial qrupların yerini müəyyənləşdirir, dövlətlər, millətlər və siyasi təşkilatlar arasında münasibətlərin xarakterini aşkarlayır, bütün bu məsələlərə məntiqi baxımdan əsaslandırılmış məzmun etibarilə bitkin və sistemli bilik formalaşdırmaq məqsədini güdür. Bu isə siyasi inkişafın qanunauyğunluqlarını və bu qanunauyğunluqların məntiqi fəaliyyət meylini dərk etməyə imkan verir. Yalnız siyasi biliklərin üzvi bağlılıq, dialektik sintez baxımından araşdırılması, politologiyanın kompleks elm sahəsi kimi fəaliyyətini təmin edir. Siyasi biliklərin digər sahələrindən fərqli olaraq politologiya bütöv ictimai hadisə kimi siyasətin mahiyyətini aşkarlamağa, həmçinin, onun struktur elementlərini, əsas inkişaf istiqamətlərini və qanunauyğunluqlarını, daxili və xarici əlaqələrini, gələcək inkişaf perspektivlərini, bütövlükdə cəmiyyətin siyasi həyatının obyektiv mənzərəsini dərindən tədqiq etməyə və öyrənməyə imkan yaradır.

### *§ 2. Politologiyanın kateqoriyaları, metodları, funksiyaları və sosial-siyasi elmlər sistemində yeri*

Elmin kateqoriyaları dedikdə ("kateqoriya" yunanca - şəhadət deməkdir), onun predmetinin ən ümumi, fundamental və tədqiqat əhəmiyyəti kəsb edən anlayışları nəzərdə tutulur. Vaxtilə Aristotel göstərirdi ki, kateqoriyalar obyektiv reallığın ən yüksək şəkildə ümumiləşdirilməsi və əksidir. Məlum olduğu kimi, kateqoriyalar idrakın tarixi inkişafı gedişində, ictimai praktika və ətrafdakı reallıqların dərk olunması prosesində formalaşır. Bütün bunların əsasında isə insanın fəaliyyəti üsullarının, ünsiyyət vasitələrinin

inkişafı dayanır. Bu baxımdan politologiyanın kateqoriyaları siyasət və onun idarə edilməsi ilə bağlı olan real gerçəkliyin qanunauyğun əlaqələrini və münasibətlərini əks etdirən ümumi və fundamental anlayışlardır. Başqa sözlə desək **politologiya elminin kateqoriyaları siyasi gerçəkliyin, siyasi reallığın ən mühüm cəhətlərini özündə əks etdirir ki, bu da həmin elmin kateqoriyalar sisteminin özünəməxsusluğunu şərtləndirir.**

Qeyd etmək lazımdır ki, politologiyanın kateqoriyaları daim inkişafda olan, zənginləşən və dinamikliyi ilə seçilən bir sistemdir. Siyasi münaibətləri əks etdirən obyektiv gerçəklik inkişaf etdikcə, politoloji biliklərin səviyyəsi dərinləşdikcə, yeni kateqoriyalar yaranmaqla yanaşı, mövcud kateqoriyaların zənginləşməsi prosesi baş verir və ya ayrı-ayrı kateqoriyaların yeri və rolu dəyişir. Belə bir cəhətə diqqət yetirilməlidir ki, politologiyanın anlayışlar və kateqoriyalar sisteminin inkişafı ilə siyasi leksikonun inkişafı arasında sıx əlaqə vardır. Daha doğrusu hər hansı bir tarixi dövrün siyasi leksikonunun inkişafı səviyyəsinə uyğun olaraq, siyasətlə bağlı, müəyyən anlayışlar və kateqoriyalar yaranmışdır. Hazırki politoloji leksikon tamamilə yeni siyasi reallıqlara əsaslanır və öz zənginliyinə görə əvvəlki dövrlərdə olduğundan fərqlənir ki, bu da siyasi elmin yeni-yeni anlayış və kateqoriyalarının yaranmasına səbəb olur.

Politologiyaya aid olan kateqoriyalar hər şeydən əvvəl ümumilik dərəcəsinə görə fərqlənir. Bu elmin ən ümumi kateqoriyaları sırasında siyasi sistem, siyasi hakimiyyət, siyasi mədəniyyət və s. mühüm yer tutur. Adı çəkilən fundamental **ümumi kateqoriyalar özündə aşağıdakı xüsusi kateqoriyaları əks etdirir: siniflər, millətlər, peşə qrupları, dövlət, siyasi partiyalar və s. Həmin kateqoriyalar digər sosial-siyasi elmlər tərəfindən tədqiqat obyektlərinə uyğun şəkildə istifadə olunur.**

Politologiyaya dair ədəbiyyatlarda bu elmin kateqoriyalarını müxtəlif şəkildə qruplaşdırmaq təşəbbüsləri nəzərə çarpır. Fikrimizcə, politologiyada istifadə olunan kateqo-



riyaları aşağıdakı şəkildə qruplaşdırmaq daha məqsədəuyğundur:

***Birinci qrupa*** bütün humanitar elmlərin, o cümlədən politologiyanın eyni dərəcədə istifadə etdiyi və ümumi xarakter daşıyan kateqoriyaları aid etmək olar. Məs., sivilizasiya, cəmiyyət, əhali, millət, azadlıq, hakimiyyət, hüquq, mədəniyyət, tərəqqi, inqilab, təkamül və s.

***İkinci qrupa*** daxil olan kateqoriyalar politologiya ilə bilavasitə əlaqəsi olan elmlərdən qəbul edilərək, istifadə olunan kateqoriyalardır. Məs. hüquqi dövlət, xüsusi mülkiyyət, vətəndaş cəmiyyəti, sosial təbəqə, ictimai rəy, hərbi-sənaye kompleksi və s.

***Üçüncü qrupa*** törəmə xarakter daşımayan sırf politoloji kateqoriyalar daxil edilməlidir. Məs., siyasət, siyasi hakimiyyət, siyasi həyat, siyasi fəaliyyət, siyasi sistem, siyasi rejim, siyasi mədəniyyət, siyasi maraqlar, siyasi dəyərlər və s.

Hazırda politologiyanın vəzifələrindən biri əhatə etdiyi kateqoriyaların elə sistemini yaratmaqdan ibarətdir ki, o politoloji biliyin formalaşmasına və inkişaf etməsinə daha əhəmiyyətli təsir göstərsin.

Siyasi hadisələr və proseslər müxtəlif metodlar (yunanca "methodos" - tədqiqat yolu deməkdir) vasitəsi ilə öyrənilir. Poiltologiya müxtəlif metodların köməyi ilə qarşısında duran problemləri dərindən və hərtərəfli tədqiq edir, nəzəri müddəaların yoxlanılmasını və qiymətləndirilməsini təmin edir. Politologiya elmi özünün metodoloji aparatını daim zənginləşdirir və inkişaf etdirir ki, bu da müxtəlif problemlərin daha ətraflı tədqiqi üçün şərait yaradır.

Siyasi tədqiqatların müxtəlif metodlarının, müasir tiplərinin və metodologiyasının formalaşması, siyasi fikrin tarixi inkişafı prosesində yaranmışdır. Tarixi baxımdan siyasi elmin metodoloji inkişaf dövrlərini aşağıdakı mərhələlərə bölmək olar.

**1 Məntiqi** - fəlsəfi və tərbiyəvi - əxlaqi yanaşmalarla müşaiyət olunan klassik mərhələ (XIX əsrə qədər).

2 **Tarixi** - müqayisəli və normativ - hüquqi metodların mühüm əhəmiyyət kəsb etdiyi institutsional dövr (XIX əsr - XX əsrin əvvəli).

3 **Miqdar metodlarının** fəal sürətdə tətbiqi ilə seçilən bixeviorçu (ingiliscə "behaviour"-davranış) mərhələ (XX əsrin 20-70-ci illəri).

4 **Ənənəvi və yeni** metodların tətbiq olunduğu postbixeviorçu mərhələ (XX əsrin sonlarından müasir dövrə qədər davam edir).

Politologiya elmi müxtəlif metodoloji istiqamətlərin mövcud olduğu müasir dövrdə bəşəri xarakter daşıyan, cəmiyyətin siyasi həyatının müxtəlif tərəflərini tədqiq edən metodlarından kompleks şəkildə istifadə edir. **Müasir politologiyanın aşağıdakı metodları vardır: institutsional metod, müqayisəli metod, sosioloji metod, antropoloji metod, psixoloji metod, bixeviorist metod, struktur-funksional təhlil metodu, kommunikativ metod, siyasi modelləşdirmə metodu və s.** Bu metodların bir neçəsi haqqında məlumat verək:

*1. İnstitutsional metodun* rolu cəmiyyətin fəaliyyəti və normal inkişafı üçün hüquqi normaların, əsas qanunların əhəmiyyətini üzə çıxarmaqdan ibarətdir. Bu metodun formalaşmasına Ş.Monteskyenin, C.Lokkun, E.Berkin, T.Cefersonun və s. siyasi baxışları mühüm təsir göstərmişdir. Bu yanaşmanın özünəməxsusluğu ondan ibarətdir ki, siyasi institutların (parlament, hökumət, partiyalar, seçki prosedurları, hakimiyyətin bölüşdürülməsi mexanizmi, konstitutsiya quruluşu və s.) fəaliyyətinin araşdırılmasına mühüm yer ayrılır, cəmiyyətdə qərarlaşmış ictimai-siyasi reallıq tədqiqat obyektinə çevrilir.

*2. Müqayisəli metodun* tarixi çox qədimdir və onun özünəməxsusluğu iki və ya daha çox siyasi obyektlərin fəaliyyətinin tutuşdurulmasından ibarətdir. Müqayisəli metodun qarşısında duran əsas məqsədlər faktların toplanmasından, həmin faktlarda mövcud olan oxşarlıq və əksi-



7007

liklərin üzə çıxarılmasından, siyasi proses və hadisələr arasındakı əlaqələrin üzə çıxarılması və onlara siyasi qiymət verilməsindən ibarətdir. Bu metodun köməyi ilə siyasət haqqındakı biliklərin sistemini formalaşdırmaq, müxtəlif siyasi davranış və prosesləri qiymətləndirmək, hadisələrin inkişafını və nəticələrini proqnozlaşdırmaq mümkündür. Müqayisəli metoddan istifadə edilməsi, müxtəlif ölkələrdə siyasi həyatın, siyasi proseslərin, siyasi partiya və təşkilatların fəaliyyətinin, siyasi mədəniyyət səviyyələrinin və s. problemlərin daha dərindən təhlilinə şərait yaradır.

*3. Sosioloji metod* real siyasi proses və hadisələrin gedişi haqqında faktların toplanması və təhlili məqsədi ilə konkret sosioloji tədqiqatların metodlarından istifadə edilməsini nəzərdə tutur. Sosioloji tədqiqatların əsas metodları olan sorğuların, anketin, statistik təhlilin, riyazi modelləşdirmənin siyasi hadisə və proseslərin öyrənilməsinə, tətbiqi obyekt haqqında daha geniş faktik materiallar toplanmasına imkan verir və hadisələrin inkişafının proqnozlaşdırılması üçün şərait yaradır. Müasir politologiyada sosioloji metoddan istifadə edilməsi, tətbiqi politologiyanın yaranması ilə nəticələnmişdir. Sosioloji metodun köməyi ilə siyasətin həyatın digər sahələri ilə əlaqələrini üzə çıxartmaq, hakimiyyətin, dövlətin, hüququn sosial mahiyyətini açmaq, dövlət qərarlarının sosial istiqamətini müəyyənləşdirmək mümkündür.

*4. Psixoloji metodun* əsas məqsədi siyasi davranışın subyektlərinin, fərdi xüsusiyyətlərinin xarakterinin psixoloji özünəməxsusluğunu səciyyələndirən cəhətlərinin öyrənilməsinə istiqamətlənmişdir. Bu metodun yaranmasına Aristotelin, Senekanın, N.Tusinin, J.J.Russonun və s. şəxsiyyət və hakimiyyət arasındakı münasibətlər, vətəndaşların intizamı və hökmdarlığın xüsusiyyətləri haqqındakı fikirlərinin mühüm təsiri olmuşdur. Müasir psixoloji yanaşmanın əsas mənbələrindən biri kimi psixoanaliz ideyaları çıxış edir. "Psixopolitologiya və siyasət" əsərində H.Lassuel göstərirdi

Azərbaycan Respublikası Prezidentinin
İşlər idarəsi
PREZİDENT KİTABXANASI

ki, politologiya yalnız psixoloji təhlil sayəsində siyasi proseslərin inkişafını və siyasi liderlərin fəaliyyətini izləyə və qiymətləndirə bilər. Si-yasi-psixoloji təhlil siyasi sosiallaşmanın, liderin və kiçik qrupların davranışının motivlərinin araşdırılmasında mühüm əhəmiyyət kəsb edir və bu istiqamətdəki fəaliyyətini, əsasən iki müasir cərəyanın - psixobioqrafik və psixotarixi yanaşmaların vasitəsilə həyata keçirir.

5. XX əsrin 30-50-ci illərində siyasi elmin öyrənilməsində çevriliş etmiş bixeviorist metod 50-60-cı illərdə ***struktur-funksional təhlil metodu*** ilə əvəz olundu. Stuktur-funksional təhlil metodunun nümayəndələri (T.Parsons, P.Merton və s.) göstərirdi ki, mürəkkəb sosial sistem kimi cəmiyyət insanların fəaliyyətinin məcmusudur. Hər bir fərd öz hərəkətlərində cəmiyyətdə qəbul edilmiş davranış normalarına riayət edir. Cəmiyyətin strukturunu təşkil edən institutlar kimi formalaşan bu normalar cəmiyyətin stabilliyini təmin edir. Struktur-funksional təhlil metodu siyasi obyekti müxtəlif struktur səviyyələrdə öyrənir və tədqiq edilən strukturlar son nəticədə ümumi məzmuna daxil edilir. Cəmiyyətin elementləri arasında mövcud olan əlaqələri üzə çıxara bilməyən və onu bütöv şəkildə tədqiq etməyən bixeviorçu metoddan fərqli olaraq, struktur-funksional təhlil metodu ictimai-siyasi hadisələrin strukturunu bir-biri ilə əlaqədə olan bütöv bir tam kimi tədqiq edir və cəmiyyətin inkişafında siyasətin rolunu üzə çıxarır.

***6. Siyasi modelləşdirmə metodunun*** əsas məqsədi siyasi proses və hadisələri müxtəlif modellər vasitəsilə tədqiq etməkdən ibarətdir. Modelləşdirmə metoduna ehtiyac yalnız o zaman duyulur ki, tədqiq olunan real siyasi hadisənin təhlili, ya çətin və mümkünsüz, ya da böyük zaman və xərclər tələb edir. Bu zaman istifadə edilən model real siyasi obyektin analoqu kimi çıxış edir və siyasi proseslərin modelləşdirilməsi və hipotezlərdən geniş istifadə olunur. C.Manqeym və R.Riç göstərirlər ki, riyazi modellər siyasətçilərə



siyasi proseslərin xüsusiyyətlərini araşdırmağa imkan verir. Politoloq riyazi vasitələrdən istifadə etməklə məntiq, statistika, fizika, iqtisadiyyat və digər sahələrdə istifadə olunan metodları əxz etmək və onların siyasi davranışın öyrənilməsinə tətbiq etmək imkanı qazanır. Hesablama maşınlarının, kompüter texnologiyalarının müasir inkişafı siyasi makro və mikroproseslərin modelləşdirmə yolu ilə öyrənilməsini daha da aktuallaşdırır.

Hər bir elm kimi politologiya da aşağıdakı elmi, idraki, metodoloji və tətbiqi xarakterli funksiyalarının köməyi ilə cəmiyyətdə baş verən siyasi prosesləri araşdırır:

**Birincisi,** politologiya qnoseoloji və ya idraki funksiyanın köməyi ilə siyasi reallığın geniş və tam şəkildə dərk olunmasını, ona xas olan obyektiv şəraitin - əlaqələrin, cərəyanların, istiqamətlərin və əksliklərin üzə çıxarılmasını təmin edir.

**İkincisi,** politologiya siyasi sistemin obyektiv qanunauyğunluqlarını, istiqamətlərini, problemlərini öyrənərək, siyasi həqiqəti və siyasi proseslərə məqsədyönlü təsir göstərmə vasitələrini təhlili edərək, siyasi həyatın rasionallaşdırılması funksiyasını həyata keçirir. Bu funksiyanın yerinə yetirilməsi prosesində politologiya siyasi quruculuq və siyasi islahatlar üçün nəzəri əsas yaradaraq, idarəetmənin optimal modellərini seçir və siyasi proseslərin inkişafını proqnozlaşdırır.

**Üçüncüsü,** politologiya siyasi sosiallaşma funksiyasını yerinə yetirərək, bu prosesdə əhaliyə vətəndaşlıq hissi və siyasi mədəniyyət kimi xüsusiyyətlər aşılayır. Siyasətin elmi əsaslarına yiyələnmə ümumbəşəri, dövlət, qrup və şəxsi maraqlar arasındakı nisbəti qiymətləndirməyə, siyasi strukturların fəaliyyətini istiqamətləndirməyə imkan verir ki, bütün bu proseslərin əsasında sosiallaşma prosesi dayanır.

**Dördüncüsü,** politologiyanın proqnozlaşdırma funksiyasıdır ki, bunun da əsasını müəyyən tarixi dövrdə hər hansı

bir ölkənin və ya siyasi prosesin inkişaf perspektivlərinin müəyyən edilməsi, hadisələrin inkişaf meyllərinin alternativ variantlarının hazırlanması, siyasi partiyaların və liderlərin siyasi fəaliyyətinin nəticələri barəsində məlumatların əsaslandırılması kimi istiqamətlər təşkil edir.

Təbiidir ki, politologiyanın qısa məlumatlar verdiyimiz və adlarını çəkə bilmədiyimiz çoxsaylı funksiyaları arasında sıx əlaqə vardır. Aydındır ki, politologiya özünün sosial rolunu müəyyən biliklərin məcmusu əsasında yerinə yetirir və bu prosesdə cəmiyyətin inkişaf mexanizmini daha intensiv izləməyə, lazımi əməli nəticələr çıxarmağa imkan verir. Politologiyanın fundamental problemlərinin öyrənilməsi, nəzəriyyə qarşısında mühüm tələblər qoyan və onun inkişafını təmin edən təcrübə ilə əsaslandırılması, xeyli dərəcədə onun funksiyalarının əlaqələndirilməsindən asılıdır. Məhz politologiya özünün metodoloji imkanları və yerinə yetirdiyi funksiyalar vasitəsilə cəmiyyətin siyasi həyatı, onun demokratikləşdirilməsi, siyasi hakimiyyət, dövlət strukturlarının təkmilləşdirilməsi, vətəndaş cəmiyyəti, hüquqi dövlət və digər problemləri daha aydın və ətraflı izah edir, qüvvətli idarəetmə, tərbiyə, dünyagörüşü vasitəsinə çevrilir.

Politologiya bir elm olmaq etibarilə digər sosial-siyasi və humanitar elmlərlə birlikdə cəmiyyət problemlərini daha geniş, aydın tədqiq və izah edir. Həmin elmlərə siyasi fəlsəfə, sosiologiya, hüquq, tarix, siyasi tarix, fəlsəfə, siyasi sosiologiya, iqtisadi nəzəriyyə, siyasi menecment, siyasi psixologiya, siyasi coğrafiya və digərlərini aid etmək olar. Əlaqələrinin çoxluğu baxımından politologiyanın bu elmlərin bəziləri ilə münasibətləri intensiv, digərləri ilə əlaqələri əsasən qeyri-intensiv xarakter daşıyır.

Demək lazımdır ki, politologiyanın sosial-siyasi və humanitar elmlər sistemində xüsusi və spesifik yer tutması, bir sıra amillərlə bağlıdır. Bir tərəfdən politologiya özündə ümumi siyasi problemləri və siyasət nəzəriyyələrini əks etdirir ki, bunlar da nisbi və dolayı yolla olsa da digər sosial-siyasi, humanitar elmlərin tədqiqat obyekti kimi çıxış edir. Digər



tərəfdən isə ictimai həyatın müxtəlif münasibət və cəhətlərini araşdıran humanitar elmlərin hər biri siyasətlə bağlıdır. Belə bir mühüm amil də nəzərdən qaçırılmamalıdır ki, insanların siyasi fəaliyyətinin öyrənilməsi metodikası, həyat fəaliyyətinin digər elmlər tərəfindən düzgün və hərtərəfli tədqiq olunmasında istifadə edilir.

### *§ 3. Müasir şəraitdə cəmiyyət həyatında politologiyanın rolunun artması*

Yuxarıda qeyd etdiyimiz kimi insanlar qədim zamanlardan siyasəti cəmiyyət münasibətlərinin və özlərinin həyat fəaliyyətlərinin mühüm sahəsi kimi qiymətləndirmiş və ona əhəmiyyətli ictimai hadisə kimi xüsusi yer vermişlər. Cəmiyyət inkişaf etdikcə və ictimai münasibətlər mürəkkəbləşdikcə insanların siyasi həyata və onun qanunlarına maraqları daha da artmışdır. Politologiyanın müstəqil elm sahəsinə çevrilməsi və bunun nəticəsində siyasi proseslərin daha dərindən araşdırılması, siyasi hadisələrin inkişaf istiqamətlərinin ətraflı tədqiq edilməsi, siyasət haqqında mühüm nəzəri və tətbiqi biliklər təqdim edən bu elm sahəsinin əhəmiyyətini daha da artırmışdır.

Getdikcə daha çox siyasiləşən cəmiyyətimizin müasir səviyyəsi bir daha sübut etdi ki, XX əsrdən XXI əsrə keçid sadəcə olaraq, əsrlərin bir-birini əvəz etməsi və ya yeni minilliyə qədəm qoyulması demək deyil, həm də texnikanın əsas rol oynadığı texnoqen tipli sivilizasiyadan insani və ya antropogen sivilizasiyaya keçilməsi deməkdir. Bu isə onu göstərir ki, hazırki şərait siyasi, mənəvi, əxlaqi dəyərlərin araşdırılmasını, şəxsiyyət və cəmiyyət münasibətlərinin, bəşəriyyəti narahat edən qlobal və lokal xarakterli problemlərin həllinin tədqiq edilməsi və ya həlli yollarının öyrənilməsini ön plana çıxarır. Bu gün dünyada gedən siyasi proseslər və demokratik dəyi-

şikliklər, insanın hüquq və azadlıqlarına hörmətlə yanaşılması, qlobal ideoloji mübarizəni aradan qaldırmış, dünyada inteqrasiya meyllərini gücləndirmişdir. İdeoloji qütbləşmə dövrünü arxada qoymuş, yaranan münaqişələri siyasi danışıqlar yolu ilə nizamlamaq yoluna üstünlük verən müasir dünya siyasi dəyərləri yenidən nəzərdən keçirməyə və qiymətləndirməyə başlamışdır ki, bu də siyasi elmin - politolo- giyanın rol və əhəmiyyətinin artmasına səbəb olmuşdur.

Respublikamızda politologiya elminin öyrənilməsi və tədrisinin tarixi on ildən bir qədər artıq dövrü əhatə edir. Lakin buna baxmayaraq, ölkəmizdə siyasət haqqında elmə maraq gündən-günə artır. Belə ki, politologiya ali məktəblərin tədris proqramlarında əsas fənlərdən biri kimi möhkəmlənmiş, onun müxtəlif aktual problemlərinin tədqiqi sahəsində xeyli irəliləyiş əldə edilmiş, müxtəlif siyasi problemlərin tədqiqi yaradılmış, elmi mərkəzlərin və qeyri-hökümət təşkilatlarının fəaliyyətinin əsas istiqamətinə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, ictimai həyatın digər sahələrində olduğu kimi siyasi sahəyə də bir çox özünəməxsus qanunauyğunluqlar xasdır. Bu qanunauyğunluqlar siyasi sahəyə aid olan mühüm əlaqə və münasibətlərin əhəmiyyətli formalarını əks etdirir. Politologiyanın əsas vəzifələrindən biri siyasətin fəaliyyəti və inkişafında əsas rol oynayan qanunauyğunluqları üzə çıxarmaqdan, həmçinin siyasi proseslərin düzgün izahını çatdırmaqdan ibarətdir. Siyasi proseslərin qanunauyğunluqlarını öyrənən politologiya siyasi fəaliyyətin rasional prinsip və normalarını müəyyənləşdirir. Fəaliyyət dairəsi və təzahür xüsusiyyətləri baxımından siyasi qanunauyğunluqları üç qrupa bölmək olar:

**Birinci qrupa** - siyasi sahənin digər ictimai fəaliyyət sahələri ilə qarşılıqlı əlaqələrini əks etdirən qanunauyğunluqlar



aiddir. Bunlara misal olaraq cəmiyyətin siyasi sisteminin struktur və funksiyalarının onun iqtisadi və sosial strukturundan asılılığını, siyasətin cəmiyyətin iqtisadi, sosial və mənəvi həyatına fəal təsirini və s. göstərmək olar.

**İkinci qrupa** - siyasi sahənin struktur elementlərinin arasındakı əsaslı və sabit əlaqələri əks etdirən qanunauyğunluqlar daxildir. Bunlara şəxsiyyətin siyasi şüurunun, siyasi mədəniyyətinin onun davranışına təsirini, demokratiya formaları ilə cəmiyyətin siyasi sisteminin tipi arasındakı qarşılıqlı əlaqələri aid etmək olar.

**Üçüncü qrupa** - cəmiyyətin siyasi həyatının müxtəlif tərəflərinin inkişaf istiqamətlərini, qərarlaşmış əlaqələrini əks etdirən qanunauyğunluqlar daxil edilir. Bunlara demokratik cəmiyyətdə qanunverici, icraedici və məhkəmə hakimiyyətinin mövcudluğunu, siyasi plüralizm prinsipinin bərqərar olmasını misal göstərmək olar.

Müasir politologiyada siyasi həyatın təbiət və mahiyyətinin araşdırılmasının aşağıdakı istiqamətləri müəyyən edilmişdir.

***1 Siyasətin, siyasi hadisə və proseslərin nəzəri-metodoloji araşdırılmasına yönəldilmiş sosioloji istiqamət.***

***2 Əsasında siyasi və konstitutsiya normalarının, partiyaların və seçki sistemlərinin, onların müqayisəli təhlilinin dayandığı normativ-hüquqi istiqamət.***

***3 Müşahidələrin, təcrübələrin, konkret-sosioloji tədqiqatların təhlilinə əsaslanan empirik-analitik istiqamət.***

Politologiya siyasi proseslərin, siyasi sistemlərin fəaliyyəti və inkişafı qanunauyğunluqlarının ictimai-siyasi proses və hərəkatların xüsusiyyətlərinin mahiyyətini izah etməklə, düzgün siyasi və vətəndaşlıq mövqeyində dayanmağa kömək edir. Bu isə deməyə əsas verir ki, politologiyanın öyrənilməsi tələbələrdə siyasətə rasional-tənqidi yanaşmanın formalaşmasına, onlardan həyat mövqeyinin

düzgün yönəlməsinə, diskusiya və nitq mədəniyyətinin formalaşmasına, təfəkkür tərzlərinin və məntiqlərinin cilalanmasına imkan verir. Ali məktəblərdə bu fənnin tədrisi vətəndaşla cəmiyyət arasındakı münasibətləri düzgün dərk etməyə, cəmiyyətin şəxsiyyətin davranışına təsir münasibətlərini üzə çıxarmağa, qarşıya çıxan problemlərin optimal həlli vərdişlərinin qazanılmasına şərait yaradır.



# FƏSİL II

## SİYASİ FİKRİN YARANMASI VƏ İNKİŞAFI

### *§ 1. Qədim dünyada siyasi fikrin yaranması və inkişafı*

Sosioloji və politoloji fikrin ilkin rüşeymləri Qədim Misirdə, Babilistanda, Hindistanda, Çində, Azərbaycanda və digər Şərq ölkələrində yaranmışdır.

İctimai-siyasi fikir Qədim Misirdə və Babilistanda inkişaf etmiş, müxtəlif tarixi mənbələrdə dövlət və hakimiyyət məsələləri öz əksini tapmışdı. B.e.ə. IV-III minilliklərdə Qədim Misir fir'onlarının hakimiyyəti üçün səciyyəvi siyasi ideyaları görmək olar. B.e.ə. XVIII əsrdə Babilistanda Hamurapinin qanunları hakim sinfin hüquq və vəzifələrini müəyyən edirdi.

Qədim Hindistanda b.e.ə. XI-X əsrlərdə cəmiyyət bütövlükdə 4 kastaya bölünürdü.

1. ***Brəhmənlər-kahinlər.***
2. ***Kşsatirlər-döyüşçülər, əsgərlər.***
3. ***Vayşirlər-tacirlər, sənətkar və kəndlilər.***
4. ***Şudralar-kasıblar və tam yoxsullar.***

Geniş xalq kütləsinin ideologiyası kimi meydana gələn ***buddizm (b.e.ə. VI əsrdə)*** mövcud ideologiyaya zidd idi. Buddizmin banisi Budda idi. O, "nurlu" deməkdir. Bu dövrdə Hindistanda böyük dövlətlər yaranmağa başladı.

Qədim Çində b.e.ə.VIII-VI əsrlərdə quldarlıq cəmiyyəti yaranmağa başladı. Bu dövrdə ***Konfutsinin (b.e.ə. 551-479)*** siyasi fikri Çin tarixində mühüm rol oynamışdır. Konfutsiyə görə, dövlətin başında yalnız müdrik adamlar durmalıdır. Onların əsas vəzifələri tabeliklərində olanları nümunə olmaqla tərbiyə etməkdir. Konfutsi tə'liminin əsasını tərbiyə təşkil edirdi. Konfutsinin davamçısı ***Mentszının (b.e.ə. 372-289)*** tə'liminə görə, insan həyatı ilahi iradəyə tabedir ki, bu da müdrik hök-mdarlarda təzahür edir.

Konfutsiliyin digər nümayəndəsi ***Syuntszıdır (b.e.ə.313-238)*** ki, onun da tə'limində əsas məsələ insan problemi idi.

Onun bu haqdakı fikirləri "Syutszı" kitabında toplanmışdır.

Daosizmin tərəfdarları Konfutsi tə'liminin tam əksinə olaraq iddia edirdilər ki, insanların və təbiətin həyatı "səmanın iradəsi" ilə deyil, Dao tərəfindən müəyyən edilmiş təbii yolla inkişaf edir. Bu məktəbin banisi ***Laotszı (b.e.ə. V-IV əsr)*** hesab edilir.

Daosizm məktəbinin digər nümayəndəsi ***Yan Çjudur (b.e.ə. VI əsrdə yaşamışdır).*** Yan Çju dövlətin idarə olunma-sında ağıla, dərrakəyə daha çox üstünlük verirdi.

Siyasi fikir tarixində Qədim Yunanıstan mütəfəkkirlərinin böyük rolu olmuşdur. Qədim Yunanıstanda siyasi fikrin inkişafı əsasən üç dövrə bölünür.

***Birinci mərhələ-*** Sokrata qədərki dövr adlanır. Bu dövrü (b.e.ə. IX-VI əsrlər) Erkən dövr də adlandırırlar. Bu mərhələ Yunan dövlətçiliyinin təşəkkül tapması dövrüdür.

***İkinci mərhələ-*** klassik dövr - siyasi fikrin çiçəkləndiyi dövrdür. Bu dövr b.e.ə. VI-V əsrləri əhatə edir.

***Üçüncü mərhələ-*** Ellinizm dövrü - yunan dövlət quruluşunun tədricən dağıldığı dövrdür.

Qədim Yunanıstanda b.e.ə. I minilliyin əvvəllərində siyasi fikirlər Homerin "İliada və Odisseya" əsərlərində öz əksini tapmışdır. Burada ədalət prinsipi hüququn əsası kimi götürülmüşdür. Fales, Solon, Kleobul, Pittaks, Biant, Hilon və Periandr -"Yeddi böyük müdrik"lər - polisin (şəhər dövlət) həyatında ədalətli qanunların əhəmiyyətini yüksək qiymətləndirirdilər.

***Afinalı Solon*** b.e.ə. 594-cü ildə yeni qanunlar verir və demokratiya e'lan edir. Onun fikrincə, dövlət qayda-qanuna tabe olmalıdır.

***Pifaqor (b.e.ə.580-500)*** demokratiyanı tənqid edərək, idarəetmənin, əqli və mə'nəvi elitanın aristokratik idealını əsaslandırmışdır. O, ömrünün son illərində Kroton (İtaliya) şəhərində yaşamış və "Pifaqor ittifaqı" yaratmış, burada qanunlar yazmış, şagirdləri ilə dövlətin ictimai, siyasi işlərində yaxından iştirak etmişdir.



Pifaqor ilk dəfə pul kəsdirmiş, ölçü və tərəzini tətbiq etmişdir. Pifaqor və pifaqorçuların idealı ədalətli qanunları olan dövlət qurmaq idi.

***Efesli Heraklit (e.ə. 544-483)*** tə'limi qədim dövrdə siyasi fikrin inkişafında mühüm yer tutur. O, ictimai-siyasi bərabərsizliyə ümumi mübarizənin labüd, qanunauyğun nəticəsi kimi baxırdı. Heraklit ədalətsiz müharibələrə qarşı çıxırdı. O, eyni zamanda demokratiyanı tənqid edirdi.

***Demokritə (e.ə. 460-370)*** görə, dövlət ədaləti özündə birləşdirməlidir. Dövlət uzun sürən təkamülün nəticəsində əmələ gəlmişdir. Demokrit dövlətin mənafeyini hər şeydən üstün tuturdu. Varlıları əliaçıq olmağa, kasıblara kömək etməyə çağırırdı. O, qeyd edirdi ki, ağılsız və fərasətsiz adamları fəxri vəzifələrə seçmək, tə'yin etmək olmaz. Onun fikrincə, yüksək əqli və mə'nəvi keyfiyyətləri ilə fərqlənən yaxşı insanları irəli çəkmək lazımdır.

Demokrit quldarlıq cəmiyyətini ideallaşdırırdı. O, qulların hər cür ictimai və siyasi hüquqlardan məhrum olunmasını qanunauyğun hesab edirdi. Demokritə görə, insanların tərbiyəsi dövlətin idarə olunmasında əsas yer tutur. O yazırdı ki, insan qorxu ilə deyil, xalqa, vətənə borclu olduğunu hiss edərək, ləyaqətli hərəkətlər etməlidir. Azadlıq köləlikdən uca olduğu kimi, demokratik cəmiyyətdə kasıblıq, hökmdar yanında dövlətli olmaqdan şərəflidir.

***Sokrat (e.ə. 469-399)*** qanunları əbədi, dəyişilməz hesab edirdi. "Mən bilirəm ki, heç nə bilmirəm" məşhur kəlamı ona məxsusdur. O, ədalət və qanunu eyni hesab edirdi. Qanunçuluğun qatı tərəfdarı, eyni zamanda demokratiyanın əleyhinə idi. Sokrat xeyirxahlığı çox yüksək əxlaqi keyfiyyət hesab edirdi. Xeyirxah insan səbrli, qeyrətli və ədalətli olmalıdır. Sokrat yaşadığı dövrün və mövcud hakimiyyətin qanunsuzluqlarına və ədalətsizliklərinə qarşı kəskin e'tirazını

bildirirdi. Onu düşündürən başlıca məsələ qanunlara ciddi əməl edilməsi və dövlətin bacarıqla idarə olunması məsələsi idi. Sokrat dövlətin idarə formalarını aşağıdakı kimi müəyyənləşdirirdi.

**1. Monarxiya**-bir nəfərin hakimiyyətidir.

**2. Tiraniya**-zor, güc yolu ilə yaradılmış və bir nəfər tərəfindən idarə olunan dövlət hakimiyyətidir.

**3. Aristokratiya**-bir qrup aristokratın hakimiyyətidir.

**4. Plutokratiya**-varlıların hakimiyyətidir.

**5. Demokratiya**-əksəriyyətin (xalqın) hakimiyyətidir.

Sokrat özü aristokratiya dövlət idarə formasının tərəfdarı idi.

***Platon (e.ə. 427-347)*** Sokratın şagirdi olmuşdur. Onun fikrincə, ədalətli insan ədalətli dövlətdən fərqlənir. Onun siyasi tə'limi "ideyalar aləminə" əsaslanır. O, "Dövlət" əsərində ideal dövlət haqqında tə'lim yaratmışdır.

Platonun siyasi-sosioloji baxışları, dövlətin əmələ gəlməsi haqqında fikirləri xüsusi maraq doğurur. O qeyd edirdi ki, "ideal dövlət" üç sosial qrupun birliyindən əmələ gəlir:

***İdarə edənlər*** - hikmətli adamlar, filosoflar;

***Ölkəni müdafiə edənlər*** - əsgərlər;

***İstehsalçılar*** - sənətkarlar və əkinçilər.

Platon "ideal dövlətin" müxtəlif idarə formalarından bəhs edir.

***1. Monarxiya dövlət forması.*** O, burada aristokratik döv-ləti nəzərdə tutur.

***2. Reqressiv***-tənəzzülə uğrayan dövlət forması. Bu, hərbi qüvvəyə əsaslanan bir neçə şəxsin hakimiyyətidir. O, bu quruluşu demokratiya adlandırırdı.

Demokratiyadan bir qədər aşağı olan dövlət formasını Pla-ton ***oliqarxiya*** adlandırırdı. Bu ticarətçilərə arxalanan bir neçə şəxsiyyətin hakimiyyətidir.



Platon "Qanunlar" əsərində bəşəriyyətin siyasi təkamülünün realist mənzərəsini təsvir etməyə çalışır. Onu hüquqi dövlət ideyasının çizgilərini yaradan ilk mütəfəkkir hesab etmək olar. O, bu əsərində dövlətin iki növünü fərqləndirir: birinci halda hökmdar hamıdan yuxarıda durur, ikinci halda isə hökmdar özü qanuna tabe olur.

Siyasi fikrin banilərindən biri yunan mütəfəkkiri ***Aristotel (e.ə. 384-322)*** hesab olunur. Aristotelə görə, dövlətin yaran-masına iki əsas səbəb var.

**1 Ailə-nigah əlaqələri** -insanın mövcudluğunu tə'min edir:

**2 Ağa - qul münasibətləri** - bu münasibətlər isə sabit sosial birliyi tə'min edir.

Aristotelin cəmiyyət və dövlət haqqındakı fikirləri onun "Siyasət" adlı əsərində şərh olunmuşdur. O, insanı ictimai varlıq kimi xarakterizə edərək, quldarlıq quruluşunu müdafiə etmiş və onu təbii bir proses kimi qəbul etmişdir.

Aristotel quldarlıq cəmiyyətini "əbədiləşdirsə" də, getdikcə bu cəmiyyətin böhranlı olduğunu görürdü. O, həddindən artıq varlanmanın əleyhinə idi. Onun fikrincə, insan cəmiyyəti üç sinifdən ibarət olmalıdır.

***Ən çox varlılar*** - quldarlar.

***Orta sinif*** - ticarətlə məşğul olanlar.

***Son dərəcə kasıblar*** - azad sənətkarlar, əl - muzdla işləyənlər.

Qulları isə o, insan hesab etmirdi.

Aristotel dövlətin üç münasib idarə formasını göstərmişdir.

***1. Aristokratiya.***

***2. Monarxiya.***

***3. Politiya.***

Onun fikrincə, ən düzgün dövlət forması politiyadır.

Ari-stotel belə hesab edirdi ki, politiya oliqarxiya və demokratiyanın birləşməsidir. Dövlət formalarının ən pisi tiraniyadır.

Aristotel dövlətin vəzifələrini aşağıdakılardan ibarət hesab edirdi:

*1. Vətəndaşların həddindən artıq dərəcədə varlanması-nın qarşısını almaq.*

*2. Şəxsiyyətin siyasi hakimiyyətinin həddindən artıq güclənməsinə imkan verməmək.*

*3. Qulları itaətdə saxlamaq.*

Orta vəziyyətdə yaşamağa üstünlük verən Aristotel özünün siyasi tə'limində varlıların və yoxsulların barışığına, qanunun hökmranlığına əsaslanan senzin demokratiya gətirəcəyinə inanırdı.

***Ellinizm dövrü*** Makedoniyalı İsgəndərin yürüşlərinin başlanmasından, onun imperiyasının ayrı-ayrı xırda dövlətlərə parçalanmasından, romalıların Mısiri fəth etməsinə qədər olan dövrü əhatə edir. E.ə. IV-III əsrlərdə azad yunan polislərinin (dövlətlərinin) böhranı kuliminasiya nöqtəsinə çatmışdır. Bu dövrdə ictimai-siyasi fikrin dörd əsas cərəyanından bəhs etmək olar:

*1. Epikürizm-Epikür, Lukretsi Kar.*

*2. Stoisizm-Polibiy, Protoqor, Seneka.*

*3. Skeptisizm-Pirron.*

*4. Neoplatonizm-Plotin, Porfiri, Prokl.*

Qədim Roma dövrünün ictimai-siyasi fikri qullarla quldarların kəskin sinfi mübarizəsi şəraitində inkişaf edirdi.

***Lukretsi Kar (e.ə.99-55)*** böyük maarifçi olmuş, Epikür ənənələrini davametdirmiş, dinə qarşı çıxmışdır. O, "Şeylərin təbiə-ti haqqında" əsərində yazırdı: "İnsanları mövhumat buxovların-dan, dünya haqqında dini təsəvvürlərdən xilas etmək zəruridir".



***Seneka (e.ə. 4- b.e.65)*** köhnə stoiklərin fikrini davam etdirmiş və quldarlıq quruluşuna haqq qazandırmağa çalışmış-dır. Dövləti idarə etməkdə əxlaqa, etikaya xüsusi yer verirdi.

***Mark Avreli Antonin (121-180)*** Roma imperatoru (161-180) olmuş, dövlət ilə kilsənin ittifaqını əsaslandırmışdır. Onun fikrincə, "insan fəaliyyətinin əsas məqsədi xeyirxahlığa" nail olmaqdan ibarətdir.

***Mark Tulli Siseron (e.ə.106-43)*** böyük siyasətçi və natiq idi. O, Qədim Romada geniş yayılmış eklektisizm fəlsəfi məktəbinin nümayəndəsi idi. Siseronun "Dövlət haqqında" və "Qanunlar haqqında" adlı əsərləri siyasət məsələlərinə həsr olunmuşdur. O, üç dövlət formasının - **monarxiyanın, aristokratiyanın və demokratiyanın kombinasiyasından, birləşməsindən ibarət olan dövləti, ən yaxşı dövlət hesab edirdi.** Onun fikrincə, insanların təhlükəsizliyini tə'min etmək, mülkiyyətdən azad istifadə olunmasına tə'minat vermək dövlətin əsas məqsədi omalıdır.

### *§ 2. Orta əsrlərdə və yeni dövrlərdə siyasi fikrin inkişafı*

Orta əsrlərdə siyasi fikir xristian və islam dinlərinin bilavasitə tə'siri altında formalaşmışdır. Bu dövrdə siyasi fikir həm Qərbi Avropada, həm də Şərqdə, islam dünyasında bir-birindən fərqli olsa da, əsasən intensiv inkişaf etmişdir.

Erkən orta əsrlərdə Yaxın Şərqdə siyasi fikir bütpərəstlik, atəşpərəstlik və xristianlıqla bağlı olmuş, sonralar ideoloji tə'limlər islam zəminində və antik mənbələr əsasında təşəkkül taparaq tərəqqi etmişdir. Kiçik Asiya, Suriya, İraq, Azərbaycan, İran, Türküstan və başqa ölkələrin orta əsrlərdə siyasi fikri öz məndəricat baxımından ümumi olduğu üçün onu regionlara görə fərqləndirmək şərtidir.

Şərqdə bütpərəstliyə qarşı ***Məhəmməd Peyğəmbər (570-632)*** tərəfindən hazırlanmış monoteist din olan islam VII əsrdə meydana gəlib sür'ətlə yayılmağa başlamışdır.

Bu dini tə'limin müqəddəs kitabı Qur'an (mə'nası qiraət) yalnız dinin deyil, hüququn, şəriətin, bütünlükdə müsəlman ölkələrinin ictimai-siyasi fikrinin qiymətli mənbəyidir. Orta əsrlərdə ictimai-siyasi fikri Qur'andan təcrid etmək qeyri-mümkündür. Bu əzəmətli abidənin təfsirinə və şərhinə dair yüzlərlə dəyərli əsərlər yazılmışdır. Qur'anın təfsiri, şərhi, hədis, hüquqşünaslıq, sxolastika (kəlam) kimi fənlər dini elmləri təşkil edib, "şəriət elmləri" adlanırdı. Dünyəvi elmlərə "əqli elmlər" deyilirdi. Dünyəvi elmlər xilafətin erkən çağlarından hakim dairələri maraqlandırmış, onların ictimai-siyasi fikrin inkişaf etdirilməsi üçün yunan, fars və başqa dillərdən ərəbcəyə çevrilməsinə ciddi əhəmiyyət verilmişdir.

Əməvi xəlifələrinin hakimiyyəti dövründə ***Xalid ibn Yəzid (?-704)*** ictimai-siyasi fikrə dair bə'zi kitabları yunan və latın dillərindən ərəbcəyə tərcümə etməyi İsgəndəriyyə mədrəsəsinin alimlərinə tapşırmışdır. Tərcüməçilik fəaliyyəti Abbasilərin hakimiyyəti dövründə ***Əbucəfər Mənsur (754-775)*** və xüsusən ***Mə'mun (813-833)*** zamanında daha böyük vüs'ət almışdı. Mə'mun tərcüməçilər üçün ayrıca bir məktəb tə'sis etmişdi. "Elm evi" (Dar əl-elm) yaxud "Hikmət evi" ("Beyt-əl hikmət") adlanan bu məktəb müsəlman Şərqində ictimai-siyasi fikrin inkişafında misilsiz rol oynamışdır.

Beləliklə, antik ictimai-siyasi fikrin ən gözəl nümunələri artıq X əsrdə ərəb dilinə tərcümə olunmuşdur. Bu tərcümələr içərisində Pifaqorun, Evklidin, Platonun və xüsusilə Aristotelin əsərləri var idi. Bu tərcümələr Şərq ölkələrinin siyasi fikrini xeyli zənginləşdirmişdir.

***Xəlifə Mütəvəkkil*** dövründə (847-861) yaşamış, həyatını əsasən ictimai-siyasi fikrə həsr etmiş ***Əbülhəsən Əli Əş'əri (873-935)*** qeyd edirdi ki, insanlar bir-birini istismar etməli



deyil, bərabər hüquqlu yaşamalıdır. O, yazırdı: "Dünya qəzaya uğramır, cənnət odur ki, insanlara xeyir, ne'mət və sağlamlıq bəxş olsun".

Orta əsrlərdə Müsəlman Şərqində mistik cərəyan kimi sufilik daha mühüm yer tutur. ***Sufilik (təsəvvüf)*** adı əssuf (yunan) sözündən götürülmüşdür. Sufilər qaba yun paltar geyməklə, nəfsləri həzzinə varmadan yaşamağı üstün tuturdular. Sufilər öz ictimai-siyasi fikirlərində insanların hamısını paklığa çağıraraq, Allah səviyyəsinə qaldırırdılar. Onlar idrak prosesinə çox üstünlük verirdilər. Dövləti idarə edən xəlifələri nəfsi tox olmağa çağırırdılar.

IX-X əsrlərdə sufilik ictimai-siyasi fikri ortodoksal islama qarşı yönəlmişdi.

Allah ilə insanın eyniliyi fikri ***Hüseyn ibn Mənsur Həllac (858-922)*** tərəfindən irəli sürüldü. Onun "Ənə əl-haqq" ("mən haqqam") hökmü müsəlman Şərqində sufilər arasında azadfikirliliyə çağırış oldu.

Orta əsrlərdə Şərq siyasi fikrinin görkəmli nümayəndəsi, ərəb siyasi fəlsəfəsinin başında duran, türk ailəsində anadan olmuş ***Əbunəsr Məhəmməd Fərabi (870-950)*** idi. Onun "Xoşbəxtliyin əldə edilməsi", "Fəzilətli şəhər əhlinin görüşləri", "Dövlət xadiminin kəlamları", "Mülki siyasət" və s. əsərlərində idarəetmədə fəzilətli, səxavətli olmağı tövsiyyə edirdi. Əl-Fərabinin siyasi fikrincə, başlıca məsələ səadətə nail olmaqdır.

***Əbu Əli İbn Sina (980-1037)*** bəşər siyasi-fəlsəfi fikrinin inkişafında mühüm xidmətləri olan dahi şəxsiyyətdir. İbn Sina siyasi biliyin mə'nasını insanların xeyirxahlığında görürdü.

***İbn Rüşd (1126-1198)*** "Mühakimələr" əsərində göstərirdi ki, sinfi-iyerarxik cəmiyyət bəşəriyyətin zəruri və normal vəziyyətidir. Dövlətin başçısı iste'dadlı adamlardan olmalı və qanunlara arxalanmalıdır.

***İbn Xəldun Əbdürrəhman ibn Zeyd (1332-1406)*** "Nəsihətlər kitabı" və "Müqəddimə" əsərlərində dövlətə fəlsəfi və hüquqi yanaşma üsullarını birləşdirməyə çalışırdı. O, dövlətin meydana gəlməsində və inkişafında təbiət qanunlarına əsaslanırdı. O, hökmdarların müsəlman hüququ prinsiplərindən uzaqlaşdıqları bir dövrdə müsəlman dövlətini öyrənir və idarəçilik formalarının orjinal təsnifatını işləyib hazırlayırdı. Onun fikrincə, hər bir cəmiyyətdə insanın təbiəti ucbatından "təmkinli başlanğıca" ehtiyac duyulur. Bu başlanğıc insanların təbii yolla işğalçılığına və bir-birinə qarşılıqlı surətdə didişdirmələrinə son qoymalıdır. Bu cür məcburetmə dövləti tayfadan fərqləndirir, xalqın nail olduğu sivilizasiya səviyyəsini göstərirdi. Bu hakimiyyət daxildə öz təbəələrini məcburetmə yolu ilə birləşdirir, xaricdə isə özgə hakimiyyətin tə'siri altına düşmək təhlükəsindən sovuşdurur.

İbn Xəldun qeyd edirdi ki, dövlət hakimiyyəti hökmdarla başa çatmır, orada təbəələrin iştirakı zəruridir. Ona görə də, dövlətdə bütün dəyişikliklər təkcə onun başçısının deyil, bütövlükdə cəmiyyətin dəyişilməsi ilə əlaqədardır. Dövlət müəyyən zaman müddətində mövcud olur. Bu, nəslin yaşı ilə ölçülür; həmin müddət ərzində o, beş mərhələdən keçir: **1-cisi,** əvvəlki məcburetmə hakimiyyətinin əvəzində yenisinin yaranması; **2-cisi,** hökmdar onun hakimiyyət başına gəlməsinə kömək etmiş cığırdaşlarına divan tutduqdan sonra ali hakimiyyət bir əldə toplanır; **3-cüsü** dövlətin çiçəklənməsi, orada qaydanın, sakitliyin və inamın hökm sürməsi; **4-cüsü** müxalifəti əzmək üçün idarəetmənin güc və despotik metodlarına keçid; **5-cisi,** dövlətin tənəzzülü və məhvi.

O, dövlət formalarının təsnifatını işləyib hazırlayarkən dövlət başçısının hüquqi vəziyyətini deyil, dövlət hakimiyyətinin funksional cəhətini əsas götürür və bu cəhət onun üçün sosioloji təhlil obyekti kimi çıxış edir. Onun fikrincə, hər bir idarəetmə formasının əsasınında müəyyən hüquq tipi durur və o,



həmin formanın mahiyyətini təşkil edir. Başqa sözlə desək, idarəetmə formalarının əsasında dövlət fəaliyyətinin xarakteri və onun funksional cəhəti, siyasi rejimin tipi durur. Buradan çıxış edərək, o, monarxiyanın və xilafətin müqayisəli tə'rifini təklif edir.

İbn Xəldunun siyasi tə'limində idarəetmənin **üç forması: təbii monarxiya, siyasi monarxiya və xilafət** bir-birindən fərqləndirilir. Onun fikrincə, "təbii monarxiya" şəxsi hakimiyyətin despotik rejimi, "siyasi monarxiya" rasional "ağıllı" me'yarlara, təbəələrin dünyəvi mənafelərinin müdafiəsinə əsaslanan dövlət formasıdır. Xilafətin onlardan fərqi və üstünlüyü ondadır ki, bu-radan çıxış edərək, o, xilafətə üstünlük verir. Cəmiyyətin inkişafında iki fəzanı: kənd və şəhər həyatını ayırır.

İbn Xəldunun irəli sürdüyü ideyalardan Avropada geniş şəkildə istifadə olunmuşdur. Xüsusən Montesk ardıcılları onlardan istifadə etmişlər.

Feodalizmin qərarlaşması və möhkəmlənməsi dövründə Avropada siyasi fikir ən çox dini ideologiya əsasında yaranmış və inkişaf etmişdir. Bu dövrdə Avropada bir çox feodal döv-lətləri yaranmağa başladı. Katolik kilsəsi bu dövlətlərin idarə olunmasında əsas rol oynayırdı. Dindarlar teokratik nəzəriyyələrin inkişafı üçün şərait yaradırdılar. "Günəş və ay nəzəriyyə-si" o zaman çox şöhrət qazanmışdı. Bu nəzəriyyəyə əsasən ay günəşdən işıq aldığı kimi, kral hakimiyyəti də nüfuzunu papa-dan alır. Din xadimləri sübut etməyə çalışırdılar ki, krallar və imperatorlar Kristin və Apostol Pyotrun varisləridirlər.

XI-XIII əsrlərdə feodalizm ciddi tənqidə mə'ruz qaldı. Onu bu tənqiddən qoruyacaq ideoloji bir əsas lazım idi. Belə ideoloji əsası yaradan, ona arxalanaraq orta əsrdə siyasi fikrin inkişafında böyük rol oynamış ilahiyyatçı monarx ***Foma Ak-vinski (1225-1274)*** idi. O, öz əsərlərində Aristotelin baxışları-nı katolik kilsəsinin ehkamları ilə uyğunlaşdır-

mağa sə'y gö-stərmişdir. Onun fikrincə, insanlar ayrılıqda öz tələbatını ödəyə bilmədiyi üçün dövlət halında birləşmək və yaşamaq sə'yləri adamların təbiətindən irəli gəlir. O, belə hesab edirdi ki, siyasi birlik olan dövlət quruluşunun tə'sis edilməsi prosesi, onun allah tərəfindən yaradılması prosesi ilə eynidir. Foma Akvinski bununla da dövlətin idarə edilməsində, idarəçilikdə kilsəyə üstünlük verirdi. Onun əsaslandırdığı tə'lim tomizm adı ilə məşhur olmuş, sonralar, xüsusilə XIX əsrin ortalarından başlayaraq yeni dirçəlmiş (neotomizm) imkanı qazanmış və ruhani hakimiyyətinin əsas ideoloji silahı olmuşdu. Bu tə'lim indi də bir sıra ölkələrdə geniş təbliğ olunmaqdadır.

"Hökmdar", "Florensiya tarixi" "Tit Livinin birinci on günülüyü haqqında mühakimələr" adlı əsərlərin müəllifi ***Nikkolo Makiavelli (1469-1527)*** yeni dövr burjua siyasi elminin banisi hesab olunur.

Makiavelli orta əsr siyasi fikir tarixində teoloji baxışlara son qoydu. O, həmin baxışları obyektiv tarixi zərurətlə əvəz edir və onu tale ilə əlaqələndirirdi.

O, siyasəti təcrübi elm hesab edirdi. Onun fikrincə siyasi davranışın əsasında xristian əxlaqı deyil, xeyir və güc dayanır. O, qeyd edirdi ki, güclü ordu kimin tərəfindədirsə, tale də həmişə onunladır. Siyasi elmin vəzifəsi, onun fikrincə, illuziyalardan deyil, faktlardan çıxış etməkdir. Dövlətin hərəkət və inkişafının, onun formalarının dəyişməsinin mənbəyi xalqın və aristokratiyanın mübrizəsidir. Makiavelli dövləti cəmiyyətin siyasi vəziyyəti hesab edirdi.

Burjua siyasi fikrinin inkişafında böyük xidməti olmuş ***Tomas Hobbsun (1588-1679)*** adını xüsusi qeyd etmək lazımdır.

O, "Leviafan, yaxud kilsə və vətəndaş dövlətinin materiyası, forması və hakimiyyəti", "Vətəndaş haqqında tə'limin fəlsəfi başlanğıcı", "Təbii və siyasi qanunların elementləri", "İnsan haqqında" əsərlərində özünün sosial-siyasi baxışlarının şərhini



vermişdir. Onun fikrincə, ilk əvvəllər insanlar fiziki və əqli qabiliyyətlər baxımından bərabər yaranmış və elə buna görə də "hər şeyə sahib olmaq hüququna" malik olmuşlar. Lakin insanlar xəsis, paxıl, eqoist və özünü sevəndir. Deməli, əgər bütün insanlar belədirsə, paxıllar, eqoistlər, düşmənlər bir-birinə qarşı çıxırlar. Buradan da onun mə'lum kəlamı meydana çıxır: "İnsan insanın canavarıdır" bir sözlə, "hamının hamıya qarşı müharibəsi" labüddür. Bu cür halı Hobbs "insan nəslinin təbii vəziyyəti" hesab edirdi. Onun fikrincə, bu şərait təbii qanunların mahiyyətini təşkil edir. ***Birinci*** təbii qanun insanları sülhə can atmaq və ona əməl etməyə çağırır. ***İkincisi,*** bütün qalan şeylərdən bu məqsədə çatmaq üçün istifadə olunmalıdır. Ən başlıcası isə sülh və özünü mühafizə xatirinə hamının öz hüquqlarından əl çəkməsidir. ***Üçüncü*** təbii qanun belə hesab edirdi ki, bu cür əlçəkmə həmin hüquqların bir hissəsinin müqavilə yolu ilə bir şəxsə, yaxud bir qrup şəxsə verilməsi formasında həyata keçirilir. İnsanlar imzaladıqları sazişlərə əməl etməlidirlər, əks halda onların heç bir əhəmiyyəti olmaz. Hobbsun fikrincə, üçüncü təbii qanunda ədalət mənbəyi və başlanğıcı öz əksini tapır.

O, mütləq dövlət hakimiyyətini sülh əldə olunması və təbii qanunların reallaşması kimi qiymətləndirir. Dövlət hakimiyyəti mülki qanunlar qəbul etməklə fərdləri məcbur edir ki, həmin qanunlar sülhə xidmət etmiş olsun. Təbii qanunlar zəkaya, mülki qanunlar isə gücə arxalanır. Buradan da Hobbs çıxış edərək, belə bir fikri əsaslandırırdı ki, insanlar müharibə vəziyyətinə son qoymaq üçün dövlət yaradırlar. Qüvvə və vasitələrini sülh və özünümüdafiə məqsədləri üçün istifadə edən birlik dövlət hesab olunur. Həmin bu funksiyanı daşıyan şəxs isə müstəqil, suverendir və ali hakimiyyət onundur. Yerdə qalan bütün şəxslər isə onun təbəəsidir.

Onun fikrincə, könüllü saziş nəticəsində yaranan dövlət siyasi dövlətdir. Dövlət hakimiyyətini bölüşdürmək, onu məhv etmək deməkdir. Ona görə ki, bölüşdürülmüş hakimiyyətlər qarşılıqlı surətdə bir-birini məhv edir. Bununla belə Hobbs dövlətin üç əsas forması-

nı göstərir.

**1. Monarxiya.**

**2. Demokratiya.**

**3. Aristokratiya.**

O, mütləq monarxiyanı daha kamil forma hesab edirdi. Dövləti qayda-qanunun, nizam-intizamın anası adlandırırdı. O, belə hesab edirdi ki, dinin cəmiyyət həyatında müəyyən rolu var, lakin din siyasətə, dövlət işlərinə qarışmamalıdır.

Hobbsun sosial-siyasi baxışları, onun dövlət və hüquqa dair tə'limi siyasi fikrin inkişafına böyük tə'sir göstərmişdir. O, yanlış olaraq dövlətin meydana gəlməsi səbəbini insanların şüurunda görürdü. Lakin o, dövlətə insanların özlərinin yaratdığı bəşəri quruluş kimi baxırdı.

***Con Lokk (1632-1704)*** "İnsan zəkasına dair təcrübə" və "Dövlət idarəçiliyi haqqında iki traktat" əsərlərində özünün ictimai-siyasi fikirlərini şərh etmişdir. O "Dövlət haqqında iki traktat" əsərində yazırdı ki, dövlət meydana gələnə qədər insanlar təbii halda olmuşlar. Təbii hüquqları, bərabərliyi və azadlığı tə'min etmək, şəxsiyyəti və mülkiyyəti qorumaq üçün insanlar dövlət yaratmaq qərarına gəlmişlər. O qeyd edirdi ki, sülh yolu ilə yaranan bütün dövlətlərin əsasında xalqın razılığı, ümumi rə'yi dayanır. Onun fikrincə, dövlət insanların özlərinin yaratdıqları qanun altında onların vahid tam kimi birləşməsidir. Dövlətin vəzifəsi isə insanların mənafelərini tə'min etmək, qorumaq və həyata keçirməkdir. O, mütləq monarxiyanı rədd edir, hansı siyasi formanı seçdiyini bildirmir.

Fransız maarifçilərinin ən görkəmli nümayəndəsi ***Fransua Mari Volter (1694-1778)*** siyasi baxışlarında feodal ideologiyasına qarşı çıxırdı. O, "Koramalı məhv edin (əzin)" şüarı altında cəsarətlə katolik kilsəsinə və Roma papasına qarşı mübarizə aparırdı.

Volterin azadlıq və zərurət haqqında tə'limi xüsusi maraq doğurur. Ona görə, azadlıq və zərurət bir-birinə zidd deyildir. Əksinə, ümumi zərurət insan azadlığının müqəddəm şərtidir, Volter hesab edirdi ki, insan istədiyini etdiyi zaman azad ola bilər. O azadlığı təbii hüquq hesab edir, əmlak bərabərsizliyinə tərəfdar çıxır, mütləqiyyəti tənqid edirdi.

***Şarl Lui Monteskye (1689-1755)*** "Qanunların ruhu haqqında" və "İran məktubları" əsərlərində Fransada mövcud olan mütləqiyyət rejimini tənqid edir, respublika quruluşuna tərəfdar çıxırdı.

Monteskye dövlətin və hüququn inkişaf qanunauyğunluqlarını belə şərh edirdi: "Mənim prinsiplərim şeylərin təbiətindən irəli gəlir və təbiətdən yaranır". Hər bir xalqın mə'nəvi siması, onun siyasi baxışları, idarəçilik qanunları coğrafi mühitdən asılıdır. O belə hesab edirdi ki, təbii qanunlar cəmiyyət yaranana dək mövcud olmuşdur. Bunlar bərabərlik, sülh, bir sözlə, cəmiyyətdə yaşamaq arzusudur. Təbii qanunlar halından çıxan insanlar bərabərliyi itirirlər və nəticədə onların öz aralarında müharibələr başlanır.

Müharibələr isə öz növbəsində, müsbət qanunlar qəbul etməyi tələb edir. O, belə hesab edirdi ki, dövlət forması qanunların məzmununu müəyyən edir və coğrafi mühitə də tə'sir göstərir.

Monteskye idarəetmənin üç formasını göstərir:

***1. Respublika.***

***2. Monarxiya.***

***3. Despotiya.***

O, siyasi formaların güc yolu ilə dəyişdirilməsinin əleyhinə olsa da, despotizmə qarşı üsyanı ədalətli hesab edir. Monarxiyanı despotizmə qarşı qoyur. O, monarxiyanı azadlıq adlandırır. Onun idealı İngiltərənin konstitusiyalı monarxiyası idi. Eyni zamanda o, respublikanı da monarxiya kimi qanunauyğun dövlət forması hesab edirdi.

Monteskyeyə görə, dövlət formaları həmin dövlətin ərazisindən asılıdır. Kiçik ərazidə respublika, orta səviyyəli ərazidə monarxiya, böyük ərazidə isə, despotiya dövlət forması yarana bilər, o, vətəndaş azadlığı ilə siyasi azadlığı eyni hesab edirdi.

***Klod Adrian Helvetsi (1715-1771)*** öz əsərlərində

Monteskyenin coğrafi mühit haqqında fikrinə qarşı çıxırdı. O, dövlətin yaranmasını qanunauyğun hesab edirdi. İdeal ictimai quruluş-xüsusi mülkiyyətə əsaslanan cəmiyyətdir. İdeal dövlətin vəzifəsi əmlakı ədalətlə bölüşdürmək yolu ilə mülkiyyətçilərin sayını artırmaqdır. Xüsusi mülkiyyətin bə'zi ziddiyyətlərinin də şərhini vermişdir. O, dövlət quruluşunda hakimiyyətin iki formasını göstərirdi: yaxşı və pis. Demokratik quruluşa üstünlük verirdi. Eyni zamanda Helvetsi federativ respublika quruluşuna rəğbət bəsləyirdi.

***Pol Anri Holbax (1723-1789)*** öz əsərlərində qeyd edirdi ki, şəxsi mənafe insanları dövlət yaratmağa məcbur edirdi. İnsanın daxilindən, təbiətindən irəli gələn qanunlar təbii qanunlardır. Bu qanunlar insanlar arasında olan münasibətlərin çox mühüm prinsiplərini müəyyən edir. Qanunlar insanların davranışını, onların bütün hüquqlarını tə'yin edirlər. Təbii hüquqlar isə əbədidir və insandan ayrılmazdır. Təbii hüquqlar azadlıq, təhlükəsizlik mülkiyyət və sairdir. Bunlar qanunlardan yüksəkdə dururlar.

Holbax belə hesab edirdi ki, əsas məsələ dövlətin idarə edilməsi deyil, yaxşı qanunların olmasıdır. O, öz əsərində xalq nümayəndəliyi olan monarxiyaya üstünlük verirdi.

***Deni Didro (1713-1784)*** dövlətin və yazılı qanunların rolunu xüsusi mülkiyyətin yaradılmasında və müvafiq təşkilatların qurulmasında görürdü. Bir sözlə, dövlət ictimai müqavilənin məhsuludur. Onun fikrincə, xalq suverendir. İctimai müqavilə insanların təbii azadlıqlarını və bərabərliklərini qoruyub saxlayır. Sadəcə olaraq onlar öz təbii azadlıqlarının bir hissəsini dövlətə verirlər. Dövlət insanların iradəsinə əsaslanmalı, vətəndaşlarının hüquqlarını qorumalıdır. Bunları yerinə yetirməyən dövlət başçısı tiran və despotdur.

Didro da Holbax kimi dövlət idarəçiliyində yaxşı qanunlara yüksək qiymət verirdi. Həmin qanunların həyata keçməsi dövlətin tərəqqisi deməkdir.

***Jan-Jak Russo (1712-1778)*** fransız maarifçi filosofu, yazıçı, dramaturq və bəstəkar idi. O "Elmlər və sənətlər barədə



düşüncələr", "Elm, yaxud tərbiyə haqqında", "İctimai müqavilə haqqında", "İnsanlar arasında bərabərsizliyin mənşəyi və əsasları haqqında düşüncə" və s. əsərlərin müəllifidir. Russo bu əsərlərində feodal-sinfi münasibətləri, istibdad rejimini kəskin tənqid etmişdir. Bütün insanların azadlığının tərəfdarı olmuş, burjua demokratiyasında bu azadlığın olduğunu izah etməyə çalışmışdır. Xırda mülkiyyəti müdafiə etsə də, insanların qeyri-bərabərliyinin mənbəyini xüsusi mülkiyyətdə görmüşdür. Onun fikrincə, ictimai bərabərsizliyin səbəbi xüsusi mülkiyyətdə və insanların fəaliyyətindəki səhvlərdədir. Siyasi fikir tarixində onun xidməti ondan ibarətdir ki, o, xüsusi mülkiyyətlə eyni vaxtda meydana gəlmiş, mülki cəmiyyətlə bunun ardınca ictimai müqavilə əsasında yaranan dövlət arasındakı fərqi izah edir. O, qeyd edir ki, cəmiyyət inkişaf etdikcə bərabərsizlik dərinləşir. Bu bərabərsizliyin birinci mərhələsi əmlak bərabərsizliyi və xüsusi mülkiyyət hüququ, ikinci mərhələsi dövlət hakimiyyətinin yaranması, üçüncü mərhələsi isə hakimiyyətin despotizmə yuvarlanmasıdır.

O, açıq-aşkar plebey demokratiyasının tərəfdarı kimi çıxış edirdi.

Russo xalqın inqilab etmək hüququna haqq qazandırır: müasir dövlət gücə arxalandığı üçün, yalnız güc də onu devirə bilər. Xalqın suverenliyi onun əsas ideyası idi.

***İmmanuil Kant (1724-1804).*** Dünya mədəniyyətinin - elmin, fəlsəfi və siyasi fikrin inkişaf tarixində onun böyük xidməti vardır. Kant XVIII əsrin ən görkəmli mütəfəkkirlərindən biri idi.

"Canlı qüvvələrin düzgün qiymətləndirilməsi haqqında fikirlər", "Səmanın ümumi təbii tarixi və nəzəriyyəsi", "Xalis zəkanın tənqidi", "Əməli zəkanın tənqidi", "Kosmonolitizm baxımından ümumi tarix ideyası", "Əbədi sülhə doğru", "Hüquq haqqında tə'limin metafizik əsasları" və s. əsərlərin müəllifidir.

Kant yaşadığı dövrün fəlsəfi fikri qarşısında iki başlıca

vəzifənin durduğunu qeyd edirdi.

*1. Təbiət qanunlarının əsaslandırılması və fəlsəfi cəhətdən ümumiləşdirilməsi.*

*2. İnsanların ləyaqətini qorumağın və onların bərabər-liyinin zəruriliyini əsaslandırmaq.*

Kant "təzahürlər haqqında" tə'limində göstərirdi ki, insan yalnız təzahürlər aləmini dərk edə bilər. Təbiət öz müxtəlifliyi və qanunları ilə birlikdə təzahürlər aləminə məxsusdur. Bu mə'nada təbiət və onun qanunları, prinsipial surətdə "özündə şeylərdən" fərqlənir. Guya təbiət öz müxtəlifliyi və qanunları ilə "özündə şeylərin" hisslərimizə tə'siri nəticəsində meydana gəlmişdir. Məhz buna görə də, insan əxlaqi şüurun subyektidir, o, öz davranışında əxlaqi şüurun tələbini rəhbər tutmalıdır.

Deməli, qanun apriordur, o heç bir xarici tə'sirə mə'ruz qalmır və ona görə də şərtsizdir. Dövlət "hüquqi qanunlara tabe olan insanlar çoxluğudur".

Dövlətin rifahı vətəndaşların rifahı deyil, konstitusiyanın hüquq prinsipləri ilə daha çox əlaqələndirilməsidir. Dövlətin rifahı, mükəmməl hüquqdur. Məhz buradan aydın olur ki, Kantı "hüquqi dövlət" ideyasının banilərindən biri hesab etmək olar.

Kant dövlət quruluşunun üç formasını göstərir:

*1. Avtokratiya.*

*2. Aristokratiya.*

*3. Demokratiya.*

Hakimiyyəti isə əsasən üç yerə bölür:

*1. Qanunverici*-xalqın kollektiv iradəsi;

*2.İcraedici*-dövlət başçısının əlində cəmləşdirilməsi:

*3.Məhkəmə*-icraedici hakimiyyət tə'yin edir.

Kantın hakimiyyətin bölüşdürülməsi ideyası bir növ Monteskyenin ideyasının davamı idi.

***İohann Qotlib Fixtenin (1762-1814)*** siyasi fikrində əsas



məsələ azadlıq haqqında nəzəriyyəsidir. Bu məsələyə maraq fransız burjua inqilabı hadisələri ilə əlaqədar olaraq, kəskin şəkil almışdır. Spinoza kimi Fixte də azadlıqda səbəbsiz bir hadisənin deyil, yenilməz zərurətin dərginə əsaslanan fəaliyyət görürdü. Lakin Fixte Spinozadan fərqli olaraq, azadlığın insanlara müyəssər olan dərəcəsini fərdi müdriklikdə deyil, fərdin məxsus olduğu tarixi dövrdən asılı vəziyyətində görürdü. Onun fikrincə, dövlətin zəruriliyi insanların şəxsi hüquqlarını tə'min etmək tələbatı ilə şərtlənir. O, mülkidövlət müqaviləsinin imzalanması nəticəsində yaranır. Xalqın ümumi iradəsi qanunçuluğun özəyi olmaqla bərabər, dövlətin tə'sir hüdudlarını müəyyən edir.

Fixte müasiri olduğu Almaniyanın geriliyindən doğan xülyaları aradan qaldırmaq iqtidarında deyildir. O, alman burjua cəmiyyətinin "qapalı ticarət dövləti" formasında qurulmasının utopik layihəsini işləyib hazırlamışdır. Bu layihə Almaniya burjua inqilabının xüsusiyyətlərini əks etdirməklə yanaşı bir sıra mürtəce cəhətlərə, o cümlədən milli alman müstəsnalığı cəhətinə malik idi.

***Georq Vilhelm Fridrix Hegel (1770-1831)*** klassik alman fəlsəfəsinin görkəmli nümayəndələrindəndir. Hegelin "Ruhun fenomenologiyası", "Məntiq elmi", "Fəlsəfi elmlər ensiklope-diyası", "Hüquq fəlsəfəsi", "Fəlsəfə tarixinə dair mühazirə-lər" və s. əsərləri siyasi fikir tarixində müəyyən rol oynamış-dır. Lakin "Hüquq fəlsəfəsi" əsərində onun siyasi tə'limi bütöv şəkildə öz əksini tapmışdır. Onun fikrincə, başlıca məsələ hüquq fəlsəfəsinin və hüququn elmi surətdə dərk olunmasıdır.

Hegelin fikrincə, bütün mövcuddiyyətin ilkin mənbəyi, ilkin səbəbi "mütləq ideya"dır. Bu mə'nəvi ilkin başlanğıc, guya insandan kənarda və ondan asılı olmayaraq mövcuddur. O, təbiət və cəmiyyətdəki bütün təzahürləri doğurur və

müəyyən edir. Təfəkkür bütün şeylərin daxili mahiyyətini təşkil edir. Hegel təfəkkürlə əql, zəka ilə obyektiv gerçəkliyi eyniləşdirirdi. O belə bir nəticəyə gəlirdi ki, guya insana xas olan təfəkkür insandan kənarda mövcud olan mütləq ideyanın təzahüründən biridir. Bu "mütləq ideya" Allah anlayışıdır. Lakin Hegel tə'limində Allah dinin şamil etdiyi insani keyfiyyətlərə malik deyildir.

Hegelin fəlsəfi sisitemi aşağıdakı üç hissədən ibarətdir:

*1. Məntiq.*

*2. Təbiət fəlsəfəsi.*

*3. Ruh fələsfəsi.*

Ruh fəlsəfəsində Hegel ümümdünya tarixi siyasi fikri üç əsas dövrə bölür.

***1. Şərq dövrü.***

***2. Antik yunan dövrü.***

***3. Alman dövrü.***

Onun fikrincə, Şərq dünyasında insan hələ dərk etmirdi ki, azadlıq onun mahiyyətidir. Ona görə də burada hamı quldur. Antik dünyada (Qədim Yunanıstan və Roma) bə'ziləri artıq başa düşürdülər ki, azadlıq onların mahiyyətini təşkil edir. Ona görə də bunu dərk etməyən Şərq dünyasından fərqli olaraq, azaddırlar. Nəhayət, alman və ya xristian dünyasında hamı özünün mə'nəvi mahiyyətini dərk edir və buna görə də burada hamı azaddır.

Hegel hüququ üç mə'nada işlədir:

**1. Hüquq ideyası** - hüquq azadlığıdır.

**2. Xüsusi hüquq** - hüquq azadlığının müəyyən pilləsi və formasıdır.

**3. Pozitiv hüquq** - hüquq qanunudur. Bundan başqa, o, hüquq anlayışının üç əsas pilləsini aşağıdakı kimi səciyyələndirirdi:

***1. Abstrakt hüquq*** - mülkiyyət, müqavilə və qeyri-həqiqət problematikasını əhatə edir.



*2. Əxlaq* - niyyət və günahı, qərəz və rifahı, xeyir və vicdanı birləşdirir.

*3. Mə'nəviyyat* - ailəni, mülki cəmiyyəti və dövləti birləşdirir.

O, dövlətin müqavilə yolu ilə yaranması ideyasının qəti əleyhinə idi. Mülki cəmiyyəti və dövləti bir-birindən fərqləndirirdi. O, mülki cəmiyyət dedikdə, burjua cəmiyyətini nəzər-də tuturdu ki, bunu da hamının hamıya qarşı müharibəsi kimi başa düşürdü. Mülki cəmiyyətin strukturunu üç sinfəayırırdı:

***1. Torpaq sahibləri -zadəganlar və kəndlilər.***

***2. Sənayeçilər - fabrikantlar və tacirlər.***

***3. Mə'murlar.***

Hegel eyni zamanda mülki cəmiyyəti dövlətin əsası hesab edirdi.

Hegel siyasi dövlətin, mülki cəmiyyətin və cəmiyyətin sosial-iqtisadi qarşılıqlı əlaqəsini və bu əlaqələrin qanunauyğun, dialektik xarakteri haqqında məsələni prinsipial şəkildə qoymuşdur. O, qeyd edirdi ki, "dövlətin meydana gəlməsi, Allahın yer üzərində təntənəsidir, zəkanın gücü isə onun əsasıdır." Dövlət azadlıq, zəka və hüquq ideyasıdır. Hegelə görə, dövlət nəzəriyyəsi üç formada özünü əks etdirir:

***1. Fərdi dövlət -dövlət quruluşu, onun idarəetmə strukturu.***

***2. Xarici dövlət-dövlətlərarası münasibət.***

***3. Ümümdünya tarixində dövlət-bütün dövlətlərin müqayisəli şərhi.***

Hegel konstitutsiyalı monarxiyaya üstünlük vermiş, xalq suverenliyi demokratik ideyasını tənqid etmişdir.

***Bentamen Konstan (1767-1830)*** Fransada ilk liberializmin nümayəndəsi idi. O, fedoalizmi tənqid edir, zəhmətkeşlərin radikalizminin əleyhinə çıxırdı və eyni zamanda burjuaziya hüqüq və azadlıqlarını müdafiə edirdi. "Konstitutsiya siyasəti kursu" adlı əsərində şəxsiyyət və dövlətin problemlərindən bəhs edirdi. Onun fikrincə, vətəndaşların əsaslı hüqüqlarından insan

azadlığı əsasdır. Vətəndaş hüquqları dövlət hakimiyyəti üçün toxunulmazdır. O, şəxsi və siyasi azadlığı bir-birindən ayırır və qeyd edirdi ki, qədim xalqlar ancaq siyasi azadlığa nail olmuşlar. Azadlığın mə'nası kütləvi və siyasi hakimiyyəti, dövlət hakimiyyətini həyata keçirməkdən ibarət olmuşdur. Həmin xalqlar din, mülkiyyət və dövlət tərəfindən ciddi nəzarətdə olmuş, şəxsi azadlığı başa düşmüşlər.

Bentamen Konstan qədim xalqların istifadə etdikləri azad-lıqların yeni xalqların azadlıqlarına keçməsinin üç başlıca sə-bəbini göstərmişdir.

*1. Yeni xalqların sülhsevər olması, maarifə üz tutması (Dünyagörüşünün artması).*

*2. Əməyə münasibətin dəyişməsi - köləliyin ləğvi.*

*3. Qədim xalqların kiçik dövlətlərindən, nisbətən böyük dövlətlərdə keçilməsi.*

Onun fikrincə, indiki xalqlarda azadlığın özəyi onların şəxsi hüquqlarıdır. Siyasi azadlıq isə mülki azadlığı həyata keçirmək üçün bir vasitədir.

B. Konstan hakimiyyətin bölüşdürülməsi prinsipini aşağıdakı kimi təsəvvür edirdi:

*1. Kral hakimiyyəti.*

*2. İcraedici hakimiyyət.*

*3. Daimi nümayəndəli hakimiyyət.*

*4. İctimai rə'yi təmsil edən hakimiyyət.*

*5. Məhkəmə-(qanun) hakimiyyəti.*

*Okust Kont (1798-1857)* fransız filosofu və sosioloqudur, pozitivizmin banisidir.

Kontun "pozitiv fəlsəfəsinin" başlanğıc tezisi belə bir tələbdən ibarətdir ki, elm hadisələrin xarici görnüşünün təsviri ilə kifayətlənməlidir. Bu tezisdən çıxış edərək göstərmişdir ki, hadisələrin mahiyyəti haqqında tə'lim aradan qaldırılmalıdır. O, çox geniş təbii-elmi materialı birləşdirməyə çalışmışdır.



Kont təbiətin dərk edilməsi tarixinin üç mərhələdən keç-di-yini göstərmişdir: bu mərhələlərdən hər biri müəyyən - teoloji, metafizik və pozitiv dünyagörüşü tipinə uyğun idi. Teoloji mərhələdə insan zəkası hadisələri fövqəltəbii qüvvələrin, Allahın tə'siri ilə izah etməyə səy göstərmişdir. Metafizik dünyagörüşü teoloji dünyagörüşünün şəklini dəyişmiş formasıdır. Teoloji və metafizik dünyagörüşünü "pozitiv metod" əvəz edir.

Bu üç mərhələli formulda cəmiyyətin siyasi fikrinin inkşafında bütöv bir dövr (antik dövr) kənarda qalmışdır. Kont özünün üç mərhələli formulundan elmlərin təsnifatı, mülki tarixin sistemləşdirilməsi üçün istifadə etmişdir.

Kont sosiologiyasında ("sosiologiya" termini Konta məx-susdur), cəmiyyətin izahına daha çox bioloji yanaşma səciyyəvi idi. Sosioloji tə'limin əsas ideyası mövcud qaydaları inqilabi surətdə dəyişdirməyin lüzumsuz olması fikridir.

Konta görə, kapitalizm bəşər cəmiyyətinin təşəkkülünü başa çatdırır. O, təbliği zəruri olan "yeni" dində fərdin Allaha sitayişinin ali varlıq olan abstrakt insana sitayişlə əvəz edildiyini göstərirdi. Beləliklə, o, demokratiyanın və liberalizmin əleyhinə çıxış edirdi.

Siyasi fikir tarixində xüsusi yer tutan alman dövlətşünası və tarixçisi *L.Şteyn (1815-1890)* siyasi hakimiyyət və dövlət, mülkiyyət və sinfi mübarizənin qarşılıqlı əlaqəsi məsələsini qoymuş və bu əsasda dayanan konstitusiyalı monarxiyanın köməyi ilə sinfi ziddiyyətlərin barışması üçün liberal proqram hazırlamışdır. Bu proqramı cəmiyyətin inkişafında əsas götürürdü.

O, cəmiyyəti iki əsas sinfə bölürdü:

*1. Mülkiyyətsizlər - zəhmətkeşlər.*

*2. Mülkiyyətçilər - yuxarı təbəqə.*

Şteyn qeyd edirdi ki, "dövlət insanların vahid, azad özünü müəyyən edən ittifaqıdır". Dövlət quruluşunda monarxiyanı və

respublikanı tənqid edir, konstitusiyalı monarxiyaya üstünlük verirdi.

***Karl Marksın (1818-1883)*** ictimai-siyasi baxışları inqilabi-demokratik xarakter daşımışdır. O "Kapital", "Müqəddəs ailə", "Alman ideologiyası" və sair əsərlərində kapitalist istehsal üsulunu, onun meydana gəlməsi və inkişafının qanunauyğunluqlarını araşdırır, kapitalizm quruluşunun tarixən keçici xarak-terini və mə'nəvi iflasının labüdlüyünü sübut edirdi. Marks kapitalizm quruluşunun ədalətsizliyini, fəhlə sinfi ilə burjuaziyanın mənafelərinin barışmaz olduğunu əsaslandırırdı.

İlk dəfə Karl Marks fəhlə və kəndlilərin mənafeyinə xidmət edəcək proletariat diktaturasını-yeni dövlət formasını göstərmişdir. Marksın fikrincə, mədəniyyətin və inqilabi praktikanın elmi şəkildə dərk olunması və inqilabi yolla dəyişdirməsi proseslərinin üzvi vəhdəti nəzəriyyənin durmadan inkşaf edib təkmilləşməsi üçün əsasdır.

Karl Marksın tə'limi proletariatın, onun mənafelərinə xidmət etdiyini bəyan etdi, onun tarixi vəzifələrini tarixdə ilk dəfə nəzəri cəhətdən hərtərəfli əsaslandırdı. Bu tə'lim zəhmətkeşlərin hər cür zülm və istismardan azad olunması məsələsində inqilabi mübarizə metodlarını əsas yol hesab edirdi.

***Fridrix Engels (1820-1895)*** "Təbiətin dialektikası", "Anti-Dürinq" və s. əsərlərin müəllifidir. O, "Təbiətin dialektikası" əsərində təbiətin dialektik-materialist mənzərəsini verməyə sə'y göstərmişdir. O, "Anti-Dürinq"də marksizmin tərkib hissələrinin sistemli təhlilini vermişdir.

***Vladimir İliç Lenin (1870-1924)*** tarixə marksizmi yeni şəraitdə inkişaf etdirmiş, bolşevik partiyasının yaradıcısı, sosialist inqilabının rəhbəri, ilk proletar dövlətinin banisi, imperializmə qarşı mübarizə aparan ateist baxışlı mütəfəkkir kimi daxil olmuşdur.



***Herbert Spenser (1820-1903)*** ingilis filosofu və sosioloqu, pozitivizmin banilərindən biri, imperializm epoxası ərəfəsində liberal burjua ideologiyasının nümayəndəsidir. "Dövlətin üzvü nəzəriyyəsi" adlı konsepsiya hazırlamışdır. O, dövləti bioloji orqanizmlə müqayisə edir, onun yaranma səbəbinə darvinizm nöqteyi - nəzərindən yanaşırdı. Belə ki, dövlət "canlılar qarşı-sında qorxunu" nizamlayır. Məhz bunu nəzərə alaraq, inkişafın iki mərhələsinə uyğun olan dövlətin iki tipini göstərirdi:

***1. Bəsit-hərbi tip.***

***2. Yüksək-sənaye tipi.***

O, birinci tipin vəzifəsini mübarizələr, müharibələr aparmada görür, onun vəhşilik dövrünə uyğun gəldiyini göstərirdi. İkinci tipin vəzifəsini isə əmin-amanlıq, fərdi rifah kimi başa düşür, onu sənayenin inkişafı ilə əlaqələndirirdi. Spenser dövləti "siyasi aqreqat" kimi izah edirdi.

***Fridrix Nitsşe (1844-1900)*** siyasi mövqeyinə görə volyuntarizmin nümayəndəsi hesab olunur. O, demokratiyanın qatı əleyhdarı idi. Onun "Əxlaqın mənşəyi", "Yunan dövləti", "Hakimiyyət idarəsi" və "Zərdüşt belə demişdir" əsərlərində iradəni əsas götürərək, Napoleon, Makedoniyalı İskəndər və Sezar hakimiyyətini mübarizə, iradənin yeganə mə'nası, məqsədi və əsası kimi qiymətləndirirdi. O, hakimiyyət uğrunda mübarizəni həyatın mə'nası hesab edirdi. Bütün sosial-siyasi hadisələr zəiflərin və güclülərin iradələrinin hakimiyyət uğrunda apardıqları mübarizəsidir.

Nitsşe hər bir cəmiyyəti üç tipə bölür:

***1. Dahilər***

***2. Dahilərin ideyalarını həyata keçirənlər*** - hüquq mühafizəçiləri

***3. Kütlə*** - xalq

O. dövlətin iki tipini göstərmişdir:

***1. Aristokratik*** - yüksək mədəniyyətlilər üçün mövcud olan quruluş.

2. *Demokratik* - iflas etmiş quruluşlar üçün səciyyəvidir. O, Roma imperiyasını ən yüksək dövlət tipi kimi qəbul edirdi. Onun fikrincə, dövlət həmişə əzməlidir, güc tətbiq etməlidir. O, "xalqların ölümüdür". Nitsşe belə hesab edirdi ki, "Qul cəmiyyəti üçün nə qədər vacibdirsə, müharibələr də dövlətlər üçün o qədər zəruridir".

***U.Becqot (1826-1877) və Lüdviq Qumploviçi (1838-1909)*** Nitsşenin həmfikri hesab etmək olar.

U.Becqot "Fizika və siyasət" əsərində cəmiyyətin siyasi tarixini üç mərhələyə bölür:

***1. Dövlətin meydana gəlməsi- zorakılıqdır.***

***2. Ən'ənələrin meydana gəlməsi.***

***3. Güclülərin zəifləri işğal etməsi uğrunda mübarizədə, pis ən'ənələrin yaxşı ən'ənələr tərəfindən sıxışdırılıb aradan qaldırılması.***

Lüdviq Qumploviç "İrqlərin mübarizəsi" əsərində işğalçılıq nəzəriyyəsini əsaslandırmışdır.

Qumploviç və Becqot Nitsşe kimi XIX əsrdə yaşamış, siyasi fikir tarixində işğalçılığa, zorakılığa haqq qazandırmışlar. Onlar demokratiyanın qatı əleyhdarları idilər, zorakılıq ideyasına haqq qazandırmağa çalışırdılar.

Təsadüfi deyildir ki, bu cür siyasi baxışlar faşizmin meydana gəlməsində mühüm rol oynamışdır. Faşizm ideologiyasının tərkib hissələri bunlardır: şovinizm, millətçilik, irqçilik, totalitar dövlət konsepsiyası, antidemokratiya və s.

Müasir faşist ideologiyasında Nitsşenin fövqəlinsan və elita nəzəriyyəsi birləşmişdir.

Müasir Qərb siyasi fikrində "Ümumi rifah dövləti" nəzəriyyəsi azad rəqabət dövründə dövətin vəzifələrini (sosial-iqtisadi inkişafı, əhalinin nisbətən yüksək həyat səviyyəsini tə'min etmək, ümumi sülhü qoruyub saxlamaq və s.) müəyyənləşdirir. Həmin ideyalar bu və ya digər formada ***U.A.Robson, D.Neyl, A.Piqu, K.Bouldinq, C.Streqi*** və başqalarının əsərlərində öz əksini tapmışdır.



# FƏSİL III
# AZƏRBAYCANIN SİYASİ FİKİR TARİXİNDƏN

## *§ 1. Qədim Azərbaycanda siyasi fikrin yaranması və inkişafı*

Azərbaycanda siyasi fikir tarixinin meydana gəlməsi eramızdan əvvəl I minilliyə təsadüf edir. Bu dövrdə Azərbaycanda Manna, Midiya, Albaniya kimi dövlətlər yaranmışdır. B.e.ə. VIII-VII əsrlərdə Azərbaycanda ilk qanunnamə - "Avesta" yazılmışdır. "Avesta" Azərbaycan xalqının siyasi fikrinin sistemli şəkildə şərh olunduğu ilk böyük yazılı abidədir. Bu qanunamə Azərbaycan xalqının sosial, siyasi, əxlaqi, dini baxışlarının məcmusudur.

"Avesta" zərdüştlüyün ən ali və müqəddəs kitablarının külliyyatıdır. ***Zərdüştlüyə*** görə, xeyirlə şər mübarizə aparır və sonda xeyir qalib gəlir. Xeyir və şərin (Hörmüz və Əhrimən) mübarizəsi doğruluğun, ədalətin tərənnümü və şərin həmişəlik yox olması deməkdir. Burada ən başlıca məsələ ondan ibarətdir ki, hamı qanuna və ədalətli qaydaya tabe olmalıdır. "Avesta"da cəmiyyətin idarə olunmasında dövlətin funksiyasına, vətəndaşların mə'nəvi tərbiyəsinə xüsusi diqqət yetirilir. Zərdüşt kahinləri Sasani dövlətinin həyatında başlıca yer tuturdu. Onlar məhkəmələrdə hakim vəzifəni icra edirdilər. Atəşpərəstlərin əsas mə'bədi qədim Atropaten dövlətinin Qanzak şəhərində idi. Şahlar işə başlamazdan əvvəl bu mə'bədi piyada ziyarət edir, sonra isə taxta çıxıb dövləti idarə edirdilər. Zərdüştlük əxlaqının əsas prinsipini xeyir fikir, xeyir söz, xeyir əməl triadası təşkil edir. A.O.Mokavelskiyə görə, Demokrit öz ictimai - siyasi fikrinin əsasını zərdüştlükdən götürmüşdür.

Zərdüştlük dünyagörüşündən sonra Qədim Azərbaycanda bir sıra dini-fəlsəfi cərəyanlar təşəkkül tapmışdır. E.ə. V-

IV əsrlərdə zərvanilik yayılmağa başladı. *Zərvanilikdə* siyasi fikir, dövlət idarəçiliyi ideyalarına xüsusi diqqət yetirilirdi.

İlkin feodalizm dövründə Azərbaycanda manilik ictimai-siyasi fikri də əsas rol oynamağa başladı. *Mani (215-276)* rəssam, nəqqaş, filosof kimi Yaxın Şərq ölkələrində tanınırdı. Maniyə görə, şəri Allah yaratmamışdır. O, heyvan əti yeməyi qadağan edir, mütiliyi təbliğ edir, asayişi və rahatlığı qorumağı əsas götürürdü.

Orta əsrlərdə Azərbaycanda məzdəkizm dini fəlsəfi cərəyanının da böyük rolu olmuşdur. Hətta Sasani hökmdarı I Qubadın dövründə *Məzdək* və onun tərəfdarları dövlətin idarə olunmasında əsas yer tuturdular. Məzdəkilər xüsusi mülkiyyəti ləğv etmək, var dövləti, əmlakı adamlar arasında bərabər bölmək prinsipi təbliğ edirdilər. Dövlətin idarə olunmasında haqqı, ədaləti qəbilə-tayfa quruluşuna qayıtmaq yolunda görürdülər.

Azərbaycanın siyasi fikir tarixində "Avesta"dan islama qədər bir neçə ideoloji cərəyan, qeyd etdiyimiz kimi, zərvanilik, manilik, məzdəkilik, xürrəmilik mövcud olmuşdur ki, bunlar da, əsasən xeyirlə şərin, işıqla qaranlığın arasında gedən mübarizədən bəhs etmişdir.

### *§ 2. Orta əsrlərdə Azərbaycanda siyasi fikir*

***Bəhmənyar ibn Mərzban Əbül Həsən (993-1066)*** Azərbaycan filosofu, Şərq peripatetizminin görkəmli nümayəndəsi, "Təhsil", "Metafizikaya dair", "Mövcudatın mərtəbələri", "Məntiqə dair", "Gözəllik və səadət", "Musiqi kitabı" və s. əsərlərin müəllifidir. Onun varlıq və idrak haqqında fikirləri bu gün də maraqla oxunur və filosoflar tərəfindən ziddiyyətli şəkildə izah olunur.

Bəhmənyar vacib varlıqla yanaşı, mümkün varlığın da daimiliyini təsdiqləyir. Aristotel və onun davamçıları kimi Bəhmənyar da dünyanın vəhdətinə inanırdı. O, Aristotel kimi hərəkəti müstəqil deyil, yalnız kəmiyyət, keyfiyyət, məkan və zaman kateqoriyasına görə müəyyənləşdirmişdir. O, hərəkəti



materiyadan ayrı təsəvvür etmir, hər bir hərəkətin cisimlərdə mövcud olduğunu deyirdi. Bəhmənyarın idrak nəzəriyyəsində hissi və əqli mərhələlərin əlaqəsinə xüsusi diqqət yetirilir. O, cəmiyyətin quruluşunu təbii hesab edirdi. Xüsusi mülkiyyəti müdafiə edir, yoxsulları dözümlü olmağa çağırırdı. İnsanların bərabər hüquqlu yaşamasını, zəruri sayır, onların səadətə çatmaq yolunu təhsildə, mə'nəvi dəyərlərin zənginləşməsində görürdü.

***Eynəlqüzat Abdulla Miyanəci (1099-1131)*** orta əsrdə Azərbaycanın tanınmış filosofu, eyni zamanda Həmədanın baş qazisi idi. "Müqəddimələr", "Qəribin şikayəti" və "Həqiqətlərin məğzi" əsərlərində sufiliyin dərin ictimai-siyasi fikrini açıqlamışdır. O, ilk sufi Azərbaycan filosofu hesab edilir. Miyanəci cəmiyyətin inkişafında, insanların mə'nəvi dünyasının kamil-ləşməsində sufilik ideyasına yüksək yer vermişdir. O, insanların Allah səviyyəsinə qalxmasına, Allahla insanın substansional vəhdətinə inanmış, orijinal panteist sistem yaratmışdır.

***Sufilik VIII-XIII*** əsrlərdə geniş inkişaf yolu keçmişdir. "Suf" sözü "yun" mə'nasını verir. Qaba yun paltar geyinmək, ilk sufilər üçün səciyyəvidir. Sufiliyə görə, insan həqiqəti hissi qavrayış ilə deyil, özünü kamilləşdirdikdən sonra Allaha qovuşmaqla dərk edir. Kamilləşmə üçün sufilər dörd mərhələdən keçirlər.

***Birincisi,*** şəriət mərhələsidir-müsəlman dini qanunları və hüquqlarını mənimsəməlidir.

***İkincisi,*** təriqət mərhələsidir-müridlik etməklə sufi iradəsini Allaha tabe etməlidir.

***Üçüncüsü,*** mərifət mərhələsidir-insan bütün nəfsini, şəhvət hisslərini boğmalı, qəlbi ilə varlığın Allahla vəhdətini, xeyir və şərin nisbətini dərk etməlidir.

***Dördüncüsü,*** həqiqət (idrak) mərhələsidir-insan kamilləşir və həqiqətə - Allaha qovuşur.

Orta əsrlərdə Azərbaycanda işraqilik fəlsəfəsinin yara-

dıcısı *Şihabəddin Yəhya Sührəvərdi (1154-1191)* idi. O, öz azadfikirliliyi ilə tanınırdı. Sührəvərdi eyni zamanda Şərq peripatetizminin ən görkəmli nümayəndələrindən biri idi.

İşraqilik dünyagörüşünə görə, işıq və qaranlıqdan ibarət olan bütün varlığın (mövcudatın) zirvəsi mütləq İşıqlar işığıdır. İnsanın bütün fəaliyyəti abstrakt işığın sayəsində baş verir. Sührəvərdiyə görə, maddi aləm qaranlıqlar, kölgələr dünyası hesab edilir. İşıqlar silsiləsində ən yaxın işıqdan başlamış, son mücərrəd işığa qədər hər bir işığın kölgəsi vardır. Kölgələr işıqlarla yanaşı daim mövcuddur. İnsan nəfsi işıqlar silsiləsini keçərək, mücərrəd işıqlar aləminə yetişir. İşraqilikdə idrakın hissi, əqli və intuitiv mərhələləri fərqləndirilir, sufilər kimi ilahi həqiqəti dərk etmək üçün bu dünyadan təcrid olunmaq təbliğ edilir.

*Şihabəddin Ömər Sührəvərdi (1145-1234)* orta əsr Azərbaycan mütəfəkkiri və hüquqşünası, sufi alim idi. Bağdadda baş şeyx rütbəsini tutmuşdur. Dövlət işlərində işləmiş, ictimai-siyasi həyatda fəal iştirak etmişdir. Xilafətin elçisi olmuş, diplomatik danışıqlar aparmışdır.

Sührəvərdi öz yaradıcılığında sufiliyin mahiyyəti, şeyxlik rütbəsinin müəyyənləşdirilməsi, insanın özünü dərk etməsi və s. kimi problemlərin şərhini vermişdir. Sührəvərdiyə görə, sufilik edən kəs özünə hesabat, özünə nəzarət və daxili müşahidə yolu ilə rəzillikdən çəkinib, özünü kamilləşdirməlidir.

*Nizami Gəncəvi (1141-1209)* orta əsr Azərbaycan mütəfəkkiri və şairidir. Humanizm prinsipləri Nizami Gəncəvinin ictimai-siyasi görüşlərində xüsusi yer tutmuşdur. O, hökmdarları ədalətli olmağa çağırmış, tədricən bunun nəticə verməyəcəyini başa düşərək, qədim yunan demokratiyasını ağlabatan dövlət forması kimi ideallaşdırmışdır. Nizaminin nəzərdə tutduğu gələcək azad utopik cəmiyyət, xüsusi mülkiyyət, qeyri-bərabərlik, zülm, ictimai mübarizə və cinayətdən uzaqdır. Həmin cəmiyyətdə bərabərlik, insaniyyət, səmimilik, doğruçuluq və s. hökm sürür. Nizaminin utopiyası sonralar Azərbaycanın digər filosof və mütəfəkkirlərinin ictimai-siyasi görüşlərinə güclü tə'sir göstərmişdir.



Dövlətin idarə edilməsində Nizami əxlaq məsələlərinə də xüsusi diqqət yetirmişdir. Onun "Xəmsə"sində bunlar geniş əksini tapmışdır.

*Nəsirəddin Tusi (1201-1274)* Azərbaycanın, eyni zamanda Yaxın və Orta Şərqin siyasi fikrinin qabaqcıl nümayəndəsi və ensiklopedik alimi idi. "Əxlaqi Nasir", "Tibb qanunu kitabın-dan birinci hissəyə haşiyələr", "İqtibasın əsası", "Mövcudatın bölgüsü və onun cisimləri", "Evklidin "Göy hadisələri" kitabı-nın ifadəsi, "Cəbr və müqabil", "Kosmoqrafiyaya dair traktat", "Elxani astronomik cədvəl", "Alicənab insanların xarakterləri və keyfiyyətləri" və sair əsərlərin müəllifidir.

Tusinin "Əxlaqi Nasir" əsəri məzmunu, ictimai-siyasi, əxlaqi, iqtisadi, fəlsəfi və tərbiyə baxımından dünya şöhrətli əsərdir. Bu əsərdə N.Tusi ictimai əmək bölgüsünün zəruriliyini göstərərək cəmiyyətin, dövlətin meydana gəldiyinin səbəblərini izah etmişdir. O yazırdı: "Dünyanın intizamı, məişətin nizamı əməklə yarandığından, insan növü isə əməksiz yaşaya bilmədiyindən əmək köməksiz, kömək isə əməksiz ola bilməz. Deməli, insan növü öz təbiəti ilə ictimaiyyətə möhtacdır". İctimai əməyi təşkil etmək, istehsal prosesində özbaşınalıq və hərcmərcliyə yol verməmək üçün müəyyən tədbirlər görməyə ehtiyac yaranır. Tusi bu tədbirləri "siyasət" adlandırır. Sonra o, siyasətin növlərinin təsnifatını verir. Aristotelə əsaslanaraq siyasətin dörd növünü göstərir: ***1) ölkə siyasəti; 2) qələbə siyasəti; 3) kəramət siyasəti; 4) camaat siyasəti.*** O, ölkə siyasətini "siyasətlər siyasəti" adlandırır.

N.Tusi qeyd edir ki, "siyasəti" həyata keçirmək üçün bir adama ehtiyac əmələ gəlir. Bunun isə mütləq şah və ya hökmdar olması məcburi deyildir. Tusi yazırdı: "Hər dövr, hər zaman hökmdara ehtiyac yoxdur. Əhali arasında nizam-

intizam olsa, bu uzun müddət onlara bəsdir. Lakin bütün dövrlərdə müdrik bir rəhbərə, tədbir sahiblərinə ehtiyac vardır. Tərbiyə olmasa, nizam-intizam aradan qalxar, insan cəmiyyəti lazım olduğu kimi inkşaf etməz".

Tusi yaxşı siyasətin, xeyirli işlərin, xalqı yerə vurmaq deyil, göyə qaldırmağın tərəfdarıdır. Belə bir hökmdar olmaq üçün isə insanda bir sıra xüsusiyyətlər olmalıdır ki, o, şər qüvvələrin qarşısını alıb, xeyir işləri yerinə yetirə bilsin. O, hökmdarlarda, ölkə sahibi olmaq istəyənlərdə ən azı aşağıda göstərilən yeddi xüsusiyyətin, yeddi xasiyyətin olmasını zəruri hesab edir: ***1) atalıq, 2) alicənablıq, 3) mətinlik 4) tam əzm, 5) səbr, 6) var-dövlətli və 7) sadiq, əməlisaleh olmaq.***

Dövlətin inkişafında Tusi dörd ünsürü həlledici amil kimi göstərir. Bu dörd ünsür aşağıdakılardır:

***1. Qələm əhli-ziyalılar.***

***2. Qılınc əhli-hərbçilər.***

***3. Müamilə əhli-tacirlər, sənətkarlar və s.***

***4. Ziraət əhli-əkinçilər, bağban və maldarlar.***

Maraqlı burasıdır ki, Tusi bu ictimai təbəqələri təbiətdəki dörd ünsürlə müqayisə edərək,

***1-ciləri, ziyalıları-suya,***

***2-ciləri, hərbçiləri-oda,***

***3-cüləri, tacirləri-havaya,***

***4-cüləri, əkinçiləri torpağa oxşadır və deyir ki, bu dörd ünsür birgə fəaliyyət göstərdikdə, rəiyyət və səadət sistemi əmələ gələr.***

Nəsrəddin Tusi "qanun" və "dövlət" kimi anlayışları işləyib hazırlamış və onların geniş izahını vermişdir. O, din və siyasət, dövlət və cəmiyyət, dövlət və şəxsiyyət, dövlət və iqtisadiyyat, hüquq və əxlaq, sosial ədalət, dövlətlərarası münasibətlər, müharibə və sülh, cəmiyyətdə hökmdarın yeri və rolu və s. məsələləri təhlil etmişdir.

N.Tusi xalqımızın ictimai-siyasi fikir tarixinə mütərəqqi



və humanist mütəfəkkir kimi daxil olmuşdur.

***Əfzələddin Xunəci (1193-1248)*** Azərbaycan tarixində görkəmli filosof və tanınmış müdrik hüquqşünas kimi şərəfli yer tutur. Xunəci ilk təhsilini öz vətənində almış, orada işləmiş, sonralar bir sıra ölkələr gəzmiş, nəhayət Misirdə yaşamışdır. O, Misirdə dövlət işlərində çalışmış, ictimai-siyasi işlərdə fəal iştirak etmiş, sonralar Misirdə baş qazi vəzifəsi tutmuşdur. O, dövlətin idarə olunmasında mühüm yer tutan dini-hüquqi şəxslər üçün tövsiyyələr hazırlamışdır. Dövlət idarəçiliyində qanunun aliliyini əsas hesab etmişdir. Azərbaycan siyasi fikir tarixində onu bir hüquqşünas kimi ilk mütəxəssis hesab etmək olar.

***Siracəddin Urməvi (1198-1283)*** böyük Azərbaycan filosofu, təbiətşünas alim və tanınmış ictimai-siyasi xadim idi. Onun "Metodlar", "Ziddiyyətin misallarına dair traktatlar", "Dialektikaya dair traktatlar", "Həkimanə sözlər istilahı", "Təhsil", "Suallar", "Haqqın bəyanı", "Hikmət incəlikləri", "Nurların doğuşları" və s. əsərləri var.

S.Urməvi insanı düşüncəli nəfsə malik, bütün yaranmışlardan üstün varlıq və yer üzünün əşrəfi saymışdır. O, bu haqda yazırdı: "Aləmin yaradıcısı insanı ilk fitrədən hakim yaratmışdır". Allahın hökmünü nümunə göstərərək, o, belə deyirdi: "Hakim hökm verməkdə hakimlər hakimindən Yaradıcıdan öyrənməlidir." S.Urməvinin fikrincə, insan hakim olmaqdan, hökm verməkdən qabaq bir fərd və ictimai varlıq kimi mövcud olmalı və yaşamalıdır. Bunun üçün insan maddi və mə'nəvi aləmi dərk etməli, "yemək, içmək, paltar, məskən və mənzil" kimi zəruri tələbatı ödəməlidir. İnsan öz nəslini davam etdirmək üçün "nigah"dan istifadə etməlidir.

Hələ orta əsrlərdə mülkiyyətin iki formasını S.Urməvi belə izah etmişdir: "Bil ki, adamın, istər fərdin, istərsə də insani növün qalmasında möhtac olduğu şey iki qisimdir: onlardan biri heç

vaxt heç kəsə məxsus olmayan su, bitki, çöl ovu, dəniz ovu və buna bənzər mülkiyyətdir, digəri isə odur ki, şəxslərdən kiməsə məxsusdur".

Urməvi göstərir ki, birisinin sahib olduğu və hər bir vəhclə əldə saxlamağa çalışdığı xüsusi mülkiyyət başqasında tamah doğurarsa, ondan onu alarlar. Bunun üçün hissi təhrik və qadağa olmalıdır, zor işlədilməməsi üçün cəza vasitəsi tətbiq edilməlidir. Bu tədbirləri hüquqi qaydada həyata keçirən olmasa, özbaşınalıq hökm sürər, ictimai münasibətlər pozular. O yazırdı: "Xalq arasında təhrikedici (sövqedici) və qadağanedici gərəkdir ki, zülm və zorakılıq aradan qalxa və azala, bununla da aləm nizamlana".

S.Urməvi yaşadığı cəmiyyətinin strukturunu, onun formalaşmasını nəzərdən keçirir, insanların cəmiyyətdə müəyyən təbəqələrə bölünməsinə başçı ilə rəiyyət timsalında baxaraq, onun üzvi vəhdətini insan orqanizminə bənzətmişdir. O yazırdı: ***"Başçının rəiyyətə olan münasibəti başın bədənə olan münasibətidir".*** İnsan başı öz bədənini necə müdafiə edirsə, başçı da öz rəiyyətləri ilə elə rəftarda olmalıdır.

Urməvi dövlətin idarə edilməsində şahın yaxınlarını - və-ziri, əmiri, naibi tutduqları vəzifədə layiqincə işləməyə, diq-qətli olmağa çağırmış və onlara müəyyən tövsiyələr vermişdir. Onun fikrincə, vəzir xalqın cəfakeşi, adamların qayğısına qalan bir xeyirxah nəcib insan olmalıdır. Yazırdı ki, "Vəzir rəiyyətin zəhmətini çəkən şəxsdir, xalqın ehtiyaclarını ödəyən idarə-edicidir, ona həvalə olanı qoruyandır. Rəiyyətin işlərində onla-rın tələbatını yerinə yetirməyən kəsə vəzir deyilmir."

Orta əsrlərdə əmirlik mə'sul vəzifələr yerinə yetirirdi. S.Urməvi bu barədə yazırdı: "Əmir o kəsdir ki, rəiyyətin işi ona tapşırılmış olsun, iş o adamlara tapşırılır ki, o, rəiyyətin qayğısına qalmağı vacib bilir, onların işlərini ən yararlı və ən sərfəli şəkildə yerinə yetirir, padşah ilə rəiyyət mənafeyi arasında birlik yaradır. Çünki əmir padşahın vəkili, rəiyyətlər isə şahın xidmətçiləri kimidir. Vəkillikdə heyif almaq, tərəfkeşlik etmək vəkilə yaramaz".



Siracəddin Urməvi cəmiyyətdə sadə və zəhmətkeş insanların mövqeyini düzgün başa düşmüş və onların hüquqlarının toxunulmamazlığını göstərmişdir. O yazırdı: "Rəiyyətlərin qayğısına qalmaq, onları mühafizə edib qorumaq iki səbəbdən vacibdir. ***Birinci səbəb*** odur ki, rəiyyətlər mülkün və dövlətin əsasıdır. Rəiyyətlər olmasa, dövlət qala bilməz. Rəiyyətlər dövlətin əsasıdır, əsas saxlanılmadıqda ikinci dərəcəli də ola bilməz. ***İkinci səbəb*** odur ki, rəiyyət dövlətdə əsas sərvətdir. Mülk yalnız adamlarla, adamlar yalnız sərvətlə, sərvət yalnız quruculuqla, quruculuq yalnız ədalət və siyasətlə olur. Deməli, sərvət dövlətdə əsasdır və o, rəiyyətlərdən hasil edilir. Beləliklə, rəiyyətlər dövlətin əsası olan sərvətin əsasıdır. Onda əsasın əsası saxlanılmalıdır ki, ikinci dərəcəli olan da qala".

Siracəddin Urməvidə "ədalət" anlayışı çox geniş məzmunda başa düşülür. Ədalət təkcə insanlar arasında münasibətə, bütövlükdə maddi aləmə şamil edilir. Ədalətli insan, ilk növbədə ədalətli şah, sultan onun ictimai-siyasi fikrində mərkəzi yer tutur. O, padşahı cəmiyyətin bir üzvü kimi xalqdan ayırmır, onu yalnız fəzilət və kamalına, icra ediləcək ağıllı hökm və əmrinə görə fərqləndirir.

Bir hüquqşünas alim və dövlət xadimi kimi Siracəddin Urməvi ictimai münasibətlərdə ədalətin, hüquq bərabərliyinin idarəedici roluna xüsusi diqqət yetirmişdir. O, cəmiyyətin inkşafında müxtəlif qruplar, təbəqələr arasında hüquq bərabərliyinə riayət edilməsini ədalətin bərqərar olması üçün zəruri şərt hesab edirdi.

Siracəddin Urməvinin ictimai-siyasi baxışlarında ədalət, xüsusilə hüquq bərabərliyinə, zəhmətkeş insanlara dərin rəğbət bəsləmək ən başlıca yer tutur. Onun ideya irsi, o cümlə-

dən siyasi baxışları professor Zakir Məmmədovun tədqiqatlarında daha geniş işıqlandırılmışdır.

Orta əsrlərdə əxilik ictimai-siyasi baxımdan sufiliyin bir növ davamı idi. Əxilərin dini, ictimai-siyasi tə'limi XII əsrin axırlarında ***xəlifə Nəsrəddin (1180-1225)*** tərəfindən yaradılmış rəsmi dini-siyasi təşkilatın bir sıra xarakterik cəhətlərini əks etdirirdi. Əxilərin yaratdıqları təşkilatın xüsusi nizamnaməsi olmuşdur.

Z.Məmmədov elmi araşdırmalarında əxi- kəndlidir, tacir-dir, ətrafında müridlər toplanmış sufidir, ilahiyyət alimidir, əmirdir, qazidir və ələlxüsus sənətkardır. İcmalarının üzvləri bə'zi sufi təşkilatları kimi nəzir-niyaz hesabına yaşamır, öz halal zəhmətləri ilə dolanırlar.

***Əxilər sufilikdə olan dörd əsas dini-əxlaqi normaya - şəriət, təriqət, mərifət və həqiqət prinsipinə riayət edirlər.*** Onlar insanların hüquqlarına hörmət etməyi və ehtiyacı olanlara yardım göstərməyi vacib sayırdılar.

Əxilər əsasən iqtisadi mübarizəni üstün tuturdular. Onlar din azadlığına, əqidə sərbəstliyinə biganə qalmamış, insanlıq və qardaşlığı təbliğ etmişlər.

***Hürufilik*** ərəbcə "hərflər" deməkdir, islamda təriqətdir. XIV əsrdə yaranmışdır. Hürufiliyə görə, Allahın yaratdığı dünya daim dövr edir və bu, görünən dəyişikliklərin səbəbidir. Allahın insanda təzahürü insanın qurtuluş pillələrindən ibarət üç mərhələyə ayrılır: ***1-cisi nöbüvvət*** - peyğəmbərlik, ***2-cisi vəlayət*** - ilahi himayədarlıq, ***3-cüsü üluhiyyət***-ilahilik. Peyğəmbərlik Məhəmməddə başa çatır, ondan sonra ilahi himayədarlar - imamlar gəlir. Nəimi isə axırıncı himayədar və həm də birinci canlı allahdır.

Burada əsas ideya Allaha məxsus keyfiyyətin təcəssümü, insanın allahlaşdırılması, kainatın əbədiliyinin qəbul edilməsidir. Sufilikdəki kimi cəmiyyəti sağlamlaşdırmaq üçün insanları paklaşdırmaq lazımdır.



Azərbaycanda sufi-panteist və hürufilik tə'limlərinin əsas nümayəndələri ***Mahmud Şəbüstəri (1287-1320), Fəzlullah Nəi-mi (1340-1394) və İmadəddin Nəsimi (1369-1417)*** olmuşdur.

***Mahmud Şəbüstəri*** cəmiyyəti istismardan və zülmdən qorumaq yolunu insanlarının kamilləşməsində, Nəimi xalq üsyanında, Nəsimi isə ədalətli şahın olmasında görürdülər.

Xəlvətlik də hürrufilik kimi sufilik cərəyanı zəminində yaranmışdır. İşraqilik tə'limində xəlvətlik də öz əksini tapmışdır. Bu tə'lim ***Əbu Abdulla Siracəddin Lahicinin (1340-1397)*** adı ilə bağlıdır. Xəlvətə çəkilib qırx gün təktənha ibadətlə məşğul olduqları üçün "xəlvəti" adı almışlar.

Z.Məmmədov xəlvəti tə'liminin sufiliyin psixologiyasına yaxın olduğunu qeyd edir. Belə ki, sufilər kimi xəlvətilərin də öz təriqəti-kamillik yolu vardır. Onların təriqətləri öz məqamları ilə seçilmişdir. Buraya yeddi ad daxildir: ***1) Allahdan başqa ilahi yoxdur; 2) Allah; 3) Huva-O; 4) Haqq; 5) Əbədi canlı; 6) Əbədi mövcud; 7) Hər şeyə qadir.*** Xəlvətilik yolçusu bu yeddi məqamı dərk edə-edə kamilləşməlidir. Xəlvəti mürid öz mürşidinin köməyi ilə nəfsin bu hallarına müsbət əxlaqi tərzdə əməl edib kamilləşməli, cəmiyyətin saflaşmasında mühüm rol oynamalıdır.

***Məhəmməd Füzuli (1494-1556)*** ilk dəfə olaraq öz doğma dilində yazmış və ən gözəl nümunələr yaratmışdır. Humanist şair insan qəlbinin ən təbii, incə, ülvi hiss və həyəcanlarını yüksək bədii obrazlı bir dil ilə ifadə etmişdir. Füzulinin lirikasında məhəbbət eyni zamanda dərin ictimai-siyasi məzmuna malikdir. Onun qəzəlləri feodal-patriarxal əxlaqın mə'nəvi əsarətindən xilas olmağa can atan, könül azadlığı və səadət arzuları ilə çırpınan insanın əhvali-ruhiyəsini əks etdirir. O, dövrün müxtəlif siyasi-ictimai və əxlaqi məsələlərinə münasibətini, feodal dünyasının sosial ədalətsizliklərinə, zülm və istibdada, cəhalətə və xurafata e'tirazını cəsarətlə bildirmişdir. Füzuli ayrı-

ayrı hökmdarlara, Bağdad hakimlərinə, dövlət xadimlərinə və əsrin görkəmli ziyalılarına yazdığı müraciətlərində onları mədh etməkdən çox, ədalətə, dövrün hadisələrinə düzgün baxmağa çağırmışdır.

Füzuli hələ gənc yaşlarında öz ana dilində yazdığı "Bəngu-Badə" poemasında dövrünün mühüm siyasi məsələlərinə toxunmuş, lovğa, təkəbbürlü, şöhrətpərəst və həmişə yüksəklik iddiasında olan hökmdarların, şah və sultanların iç üzünü açıb göstərmişdir. İkiüzlü, yaltaq və satqın saray ə'yanlarını məharətlə ifşa etmişdir.

"Şikayətnamə" adlı əsərində dövlət idarələrində vəziyyəti, orada işləyən mə'murların kobud rəftarı, süründürməçilik və rüşvətxorluğunu kəskin tənqid etmişdir. "Salam verdim, rüşvət deyildir, deyə almadılar" cümləsi rüşvətxorluğu əbədi damğalamış, mə'murlarla mükalimədə ölkədə vəzifələrin pulla satın alındığını göstərmişdir.

Məhəmməd Füzuli Azərbaycanın və eləcə də Şərqin böyük alimi, şairi və mütəfəkiridir. Onun yaradıcılığını araşdıranda görürük ki, onun siyasi fikir tarixində müəyyən xidmətləri olmuşdur. Belə ki, Qərb filosof və mütəfəkKirlərindən Fales, Anaksimandr, Demokrit, Heraklit, Sokrat, Platon, Pifaqor, Şərq filosof və mütəfəkkirlərindən Əl Fərabi, İbn Sina, Nizami Gəncəvi, Nəsrəddin Tusi və başqalarının adlarını çəkib, onların ictimai-siyasi baxışlarına qiymət vermişdir. Füzuli cəmiyyətin istismardan, zülmdən azad olmasını, müharibələrə son qoyulmasını insanların arasında saf münasibətlərin qərarlaşmasında görmüşdür.

### § 3. *Azərbaycan maarifçilərinin və mütəfəkkirlərinin siyasi fikirləri*

***Abbasqulu Ağa Bakıxanov (1794-1847)*** cəmiyyətin inkişafında insan mə'nəviyyatına üstünlük vermişdir. O, insanların birgəyaşayış formalarını, onların öz tələblərini ödəməsi



üçün zəruri sayırdı. O, ümuminin mənafeyini fərdin mənafeyindən üstün tutur, cəmiyyətin təbəqələrə, siniflərə bölünməsini qanunauyğun hesab edirdi. Monarxiyalı hakimiyyətin tərəfdarı idi.

XIX əsr Azərbaycanın siyasi fikir tarixində tarixçi, şərqşünas, filosof, hüquqşünas, alim ***Mirzə Kazımbəy (1802-1870)*** özünəməxsus yer tutur.

M.Kazımbəy Qədim Roma və Babilistanda baş verən ha-disələrin təhlilinə əsaslanaraq göstərirdi ki, cəmiyyət fasiləsiz inkişafdadır və dünyada, o cümlədən siyasi həyatda hər şey təbii, sarsılmaz qanunlar əsasında davam edir. Onun fikrincə, xalqların əsarət altına alınması, onların mədəni inkişafının dayandırılması deməkdir. O, "Şamil və müridizm" əsərində dağlıların çarizmə qarşı mübarizəsindən bəhs etmişdir.

M.Kazımbəyin siyasi görüşlərində azadfikirlilik xüsusi yer tutur. O, ictimai-siyasi həyatda qanunun aliliyini vacib sayırdı.

***Mirzə Fətəli Axundov (1812-1878)*** XIX əsr Azərbaycan demokratik siyasi fikir tarixində mühüm yer tutur.

Axundov ictimai-siyasi görüşlərin əsasında Yaxın Şərq xalqlarının, xüsusilə Azərbaycan xalqının zəngin ideya-siyasi və fəlsəfi irsi əsasında formalaşmışdır. Onun müasir ruhlu mütəfəkkir kimi yetişməsinə XVIII əsr fransız materialistləri və XIX əsr rus inqilabçı demokratları da müsbət tə'sir göstərmişlər. O, mistik baxışlara qarşı çıxmış, dini təriqətləri tənqid etmiş, qabaqcıl rus mədəniyyətinin mütərəqqi rolunu yüksək qiymətləndirmişdir. Axundovun fikrincə, cəmiyyətin inkşafında dini e'tiqad deyil, insan əqli əsas götürülməlidir. O yazırdı: "Bəşəriyyətdə xoşbəxtlik və səadət o vaxt mümkün olacaqdır ki, istər Asiyada, istərsə də Avropada insan əqli əbədi həbsdən tamam qurtaracaq, işlər və fikirlərdə yalnız insan əqli sənəd və

dəlil hesab edilib hakimiyyət mütləq olacaqdır." Axundov həqiqətin üzə çıxarılmasında elmin rolunu xüsusi qeyd edir, elmlə dinin bir-birinə tamamilə əks olunduğunu göstərərək yazırdı: "Din və imanla, elm və fəlsəfə iki ziddi halətdir, cəmiyyətdə bir yerə toplana bilməz. Din və iman sahibi olan adam alim və filosof sayıla bilməz, əgər elm və fəl-səfə sahibi olursa, dindar və mö'min ola bilməz."

M.F.Axundov Azərbaycan ictimai-siyasi fikrində materia-list fəlsəfəni, ateizmi ilk dəfə açıq şəkildə müdafiə edib əsaslandırmağa çalışan mütəfəkkirdir. Onun ateizmi mübariz və fəaldır, təkcə islam dininə qarşı deyil, həm də hər cür dini təfəkkürə, klerikalizmə qarşı çıxaraq, bütün dinləri puç və əfsanə hesab edirdi. O, bu mübarizəni feodal quruluşuna, Şərq müstəbidliyinə qarşı mübarizə ilə bilavasitə əlaqələndirmiş, demokratik maarifçiliyin ideya rəhbəri olmuşdur.

Axundov cismani zülmə, mə'nəvi əsarətə qarşı çıxaraq belə fikirləşirdi ki, xalq öz-özünü zülmdən qurtarmalı, öz hakimiyyətini qurmalıdır. O bu haqda yazırdı: "Zülmü aradan çıxarmaq üçün əsla zalıma müraciət etmək lazım deyildir, bəlkə əksinə, məzluma demək lazımdır ki, ey nadan, sən ki qüdrət, səy və bacarıq cəhətdən zalımdan qat-qat artıqsan, bəs nə üçün zülmə qatlaşırsan? Qəflət yuxusundan oyan və zalımın atasına od vur!" O, xalqın gücünə inanır, istibdad zülmündən xilas olmaq üçün onu birliyə, mövcud quruluşu inqilabi yolla məhv etməyə çağırırdı. Axundov Azərbaycanda inqilabi demokratizmin ideya sələfi idi. Onun ictimai-siyasi görüşlərində azadlıq, humanizm, vətənpərvərlik, xalqlar dostluğu əsas rol oynayırdı.

Axundov feodal qayda-qanunlarını, mövcud dövlət quruluşunun zorakılıq və zülm formalarını tənqid etmiş, qadın azadlığı, şəxsiyyət azadlığı problemini irəli sürmüş, mövcud quruluşu yenisi ilə əvəz etmək yolları haqqında düşünmüşdür. O, 50-ci illərdə sosial inqilabsız qurula bilən ədalətli maarifçi mövqeyində dayanaraq monarxiya tərəfda-



rı, 70-ci illərdə isə xalq hakimiyyəti tərəfdarı olmuş, sosial inqilabın zəruriliyi məsələsini əsaslandırmış, inqilabi-demokratik ideyaları təbliğ etmiş, köhnə quruluşun zor gücünə məhvi fikrinə gəlib çıxmışdır.

Görkəmli mütəfəkkir insanı təbii ehtiyacları ilə birlikdə əsas götürürdü. Maddi ne'mətlərin yaranmasında xalq kütlələrinin həlledici rolunu göstərir, cəmiyyətdə elə dəyişikliklər haqqında düşünürdü ki, bu dəyişikliklər insanların hüquq bə-rabərliyini maddi və əmlak bərabərliyi ilə tamamlamış olsun, bütövlükdə millətin vəziyyətini, insanların xarakter və təbiətini dəyişsin. İdeal cəmiyyət haqqındakı bu fikirlər Axundovu utopik sosialistlərə yaxınlaşdırır.

***Həsənbəy Zərdabi (1837-1907)*** Azərbaycanın maarifçi demokratı, publisisti və pedaqoqudur. Onun dünyagörüşünə mütərəqqi rus mədəniyyətinin, xüsusilə XIX əsr inqilabçı rus demokratlarının tə'siri böyük olmuşdur. Demokratik fikirli ziyalılarla yaxınlıq etmişdir. Bunlardan A.N.Pleşşeyev, İ.M.Seçenov, İ.İ.Meçnikov, K.A.Timiryazev kimi tanınmış rus alimlərini göstərmək olar.

Həsənbəy kainatda əbədi hərəkət və dəyişiklik fikrini qəbul etmiş, insanın təbiəti dərk və onu özünə tabe etmək qüdrətinə malik olduğunu göstərmişdir. O, xalqlar dostluğunu təbliğ etmiş, maarifçi-demokrat mövqeyində duraraq, ictimai dəyişikliklər, inqilabi hərəkat haqqında maraqlı fikirlər söyləmiş, cəmiyyətin maarif, elm yolu ilə dəyişdirilməsini mümkün hesab etmişdir. Onun pedaqoji-maarifçi görüşlərinin əsasını humanizm, vətənpərvərlik və beynəlmiləlçilik ideyaları təşkil edirdi. Zərdabi təhsilin həyatla əlaqəsinə böyük əhəmiyyət vermişdir.

***Məhəmməd Ağa Şahtaxtlı (1846-1931)*** ictimai ədalətsizliklərə qarşı çıxaraq, feodal ictimai quruluşunu pisləmiş, ictimai-siyasi xadim kimi milli türk dövlətinin yaradılmasını və ictimai həyatın bütün sahələrində demokratik dəyişiklik-

lər edilməsini vacib saymışdır.

M.A.Şahtaxtlı dövlətin idarə formaları məsələsində respublika idarə formasına üstünlük verirdi.

*Cəlil Məmmədquluzadə (1869-1932)* Azərbaycanın tanınmış yazıçısı, jurnalisti və ictimai xadimidir. O, "Çay dəsgahı", "Danabaş kəndinin əhvalatları", "Poçt qutusu", "Ölülər", "Anamın kitabı", "Bəlkə də qaytardılar" və s. kimi əsərlərində ardıcıl realizm yolunu tutmuşdur. Onun əsərlərində Azərbaycan kəndində hökm sürən feodal-patriarxal münasibətlər, çar hakimlərinin özbaşnalığı, şüurlarda və məişətdəki gerilik, mövhumat və xurafat, qadınların acınacaqlı həyatı böyük vətəndaş kədəri ilə əks olunmuşdur.

C.Məmmədquluzadə Marks və Darvin, Epikür və Sokrat, Şekspir və Şiller, Qlinka və Bethoven, Derjavin və Puşkin, Zərdüşt və Maninin, habelə bir çox görkəmli simaların müxtə-lif sosial-siyasi, fəlsəfi, dini, etik-estetik ideyalarından bəhs etmişdir. Onun "Molla Nəsrəddin" jurnalı Yaxın və Orta Şərqdə, xüsusilə İran və Türkiyədə ədəbi-ictimai fikrin, inqilabi-demokratik hərəkatın inkişafına fəal tə'sir göstərmişdir.

C.Məmmədquluzadə materialist və ateist idi. O, demokratik, xalq hakimiyyəti quruluşa malik olan dövlət formasının tərəfdarı idi.

*Nəriman Nərimanov (1870-1925)* yazıçı, publisist və dövlət xadimi idi. O, ictimai problemlərə toxunan "Nadanlıq", "Şamdan bəy", "Nadir şah", "Bahadur və Sona" kimi əsərlərin müəllifidir.

N.Nərimanov dövlət idarə formasını üç yerə bölürdü:

***1. Mütləq monarxiya.***

***2. Konstitutsiyalı monarxiya.***

***3. Respublika.***

O, bu üç dövlət formasından respublika üsul-idarəsinə



üstünlük verirdi.

N.Nərimanovun ictimai-siyasi görüşlərinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, onun dünyagörüşü Azərbaycan həyatının irəli sürdüyü vəzifə və tələblərlə, xalqımızın ictimai və milli zülmə qarşı mübarizəsi ilə sıx əlaqədə təşəkkül tapmışdır.

***Məmməd Əmin Rəsulzadə (1884-1955)*** xalqımızın böyük öğlu, ictimai xadimidir. Onun ədəbi-siyasi irsi aşağıdakı əsərlərdə öz əksini tapmışdır: "Azərbaycan Respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti", "Əsrimizin Səyavuşu", "İstiqlal sosializmin iflası və demokratiyanın gələcəyi", "Millət və bolşevizm", "Qafqaz türkləri", "Azərbaycan və istiqlaliyyəti" və s. Onun bu əsərlərində Azərbaycanın müstəqilliyi və gələcək problemləri işıqlandırılmışdır.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin təntənəli açılışında M.Ə.Rəsulzadə demişdir: "Biz o zaman ki, fərq qoymadan varlı-kasıb, sahibkar, işçi, torpaq sahibi - muzdur, öğrətmən-tələbə, möhtərəm-cahil, sinif, məslək, rütbə, vəzifə, nəsil, bilgi imtiyazı aramadan bütün vətəndaşlar məmləkətin idarəsində iştirak edir, qanun verən qurumlara girmək haqqına da sahibdirlər. Burada bir sinif digərisinə hakim deyildir. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünürdü. Bunun kimi nə yoxsulluğu üçün sayğılanır, nə də zənginliyi üçün alçaldılırdı.

Xoşbəxt həyatın ancaq hürriyətlə hasil olacağını Azərbaycan cümhuriyyəti, hökuməti ona izn verilməsini istəmişdir. Burası söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı ilə o dərəcəyə çatmışdır ki, sanki hər kəs nə istərsə söylər, oxuyar, yazardı. Millətin hər partiyasının özünə xas təşkilatı və qəzeti vardı.

Millət məclisi məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin təmamən taleyinə hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf yapılmaz, heç bir müharibə baş-

lanmaz, heç bir barışıq bağlanmazdı. Hökumət məclisin e'timadını qazananda qalır, itirəndə düşürdü. Ortada hakim olacaq vasitə vəzifədə də yox idi. Parlament hakimi-mütləq idi. Burada Avropada tətbiq olunmayan Xalq cümhuriyyəti qurulmuşdu.

Azərbaycan Xalq cümhuriyyətində vətəndaşlar arasında siyasi bərabərlik bir qərar almaqla bərabər, sosial bərabərsiz-liyin zərərli nəticələri də adi tərzdə dəyişilirdi.

Ərazi məsələsinə misal kimi desək: hər əkinçi özü əkib-becərdiyi müəyyən miqdar torpağa sahibliyini qəbul etməklə bərabər, Azərbaycan islahatçıları geniş torpaqları ölü halında saxlayan torpaq sahiblərinin mülkiyyət hüququnu rədd edirdi. Millət Məclisində hazır olan qanun lahiyəsinə görə xüsusi ərazi sahiblərindən alınıb dövlət malı olduqdan sonra, əkin yeri, vətəndanların mülkiyyəti ilə bölünür, dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı mə'dənlər isə tamamilə dövlət xəzinəsinə qalırdı.

Digər əmlak və istehsal vasitələrindən olan fabrik və bu kimi quruluşlara gəlincə, bunların xırda mülkiyyətlərə bölünməsi tətbiqi imkansız olduğundan burada çalışan işçinin yüksək tutulması, xüsusi surətdə hazırlanan əmək qanunlarının nəşri ilə tə'min olunub, dəmir yolu, işıq, su, telefon, teleqraf və s. bu kimi ümumi işlərə xidmət edən quruluşlar ya milliləşir və yaxud bələdiyyələşdirilirdi.

Cümhuriyyətin quruluşundan əvvəl bir-birinin ətini yeyən əhali arasında, hər yerdə meydana gətirilən rabitə sayəsində rus istilası zamanından daha yaxşı bir əmin-amanlıq və intizam vücüda gəlib, hər tərəfdə bələdiyyə və məhəlli idarələri qurulurdu." ("Əsrimizin Səyavuşu" Bakı 1991. s. 40).

M.Ə.Rəsulzadənin yuxarıda nəzəri-siyasi irsində azadlıq ideyaları əsas yer tutur. O, azadlığın beş əsas formasını göstə-



rirdi:

1. ***Söz azadlığı.***
2. ***Mətbuat azadlığı.***
3. ***Vicdan azadlığı.***
4. ***İnsan hüquqlarının qorunması.***
5. ***Milliyətindən asılı olmayaraq din azadlığı.***

Azərbaycan milli dövlətinin yaradacısı, xalqımızın böyük oğlu və görkəmli mütəfəkkiri M.Ə.Rəsulzadənin ədəbi-siyasi irsi bu gün hər bir azərbaycanlının vətənpərvərlik və sədaqət ruhunda tərbiyəsi üçün e'tibarlı mənbədir.

# FƏSİL IV
# SİYASƏT
## § 1. Siyasət haqqında anlayış və fikirlər

Hələ ibtidai icma quruluşu dağıldıqdan sonra insanlar arasında münasibətlər yaranmağa başlamışdır. Bu dövr tarixdə artıq sinfli cəmiyyətin quldarlıq quruluşunun yarandığı dövr idi. Siyasət özünü əslində sinifli cəmiyyətdə biruzə verməyə başlamışdır. Bəs, siyasət nədir? Son vaxtlar bu termin daha çox işlənir. Siyasət cəmiyyətin inkişafı ilə bağlı olan bir məsələdir, o kənarda mövcud ola bilməz. Cəmiyyəti idarə edən insanlar arasında meydana gələn münasibətlərdən əmələ gəlmişdir. Bu insanlar fərdlərdən, qruplardan millətlərdən və onların arasında yaranan (aşağı-yuxarı təbəqə) siniflərdən ibarətdir. Bir sözlə, ***siyasət-siniflər, millətlər, xalqlar və digər sosial qruplar arasındakı münasibətlərlə bağlı fəaliyyət sahəsidir.***

Müasir şəraitdə siyasət xüsusi mə'na və əhəmiyyətə malikdir. ***Birinci,*** ona görə ki, dünya sivilizasiyası dərin böhran keçirir, bütün dünyanın insanlarını belə bir siyasət düşündürür: görəsən bu böhrandan necə çıxacaqlar, hansı siyasi yolla dünyanı yaşatmaq olar? ***İkincisi,*** Sovetlər İttifaqı dağılmış və yeni müstəqil dövlətlər yaranmışdır ki, bu da bəşər sivilizasiyası üçün problem yaradır. Buradan da çıxış yolu tapmaq? ***Üçüncüsü,*** iki qarşı-qarşıya duran, bir-birinə zidd olan sosialist və kapitalist quruluşun arasında olan, qlobal problemlərin axarının başqa məcraya yönəlməsi, bu yönümü düzgün istiqamətləndirən siyasi lider gərəkdir. İki hegemon dövlətdən birinin güclənməsi və digərinin tamam məhvə doğru getməsi. Bunlar hamısı müasir dövrün ən böyük siyasi gedişləridir.

Siyasətin əsasında dövlət hakimiyyətini ələ almaq, saxlamaq və ondan istifadə durur. Siyasətdə başlıca məsələ dövlət hakimiyyətini qurmaq, onun fəaliyyətinin forma, vəzifə və məzmununu müəyyən etməkdir. K.Marks yazırdı ki, hər bir ictimai problemin həlli hakimiyyət problemilə bilavasitə və ya dolayı şəkildə bağlı olduğu zaman siyasi xarakter kəsb edir. Min illər boyu siyasi təlatümləri, hərəkatları törədən motivləri insanın mücərrəd təbiətində, dində, fəlsəfədə axtarmışlar.

Sosial hadisələr kompleksində siniflərin rolu və yerinin aydınlaşdırılması, siyasi münasibətlərin sinfi münasibətlər olması nəticəsini çıxarmağa kömək etdi. Siyasi mənafelərin məzmununu məhz siniflərin tələbatı müəyyənləşdirir. Sosial həyat mürəkkəbləşdikcə, siniflər və digər ictimai qruplar öz mənafelərini başa düşdükcə, cəmiyyətin siyasi üstqurumu formalaşmış, əvvəlcə dövlət, sonralar siyasi partiyalar meydana gəlmişdir.

Siyasət iqtisadi proseslərdən asılı olub, cəmiyyətin iqtisadi bazisi üzərində üstqurum kimi çıxış edir. İqtisadi problemlərin həlli siyasi hakimiyyətin saxlanıb möhkəmləndirilməsinə tabe edilməlidir. İstehsal münasibətləri müəyyən tarixi mərhələ üçün səciyyəvi olan sosial-siyasi problemlərlə kontekstdə təhlil etmək düzgün siyasi münasibətdir.

Siyasi fəaliyyət iqtisadi fəaliyyətdən törəmə olsa da, nisbi müstəqilliyə malikdir. Müasir ictimai inqilablar dövründə həyatın sür'ətlə "siyasiləşməsi" nəticəsində bəşəriyyətin qarşısında duran ən aktual problemlər daha çox siyasi əhəmiyyət kəsb edir. Siyasəti iki yerə bölürlər: **1) daxili siyasət və 2) xarici siyasət.** Xarici siysəti daxili siyasətdən fərqləndirirlər. Lakin bu şərtidir.

***Vladimir İliç Lenin*** qeyd edirdi ki, xarici siyasəti, daxili siyasətə və ya əksinə qarşı qoymaq əsla düzgün deyil, bu qeyri-elmi fikirdir. Siyasət yuxarıda qeyd edildiyi kimi həmişə insanların güzəranının yaxşılaşdırılmasına xidmət et-

mişdir. Onun sosial qayğılarının həllinə yönəldilmişdir.

Siyasətdə daha çox cəmiyyətin siyasi təşkilinin möhkəmləndirilməsinə, təkmilləşdirilməsinə, bütün ictimai münasibətlər sisteminin tədricən dəyişdirilməsinə yönəldilmişdir. Siyasi liderin rəhbərlik strukturuna aşağıdakılar aiddir: ***1-ci*** prinsipial vəzifələr irəli sürmək, nəzərdə tutulmuş vaxt ərzində əldə ediləcək, perspektiv və yaxın məqsədləri aydın müəyyənləşdirmək. ***2-ci*** qarşıdakı məqsədlərə ən optimal şəkildə nail olmağı tə'min edən ictimai fəaliyyət və təşkilat metodları və formalarını işləyib hazırlamaq. ***3-cü*** nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək üçün bacarıqlı kadrları seçib yetişdirmək.

Siyasət bir-biri ilə çox qarşılıqlı səbəbiyyət əlaqəsində olan müəyyən ictimai hadisələrdən ibarətdir. O, daha irəli getməyə və mürəkkəb, çoxcəhətli hadisə olan siyasəti hərtərəfli, geniş formada tələb edir.

Siyasət haqqında çox qədimdən ayrı-ayrı mütəfəkkirlər söz demiş və təhlil etmişlər.

Antik yunan filosofu ***Platon*** siyasəti hökmdara aid edib və bunu insanlar üzərində idarə etmə bacarığı hesab edib. Bu idarəetmənin qanun əsasında olmasına xüsusi diqqət yetirib.

Digər Antik yunan filosofu ***Aristotel*** siyasətə aparıcı qiymət vermiş, o siyasətin əsas məqsədi və funksiyasını insanların birgə yaşayışını idarə etmək vasitəsində görür. Aristotel siyasəti etika ilə əlaqələndirir. O əxlaqı, etikanı (fəzilətləri) siyasətin əsası, onun açarı adlandırıb.

Orta əsr Azərbaycan filosofu, ensiklopedik alimi ***N.Tusi*** siyasətə xüsusi diqqət yetirmiş və bu haqda yazmışdır: "Dünyanın intizamı, məişətin nizamı əməklə hasil olduğundan, insan növü isə köməksiz yaşaya bilmədiyindən, əmək köməksiz, kömək isə ictimaiyyətsiz ola bilməz. Deməli, insan növü öz təbiəti e'tibarilə ictimaiyyətə möhtacdır. Bu cür ictimaya, şərh etdiyimiz kimi, "təməddün" deyirlər. Təməddün sözü "mədinə" sözündən əmələ gəlmişdir və həyatı tə'min etmək üçün kollektiv sənət və peşə ilə məşğul olan adamların ictimai halında yaşadığı yer deməkdir."



Sonra Tusi belə izah edir ki, hərəsini öz yerində oturtmaq, hərənin öz payını verib başqasının haqqına əl uzatmağa qoymamaq, ictimai əmək prosesində ona tapşırılan işi yerinə yetirməyə məcbur etmək üçün tədbirlər görmək zərurəti doğar. Bu tədbiri o "siyasət" adlandırmışdır. Siyasətin ***namusa, hakimə və dinara*** (pula) ehtiyacı olar. Bu tədbir lazım olduğu kimi, hikmətə əsasən həyata keçirilsə, insanın və insan növünün təkmilləşməsinə səbəb olsa, ona ilahi siyasət deyərlər, başqa məqsəd güdsə, həmin məqsədi ifadə edən söz "siyasət" sözünə əlavə edilər.

Nəsrəddin Tusi Aristotelin siyasət haqqında fikirlərinə əsaslanaraq, siyasəti dörd qismə ayırmışdır:

***Birinci*** - ölkə siyasəti;
***İkinci*** - qələbə siyasəti;
***Üçüncü*** - kəramət siyasəti;
***Dördüncü*** - camaat siyasəti.

***Ölkə siyasəti.*** Camaatı elə dolandırmağa deyərlər ki, bundan onların fəziləti artsın; buna füzəla siyasəti də deyilir.

***Qələbə siyasəti.*** Nakəs adamlar haqqında görülən tədbir-lərə deyərlər, bunlara nakəslər siyasəti də deyərlər.

***Kəramət siyasəti.*** Camaatı elə idarə etməyə deyərlər ki, bunun nəticəsində onların kəramətləri (peşə və sənətləri) inkişaf edib artsın.

***Camaat siyasəti.*** İlahi namus (ədalətli vicdan) əsasında tərtib edilmiş müxtəlif qayda-qanuna deyərlər ki, bununla camaatı idarə edərlər.

***Ölkə siyasəti*** bütün yerdə qalan siyasətləri əhali arasında yayar və hər bir təbəqəni özünə müvafiq siyasətlə idarə edər,

beləliklə, onların daxili qabiliyyətinin zahiri işə çevrilməsinə nəzarət yetirər. Buna da siyasətlər siyasəti deyərlər.

Ölkə siyasətinin camaat siyasətilə əlaqəsi, aşağıdakı kimidir. Qeyd etmək lazımdır ki, siyasət bə'zən qərari işlərə, məsələn, müqavilələr, sazişlər kimi; bə'zən əqli hökmlərə, məsələn ölkə, şəhər idarəetmə kimi məsələlərə aid olur.

Dərrakə, fəzilət və mərifətdə xüsusi iste'dadı olmayan bir adam bu iki iş növünün heç biri olmadan başlamamalıdır, çünki şəraiti öyrənmədən, onun tələbatını bilmədən bunlardan birini o birisindən qabağa salmaq dava-dalaşa və ixtilafa səbəb olar.

Deməli, şəraitin nə tələb etdiyini müəyyənləşdirmək üçün elə bir şəxsiyyətə ehtiyac var ki, o, ülvi bir ilhama malik olmaqda başqalarından fərqlənsin, qalanlar onu təqlid etsin. Bə'zən belə siyasət adamına "qanun sahibi" deyərlər, onun qanunlarına "ilahi namus" (ilahi qanun) deyilərdi.

Tusi Platonun "Siyasət" kitabından iqtibas gətirərək yazırdı: "Əflatun özünün "Siyasət" kitabının beşinci məqaləsində belə adamlara işarə edərək demişdir: "Bunlar qüvvətli, böyük və fövqəladə adamlardır".

Nəhayət N.Tusi "siyasəti" bir elm kimi belə qiymətləndirmişdir: "Ünsiyyət və əlaqə yalnız o zaman baş tutar ki, nəyin nizama aparıb çıxaracağını, nəyin pozğunluğa səbəb olacağını, hər kəslə tək-tək necə davranmaq lazım olduğunu öyrədən elmi yaxşı bilsin, bu ictimaiyyət elmidir. Deməli, hamı bu elmi öyrənməyə sə'y etməlidir ki, fəzilət sahibi olmağı bacarsın; əks halda rəftar, münasibət və davranışda səhvlərə yol verər, dünyada qanunauyğunluqlara səbəb olar, o mərtəbə və dərəcəsinə çatmaz (yəni siyasətçi olmaz). Bu cəhətdən də həmin elmin nə qədər ictimayyət üçün faydalı olduğu aşkara çıxar".

Tusinin fikrincə, tibb elmi sahibi öz sənətində mahir olduqda, insan sağlamlığını mühafizə edib xəstəlikləri aradan



qaldırmağı bacardığı kimi, bu elm sahibi də öz sənətində mahir olduqda, həqiqi ədalət və müvazinət adlanan dünya vəziyyətinin sağlamlığını mühafizə edib ictimai xəstəlikləri aradan qaldırmağa qadir olar. O, əsl mə'nada dünya təbibi sayılar.

Bu "Siyasət" elmi dünyaya xoşbəxtilik şüası saçar, insan qüdrəti daxilində şərin qarşısını alar. Dediyimiz kimi, bu elmin mövzusu insan cəmiyyətində olan münasibətlər sistemidir, insan cəmiyyətində, istər ümumi, istərsə də, xüsusi, ictimai münasibətlər müxtəlif olar.

N.Tusinin "Siyasət" haqqındakı fikirləri o qədər dolğun və məzmunludur ki, bu gün də bəşər sivilizasiyasını böhranlı vəziyyətdən çıxarmaq üçün ona ehtiyac duyulur.

***Makiavelli Nikkolo di Bernardo (1469-1527)*** italyan mütəfəkkiri, yaranmaqda olan burjuaziyanın ideoloqu, yazmış ol-duğu "Hökmdar" əsərində ilk dəfə olaraq göstərirdi ki, cəmiyyət allahın iradəsi ilə deyil, təbii səbəblər üzündən inkişaf edir. Tarixi inkişaf əsasında "maddi maraq" və qüvvə durur. Xalq kütlələrinin və hakim siniflərin mənafelərinin əksliyini qeyd etmiş, feodal çəkişmələrindən azad, xalq həyəcanlarını yatır-mağa güclü milli dövlətin yaradılması uğrunda çıxış etmişdir.

Siyasi mübarizədə böyük məqsədlər naminə əxlaq qanunlarına məhəl qoymamağı və istənilən vasitələrdən istifadə etməyi mümkün saymış, hakimiyyət uğrunda mübarizədə hakimlərin qəddarlığına və xainliyinə bəraət qazandırmışdır. Makiavellinin tarixi xidməti bundadır ki, o, ilk dəfə olaraq, dövlətə insan gözləri ilə nəzər salmağa və onun qanunlarını teologiyadan deyil, zəkadan və təcrübədən hasil etdiyini göstərmişdir. O, belə hesab edirdi ki, siyasətin ali məqsədi və əsas problemi zamanın xarakterinə və qərar qəbul olunan məqamda spesifik şəraitə uyğun gələn hərəkətdən asılıdır. Siyasəti emprik elm kimi əsaslandırmışdır.

***Fransız mütəfəkkiri və psixoloqu M.Dyuvercenin*** siyasət haqqında fikri dualist (ikili) baxımlıdır. O, siyasəti "siyasət münaqişədir, mübarizədir, burada hakimiyyətdə olanlar cəmiyyət üzərində nəzarət etməyi və sərvətlərə sahib olmaq hüququnu tə'min edirlər" kimi qiymətləndirmişdir. Digər baxışına görə siyasət idarəçiliyi, qayda-qanunu və ədaləti həyata keçirməkdən ibarətdir.

Dyuverce siyasətə belə tə'rif vermişdir: ***siyasət-ölkənin ictimai işlərinin idarə olunmasına aid olan və hakimiyyətin yaradılmasını, onun fəaliyyəti üzərində nəzarəti, onu həyata keçirən şəxslərin dəyişdirilməsi imkanlarını müəyyən edən hərəkətlərin və tə'sisatların məcmuusudur.***

Alman sosioloqu ***M.Veberin fikrincə,*** siyasət ictimai-iqtisadi hadisənin mahiyyəti, onun təkcə obyektiv tərəfləri ilə deyil, eyni zamanda hər şeydən əvvəl tədqiqatçının nöqteyi-nəzərindən müəyyənləşir. Onun fikrincə, siyasət müstəqil rəhbərlik üzrə bütün fəaliyyət növlərini əhatə edir. Məsələn, şəhər siyasəti, kənd siyasəti, şəxsi siyasət və s.

Digər alman filosofu ***F.Nitşşe*** siyasətə güc və iradənin mübarizəsi kimi baxırdı. Onun siyasətinin başlıca istiqaməti alman faşizminin ideologiyasına doğru gedən bir siyasət idi. Sonralar alman faşizminin ideya mənbələrindən biri oldu.

Tanınmış ingilis alimləri ***P.Gill və C.Panton*** siyasət anlamına aşağıdakı kimi qiymət vermişlər. İctimai işlərin aydınlaşdırılması və qaydaya salınması üsuludur. Yə'ni, siyasət ən başlıcası, insanların müxtəlif sferalarda müxtəlif cür ifadə olunan və zaman keçdikcə daim dəyişən ictimai və maddi qarşılıqlı münasibətlərini tənzim edən sosial fəaliyyətdir. Siyasət sosial həyatın xüsusi sahəsi deyildir. İngilis alimlərinin fikrinə görə, sərvətlərin və ehtiyatların bölüşdürülməsi ilə bağlı, konfliktlərin həll edilməsi üzrə məqsədyönlü kollektiv fəaliyyətin olduğu hər bir yerdə siyasət mövcuddur. İctimai gerçəkliyin hansı bir sahəsində siyasət yoxdursa, onda orada konflikt də yoxdur.



Siyasəti bir çox alimlər və politoloqlar, hakimiyyət və onun formalaşdırılmasında görürlər. Politoloq A.Kalan yuxarıda dediyimiz kimi izah etməyə çalışır. Digər politoloq ***H.Lassuell*** isə belə izah edir, siyasət sosial qrupların əsas e'tibarı ilə hakimiyyət vasitəsilə öz mənafeyini müdafiə etmək və onu tə'min etmək üzrə fəaliyyətinin üsulları və istiqamətlərinin məcmuusudur.

Siyasəti sosial hadisələrlə eyniləşdirən politoloqlar da var. ***B.Latur və Q. Şubert*** siyasəti dövlət hakimiyyəti ilə əlaqələndirirlər. Onların fikrincə, siyasət dövlət-hakimiyyət adlandırılan xüsusi bir həlqədə reallaşır. Əlbəttə bu fikir yanlışdır. Dövlətin, siyasətin mərkəzi kateqoriyası e'lan edilməsi, kollektiv ictimai subyektlər, xalqlar, siniflər, kollektivlər, sosial hərəkatlar da onun subyektləri hesab edilir.

Siyasətin əsas məqsədi hakimiyyəti ələ almaq, saxlamaq və inkişaf etdirməkdən ibarətdir. Eyni zamanda, hakimiyyət siyasətin həm məqsədi, həm də vaitəsidir. Siyasi lider və siyasətçilər məqsədlərinə çatmaq üçün istənilən vasitələrdən istifadə edə bilərlər. Məsələn, hakimiyyətə gəlmək məqsədi ilə 1991-ci il avqust ayında keçmiş SSRİ-də baş vermiş "dövlət çevrilişi" cəhdini göstərmək olar. Bu zaman sosial subyektlər müəyyən vasitələrdən istifadə edərək, B.Yeltsini hakimiyyətə gətirdilər.

Buradan aydın olur ki, sosial subyektlər müəyyən vasitə-lərdən istifadə edərək, hakimiyyətə gələ bilərlər. Lakin, onların əksər hallarda hakimiyyəti uzun müddətli olmur.

Siyasətdə siyasi qərarların qəbul edilməsini təkcə siyasi liderin, müəyyən sosial subyektin adına bağlamaq düzgün olmazdı. Siyasi qərarların qəbulu tədqiqatçı kollektivlərin gərgin əməyinə əsaslanmalı və sonra həyata keçirilməlidir.

Siyasət hadisəsinin mərkəzində dövlət durur. Dövlətin idarə edilməsində kütlə ilə hakimiyyət arasında siyasət ideyasının mərkəzləşdirilməsi zəruridir. Siyasi hadisə sosial

subyektlərin qarşılıqlı hərəkətləri zamanı meydana çıxır və siyasi strukturlarda onların yeri və fəaliyyəti müəyyənləşir. Bundan sonra ayrı-ayrı insanların və sosial qrupların siyasətə və hakimiyyətə müxtəlif münasibətlərində aşkar olur.

Siyasət-dövlət, hüquq, partiya, seçki sistemi, qərarların qəbul edilməsi prosesini, siyasi münasibətləri, siyasi mədəniyyəti özündə birləşdirir. Bunlar aşağıdakılardır:

*1. Dövlət hakimiyyəti.*
*2. Siyasi münasibətlər.*
*3. Sosial tə'sisatlar sistemi.*
*4. Hakimiyyət uğrunda mübarizə və onun idarə edilməsi.*

Siyasət müəyyən hallarda müstəqil çıxış edə bilər. Bu müstəqil siyasət cəmiyyətin iqtisadi quruluşuna tə'sir edir və onu müəyyənləşdirə bilər. Hakimiyyətə gəlmiş yeni qüvvələr iqtisadiyyata hökmranlıq edən siniflərə öz iradəsini qəbul etdirməklə, ondan müəyyən güzəştlər çıxara bilər. Lakin bu proses müvəqqəti olur. Yuxarıda qeyd edildiyi kimi, siyasətdə əsasən göstərilən şərtləri qəbul etməli və ona düzgün nəzarət olmalıdır.

### *§ 2. Siyasətdə məqsəd və mənafelər*

Siyasətdə məqsəd hələ Qədim Şərqdə, Yunanıstanda və Romada filosof və müdrikləri düşündürmüşdür. Plutarx qeyd edirdi ki, məqsədsiz hakimiyyətə inanmaq ağılsızın əlində qılınc kimi bir şeydir. XIX əsrdə T.Ceferson isə onu başqa bir formada belə demişdir: "Siyasətdə, idarəetmədə insan məqsədi ən başlıca şərtdir".

Siyasətdə məqsədə nail olmaq üçün əxlaq əsas amillərdən biridir. Mə'nəviyyatlı, əxlaqlı, tərbiyəli, mədəni davranışlı siyasətçi həmişə hakimiyyətin idarə edilməsində siyasi liderə çevrilir.

Siyasətdə əxlaq Nəsrəddin Tusinin "Əxlaqi Nasir" kitabında özünün geniş məzmununu tapmışdır. O, şahları dövlə-



ti idarə edərkən əxlaqlı olmağa çağırmışdır: "Şah ölkəni idarə edərkən, onun siyasətinin başında iki xisləti olmalıdır. ***Birinci*** - atalıq, bu, hər kəsin özünə görə münasibət, xalqın ürəklərinə yol tapmaq, hamıya mehribanlıq göstərmək, hirs və qəzəbini uda bilmək vasitəsilə asanlıqla əldə edilə bilər. ***İkinci*** - alicənablıq. Nəfsani qüvvələri tərbiyə edib formalaşdırdıqdan sonra yaranan "şəhvət" hisslərini məhv etmək. Bu şərtlər ölkənin siyasətində insanın mənafeyində əsas şərtdir.

Siyasi davranışın, siyasi münasibətlərin və siyasi ünsiyyətin əsasında mənafe durur. Cəmiyyətdə müxtəlif sosial qrupların əmələ gəlməsinə gətirən ictimai münasibətlər forması mənafedir. O mə'nadakı obyekt-subyekt münasibəti, obyektiv imkanların subyektiv ifadəsidir.

Sosial-siyasi münasibətlər sistemində subyektin vəziyyəti, ictimai sistemin strukturunda onun yeri son nəticədə siyasi mənafenin reallığını müəyyənləşdirir. Sosial subyektin konkret davranışı siyasi mənafenin obyektiv təzahür formasıdır. Buradan aydın olur ki, subyekt həmin davranış formasını öz mənafeyinə uyğun, daha optimal hesab edir. Hər hansı davranış üsulu ilə öz növbəsində o zaman siyasi mənafeyə çevrilir ki, o, subyekt üçün mövcud qaydada olsun. Subyektin özünün müəyyənləşdirilməsi mərhələsi, siyasi mənafenin subyektiv tərəfini büruzə verir. Bu proses cəmiyyətin inkişafında öz-özünə həm adi, həm də fərdi şüur səviyyəsində meydana gəlir və inkişaf edir.

Siyasi biliklərin, yönümlərin, qiymətlərin işlənib hazırlanması formasında, adi şüurun səviyyəsində proses həyata keçir. Onlar isə praktik fəaliyyəti, sosial fəallığı, vətəndaşlıq mövqeyini müəyyənləşdirir.

Siyasi mənafe ictimai qrupların öz mənafeyini siyasi hakimiyyət vasitəsilə reallaşdırmaq imkanlarının obyektiv surətdə qavranılmasıdır. Siyasi mənafenin birbaşa obyekti

siyasi hakimiyyətin ələ alınması, möhkəmləndirilməsi, müvafiq mərhələdə möhkəmləndirilməsi, habelə onun təkmilləşdirilməsidir. Onun bilavasitə subyekti isə siyasi hakimiyyətin tə'sirinə mə'ruz qalan digər münasibətlərdir.

Konkret olaraq, siyasi mənafe siyasi hakimiyyətdə iştirak etməyin obyektiv imkanlarının sosial subyekt tərəfindən qavranılmasıdır.

Digər əlamətlərə görə siyasi mənafeləri üç qrupa bölmək olar:

*1. İctimai təşkilatların, dövlət, partiya və birliklərin mənafeyi.*

*2. Siyasi xəttin xüsusiyyətlərinə görə radikal, liberal, mərkəzi və s.*

*3. Siyasi rejimin xüsusiyyətinə görə demokratik, anti-demokratik, totalitar və s.*

Zaman e'tibarilə, siyasi mənafe sabit xarakter daşıyır. Sosial birliklər hakimiyyət zamanı siyasi mənafeyin sabit olmasını istəyirlər, ona görə ki, bu proses mənafelərin tə'sisatlandırılması adlanır, yə'ni bu zaman müvafiq birliyin mənafeyi müəyyən tə'sisatlarda öz təcəssümünü tapır. Həmin tə'sisatlar istər ixtisar, istərsə də siyasi mənafelərdə özünü biruzə verir.

İctimai siyasi fəaliyyətə uyğun olaraq, insanın tələbatı və mənafeyi formalaşır, insanın müxtəlif sə'ylərinin mənbəyini məhz tələbat təşkil edir. Tələbat obyektiv məzmuna malik olub, fərdlər tərəfindən dərk edilib-edilməməsindən asılı olmayaraq mövcuddur. Onun düzgün öyrənilməsi şəxsiyyətin siyasi fəallığına güclü tə'sir göstərən əsas amildir. Tələbat fərdin, şəxsiyyətin, sosial təbəqənin, qrupun, bütövlükdə cəmiyyətin elə motividir ki, bu onların mövcudluğu və inkişafı şəraitinin obyektiv məzmunundan asılılığını ifadə edir. Cəmiyyətin inkişafında mənafeyi sadəcə olaraq şüurun xassəsinə, müəyyən məqsədə can atmaqla insanın tələbatına, arzusuna aid etmək olmaz. Mənafe insanın həm sosial, həm də siyasi fəaliyyətinə aiddir.



Mənafe nəinki, bu və ya digər ne'mətləri əldə etməyə və ya mənimsəməyə insanın seçici, məqsədyönlü meylində ifadə olunan müəyyən bir psixoloji prosesdir. Mənafe, həm də insa-nın varlığı, yaşayış şəraiti, onun sərvətlərə münasibətinin, psi-xoloji həyəcanlarının əsasını təşkil edən tələbatı ilə əlaqədar olub, obyektiv surətdə mövcuddur. Cəmiyyətin, sinfin, millə-tin, sosial təbəqənin və s. öz obyektiv mənafeyi vardır.

İnsanların iradəsindən asılı olmayaraq şəxsi mənafe həm sinfi mənafe, həm də ümumi mənafe kimi mövcuddur. İnsanın yaşadığı, fəaliyyət göstərdiyi cəmiyyətin, daxil olduğu sinfin, sosial qrupun mənafeyi də hökmən şəxsi mənafeyin məzmununa daxildir.

A.Smit və Q.Spenser tərəfindən "Mənafe" modeli işlənib, hazırlanmışdır. "Mənafe" insanları hərəkətə gətirən, onları ayıran və birləşdirən psixoloji modeldir. İnsan yalnız özünün mənafeyinə uyğun işlə məşğul olur. "Mənafe" modeli müasir nəzəriyyələrdə ifrat sağların, neokonservatorların, sol radikalların və liberalların doktrinalarında istifadə edilir. Burada şəxsiyyət siyasəti ifadə edən fəal fiqur və subyekt kimi təqdim olunur.

"Mənafe" modelinin tərəfdarlarının siyasi təfəkkürünə görə iki növ ziddiyyət mövcuddur. Bunlar "cəmiyyət" və "fərd" və "cəmiyyət və dövlət" arasında olan ziddiyətlər. Birincidə fərd fəal kimi çıxış edir, ikincidə isə cəmiyyət fərdlərin cəmi kimi təsvir olunur. Burada dövlət fərdlərin mənafeyini, onun hüquqlarını tapdalayır və sərt mərkəzləşmiş hakimiyyət qurur.

# FƏSİL V

## SİYASİ ELİTA VƏ SİYASİ LİDERLİK

### *§ 1. Siyasi elita anlayışı*

Elita fransızca "elite" sözündən olub, Azərbaycan dilinə tərcümədə ən yaxşı, seçilmiş mə'nasını verir. Bu söz əvvəllər sovet ictimai-siyasi ədəbiyyatında demək olar ki, heç işlədilmirdi. Hətta ensiklopediyalarda belə bu terminin sosial-siyasi mə'nada adı çəkilmirdi. Yalnız "Fəlsəfə ensiklopedik lüğəti"ndə "elita nəzəriyyəsi" adı ilə göstərilmişdir. XVII əsrdən başlayaraq, "elita" sözündən sosial təbəqənin ən yüksək səviyyəsində dayanan "seçilmiş insanları" adlandırmaq üçün istifadə olunmağa başlandı. İngiltərədə yalnız cəmiyyətin ən yüksək sosial qrupunu bu adla adlandırırdılar. Buna baxmayaraq, XX əsrin əvvəllərinədək bu termin ictimai elmlərdə o qədər də geniş yayılmamışdır.

***Elita nəzəriyyəsi hər hansı sosial strukturun zəruri hissəsi olan yüksək imtiyazlı təbəqənin, idarə edən azlığın əhalinin bütün qalan hissəsi üzərində hökmranlığını təsdiq edən sosial-siyasi konsepsiyaların məcmusudur.***

Siyasi elita dedikdə, cəmiyyətdə azlıq təşkil edən, kifayət qədər müstəqil olan, yüksək, nisbətən imtiyazlı qrup (yaxud qruplar), məcmusu yüksək psixoloji, sosial və siyasi keyfiyyətə malik olan, bilavasitə qərarların qəbul edilməsi və həyata keçirilməsində iştirak edən, dövlət hakimiyyəti ilə əlaqəli olan və yaxud ona tə'sir edən təbəqə başa düşülür.

Hələ qədim dövrdə cəmiyyəti idarə edən təbəqələr olmuşdur. Məsələn, Şərq ölkələrinin bir qismində şah və onu əhatə edən şəxslər, Qədim Hindistanda dörd təbəqədən ibarət olan, cəmiyyətin ən yüksək pilləsində dayanan brəhmənlər, Qədim Yunanıstanda senatorlar və s. bu qəbildəndir.

Elitar dünyagörüşü böyük yunan filosofu Platon tərəfindən nisbətən tam şəkildə işlənib hazırlanmışdır. Demokratiyanın qatı düşməni olan filosof dövlətin idarə olunmasında



demosun (xalqın) iştirak etməsinin əleyhinə olmuş, onu müdrikliyə düşmən olan "kütlə" adlandırmışdır.

Platon aristokratiyaya aid olan insanlara səxavət, mərdlik və ağıl kimi yüksək keyfiyyətlərin xas olduğunu iddia edərək bildirirdi ki, yalnız onlar dövləti idarə edə bilərlər.

Bu fikirlər N.Makiavellidən tutmuş F.Antoni və O.Şopenhauerə qədər bir çox mütəfəkkirlərin də əsərlərində öz əksini tapmışdır. Lakin XX əsrin I yarısından başlayaraq elita nəzəriyyəsi bütöv bir sistem kimi V.Paretonun, H.Moska və R.Mihelsin əsərlərində öz ifadəsini tapdı.

İtalyan sosioloqu və iqtisadçısı ***Vilfredo Pareto (1848-1923)*** belə nəticəyə gəlmişdir ki, bütün dövrlərdə dünyanı seçilmişlər, xüsusi psixoloji və sosial keyfiyyətlərə malik olan azlıq-elita idarə etmiş və etməlidir. Paretonun əsas tezisi ondan ibarətdir ki, insanlar ağlına, iste'dadına, əməksevərliyinə və şöhrətpərəstliyinə görə fövqəladə şəkildə bir-birindən fərqlənirlər. Nəticədə başqalarından əhəmiyyətli dərəcədə fərqlənən fərdlərin məcmusu bu və ya digər fəaliyyət sahəsinə yüksək göstəricilərlə tə'sir edərək elitanı təşkil edir. Pareto cəmiyyəti iki hissəyə: elitaya, yəni birbaşa idarə edənlərə, yaxud da dolayısı ilə (lakin effektli) idarəetmədə iştirak edənlərə və qeyri-elitaya, yəni idarəolunanlara, bəzən elita üçün xarakterik olan psixoloji keyfiyyətlərə malik, lakin özlərinin sosial strukturuna və müxtəlif maneələrə görə rəhbərlik funksiyasına buraxılmayan insanlara bölür. Pareto özünün məşhur "Elitanın yüksəlişi və süqutu" əsərində yazır: Bəşəriyyətin tarixi daim elitanın dəyişməsi tarixidir, bir qismi yüksəlir, digəri isə süquta uğrayır.

Pareto elitanın daim bir-birini əvəz edən iki əsas tipini müəyyən edir: bunlardan biri "aslanlar"dır; onlar üçün mühafizəkarlıq xarakterik cəhətdir. **"Aslanlar"** çox vaxt öz haki-miyyətlərini zorakılıqla həyata keçirir və qoruyub saxlayırlar. İkinci tip elita isə hiyləgərlik və yalançılığı əsas vasi-

tə seçən **"tülkü"lərdir**. Onlar tez-tez demoqoqiyadan, siyasi kombina-siyalardan istifadə edirlər. Stabil siyasi sistem "aslanlar" üçün xarakterikdir; qeyri-stabil sistem isə praqmatik təfəkkürə malik enerjili xadimlər tələb edir. "Aslanlar"ın idarə etdiyi cəmiyyət əsasən "durğunluq" xarakteri daşıyır. "Tülkülər" elitasının hakimiyyəti isə cəmiyyətə tərəddüdlər verir. Əgər hər iki elitaya proporsional axın tə'min olunursa, onda sosial mexanizmi normal fəaliyyət göstərir. Bu sirkulyasiya, yəni elitaların stabilləşməsi və sonrakı deqradasiyası ictimai inkişafın hərəkətverici qüvvəsidir; bütün tarixi hadisələrin əsasında məhz elitaların "dövranı" dayanır. Elitanın deqradasiyası onun süqutunu yaxınlaşdırır. Elita daim süquta uğrayırsa, kontrelita paralel olaraq potensial elitar elementlər istehsal edir. Əgər kontrelitaya kütlənin köməkliyi ilə köhnə elitanı sıxışdırıb aradan çıxarmaq nəsib olursa, bu prosesi elitanın kütləvi sirkulyasiyası və yaxud da sadəcə "inqilab" adlandırmaq olar. Beləliklə, Pareto belə bir nəticəyə gəlir ki, inqilabi dəyişikliyin başlıca nəticəsi köhnə elitadan bə'zi mirasları özündə saxlamaqla yeni elitanın yaranmasıdır, başqa sözlə elitanın tərkibinin yeniləşməsidir.

Politologiyanın yaradıcılarından biri, italyan tədqiqatçısı ***Haetano Moska (1858-1941)*** belə hesab edirdi ki, hər hansı bir cəmiyyət sosial durumuna və roluna görə, iki qeyri-bərabər sinfə bölünür. Bunlardan biri idarə edən sinif, digəri isə idarə olunan sinifdir. Bir sıra universal əxlaqi irsi keyfiyyətlərə arxalanaraq idarəedənlər faktik olaraq öz hakimiyyətlərini müdafiə edir. İdarəedən sinfin əsas xüsusiyyəti ondan ibarətdir ki, o, başqaları üzərində idarəetmə bacarığına malikdir, yə'ni onun təşkilatçılıq bacarığı var. Həmçinin bu sinif maddi, mə'nəvi və intellektual baxımdan üstünlük təşkil edir. Siyasi elita tədricən dəyişir. Onun inkşafında iki meyl mövcuddur: aristokratik və demokratik. Özünün idarəetmə dövründə aristokratik idarəedən sinif hüquqi baxımdan olmasa da, faktik baxımdan irsi olmağa çalışır. Demokratik meyldə isə



idarəetməyə yararlı və aktiv olan təbəqənin hesabına siyasi elitanın yerləşməsi özünü göstərir.

Siyasi sosiologiyanın banilərindən biri, sosioloq ***Robert Mixels (1876-1936)*** siyasi elita nəzəriyyəsinin inkişafında böyük rol oynamışdır. Mixelsə görə, elitanın hakimiyyəti onun təşkilatçılarından asılıdır. Cəmiyyətin özünün təşkili elitarlıq tələb edir və qanunauyğun şəkildə onu yaradır. Böyük təşkilatların yaradılması oliqarxiyaya və elitanın formalaşmasına gətirib çıxarır ki, bu da cəmiyyətdə "oliqarxiyanın digər qanununun" fəaliyyətinə əsas verir. Beləliklə, hökmdarlıq edən mərkəzin və aparatın yaranması baş verir. Mixelsə görə, təşkilatsız, yə'ni səriştəli lidersiz və idarəetmə aparatı olmadan demokratiyanın mümkünsüzlüyü postların və imtiyazların möhkəmlənməsinə gətirib çıxarır. ***Xarizmatik lideri*** (Xarizma - (yunanca visma - ilahi vergi deməkdir), peyğəmbər, yarı Allah, nəhəng tarixi fiqura, böyük missiyaları həyata keçirən şəxs kimi qəbul edirlər. Rəhbərin və kütlənin arasındakı münasibət emosional - mistik xarakter daşıyır.) Belə liderləri kütləni deyil, yalnız öz maraqları haqqında düşünən sadə bürokratlar, inqilabçılar entuziastlar, konservatorlar, demaqoqlar əvəz edir. Onlar xalqa yaltaqlanır, mə'lumatsızlığına və passivliyinə görə xalqı mükafatlandırır. Rəhbərlik edən qrup getdikcə daha artıq dərəcədə izolyasiya olunur və öz imtiyazlarını qoruyub saxlamaqdan ötrü xüsusi orqanlar yaradır və tezliklə hakim elitanın bir hissəsinə çevrilir. Yeni elita ilkin ideyalara sadiq insanlara şübhə ilə baxır. Yuxarı dairələr sıravi təşkilat üzvləri tərəfindən potensial təhlükə hiss edirlər.

Onlar partiyadaxili demokratiyadan imtina edir, öz hərə-kətlərini çətinlikləri aradan qaldırmaqla, düşmənlərlə mübarizə aparmaqla və s. ilə pərdələyirlər.

Təhlil göstərir ki, Mixelsin görüşləri əsaslı surətdə dəyişilmişdir. **Onun demokratik ideala ilkin meyli maksimalizmlə əvəz olunmuşdur.** O, ancaq bilavasitə demokratiyaya tərəfdar çıxmış, nümayəndəli demokratiya formalarının oli-qar-

xik xarakterdə olduğunu göstərmişdir. Mixels sonralar ümumiyyətlə demokratiya prinsipindən imtina etmişdir.

Mixelsə görə, demokratiya həmişə oliqarxiya formasına keçir. Əvvəlki əsərlərində sosial-demokratizm və anarxosindikalizm, fəal antiavtoritarizm mövqeyində dayanan Mixels yaradıcılığının sonunda əvvəl avtoritarizm, sonra isə profaşist ideyalarına keçmişdir.

Beləliklə, Makiavelli məktəbinin davamçıları olan Pareto, Moska və Mixels dövlətə rəhbərlik edən və yaxud rəhbərlik etmək iddiasında olan qrupların empirik və nəzəri tədqiqatının əsasını qoydular. Müasir elita nəzəriyyələri müxtəlifdir. Bunlar aristokratizmə görə, kütləyə münasibətə görə, demokratiya səviyyəsinə görə bir-birindən fərqlənirlər. Bütün bunlara baxmayaraq, onlar arasında bir ümumilik də mövcuddur: bu ümumiliklər aşağıdakılardır:

1. **Elitanın fəaliyyəti** sferasında dövlət üçün ən yüksək bacarığa və imkanlara malik olan cəmiyyətin ən dəyərli elementidir.

2. **Elitanın hakim vəziyyəti** bütün cəmiyyətin marağına cavab verir. Çünki o, əhalinin məhsuldar və təşəbbüskar hissəsidir. Kütlə isə elita tərəfindən qəbul edilən qərarların həyatda daşıyıcısıdır, reallaşdırıcısıdır.

3. **Elitanın formalaşması** hakimiyyət uğrunda mübarizənin nəticəsi yox, cəmiyyət tərəfindən nisbətən qiymətli nümayəndələrin təbii seçiminin nəticəsidir. Buna görə də cəmiyyət bu seçmə mexanizmini təkmilləşdirməyə çalışmalıdır.

4. **Elita qanunauyğun olaraq,** imkanların bərabərliyindən yaranır və bu günkü demokratiyaya zidd deyildir. Sosial bərabərlik sosial statusun nəticəsi kimi deyil, imkanların bərabərliyi kimi başa düşülməlidir. İnsanlar fiziki, intellektual, dünyagörüşü və aktivlik cəhətdən eyni olmadığından demokratiya baxımından onların hamısı üçün eyni start şəraiti yaratmaq lazımdır. Aydındır ki, finişə onlar müxtəlif



vaxtlarda və müxtəlif nəticələrlə gəlib çatacaqlar.

Bir sıra demokratik qurumlar elita nəzəriyyəsini inkşaf etdirərək, plüralizm konsepsiyasını təklif edirlər. Onlar aşağıdakılara əsaslanırlar:

1. **Vahid imtiyazlı elita** ləğv edilir. Çoxlu elita mövcuddur. Onların hər birinin tə'siri xüsusi fəaliyyət sahəsinə görə məhdudlaşır. Onların heç biri bütün həyat səviyyəsinin hər sahəsində hegemonluq edə bilməz. Elitanın plüralizmi mürəkkəb əmək bölgüsünə görə, sosial strukturun müxtəlifliyinə görə müəyyənləşir. Hər bir başlıca qrup öz maraqlarını əks etdirən (regional, dini, demoqrafik və s.) cəhətləri ayırır, zəruri saydığı dəyərləri müdafiə edir, eyni zamanda onun inkişafına fəal şəkildə tə'sir edir.

2. **Cəmiyyətdə sosial və iqtisadi elita** arasında rəqabəti əks etdirən rəqabət mövcuddur. O, elitanın kütlə qarşısında cavabdehliyini tə'min edir, vahid hegemon elita qrupunun formalaşmasına manecə yaradır. Bu rəqabət bütün iştirakçılar tərəfindən "demokratik oyun qaydalarının" qəbul edilməsi əsasında qurulur.

3. **Elita bazis (ana) qrupunun nəzarəti** altında olur. Müxtəlif demokratik mexanizmlər olan referendum, seçki, sorğu, mətbuat, təzyiq qrupu və s. köməkliyi ilə R.Mixelson tərəfindən təklif olunmuş "oliqarxiyanın dəmir qanunu konsepsiyası"nın fəaliyyətini məhdudlaşdırır, ümumiyyətlə, dayandırır və elitanı kütlənin təzyiqi altında saxlayır.

4. **Müasir dövrdə mövcud olan** demokratik cəmiyyətlərdə hakimiyyət müxtəlif ictimai qruplar və institutlar arasında paylanmışdır ki, bunlar da birbaşa iştirak, təzyiq blokundan və ittifaqlarından istifadə yolu ilə yararsız qərarlara veto qoya bilər, öz maraqlarını müdafiə edə bilər, qarşılıqlı kompromislər tapa bilər. Bu halda hökumətin öz münasibətləri dəyişkəndir. Bu münasibətlər yalnız müəyyən qruplar üçün yaransa da, başqa qərarlar qəbul etmək üçün dəyişə bilər. Bu, hakimiyyətin mərkəzləşməsini zəiflədir və hegemon sosial-siyasi stabilliyin yaranmasının və əsaslı hökmran təbə-

qələşmənin qarşısını alır.

**5. Elita ilə kütlə arasında fərq** şərti və nisbidir. Müasir hüquqi sosial dövlətdə vətəndaşlar azad şəkildə elita tərkibinə daxil ola və qərarların qəbul edilməsində iştirak edə bilərlər. Siyasi həyatın əsas subyekti elita yox, maraqlar qrupudur. Elita ilə kütlə arasında fərq qərarların qəbul edilməsində başlıca olaraq, maraq dairəsinin müxtəlifliyidir.

Plüralist elita nəzəriyyəsinə alternativ konsepsiya ***liberal elita nəzəriyyəsidir.*** Bu konsepsiyanın aparıcı nümayəndəsi Amerika sosioloqu və publisisti ***Çarlz Rayl Mills (1916 - 1962)*** hesab edir ki, "idarə edən sinif" tərəfindən həyatın ən zəruri sahələrində nəzarətin ələ keçirilməsi demokratiyanın süqutunun əsas səbəbidir. Mills yazır: "Hökmranlıq edən elita o adamlardan ibarətdir ki, tutduqları vəziyyət onlara adi adamlardan yüksəkdə dayanmağa və qərarlar qəbul etməyə imkan verir". Mills ABŞ-da üç əsas elitanı ayırır:

***1) korparasiya başçıları***

***2) siyasi liderlər***

***3) hərbi rəhbərlik.***

O göstərir ki, cəmiyyətdə hakim elita ən əsas məsələləri həll edir və kütlənin dözümünü yaltaqlıq, yalan və şənlənmək yolu ilə tə'min edir.

Elita nəzəriyyəsinin əsas tezisi ondan ibarətdir ki, hər bir cəmiyyətdə əsas qərarları qəbul edən, çoxluq üzərində hökmranlıq edən azlıq mövcuddur və mövcud olmalıdır. "Siyasi sinif, yaxud idarə edən elita"nı təşkil edən bu azlıq daha geniş dairəyə o adamları əlavə edir ki, onlar dövlət qərarlarına tə'sir göstərir, həmçinin formal olaraq "siyasəti müəyyən edir". Bu azlıq özünün hökmranlığına adi seçkilər çərçivəsindən kənara çıxan vasitələr hesabına nail olur. Onun tə'siri onunla əlaqədar ola bilər ki, o, müəyyən sosial və dini dəyərləri, irsiyyəti, yaxud müəyyən şəxsi keyfiyyətləri təcəssüm etdirir. Fransız sosioloqu ***Moris Dyuverje*** məsləhət görürdü ki, demokratiyanın "xalqı xalqın köməkliyi ilə idarə etmək" formulu xalqın içərisindən çıxmış "elitanın köməkliyi ilə xalqı idarə etmək" formulu ilə



əvəz olunsun.

Müasir cəmiyyətdə idarəedici elita qaçılmaz bir faktdır. Ümumiyyətlə, hər hansı bir yolla onu kənarlaşdırmaq cəhdi yalnız mənasız qarşıdurmaya gətirib çıxarır ki, bu da son nəticədə bütün cəmiyyətə ziyan vurur.

Siyasi elitalılığı yalnız ictimai özünüidarə hesabına məhdudlaşdırmaq olar ki, bu da indiki vəziyyətdə müəyyən problemlərlə çulğalaşır. Xalqın özünüidarəsinin tam həcmdə inki-şafı bu gün reallıq deyil, yalnız məqsəd ola bilər. Demokratik dövlət üçün əsas məqsəd siyasi elitanın formalaşması olmalıdır. Hər hansı siyasi lideri əhatə edən, ancaq öz şəxsi mənafelərini ön plana çəkən elita heç vaxt kütlənin maraqlarını əks etdirə bilməz. O, yalnız qorxu içində öz dərisini qoruyub saxlamaq haqqında düşünür. Digər tərəfdən elitanın formalaşmasında əsas amillərdən biri də idarə edən qrupun tərkibinin intellektual səviyyəli, səriştəli olmasıdır. Yaşlı nəsildən fərqli olaraq, nisbətən cavan adam novatorluğu sevir. Ən nəhayət, cavan siyasətçi ilk növbədə karyera haqqında düşünür. O, gələcək karyeranı tə'min etməkdən ötrü xalqa xidmət, kütlənin güzəranını yaxşılaşdırmaq hesabına özünün sosial bazasını genişləndirməyə və tərəfdarlarının sayını artırmağa çalışır.

Politologiyada elitanın iki əsas sistemi müəyyən edilir:

***1. Gildiya sistemi***

***2. Antreprener sistemi***

Gildiya sisteminin əsas tərəfləri:

1. Qapalılıq, nisbətən yüksək postlara elitanın özünün aşağı təbəqəsindən seçmə; seçimi təkamül yolu ilə aparmaq;

2. Hər hansı postu tutmaq üçün çoxlu formal tələblər (yaş, cins, partiyalılıq və s.);

3. Çox da böyük olmayan, selentorat (kadr seçimini həyata keçirən adamlar qrupu);

4. Lideri yetişdirmə meyli.

Antreprener sistemin xarakterik cəhətləri:

1. Açıq, müxtəlif sosial qruplardan olan nümayəndələrin

elitada yer tutmasına imkan yaratması;

2. İnstitutional filtir;

3. Geniş dairədə selektorat;

4. Seçimdə böyük rəqabət və iddiaçının fərdi keyfiyyətlərinə diqqət;

İdarəedən elita kifayət qədər mürəkkəb struktura malikdir. Bu strukturun mühüm ünsürləri aşağıdakılardır:

***1. İqtisadi elita (böyük mülkiyyətçilər, sənaye kompaniyası, bank, ticarət firmaları və s.) sahibləri;***

***2. Siyasi elita (mülki və hərbi hökumət orqanlarında yüksək postlar tutan şəxslər);***

***3. Bürokratik (inzibati) elita;***

***4. İdeoloji elita (elm, mədəniyyət, din, təhsil və kütləvi informasiya vasitələrinin aparıcı nümayəndələri);***

Hakimiyyət funksiyasına görə siyasi elitanın aşağıdakı növləri və ya səviyyələri var: yüksək səviyyə, orta səviyyə və inzibati səviyyə.

Yüksək səviyyəyə aparıcı siyasi rəhbərlər, qanunverici və icra orqanlarında, həmçinin məhkəmələrdə yüksək post tutan-lar daxildir. Bunlar prezidentin əhatəsi, baş nazir, parlamentin rəhbəri, dövlət hakimiyyət rəhbərləri (nazirlər), aparıcı parti-yaların rəhbərləri, parlamentdə deputat fraksiyalarıdır ki, onlar mühüm siyasi qərarların qəbul edilməsində məsuldurlar.

Orta səviyyə böyük seçkili vəzifələrdə olan şəxslərin təşkil etdiyi siyasi elitadır. Buraya deputatlar, icra başçıları, müxtəlif siyasi partiyaların liderləri, ictimai-siyasi hərəkat rəhbərləri və s. aiddir.

İnzibati səviyyəyə isə əsasən nazirliklərdə, departament və digər dövlət idarəetmə orqanlarında yuxarı təbəqədə daya-nan mə'murlar daxildir.

Siyasi elitanın bu üç səviyyəsində sirkulyasiya müxtəlifdir.

Siyasi elitanın yüksək səviyyəsində dəyişiklik ölkədəki siyasi durumdan çox asılıdır. Bu müxtəlif ölkələrdə siyasi si-



stemdən asılı olaraq müxtəlif olur. Əsasən hakimiyyətə gələn hər bir partiya hökuməti və müvafiq komandanı öz partiyasından təşkil edir. Lakin həmin yuxarı eşalona digər partiyanın üzvləri də daxil ola bilər. Məsələn, Prezident bir partiyanı təmsil etdiyi halda, parlamentin spikeri başqa bir partiyadan, baş nazirsə tamam başqa bir partiyadan ola bilər. Belə ölkələrə Rusiyanı və Türkiyəni misal göstərmək olar. Azərbaycan üçünsə, bu hələlik xarakterik deyildir. Çünki siyasi partiyaların bir-birinə münasibətinin xarakteri elədir ki, hətta onlar dövlətin, ölkənin, xalqın birbaşa milli mənafeyinə aid olan məsələlərdə də ortaq bir məxrəcə gələ bilmirlər. Beləliklə, yüksək siyasi elitada dəyişiklik spesifik səciyyə kəsb edir. Alman politoloqlarının fikrinə görə, siyasi elitanın yüksək səviyyəsində bu elitanın sıralarından çıxmaq (əsasən siyasi partiyalarda) liderin ölümü və yaxud da qocalığa görə təqaüdə getməsi ilə əlaqədar olur. Totalitar rejimdə isə bu, elitanın bə'zi nümayəndələrinin tamamilə məhv edilməsi və yaxud da bütün sistemin süqutu ilə baş verir.

Keçmiş SSRİ dövründə siyasi elita anlayışı demək olar ki, yox idi. Lakin bu o demək deyildir ki, elita özü də yox idi. Sovet cəmiyyətinin elitar qrupunu müəyyən etməkdən ötrü XX əsrin axırlarında "nomenklatura" terminindən istifadə olunmağa başlandı. İlk dəfə SSRİ məkanındakı elitanın tərkibi və mexanizmi haqqında fikirlər sovet alimləri A. Avtorxanovun, R.Medvedyevin və M.Voslenskinin əsərlərində öz əksini tapmışdır. Bu dövrdə nominklatura hakimiyyət sistemindəki mövcud inhisar vasitəsilə yaranırdı. Siyasi elita dedikdə, əsasən partiya nomenklaturası başa düşülürdü. Hakimiyyət piramidasının ən yuxarısında duran Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu yüksək səviyyəli partiya nomenklaturası - siyasi elita idi. Kommunist olmayan şəxs heç inzibati elitanın səviyyəsində də ola bilməzdi. Buna görə də belə bir sistem totalitarizmə gətirib çıxardı ki, onun da sonu mə'lum olduğu kimi süqutla nəticələndi.

Sovet rejiminin süqutundan sonra öz müstəqilliyini e'lan

edən keçmiş sovet respublikalarında, o cümlədən Azərbaycanda tədricən yeni elita formalaşmağa başladı. Demokratik hərəkatlar, siyasi partiyalar yarandı. Kütlə içərisindən çıxmış demokratik qüvvələr yüksək idarəetmə eşalonunda siyasi elitanı təşkil etməyə çalışdılar. Lakin təsadüfi deyildir ki, keçmiş respublikaların əksəriyyətində bu demokratik qüvvələr tam şəkildə hakimiyyətə gələ bilmədilər. Gəlsələr də, tezliklə hakimiyyəti əldən verdilər. Bu da çox təbii haldır. Fikir versək, görərik ki, bu gün də həmin respublikaların hər birisinin elitasını keçmiş sovet partiya nomenklaturasının nümayəndələri təşkil edirlər. Lakin nisbətən demokratikləşmiş nomenklatura keçid dövründə böyük ictimai-siyasi sistemin yenisi ilə əvəz olunması dövründə təbii olan bir amildir.

Bütün bu prosesləri Azərbaycanın nümunəsində nəzərdən keçirək. 1992-ci ildə hakimiyyətə o dövrdə Azərbaycanın de-mokratik hərəkatının başında duran Xalq Cəbhəsi gəldi. Lakin onun idarəetmə dövrü uzun çəkmədi və hamıya məlum olan faktdır ki, o hakimiyyəti tərk etməyə məcbur oldu. Nə üçün? Ona görə yox ki, onlar xalqa düşmən olan qüvvələr idi.

Xalq Cəbhəsi hakimiyyətinin uğursuzluğunun başlıca səbəbi hakimiyyət səriştəsizliyi və o dövr üçün əhalinin böyük bir qismində sovet təfəkkür sistemindən miras qalmış psixologiya idi. O zaman xalq hakimiyyətə gələn "Cəbhə"dən əmin-amanlıq, xoş güzaran, həlli uzun zaman tələb edən problemlərin tezliklə həll olunmasını istədi. Bəs Cəbhənin yüksək siyasi elitanı təşkil edə biləcək idarəetmə potensialı var idimi? Cəbhə yeni formada idarəetmə mexanizminə malik idimi? Yeni təfəkkürlə köhnə idarəetmə maşınını işlətmək olardımı?

İdarəetmə mürəkkəb bir sistemdir, xüsusən totalitar rejimdən miras qalan bir strukturda. Bu bürokratik struktur elə qurulmuşdu ki, hər hansı bir məsələnin həllində süründürməçilik, müxtəlif əngəllər, manеələr mövcud idi.



Demokratikləşmə isə bir və ya bir neçə günün işi yox, kifayət qədər zaman tələb edən bir prosesdir ki, bu da tədricən olmalıdır. Analoji olaraq, nəzərdən keçirdiyimiz bu proses kiçik istisnalarla keçmiş İttifaq ölkələrinin hamısına aiddir.

Müasir dövrdə siyasi elitanın formalaşması prosesinə gəldikdə isə politoloq klassiklərinin elita nəzəriyyəsi ilə yanaşı, burada cəmiyyətin milli mentaliteti, keçmişdən miras qalmış rejimin psixologiyası da nəzərə alınmalıdır. Bu günkü cə-miyyətdə siyasi elitanın formalaşması populist iddialar, qeyri-ciddi münasibət əsasında yox, dərin elmi-siyasi təfəkkür əsa-sında olmalıdır. Yüksək eşalonu təşkil edən yaşlı nəsil gəncləri öz sıralarına daha fəal surətdə cəlb etməlidir.

Bundan əlavə, unutmaq olmaz ki, cəmiyyətin təkamülündə, yeniləşməsində ciddi varislik əlaqəsi mövcuddur. Bu, formalaşmaqda olan siyasi elitara da aiddir. Ona görə də Sovet İttifaqı zamanında mühüm partiya və dövlət vəzifələrində çalışan bir sıra şəxslərin bugünkü siyasi elitada aparıcı mövqe tutması tamamilə təbii hal hesab olunmalıdır.

Siyasi elitadan danışdıqda həmçinin hərbi və iqtisadi elitanın da dövlət idarəçiliyində rolu nəzərə alınmalıdır. Dövlətin idarə olunmasında hər iki elitanın da özünəməxsus yeri vardır. Bir sıra ölkələrdə hərbi elita daha böyük nüfuza malikdir. Məsələn, Türkiyə respublikasının Konstitusiyasına əsasən ölkədə siyasi böhran baş verərsə və ölkə xaosa qatılarsa, bu zaman hərbi elita avtomatik olaraq hakimiyyəti öz əlinə alıb, ölkədə tam stabil atmosfer yaratdıqdan sonra demokratik seçkilər keçirilməsini təmin edir.

İqtisadi elitaya gəldikdə isə dövlətin mövcudluğunda, iqti-sadiyyatın inkişafında onun rolu danılmazdır. İqtisadiyyatın inkişafı prosesində formalaşan iqtisadi elita siyasi elita yanında nüfuza nail olarsa, hakimiyyətin yüksək eşalonunda bir sıra məs'ul yerlər də əldə edə bilər. Keçmiş sovet dövründə partiyanın iqtisadi sahədə apardığı birsıra islahatlar, xüsusən də ağır sənayenin inkişafı partiya namenklaturasını məcbur

etdi ki, ha-kimiyyət strukturunda onun nümayəndələri təmsil olunsunlar.

Müasir MDB ölkələrinə gəldikdə isə deməliyik ki, burada hələlik həm hərbi, həm də iqtisadi elitanın formalaşması prosesi gedir. Bu proses həmin ölkələrin hər birində konkret iqtisadi, sosial-siyasi, mə'nəvi-intellektual, hərbi vəziyyətdən, onların beynəlxalq əlaqələrinin xarakterindən və s.-dən asılı olaraq, spesifik xüsusiyyətlərə malikdir.

## *§ 2. Siyasətdə liderlik*

Hər bir siyasi hakimiyyət piramida formasında qurulursa, həmin siyasi hakimiyyətin əsasını bu və ya digər rəhbər və idarəedən qüvvə, sonra isə aktiv siyasi hissə, təşkilatlanmış yuxarı təbəqə təşkil edir. Piramidanın yuxarısında dövlət başçısı dayanır. Sonra dövlət idarəçiliyinin yuxarı orqanları, siyasi ierarxiya gəlir. Hakimiyyətin hər pilləsində, hər bir hissəsində, partiyasında, orqanında bu piramida mövcuddur. Hər yerdə hakimiyyət aparatını təşkil edən qruplar var. Onlara rəhbərlik edən şəxs bu qrupları öz arxasınca aparır. ***Buradan da lider (to lead) məfhumu yaranır ki, bu da ingilis dilindən tərcümədə aparıcı, irəlidə gedən mə'nasını verir.*** Lider, təşkilatda yüksək nüfuza malik olan, şəxsi keyfiyyətləri ilə bütün təşkilat üzvlərinə tə'sir edə biləcək şəxsdir.

Siyasi lider anlayışı hələ qədim zamanlardan mövcuddur. Belə ki, bir çox mütəfəkkirlər onun mə'nasını açmağa çalışmış-lar. Məs., Plutarx və Heredot monarxları, sərkərdələri, tarixi fəaliyyətin mərkəzində dayanan simalar hesab edirdilər. Makiavelli hökmdar obrazını yaradarkən bildirirdi ki, onun üçün məqsəd bütün vasitələri qabaqlayır. Nitsşe ali bioloji tipin yaradılmasını əsaslandıraraq qeyd edirdi ki, o, böyük həyati qüvvəyə və hakimiyyət iradəsinə malikdir. O, əxlaq normaları ilə məhdudlaşmır, xeyir və şərin o biri tə-



rəfində dayanır.

Fransız sosioloqu, sosial psiologiyanın yaradıcılarından biri ***Qabriel Tard (1843-1904)*** sübut etməyə çalışmışdır ki, sosial həyatın əsas qanunu liderin davamçılarına təlqin etməsidir. Əhalinin böyük qismi müstəqil sosial yaradıcılığa malik deyildir. Cəmiyyətin tərəqqisinin mənbəyi, həm də təşəbbüskar və orijinal şəxsiyyətin etdiyi kəşflərdir. Onun fikrincə, məhz kəşflər sayəsində dil, təsərrüfat, hökumət, din və s. meydana gəlmişdir.

Cəmiyyətin ictimai-siyasi inkişafında mürəkkəb və ziddiyyətli proseslərdən çıxış yolu tapılmasında siyasi liderə ehtiyac duyulur. Liderlik qrupun rəhbərlik iddiasında olan və ya bu funksiyanı yerinə yetirən fərd ətrafında birləşməsini tə'min edən inteqrasiya mexanizmdir. Siyasi lider şəxsiyyətlər və sosial qruplar arasında münasibətləri nizamlayan bir subyektdir. Onun mahiyyətini rəhbərlik və idarəçilik, istiqamət vermək və ya tə'sir etmək, hadisələri qabaqcadan görmək və s. təşkil edir.

Siyasi liderin obyektinə millətlər, sosial qruplar, subyektinə isə siyasi partiyalar, ictimai təşkilatlar, cəmiyyətlər və s. daxildir.

Siyasi liderin populyarlığı və nüfuzu onun ölkə daxilində, xalq arasında qazandığı nailiyyətlərdən asılıdır. Liderin rəhbərliyi dövründə sosial, iqtisadi və siyasi sahədə apardığı işlərin nəticələrinə görə, insanların müəyyən rə'yləri formalaşır. Əsl lider xalqın istəyi və rə'yi nəzərə alınmaqla, səsvermə (referendum) yolu ilə seçilən şəxsiyyət olmalıdır.

***Qanunların aliliyinə hörmət edən, vətəndaşların hüquq və mənafelərini qoruyan, dövlət hakimiyyətini ədalətlə idarə edən, yüksək mə'nəvi keyfiyyətlərə və siyasi mədəniyyətə malik olan şəxs siyasi liderdir.***

Siyasi lider siyasi fəaliyyətin subyekti kimi çıxış edir. Si-

yasət subyekti o şəxs, təşkilat, yaxud ictimai qrupdur ki, o, siyasəti yaradır, başqa sözlə desək, öz mənafelərinə uyğun olaraq siyasi həyatda müstəqil iştirak edir, siyasi münasibətlərdə dəyişiklər edə bilir. Siyasi lider siyasətdə mühüm rol oynaya biləcək, müəyyən böyük ictimai qrupu təmsil edən, ondan yardım alan, yeri gəldikdə müstəqil hərəkət etmək, hakimiyyət, səlahiyyət hüququ olan şəxs kimi həqiqətən fəal tə'sir imkanına malikdir. Liderin əhəmiyyəti və tə'siri qrupun mənafelərinə onun xidmət etmək qabiliyyətindən asılıdır.

Siyasi lider ictimai şəraitdən asılı olaraq siyasətə müxtəlif səviyyədə tə'sir edə bilər. Sosial-siyasi, sosial-iqtisadi imkan-ları məhdudlaşsa da, bu, siyasi lider tə'sirsiz qalmır. O, müəyyən siyasi partiya, təşkilat və sosial qrupun tərkibində fəaliyyət göstərməklə fəaliyyətini gücləndirə bilər. Məsələn, əksər inkişaf etmiş ölkələrdə siyasi lider siyasi fəaliyyətini siyasi partiyalarda müəyyənləşdirir, özünü lider kimi formalaşdırır, tanıtdırır, bir sözlə xalq, kütlə onun bütün siyasi fəaliyyətini görür və onu tə'sir edəcək amil kimi qəbul edirlər.

Ümumən e'tiraf olunan siyasi fəallığa nail olmaq üçün mütləq xalq hərəkatlarında fəal iştirak etmək, sosial-siyasi məsələləri düzgün dərk etmək və ondan lazımi nəticələr Respublikamızda və eləcə də digər MDB ölkələrindəki demokratik proseslər bir daha sübut etdi ki, şəxsiyyətin siyasi fəallığının artması, onun siyasi aksiyalarda, mitinqlərdə, nümayişlərdə, seçki kompaniyalarında iştirak etməsindən çox asılıdır. Deməli, şəxsiyyətin siyasətə tə'sirini aşağıdakı kimi şərh etmək olar: 1) Şəxsiyyət dövlət siyasəti məsələlərini həll edən ictimai qrup və təşkilatda yaxından iştirak etməklə; 2) ölkədə keçirilən bütün seçkilərdə iştirak etməklə; 3) mitinq, nümayiş və tə'tillərdə fəaliyyət göstərməklə; 4) kütləvi informasiya vasitələrinin işində yaxından iştirak edərək, təbliğat aparmaqla siyasətə



tə'sir edə bilər.

Siyasətdə ictimai və fərdi məsələlərin dialektik vəhdətinin obyektiv və subyektiv tərəfləri vardır. Burada obyektiv tərəf kimi ayrı-ayrı adamların iradəsindən asılı olmayaraq, onların siyasi fəaliyyətinə nəzarət edən vasitələr çıxış edir. Subyektiv tərəf isə fərdlərin bir-birinə olan şüurlu münasibətidir. Bunlara adətən konkret qruplararası, şəxsiyyətlərarası sosial münasibətlər aiddir. Bu münasibətlər siyasətdə zəruri şərtdir. Siyasətdə siyasi lider yuxarıda qeyd edilən bütün prinsipləri qorumalı və həyata keçirməlidir.

Marksizm isə siyasi liderlik probleminə başqa cür yanaşır. Engels, Plexanov və Leninin əsərlərində kütlə siniflərə bölünür, siniflərə partiyalar rəhbərlik edir, partiyalar isə rəhbərlərlə idarə olunur. Ümumiyyətlə, demək olar ki, liderlik hər yerdə var. Harada bu və ya digər formada insan toplusu yaranırsa, orada mütləq lider olmalıdır.

Müasir politologiya elmində liderliyin bir neçə xarakteristikası qəbul olunmuşdur:

*1. Liderlik* yuxarıdan aşağıya istiqamətlənmiş xüsusiyyətə malik olan hakimiyyət müxtəlifliyidir. Həmçinin onun aparıcısı çoxluq yox, bir nəfər, yaxud qrupdur. C.Blondenin tə'birincə desək, lider əhalini hərəkətə gətirmək üçün bir və yaxud bir neçə fərdin həyata keçirdiyi hakimiyyətdir.

*2. Liderlik* idarəetmə statusu, sosial mövqedir, bu, rəhbər vəzifədir. Belə izah cəmiyyətə mürəkkəb, sosial mövqe və roluna görə iерarxial təşkilatlanmış sistem kimi baxan struktur-funksional yanaşmadan irəli gəlir. Bu sistemdə idarəetmə funksiyası ilə əlaqədar olaraq, mövqe tutmaq şəxsiyyətə yüksək status verir.

*3. Liderlik* başqalarına tə'sir etməkdir. Lakin hər cür tə'sir buna aid deyildir. Bunun üçün dörd əsas xüsusiyyət xarakterikdir: a) tə'sir daimi olmalıdır. Siyasi prosesə, ölkənin

tarixinə böyük də olsa, bir dəfə tə'sir göstərmiş adamı lider adlandırmaq olmaz; **b)** liderin rəhbərlik tə'siri bütün qrupa (təşkilata, cəmiyyətə) sirayət etməlidir. Mə'lumdur ki, hər bir böyük birləşmənin içərisində bir neçə, hətta çoxlu lokal tə'sir mərkəzləri olur. Lider özü də qrupun üzvləri tərəfindən daim tə'sirə mə'ruz qalır. Siyasi liderin xüsusiyyəti ondan ibarətdir ki, onun tə'sir dairəsi böyükdür; **v)** siyasi lideri fərqləndirən cəhət onun üstün tə'sirə malik olmasıdır. Liderin və idarə olunanların (ona tabe olanların) arasındakı münasibətin asimmetrikliyi, qarşılıqlı tə'sirdə qeyri-bərabərlik tə'sirin daha çox birmə'nalı istiqamətləndirilməsini (liderdən qrupun üzvlərinə doğru) xarakterizə edir; **q)** liderin tə'siri birbaşa güc işlətməyə deyil, avtoritetə, yaxud heç olmasa, rəhbərliyin haqlılığına söykənir. Qrupu güc vasitəsi ilə əlində saxlayan diktator lider ola bilməz. Doğrudur, müəlliflərin hamısı liderliklə daimi zorakılığın ziddiyətliliyini qəbul etmir. Bə'zi müəlliflər (məsələn, C.Blonden) məcburiyyətdən istifadə etməyi mümkün sayır.

*4. Siyasi liderlik* spesifik məkanda həyata keçirilən rəqa-bətin bir növüdür. Bu vaxt potensial liderlər siyasi rəqabət mübarizəsində özlərinin ictimai məsələlərin həlli proqramla-rını və onların rəhbər vəzifələr baxımından ehtimal olunan realizə formalarını mübadilə edirlər. Bu halda siyasi sahibkar-lığın xüsusiyyəti "siyasi əmtəənin" şəxsləndirilməsindən, po-tensial liderin şəxsiyyəti ilə eyniləşdirilməsindən, həmçinin bu əmtəənin "ümumi mənafe" kimi reallaşdırılmasından ibarətdir.

Siyasi lider siyasi prosesin eyni zamanda həm subyekti, həm də obyektidir. Subyektidir ona görə ki, özünün qeyri-adi keyfiyyətlərinə görə və seçki nəticəsində o, bu və ya digər ictimai-siyasi hərəkatda maraqlarını həyata keçirmək üçün onu irəli çəkən qrupun başında dayanır. Buna görə də, lider idarəedici hakimiyyət səlahiyyətinə malik olur, insanların iradəsini, intellektini, gücünü bir yerə toplamağı bacarır. Bununla yanaşı lider cəmiyyətdə heç də izolə olunmuş muxtariyyətə malik deyildir (əlbəttə, o, diktator deyilsə). Buna görə də siyasi lider həmçinin siyasətin obyektidir. O, sosial baxımdan müəyyən miqyasa, distansiyaya malikdir. İnsanlarla sıx əlaqəsi olmayan və onlardan müntəzəm dəstək almayan lider heç nədir. Bundan başqa bu və ya digər məsələlərin həllində o, müxtəlif maraqlı tərəflərin tə'sir və təzyiqini hiss etdiyindən ayrı-ayrı təklif və tələblərin qəbuluna, kompromisslərə hazır olmalıdır.

***Beləliklə, siyasi liderlik bir və yaxud bir neçə şəxsin hakim mövqe tutaraq cəmiyyətə, təşkilata və qrupa daim üstün və legitim tə'sirə malik olması deməkdir.***

Liderliyin strukturunu əsasən üç başlıca komponent müəyyən edir: **a)** liderin fərdi xarakteri; **b)** malik olduğu resurs və imkanlar; **v)** onun fəaliyyət göstərdiyi və ona tə'sir göstərən vəziyyət. Bütün bu komponentlər liderliyin effektliliyinə tə'sir göstərir.

Politologiya elmində lider fenomenini izah etməyə çalışan bir neçə nəzəriyyə mövcuddur:

*1. Cizgilər nəzəriyyəsi.* Bu nəzəriyyənin əsası dahiyanə keyfiyyətlərə malik olan, insanın liderlik fenomeninin izahından ibarətdir. Bu nəzəriyyənin yaradıcılarından biri Amerika politoloqu E.Boqardusdur. O yazırdı ki, yüksək intellektual zəka şəxsiyyətə elə vəziyyətlər nəsib edir ki, bu da gec-tez onu liderliyə gətirib çıxarır. Siyasi liderə mənsub olan əsas cizgilər dərin zəka, möhkəm iradə və aydın məqsədə malik olma, enerji, qeyri-adi təşkilatçılıq bacarığı, xüsusən səriştəlilik və öz üzərinə məs'uliyyət götürməyə hazır olmaqdır. Demokratik ölkələrdə müasir siyasi liderlərə vacib keyfiyyət kimi, həmçinin xarici görkəmi və telegenliyi, insanlarda inam yaratma bacarığını

və s. aid edirlər.

Amma bə'zi ölkələrdə bu o qədər də böyük rol oynamır. Bir sıra vəziyyətlərdə liderin formalaşmasında sırf psixoloji amillər - liderlə qrup arasındakı qarşılıqlı tə'sirdə özünü göstərən bu amillər üstünlük qazanır. Məsələn, siyasi baxışlar, siyasi kurs temperamentə, xarakterə və başqa subyektiv vəziyyətlərə görə müəyyən olunur.

*2. Situativlik konsepsiyası.* Bu nəzəriyyəyə görə, liderlik-də yaranmış vəziyyət, müəyyən şərait əsas rol oynayır. Bu halda lider müəyyən vəziyyət funksiyasını yerinə yetirir. Politoloq R.Sitoqdillə görə, liderlik hər hansı bir sosial vəziyyətdə insanlar arasında yaranan əlaqədir. Bir situasiyada lider olanın, başqa bir vəziyyətdə də lider olacağı mütləq deyildir. Yalnız yaranmış konkret vəziyyət müəyyən liderin seçilməsini müəyyən edir. Məsələn, islamın üstün mövqe tutduğu ölkələr-də qərarlaşan vəziyyət avropa və yaxud amerikasayağı liderliyi qəbul edə bilməz. Həmçinin, bu qəbildən olan dini lider Qərb siyasətində böyük nüfuz sahibi ola bilməz.

Situativlik nəzəriyyəsinə görə, liderlik keyfiyyəti nisbidir. Bir nəfər liderlik cizgilərini mitinqdə, digəri isə gündəlik siyasi-təşkilati işdə üzə çıxara bilər, başqa birisi bunu şəxsiyyətlərarası ünsiyyətdə biruzə verə bilər.

Bu nəzəriyyə liderlikdə şəxsiyyətin fərdi keyfiyyətlərinin rolunu rədd etmir, lakin onu mütləqləşdirmir. Siyasi liderliyin təbiətini ümumi vəziyyətdə görür. Böyük lider "vəziyyəti hiss edir" və nə vaxt ondan istifadə etməyi bacarır. Şübhəsiz ki, əgər vəziyyət Napoleon üçün yetişmişdirsə, Napoleon da vəziyyət üçün yetişmişdir.

*3. Ardıcılların yolunu müəyyən edən nəzəriyyə.* Burada başlıca diqqət liderlə onun tabeliyində olanlar arasındakı münasibətə yönəldilmişdir. Müxtəlif sosial qrupların əhval-ruhiyyəsi, marağı, tələbatı liderin hakim qərarı üçün imperativdir. O, qruplara görə istiqamətlənir və onların tələblərini yerinə yetirməyə çalışır. Əgər liderin ardıcılları avtoritar və yaxud əksinə, demokratik yönlü insanlardırsa, onda lider bütün fəaliyyəti ilə onları dəstəkləyərək, daim özünü onlara uyğunlaşdıracaqdır. Bu halda ardıcılları lideri onların göstərişi ilə fəaliyyət göstərən marionetkaya (oyuncağa) çevirir. Bu nəzəriyyənin tərəfdarları hesab edirlər ki, ardıcıllarının liderə tə'siri neqativ xarakter daşıyır.

*4. Liderliyin psixoloji interpretasiyası (şərhi).* Bu nəzəriyyənin tərəfdarları hesab edirlər ki, ictimai həyatın əsasını insanların bütün hərəkətlərinin izah olunduğu insan psixikası təşkil edir. Bu sahədə Freyd nəzəriyyəsi daha çox yayılmışdır. Freydə görə, avtoritetə tələbat "kütləvi" insanda ata üçün darıxmaq kimi bir şeydir; böyük liderlər kütləni öz arxasınca aparmaqdan ötrü bundan istifadə etməyə çalışırlar. İnsanlar tərəfindən liderin qəbul edilmə mexanizmi belədir: atatiranın qəzəbi altında yaşayan uşaq itaət mexanizmini inkişaf etdirərək özünü müdafiə edir. Yaşlı adamın həyatı müdafiə mexanizmi ilə müəyyən edilməkdə davam edir, rəisə, siyasi liderə tabe olmaqla, bürokratik maşının hissəciyi olmaqdan həzz alır.

Beləliklə, liderlik vəziyyətin, iştirakçıların və onların qarşılıqlı münasibətlərinin qarışığıdır. Bu, həmçinin öz üzərinə hakimiyyət cavabdehliyini götürmüş liderin keyfiyyətlərinin vəhdətidir.

Lider öz fəaliyyət üsulunun rəhbəri, ideya daşıyıcısı, ardıcıl lokomotivi olmalıdır. Lakin cəmiyyət də lideri yetişdirməlidir.

Liderliyin təbiətini öyrənməkdən ötrü siyasi liderlərin tipologiyası problemi araşdırılmalıdır. Bu məsələ ilə bağlı müxtəlif fikirlər mövcuddur.

Liderlik haqqında tanınmış alman filosofu və sosioloqu *Maks Veber (1864-1920)* maraqlı fikirlər söyləmişdir. O, liderliyin üç tipini müəyyən edir.

***1. Ən'ənəvi liderlik-elitaya məxsus olmaq, liderliyə layiq olmaq, ən'ənənin müqəddəsliyinə inam yaratmaq (sənayeləşməyə qədərki cəmiyyət üçün xarakterikdir).***

***2. Xarizmatik liderlik-rəhbərin bacarığına inam, onu peyğəmbərləşdirmə, yarıallah səviyyəsinə gətirib çıxarma, şəxsiyyətpərəstlik.***

***3. Rasional-leqal liderlik-mövcud qayda-qanunun qanuniliyinə inam, bürokratik liderlik.***

Amerikan politoloqu R.Taker liderlərin aşağıdakı tipologiyasını verir: liderislahatçı, lider-inqilabçı, lider-mühafizəkar, lider-liberal. Rus alimləri F.Burlatski və A.Qalkin buraya həmçinin lider-bürokrat, lider-texnokrat, lider-demoqoq tiplərini də əlavə edirlər. Polyak politoloqu Y.Vyatr isə liderlərin psixoloji cizgiləri və davranışlarından danışaraq, diqqəti aşağıdakı tiplərə cəlb edir:

***1. Öz həyatının ideologiyasına münasibətə görə, lider-ideoloq və lider-praqmatik;***

***2. Öz tərəfdarlarına münasibətə görə: xarizmatik lider (öz ardıcıllarının iradəsini formalaşdırır) və təqdimatçı lider (öz ardıcıllarının iradəsini ifadə edir);***

***3. Rəqibə münasibətə görə: lider-razılaşan (kompromissə meylli) və lider-fanatik (rəqibini nəyin bahasına olur olsun, məhv etməyə çalışan);***

***4. Kerçəkliyi qiymətləndirmək bacarığına görə: tənqidi şəraitə yeni baxışları nəzərə alan açıq lider və lider-fanatik.***

Amerikalı sosioloq R.Ziller isə siyasi lideri, tədqiqat və özünüqiymət əsasında mən-konsepsiya prinsipinə görə ayırır. (Mən konsepsiyasının aspektləri "mən" obrazı, özünüqiymət və liderin sosial orientasiyası).



***1. "Analitik" siyasətçilər:*** yüksək özünüqiymətə və yüksək "Mən-konsepsiyası" birləşməsinə malik olan xadimlər. Bu siyasətçilər onlara aid olan yeni mə'lumatları, onların "Mən-konsepsiyasını" hədələmədən assimilyasiya edirlər; onlar özlərini başqalarından təcrid olunmuş halda hiss edir, ona görə də öz tərəfdarlarının və dövlətin bütün əhalisinin davranışına reaksiya vermirlər;

***2. Praqmatiklər:*** aşağı özünəqiymətverən və yüksək "Mən-konsepsiyaya" birləşən liderlər başqalarının fikrinə qulaq asır və öz siyasi davranışlarını onlarla qarşılıqlı əlaqədə qurur.

***3. "İdeoloqlar":*** yüksək özünüqiymət verən və aşağı "Mən-konsepsiyaya" birləşməli liderlər. Bu tip liderlər başqalarının fikirlərinə reaksiya verir; onlar qaba dərketmə prosesinə və davranışına malikdirlər; özünüqiymət isə fövqəladə şəkildə stabildir.

***4. "Qeyri-determinik" (İndeterminik)*** ardıcıl şəkildə sosial stimulların kiçik bir qrupuna reaksiya verən aşağı qiymətli və aşağı belə tələblərin başa düşülməsində liderin funksiyası məqsədin dəqiq müəyyən olunmasında, onların həll olunmasında öz üzərinə cavabdehliyi.

Lider tiplərinin müxtəlifliyi onların fəaliyyət istiqamətin-də həll edilən məsələlərin genişliyində özünü göstərir. Liderliyi müəyyən edən bu məsələlər konkret vəziyyətlərdən asılıdır. Onlar cəmiyyətin, sosial qrupun və təşkilatın müəyyən tələbatı nəticəsində baş verir.

Politoloq **M.Herman** liderliyi: 1) "bayraqdar", 2) "kommivoyacor", 3) "marionet" və 4) "yanğınsöndürən" tiplərinə ayırır. ***Birincilər*** öz ideyalarına görə, siyasi sistemi dəyişdirməyə çalışırlar. Belə lider məqsədi müəyyən edir, öz ardıcıllarına fəaliyyət istiqamətini göstərir, onları özünə cəlb edir və onlara və'dlər verir. Bu tip liderlərə Lenin, Martin Lüter Kinq, Xomyeni ki-

mi siyasətçiləri aid etmək olar. ***İkinci tip*** liderlərin tərəfdarları öz liderlərini kommivoyacor kimi qəbul edirlər. Belə liderlər dərin inandırmaq qabiliyyətinə malikdirlər. Onlar insanların münasibətinə böyük diqqət yetirir və onların arzularının tə'min olunmasına köməklik edirlər. ***Üçüncü tip*** liderlərdə bir xidmətçilik, öz ardıcıllarının ma-rağını əks etdirmək xarakteri olur. Belə liderlər onun tərəfdarları tə'xirəsalınmaz rəhbərlik edir və ona qüvvət verirlər. Bu halda lider qrupun adından işləyən və qrupun məqsədini əks etdirən simadır. Nəhayət dördüncü tip liderlər cəmiyyətin ən aktual, yeni yaranan problemlərini ön plana çəkirlər. Tələbat gerçəkliyi müəyyən edir, lider isə buna cavab verir. Müasir dövrdə liderlərin çoxu bu tiplərə xas olan cəhətlərin hamısından istifadə edir.

Siyasi lider, N.Tusinin qeyd etdiyi kimi, olarsa, onda o dövlət həmişə firavan və xalqı əmin -amanlıq içərisində olar. **Tusi belə qeyd edirdi:** "Rəiyyəti ədalət, fəzilət və hikmət qanunları əsasında idarə etmək lazımdır. Bədən-təbiətlərin, təbiətlər-nəfsin, nəfs-əqlin sayəsində möhkəmləndiyi kimi, şəhərlərin möhkəmliyi şaha, şahın möhkəmliyi siyasətə, siyasətin möhkəmliyi isə hikmətə bağlıdır. Şəhərdə tətbiq edilən hikmət öz qaydasında olsa, ədalət qanunlarına riayət edilsə, nizam-intizam yaranar, hər şey kamala doğru inkişaf edər. Lakin əgər hikmət naqis olsa, şəraitə düz gəlməsə, qanunlarda ədalətsizliyə yol verilməyə başlanar, elə ki, ədalətsizlik özünə yol tapdı, ölkənin gözəlliyi gedər, çirkinliklər, fitnə-fəsadlar baş qaldırar, insaf-mürvət aradan qalxar, məhəbbət nifrətlə əvəz olunar.

Şaha kömək üçün müraciət edənləri kor-peşiman qaytarmaya, araqızışdıran, sözgəzdirən adamların dediklərinə yoxlanmamış inanmaya, ümid və qorxu qapılarını camaatın üzünə bağlamaya, düşmənləri dəf edə, yolların əmin-amanlığını tə'min edə, sərhədləri qorumaqda, keşikçilərin hayına qalmaqda, şücaət sahiblərinə hörmət qoymaqda etinasızlıq göstərməməlidir; alimlərlə oturub-durmalı, fəzilət sahibləri ilə sıx əlaqə saxlamalıdır.

Öz nəfsinin qabağını almalı, şan-şöhrət, cah-cəlal, şövkə-tə uymamalı, bir an da olsun ölkə haqqında fikirləşməyi, işlərini nizama salmağı unutmamalıdır, çünki şahın ölkəni mühafizə etmək haqqındakı tədbirləri böyük orduların qüvvəsindən daha güclü olar".

Nəsirəddin Tusinin bu sözləri səkkiz yüz il bundan qabaq deyilsə də, bu günün tələbatına tam uyğundur. Əlbəttə, indiki siyasi liderlər iş prinsiplərini deyilən kimi qurmuş olsalar, bütün bəşəriyyət gələcəyə doğru inkişafda yalnız insana layiq olan və onun qüvvəsinə arxalanan yeni sivilizasiya növü yaradar.

# FƏSİL VI
# CƏMİYYƏTİN SİYASİ TƏŞKİLİ
## *§1. Cəmiyyətin siyasi təşkili anlayışı*

Cəmiyyətin siyasi təşkilinin elmi şəkildə izah edilməsi, ictimai elmlərin ən mürəkkəb məsələlərindən biridir.

Cəmiyyətin siyasi təşkili onun mənafeləri bir-birinə əks olan siniflərə parçalanması və sinfi hökümranlığın qərarlaşması ilə yanaşı təşəkkül tapmışdır.

Antoqonist siniflərin meydana gəlməsi və sinfi hökmranlığın yaranması ilə cəmiyyəti idarə etmək, müxtəlif siniflər və ölkələr arasındakı münasibətləri tənzim etmək, nizama salmaq üçün hakim siniflər tərəfindən istifadə edilən xüsusi mexanizm meydana gəlir. Bu mexanizmin məcmusu cəmiyyətin siyasi təşkili anlayışını təşkil edir. Siyasi təşkil və siyasi struktur anlayışlarını qarışdırmaq olmaz. Siyasi struktur siyasi münasibətlərin məcmusudur.

Siyasi təşkil isə dəyişilir, çünki o, sinfi qüvvələrinin nisbətindən asılıdır.

Siyasi münasibətlər dövlətlər, millətlər və siniflər arasında olan münasibətlərə deyilir. Lakin bu münasibətlər müxtəlif təşkilatlar vasitəsilə əldə edilir. Ona görə də belə demək olar ki, cəmiyyətin siyasi təşkili bu cəmiyyətin siniflər və millətlərin mənafelərini ifadə edən və müdafiə edən təşkilat və idarələrin məcmusudur. Cəmiyyətin siyasi təşkili anlayışına hər şeydən əvvəl dövlət və dövlət hakimiyyəti sisteminə daxil olan bütün təsisat və təşkilatlar, siyasi partiyalar, həmkarlar təşkilatı, gənclər təşkilatı və müxtəlif birliklər daxildir. Əlbəttə ki, cəmiyyətin siyasi təşkili anlayışına daxil olan bu ünsürlərin rolu və əhəmiyyəti eyni deyildir. Siyasi təşkili bu ünsürlərsiz təsəvvür etmək mümkün olmasa da, cəmiyyətin siyasi təşkilində əsas və müəyyənedici mövqe dövlətə məxsusdur. Ona görə ki, hakim siniflərin siyasi xəttinin həyata keçirilməsində siniflər və ölkələr



arasındakı münasibətlərin tənzim edilməsində dövlət başlıca silahdır.

Cəmiyyətin siyasi təşkilinin xarakteri və mahiyyəti mövcud iqtisadi münasibətlərdən asılı olduğuna, siniflər və sinfi münasibətlərlə bilavasitə bağlılığına görə onun mənşəyi və inkişaf qanunauyğunluğunu iqtisadi və sinfi münasibətdə axtarmaq lazımdır. Bəşəriyyətin bütün tarixi ərzində iqtisadi və sinfi münasibətlər sabit və dəyişməz qalmadığı kimi siyasi təşkili də dəyişməz qalmamışdır. Siyasi təşkil tarixi və keçici xarakter daşımışdır. Belə ki, bəşər cəmiyyətinin ilkin pilləsini təşkil edən ibtidai icma formasında uzun zaman siyasi təşkilin varlığını şərtləndirən müqəddim şərtlər (xüsusi mülkiyyət və siniflər) olmadığı üçün bu ictimai-iqtisadi quruluş siyasi təşkilsiz keçilmişdir.

Ibtidai icma quruluşunda dövlət idarəçiliyinin və siyasi təşkilin olmamasından heç də belə bir nəticə çıxarmaq olmaz ki, o cəmiyyət idarəsiz və ictimai təşkilsiz keçmişdir. Icma cəmiyyətində idarəçilik mövcud olmuşdur. Lakin bu idarəçilik siyasi xarakter daşımamışdır. Ictimai idarəçilik qəbilə, tayfa təşkilatı tərəfindən həyata keçirilmişdi. Ibtidai icma quruluşu cəmiyyətin ictimai təşkilinin tarixən ilk formasını-qəbilə təşkilatını yaratmışdır.

Zaman keçdikcə, qəbilə quruluşu mütərəqqi əhəmiyyətini itirərək öz dövrünü başa vururdu. Məhsuldar qüvvələrin, bütövlükdə maddi istehsalın inkişafı cəmiyyətin müəyyən inkişaf mərhələsində icma mülkiyyətinin xüsusi mülkiyyətlə əvəz olunmasını tarixi zərurətə çevirir. Ictimai əmək bölgüsü və onun nəticəsində cəmiyyətin siniflərə bölünməsi qəbilə quruluşunu dağıdır. Qəbilə quruluşunun dağılması əsasında isə cəmiyyət mənafeləri bir-biri ilə antoqonizm təşkil edən siniflərə parçalanması prosesi daha da sür'ətlənirdi.

Istehsal alət və vasitələri üzərində xüsusi mülkiyyətin

meydana gəlməsi, varlı və yoxsul siniflərin yaranması ilə əlaqədar olaraq, insanlar arasında ictimai-iqtisadi əlaqələrin xarakteri dəyişilir. Qarşılıqlı yardım və əməkdaşlıq münasibətləri ağalıq və tabelik münasibətləri ilə əvəz olunur. Ağalıq-tabelik, sinifi əkslik və sinfi antaqonizm şəraitində ictimai münasibətləri qaydaya salmaq, idarə etmək üçün qəbilə quruluşunda mövcud olan adət, ənənə, ictimai rəy, hərbi demokratiyanın orqanları olan hərbi rəis, şura və yığıncaq daha kifayət etmirdi.

Cəmiyyətin düşmən siniflərə parçalanması ilə yeni münasibət və əlaqə sahələri təşəkkül tapırdı. Öz iqtisadi həyat şəraiti üzündən, azad şəxslər də qullara, istismarçı varlılara, istismar olunan yoxsullara parçalanmış bir cəmiyyət həmin ziddiyyətləri nəinki barışdıra bilmir, getdikcə daha çox kəskinləşdirməli olurdu. Ona görə də belə bir cəmiyyət yalnız üçüncü qüvvənin hökmranlığı altında yaşaya bilərdi. Bu üçüncü qüvvə isə məhz dövlətdir. Bu üçüncü qüvvə olan dövlət bir-biri ilə mübarizə edən siniflərdən yüksəkdə duraraq, onların açıq toqquşmalarını yaradırlar.

Qəbilə quruluşu orqanları öz işlərini sərbəst surətdə nizama salmaq üçün olan tayfalar təşkilatından qonşuları qarət etmək və onlara zülm etmək təşkilatına çevrilir, buna da uyğun olaraq onun orqanları, xalq idarəsi vasitələri olmaqdan dönüb öz xalqına qarşı çevrilmiş olan müstəqil ağalıq və zülm orqanları olurdu.

Belə bir şəraitdə dövlətə ehtiyac yaranırdı. Tarixə nəzər saldıqda belə qənaətə gəlmək olar ki, dövlət heç də siniflər meydana gəldikdən sonra, yəni siniflər arasında ziddiyyət yarandıqdan sonra dövlət yaranmışdır. Dövlət siniflər və sinfi ziddiyyət yaranmadığı bir vaxtda da yarana bilər. Yəni ibtidai icma quruluşunda qəbilə və tayfalar arasında yaranmış ziddiyyət dövlətin yaranmasına gətirib çıxarmışdır. Məsələn,



1206-cı ildə Onan çayı sahilində monqol-tatar qəbilə və tayfaları özlərinin ilk qurultayını çağırdılar. Bu qurultaya qəbilə və tayfa başçıları dəvət olunmuşdu. Qurultayda onlar özlərinin dövlətini -monqol-tatar dövlətini yaratdılar və Temurçin Çingiz xanı (Böyük xan) onun başçısı etdilər. Bu qurultay ona görə çağırılmışdı ki, monqol-tatar qəbilə və tayfaları arasında gedən amansız müharibələrin qarşısı alınsın. Çünki bu müharibələr onları cana gətirmişdi. Həmin müharibələr qəbilə və tayfalar arasındakı ziddiyyətin nəticəsi idi. Deməli, bu dövlət də ziddiyyətin məhsulu idi. Lakin siniflər arasındakı ziddiyyətin deyil, qəbilə və tayfalar arasında olan ziddiyyətin məhsuludur. Lakin bu günə qədər fəlsəfi və tarix ədəbiyyatlarda dövlət sinifli cəmiyyətdən olan ziddiyyətlərin məhsulu kimi qəbul edilmişdir. Göstərilir ki, dövlət qəbilə cəmiyyətinin öz daxilində inkişaf edən sinifli antoqonizmlərdən, iqtisadi cəhətdən hakim olan sinfin siyasi hökmranlığı kimi meydana gəlmişdi. Buna görə də dövlət hakim sinfin məzlum sinif üzərində ağalığı təmin edən, siniflərin açıq toqquşmalarını məhdudlaşdıran sinfi təşkilat kimi yaranmışdır. Belə bir təşkilatsız-dövlətsiz istismarçı azlıq istismar olunan çoxluğu itaətdə saxlaya bilməz, heç bir antoqonist cəmiyyət yaşaya bilməz.

Deməli, dövlət nə əzəldən mövcud olmuş, nə də cəmiyyətə kənardan qəbul edilmiş bir qüvvə deyildir. Dövlət cəmiyyətin siniflərə parçalanması ilə hökmən bağlı olan müəyyən iqtisadi inkişaf pilləsində ictimai inkişafın məhsuludur.

Dövlət bütün cəmiyyət adından çıxış etsə də işdə iqtisadi cəhətdən hakim mövqe tutan sinfə xidmət edir. İctimai sərvəti öz əlinə alan, onu mənimsəyən istismarçı siniflər bütün cəmiyyətdə siyasi ağalığı da öz əllərində cəmləşdirmək üçün mütəşəkkil halda təşkil olunmalıdır. Bunu həm də cəmiyyətdə genişlənən sinfi mübarizə tələb edir. Iqtisadi mənafeləri bir-

birinə zidd olan siniflərin mövcud olduğu cəmiyyət yalnız sinfi mübarizə şəraitində inkişaf edə bilər. Məhz bu mübarizənin gedişində iqtisadi cəhətdən hakim olan sinif özünün siyasi təşkilatını yaradır.

Dövlət, sinfi ziddiyətlərdən meydana gəldiyinə görə, o eyni zamanda hakim siniflərin toqquşmasından meydana gəldiyinə görə, ümumi bir qayda olaraq ən qüdrətli, iqtisadi cəhətdən hökmran sinfin dövləti olur, bu sinif isə dövlət vasitəsi ilə, həmçinin siyasi cəhətdən də hökmran sinif olur və beləliklə də, məzlum sinfi əzmək və istismar etmək üçün eyni vasitələr əldə edir.

## *§2 Dövlətin mənşəyi və mahiyyəti haqqında nəzəriyyələr*

Dövlət məsələsi - tarixçilərin, hüquqşünasların, sosioloqların və filosofların məşğul olduğu ən mürəkkəb və ən çətin məsələlərdən biridir. Bütün sinifli cəmiyyətdən tarixi boyu dövlətin mənşəyi və mahiyyəti məsələsi ətrafında kəskin fikir ayrılığı olmuş və bu hal-hazırda davam etməkdədir.

Dövlətin mahiyyətini izah edən nəzəriyyələrdən biri neotomistlərin teoloji baxışlarıdır. Bu baxışın əsas müddəaları orta əsr sxolastı **Foma Akvinski** tərəfindən formula edilmişdir. Akvinskinin teoloji nəzəriyyəsinə görə, dövlət ilahi mənşəyə malikdir. Dövlət allahın yer üzərində nümayəndəsi olub, ictimai siniflərin fövqündə durur, ictimai sinifləri vahid tam halında birləşdirərək, bütövlükdə allah tərəfindən təsdiq edilmiş hakimiyyəti həyata keçirir. Bu baxışın tərəfdarları iddia edirlər ki, madam ki, dövlət hakimiyyəti öz başlanğıcını allahdan alir, onda onunla hesablaşmaq lazımdır.

Hegel dövləti mütləq ideyanın gerçəkliyi hesab etdiyi üçün ictimai inkişafda onun rolunu düzgün qiymətləndirə bilmirdi. Hegelin də şərik olduğu köhnə baxışa görə dövlət,



əksinə olaraq, müəyyənedici ünsür idi, vətəndaş cəmiyyəti isə müəyyən edilən ünsür idi.

Başqa bir nəzəriyyənin (patriarxal) tərəfdarla iddia edirlər ki, dövlət ailənin böyüməsi nəticəsində yaranmışdır. Guya əvvəlcə ailə mövcud olmuş, sonra o böyüyərək qəbiləyə, qəbilə isə tayfaya çevrilmişdir. Tayfa isə böyüyərək dövlət meydana gəlmişdir. Onların fikrincə, dövlət hakimiyyəti ata hökmranlığının öz şəklini dəyişməsindən başqa bir şey deyildir. Ata ailə üzvlərinin hər birinə eyni qayğı və eyni münasibət bəslədiyi kimi dövlət də cəmiyyətdəki bütün siniflərə eyni qayğı bəsləyir.

Bu nəzəriyyə hadisələrin həqiqi vəziyyəti ilə açıq şəkildə ziddiyyət təşkil edir. Tarixi hadisələrin gedişindən açıq şəkildə məlum olduğu kimi ailə heç də bəşər cəmiyyətinin başlanğıc özəyi olmamışdır. O, cəmiyyətin inkişafının sonrakı mərhələsində meydana gəlmişqdir. İlk dövrlərdə qəbilədə ailə münasibətləri heç də müasir ailə münasibətləri kimi olmamışdır. Həmin ailə münasibətləri heyvani münasibət kimi olmuşdur. Yəni nigahda heç bir qadağa qoyulmurdu. İlk dövrlərdə insanlar qəbilə və tayfa halında yaşamışlar. Sonradan iqtisadi inkişaf nəticəsində, xüsusən istehsal vasitələri üzərində xüsusi mülkiyyətin yaranması ilə insanlar təklikdə məhsul istehsalına başladıqları zaman qəbilə və tayfalardan ailə təşəkkül tapmağa başlamışdır.

Dövlətin mənşəyini izah edən, ən geniş yayılmış nəzəriyyələrdən biri də **ictimai müqavilə nəzəriyyəsidir.** Bu nəzəriyyələrin ən görkəmli tərəfdarlarından B.Spinozanı, T.Hobbsu, Ç.Lokku, J.Russonu və s. göstərmək olar. Guya insanlar öz arasındakı qarşılıqlı düşmənçiliyi aradan qaldırmaq və onlar arasındakı münasibəti nizama salmaq üçün dövlət yaradaraq, öz təbii hüquqlarının bir qismini ictimai müqavilə əsasında ona həvalə etmiş və öz azadlıqarını müdafiə etməyi ona etibar etmişlər.

Bir çox burjua sosioloqları dövlətin yaranmasını zorakılıq

vasitəsilə izah edirlər. Onların fikrincə, dövlət bir tayfa və xalqın başqalarını özünə tabe etməsi nəticəsində meydana gəlmişdir. Qalib xalq məğlub xalqın əmlakını zəbt edir və xüsusi şəkildə yaradılmış aparatın köməyi ilə onu idarə etməyə başlayır. **Zorakılıq nəzəriyyəsinin tərəfdarları Durinq və Kautski** dövlətin mənşəyini belə izah edir. Qalib tayfalar məğlub tayfaları özünə tabe edir, onların bütün torpağını mənimsəyir və sonradan məğlub tayfanı sistematik olaraq qaliblər üçün işləməyə, xərac və vergi verməyə məcbur edir. Məğlubları idarə etmək üçün qaliblərin yaratdığı məcburetmə aparatı dövlətə çevrilir.

Doğrudur, siniflərin, xüsusi mülkiyyətin və dövlətin yaranmasını zorakılıqsız təsəvvür etmək olmaz. Lakin zorakılıq heç vaxt nə sinif, nə xüsusi mülkiyyət, nə də dövlət yarada bilməz. Ona görə ki, zorakılıq sırf siyasi amildir, tarixin materialist anlayışına görə siyasi amillər ancaq iqtisadi inkişafla izah edildikdə elmi əhəmiyyət kəsb edə bilər. Ona görə də, dövlətin mənşəyini zorakılıqla izah etməyə çalışan təşəbüsslər hadisələrin həqiqi vəziyyətini, gedişini düzgün əks etdirmir.

Bir sıra burjua filosofları **dövlətin meydana gəlməsi zərurətini insanların psixoloji xüsusiyyətləri** ilə etməyə cəhd göstərirlər. Onlar iddia edirlər ki, insanlar öz psixoloji vəziyyətinə görə iki bir-birinə əks qrupa bölünürlər. Bunlardan bəziləri qüvvətli, iradəli olub qaynar fəaliyyətə məcbur etmək, təşkil etmək və idarə etməyə can atırlar, ikincilər isə rəhbərlərə və göstəriş verənlərə möhtacdırlar. Onlar bunsuz nəinki hərəkət etməyə, hətta yaşamağa qabil deyirlər. Nəzərdən keçirdiyimiz cərəyanın nümayəndələrinin bu iki müxtəlif psixoloji xassəli insanları birləşərək, dövləti əmələ gətirirlər. Bu birlikdə birincilər hakimiyyət əldə edərək, inzibati qaydada idarə edirlər, ikincilər müəyyən vəzifələr icra etməyə məcbur edirlər.



### *§3. Dövlətin əlamətləri və funksiyaları*

Dovlət qəbilə quruluşunun öz daxilində inkişaf edən sinfi əksliklərdən meydana gəlmişdir. Məhsuldar qüvvələrin inkişafı nəticəsində baş verən dəyişikliklər qədim qəbilə quruluşu ilə bir araya sığmayan, ona hər cəhətdən əks olan yeni tələbat və yeni mənafe yaratdı. Bu yeni tələbat və mənafe xüsusi orqanlar olmasını tələb edirdi. Sona çatmaqda olan qəbilə quruluşu qəbilə təşkilatlarının köməyi ilə cəmiyyətdə baş verən mənfi hadisələrin qarşısını ala bilmirdi. Bu quruluş özünün yardımı olmadan meydana gəlmiş yeni ünsürlər qarşısında aciz qaldı, ona görə imtiyazlı sinifləri kütləvi itaətdə saxlamaq vasitələrinə ehtiyac duydu, öz mənafelərini müdafiə etmək üçün yeni orqanlar yaratdılar, müxtəlif vəzifələr təsis etdilər, müharibələr etmək üçün hərbi qüvvə lazım gəldi, kütləvi hakimiyyət yaradıldı. Artıq qəbilə quruluşu cəmiyyətə heç bir yardım edə bilmədiyinə görə, ancaq meydana gəlməkdə olan dövlətə ümid bağlamaq qalırdı. Məhz belə bir şəraitdə nəzərə çarpmadan dövlət meydana gəlib inkişaf etməyə başladı.

Dövlətin mənşəyi haqqında marksizm nəzəriyyəsi də vardır. V.I.Lenin dövlətin zülm aparatı, zorakılıq maşını, sinfi hökmranlıq orqanı, məzlumları tabeçilikdə saxlamaq vasitəsi olmasından bəhs edərək yazırdı: "Dövlət bir sinifin başqa sinif üzərində ağalığını saxlamaq maşınıdır. Dövlət bir sinifin başqa sinifə zülm etməsi maşınıdır, tabeçilikdə olan başqa sinifləri bir sinfi itaətdə saxlamaq üçün lazım olan bir maşındır".

Dövlət bir sinfin başqa sinfə, əhalinin bir hissəsinin o bir hissəsinə müntəzəm surətdə zorakılıq göstərməsi təşkilatıdır. Dövlətin mövcud olduğu bütün cəmiyyətlərdə bir qrup adamlar idarə etməklə, əmrlər verməklə, hökmranlıq etməklə məşğul olmuşlar. Həmin qrup adamlar dövlət hakimiyyətini öz əllərində saxlamaq üçün zorakılıq aparatına, silaha malik olmuşlar.

F.Engels dövlətin ibtidai cəmiyyətdə mövcud olan qəbilə təşklatlarından bir neçə fərqləndirici cəhətini göstərmişdir.

***Birincisi,*** dövlət təbəqələrinin ərazi bölgüləri üzrə parçalanmasıdır. Engels bu fərq anlayışı altında nəyi nəzərdə tutur. Ictimai təbəqələşmə zamanı, siniflərin yaranması ilə əlaqədar olaraq. qəbilə təşkilatlarının ilkin şərti olan qan qohumluğu əlaqəsi getdikcə öz əhəmiyyətini itirir. Istehsalın inkişafı, ictimai əmək bölgüsü, əhalinin artması qəbilə və tayfaların üzvləri qohumluq prinsipinə görə deyil, peşələrinə görə yerləşərək, bir-birlərinə qarışmış oldular. Sonradan şəhərlər əmələ gəlməyə başladı, bu şəhərlərə eyni qəbilə və tayfadan olmayan əhali toplaşdı. Qəbilə bölgüsü əvəzinə əhali ərazi əlaməti üzrə bölünməyə başladı. Tayfa şuralarına daha qəbilələrin nümayəndələri deyil, həmin ərazidə yaşayan, lakin bir-birinə qohum olmayan azad əhalinin nümayəndələri daxil oldular. Buna görə də başlanğıc nöqtəsi olaraq, ərazi bölgüsü qəbul edildi və vətəndaşlara qəbilə və tayfadan asılı olmadan məskunlaşdıqları yerlərdə öz ictimai hüquq və vəzifələrini həyata keçirmək imkanı verildi. Vətəndaşların yaşadıqları yerə görə bu cür təşkili ümumən bütün dövlətlərdə qəbul edilmişdi.

***Ikincisi,*** dövlətin ən mühüm əlamətlərindən biri silahlı adamlardan ibarət olan xüsusi dəstələrin olmasıdır. Bu dəstələr bütün əhaliyə deyil, iqtisadi cəhətdən hökmran olan bu və ya başqa sinfə xidmət edir.

Dövlətin başqa siyasi təşkilatları nisbətən xüsusi əhəmiyyətə malikdir, çunki onun o təşkilatlardan səciyyələndirən bir sıra xüsusiyyətləri vardır:

***l.Insan cəmiyyətinin siniflərə bölünməsi zamanından bəşər tarixində mövcud olması;***

***2.Hakim sinfinin əsas təşkilatı olması (onun diktaturasının vasitəsi olması);***

***3.Əhalinin ərazi bölgüsü ilə mütləq bağlılığı;***

***4.Dövlətin fəaliyyəti və işi xüsusi məmurlar təşkilatı ilə aparılması, dövlətin xeyrinə əhalidən verginin yığılması;***



***5.Hüquqi qaydaları yaradan yeganə təşkilat olması;***

***6. Zorakılığı işlətmək üçün xüsusi təşkilat və üsulların mövcud olması.***

Ən ümumi və əsas səciyyləndirən cəhəti - dövlət hakimiyyətidir.

Beynəlxalq siyasi təşkilinə görə beynəlxalq qeyri-dövlət təşkilatların məcmusu, dövlətlər arasında (beynəlxalq hüquq qaydaları əsasında) münasibətlərini nizamlaşdırmağa yönəldilən bütün təşkilatlar, bloklar, ittifaqlar və müqavilələrin məcmusu və əmələ gəlmiş dövlət sərhədlərinin sisteminə deyilir. (Diplomatiya, dünya müharibələri və s.)

İstismarçıların hökmranlığının əsasını onların iqtisadi qüdrəti təşkil edir. Lakin azlığın çoxluq üzərindəki hökmranlığını saxlamaq üçün zalımların təkcə iqtisadi qüdrəti hələ heç də kifayət deyildir. Məzlumların müqavimətini qırmaq üçün, onları itaətdə saxlamaq üçün bir də mütəşəkkil qüvvə lazımdır. İqtisadi cəhətdən hökmran sinfin siyasi hökmranlığını təmin etmək və başqa siniflərin müqavimətini qırmaq üçün lazım olan mütəşəkkil qüvvə kütləvi hakimiyyət vasitələrinə malik olan dövlətdir. Kütləvi hakimiyyət ona görə zəruridir ki, cəmiyyət siniflərə parçalandığı zamandan etibarən, əhalinin öz-özünə fəaliyyət göstərən silahlı təşkilatı daha mümkün olmadı. Vətəndaşları itaətdə saxlamaq üçün jandarmeriya lazım gəldi. Bu kütləvi hakimiyyət hər bir dövlətdə vardır. O bir tək silahlı adamlardan deyil, habelə həbsxanalardan və hər cür məcburiyyət idarələrindən ibarətdir. Dövlət daxilində sinfi ziddiyyətlər kəskinləşdikcə və qonşu dövlətlər daha böyük və əhalisi daha çox olduqca kütləvi hakimiyyət də güclənir.

Dövlətin meydana gəlməsi göstərdi ki, sinfı ziddiyyətlər barışmazdır. Dövlət, sinfı ziddiyyətlərin barışmazlığı məhsulu və təzahürüdür. Sinfi ziddiyyətlər harada, nə zaman və nə dərəcədə obyektiv surətdə barışdırıla bilmirsə, dövlət də orada, o zaman və eyni dərəcədə meydana gəlir.

Sinfi ziddiyyətlər kəskinləşdikcə, kütləvi hakimiyyət və

onun vasitələri olan maddi əlavələri daha da güclənir. Bu kütləvi hakimiyyəti və onun maddi əlavələrini saxlamaq üçün lazım olan xərclərin bir hissəsi vətəndaşlardan tədiyyə və vergilər şəklində alınır. Kütləvi hakimiyyətin bütün vasitələri kimi vergi almaq hüqüqu olan məmurlar da cəmiyyətdən yüksəkdə durmağa başlayırlar. Odur ki, dövlətin yaranması ilə onun vergi sistemi formalaşır. Vətəndaşlardan müxtəlif formalarda vergilər yığılması demək olar ki, ümumən bütün dövlətlərdə qəbul edilmişdir. Engelsin dediyi kimi, kütləyi hakimiyyəti saxlamaq üçün vergilər lazımdır. Qəbilə cəmiyyətində vergilər qətiyyən yox idi. Lakin mədəniyyət inkişaf etdikcə, vergilər də kifayət etmir, dövlət gələcək üçün vergilər verir, borc alır. Deməli konkret olaraq dövlətin 3 əlaməti var:

*1 Ərazi və sərhədlərin olması.*

*2 Kütləvi hakimiyyət.*

*3 Vergi sistemi.*

Dövlət yaranarkən, onun funksiyaları da formalaşır. Hər bir dövlətin iki əsas funksiyasi vardır -daxili və xarici funksiya.

***Dövlətin daxili funksiyasi*** başlıca və müəyyənedicidir, çünki dövləti məhz həmin funksiya doğurmuşdur. Hakim siniflər məhz bu fünksiya vasitəsilə zəhmətkeş kütləlꞏəri özünə tabe edir, itaətdə saxlayır və onların inqilabi çıxışlarını boğur. Bu cəhətdən istismarçı dövlətlərin funksiyalarında bir çox ümumilik vardır. Belə ki, quldarlıq, feodalizm və kapitalizm cəmiyyətində dövlətin daxili funksiyasında əsas cəhət istismarçıların hökmranlığını təmin etmək üçün məzlum siniflərin e'tirazlarını boğmaqdır. Ona görə də, antaqonist sinifli cəmiyyətlərdə məzlum sinifin hakim sinifə qarşı mübarizəsi hökmən siyasi mübarizəyə çevrilir, hər şeydən əvvəl hakim sinifn siyasi hökmralığına qarşı aparılan bir mübarizə olur.

Dövlətin daxili funksiyasi bilavasitə cəmiyyətin sinfi quruluşundan irəli gəlir. Hər bir dövlət öz daxili funksiyasını yerinə yetirərkən, zəhmətkeşlərə iqtisadi, siyasi və mə'nəvi



cəhətdən zülm etmək maşını kimi fəaliyyət göstərir. Onları iqtisadi cəhətdən istismar edir, siyasi cəhətdən hüquqlardan məhrum edir, müxtəlif ideoloji təsir vasitələrindən istifadə edərək, onları itaətkar və müti olmağa da məcbur edir.

Cəmiyyətin iqtisadi-ictimai həyatında baş verən dəyişikliklər dövlətin funksiyalarının da dəyişilməsinə tə'sir göstərir və onun istiqamətini müəyyən edir. Bu dəyişiklik hər şeydən əvvəl özünü dövlətin ölkənin iqtisadi həyatına qarışmasında göstərir. Burjua dövləti ölkənin təsərrüfat həyatına qarışarkən, onu tənzim edərkən, qismən planlaşdırma üçün bəzi tövsiyyələr versə də bütün cəmiyyət miqyasında təsərrüfatı planlaşdırmağa qadir deyildir.

Sinifli cəmiyyətdə daxili münasibətlərlə yanaşı ***xarici münasibətlər də*** mövcuddur. Buna uyğun olaraq dövlətin daxili funksiyasi ilə yanaşı xarici funksiyası da vardır. Xarici funksiya bir dövlətin ərazisini və mənafelərini başqa dövlətlərin hücumlarından müdafiə etmək və ya onun ərazisini başqa dövlətlərin hücumundan müdafiə etmək və ya onun, ərazisini başqa dövlətlərin və xalqların hesabına genişləndirmək məqsədini güdür. Dövlətin xarici siyasəti də onun sinfi təbiəti ilə bağlıdır. Ona görə də hər bir dövlətin daxili funksiyası öz təsirini xarici funksiyada da göstərir və onun mahiyyətini şərtləndirir. Müasir imperialist dövlətlərinin xarici funksiyasının mühüm xarakterik cəhətləri beynəlxalq fəhlə hərəkatına qarşı açıq terror təşkil etməkdən, milli azadlıq hərəkatını boğmaqdan, dünya sosializm şistemino qarşı mübarizə aparmaqdan və s. ibarətdir. Bu məqsəd üçün imperialist dövlətlər özlərinin müxtəlif ittifaqlarını və hərbi bloklarını yaradır, dünyanın müxtəlif yerlərində inqilabi azadlıq hərəkatına qarşı açıq hərbi müdaxilə təşkil edirlər.

Hər bir dövlət meydana gəldikdən sonra özünün daxili və xarici funksiyalarını həyata keçirmək üçün müəyyən hüquq normalarına əsaslanır. Dövlət kimi, hüquq da sinfi xarakterdə olub, hakim sinfin mənafeyinin müdafiəsinə xidmət edir. Antaqonist cəmiyyətlərdə mövcud olan hakim hüquq normaları həm də

əksəriyyət təşkil edən zəhmətkeş kütlələrin mənafeyinə qarşı çevrilir.

Antaqonist cəmiyyətlərdə siniflər arasında yaranan münasibətlər dövlət tərəfindən hüquqi normalar vasitəsilə qanuniləşdirilir və məcburi qaydalar səviyyəsinə qaldırılır. Hakim siniflər öz mənafeylərinə uyğun gələn münasibətləri hüquqi normalar vasitəsilə təsdiq etdikləri halda, onların mənafeylərinə zidd gələn hərəkətləri qanunla qadağan edirlər. Bu qaydalara əməl etmək üçün lazım gəldikdə zor da tətbiq edirlər.

Cəmiyyətin antaqonist siniflərə parçalanması ilə elə hüquq normaları, qaydalar, qanunlar meydana çıxır ki, bunlara əməl olunması dövlətin hakimiyyəti tərəfindən təmin edilir. Bləliklə, hakim hüququn mühüm xüsusiyyəti onun dövlət sanksiyasına malik olmasındadır. Mahiyyət etibarilə hüquq hakim sinfin qanun şəklinə salınmış iradəsindən başqa bir şey deyildir. Bu iradənin məzmunu isə hakim sinifin iqtisadi və siyasi mənafeyinin ifadəsi olub, həmin sinifin maddi həyat şəraiti ilə müəyyən olunur.

Deməli, hüquq da hakim siniflərin öz iqtisadi və siyasi hökmranlığını qoruyub saxlaya bilmələri üçün öz iradəsini bütün cəmiyyətə qəbul etdirdikləri bir şəraitdə meydana gəlir. Bu şərait isə tarixən dəyişildiyi üçün, cəmiyyətin tələbatı dəyişildiyi üçün hakim sinifin iradəsini ifadə edən hüquq da dəyişilir. K.Marksın dediyi kimi "Hüquq heç bir zaman iqtisadi quruluşundan və cəmiyyətin bu quruluşundan asılı olan mədəni inkişafından yüksək ola bilməz".

## *§4.Dövlətin tipləri və formaları*

Sinfi ziddiyyətlərin barışmazlığı məhsulu və onları cilovlamaq tələbatından meydana gələn dövlət yarandıqdan sonra heç də dəyişilməz şəkildə qalmır. İctimai-iqtisadi inkişafın müxtəlif mərhələlərində, məhsuldar qüvvələrin, istehsal münasibətlərinin və sinfi münasibətlərin dəyişməsindən asılı olaraq, dövlət təşkilatı da əsaslı dəyişikliyə uğrayır. Tarixi tərəqqinin gedişində dövlətin təşkilində baş verən dəyişiklik həm onun mahiyyətində, həm də quruluşunda təzahür edir.



Dövlət, cəmiyyətin iqtisadi quruluşu, bazisi üzərində yüksələn siyasi üstqurumun əsas ünsürü olduğundan o bazislə bilavasitə bağlıdır. Ona görə də, cəmiyyətin inkişafı gedişində bir iqtisadi bazisin digəri ilə əvəz edilməsi nəticəsində bütün üstqurumda, o cümlədən dövlətdə əsaslı dəyişiklik, çevriliş baş verir.

Dövlətin tiplərini tarixən dəyişməsi, onların bir-birini əvəz etməsi, ictimai inkişafın obyektiv qanunauyğunluğudur. Bu qanunauyğunluğun əsasında ictimai iqtisadi formasiyaların inkişafı və bir-birini əvəz etməsi durur. Bir ictimai-iqtisadi formasiya digəri ilə əvəz olunduqda,dövlət hakimiyyəti bir sinfin əlindən başqa sinfin əlinə keçir, bir dövlət tipi digər dövlət tipi ilə əvəz olunur. Dövlət tipinin dəyişilməsi, özlüyündə sinfi münasibətlərdə baş verən dəyişikliyin siyasi ifadəsidir.

Tarixi inkişafdan dövlətin 4 əsas tipi məlumdur. Bunlar ***quldarlıq dövlətindən, feodal dövlətindən, burjua dövlətindən və sosialist dövlətindən*** ibarətdir. Bunlardan birinci 3-ü sinfi əkslik zəminində yaranmış, sinfi antaqonizm və sinfi hökmranlığı dərinləşdirmişlər, sonuncusu isə yarandığı gündən sinfi antaqonizmi və sinfi hökmranlığı aradan qaldırmağa çalışır.

Dövlətin tarixi tipli anlayışı sinfi hökmranlığın hansı sinfin əlində olması, onun hansı istehsal üsulu zəminində yaranması, hansı iqtisadi-ictimai formasiyaya xidmət etməsi, hansı ziddiyyətləri cilovlaması və hansı münasibətlərini qoruyub möhkəmləndirməyə çalışması ilə müəyyən olunur.

Tarixən ilk dövlət tipi quldar dövlətidir. Bu dövlət mahiyyət etibarilə quldarların qullar üzərində ağalığından başqa bir

şey deyildir. Bu dövlət quldarlıq cəmiyyətindəki mülkiyyət münasibətlərini toxunulmaz və müqəddəs elan edərək, onun keşiyində durur. İstehsalçılara-qullara danışan alət kimi baxır, onların hər cür etirazlarını boğur, itaət altına alır və amansız istismar edir. Qullarla quldarlar arasındakı sinfi münasibətləri əbədiləşdirməyə çalışır.

Ictimai inkişafın gedişində quldarlıq istehsal üsulu öz mütərəqqi xarakterini başa vurur. İctimai tərəqqinin buxovuna çevrilir. Quldarlıq istehsal üsulu özündən mütərəqqi olan feodal istehsal üsulu ilə əvəz olunur. Bu cəmiyyətin özünə uyğun sinifləri və sinfin ziddiyyətləri yaradır. Feodal dövlət tipi feodalların, mülkədarların mənafeyinin müdafiəçisi olub, mövcud qaydalara qarşı yönəldilmiş hərəkətləri və çıxışları əzir, iri torpaq sahibliyinin tələbləri keşiyində durur.

Sonuncu istismarçı dövlət tipi burjua dövlətidir.Feodal istehsal üsulu və istismar forması burjua istismar forması ilə əvəz edildikdə, dövlətin də mahiyyətində dəyişiklik baş verir. Feodal dövləti burjua dövləti ilə əvəz edilir. Burjua dövləti kapitalistlər sinfinin dövləti kimi yaranır və mövcud olduğu bütün dövrlərdə həmin sinfin diktaturasını təşkil edir və onların şəratini qorumağa xidmət edir.

Burjua dövləti bir çox cəhətdən quldarlıq və feodal dövlətləri ilə ümumi cəhətlərə malikdir. Bunların hər biri azlığın çoxluq üzərindəki hökmranlığını təmin edərək, istehsal vasitələri üzərində xüsusi mülkiyyəti və insanın insan tərəfindən istismarını müdafiə edir.

Dövlətin tipinə görə bölgüsü ilə yanaşı onun formasına görə də bölgüsü vardır. Dövlətin forması anlayışına idarəçilik üsulları, dövlət quruluşu və sinfi rejim daxildir. Dövlətin forması onun tipindən asılıdır. Tarixən mövcud olmuş dövlət tiplərinin hər birinin yalnız bir deyil, bir neçə dövlət forması mövcud olmuşdur.

Müxtəlif ölkələrin inkişaf xüsusiyyətlərindən ölkə daxilində



və beynəxalq aləmdə ziddiyyətlərin kəskinləşmə dərəcəsindən sinfi qüvvələrin münasibətindən, sinfi hökmranlığın həyata keçirildiyi tarixi şəraitdən və s. asılı olaraq, dövlətin idarəçilik üsulları, quruluşu və siyasi rejimi dəyişilərək müxtəlif formalar kəsb etmişdir.

Dövlət idarə üsullarına görə ***monarxiya və respublika*** şəklində, quruluşuna görə sadə, mürəkkəb və ya ***unitar federativ, konfederativ*** siyasi rejimə görə ***demokratik və irticaçı formada*** ola bilər. Hər bir dövlət tipinin hökmranlıq formaları cürbəcür ola bilər. Bu hökmranlıq forması olan yerdə istismarçılar öz gücünü bir cür, başqa bir hökmranlıq forması olan yerdə başqa cür göstərirlər.

Quldarlıq dövlətində monarxiya ilə respublika arasında fərq əmələ gəlir. Monarxiya bir nəfərin hakimiyyəti idi, respublika seçki ilə olmayan heç bir hakimiyyətin olmaması idi, aristokratiya nisbətən kiçik bir azlığın hakimiyyəti idi, demokratiya xalqın hakimiyyəti idi Quldarlıq respublikaları öz daxili təşkilat formaları cəhətdən bir-birindən fərqli idilər. Aristokratik respublikada az miqdar imtiyazlılar seçkidə iştirak edirdilər.

Quldarlıq dövlətinin monarxiya, aristokratik və demokratik respublika kimi müxtəlif formalarda təzahür etməsinə baxmayaraq, həqiqətdə dövlətin mahiyyəti dəyişmirdi. Dövləti idarə edənlərin hamısı yenə də quldarlar idi. Qullar heç bir hüquqa malik olmayan məzlum sinif olaraq qalmaqda idilər. Monarxiya da quldarlıq monarxiyası idi, ona görə də fərqlərə baxmayaraq, quldarlıq zamanlarının dövləti, fərq etməz, istər monarxiya olsun, istər respublika, yaxud demokratik respublika hər halda quldarlıq dövləti idi.

Istismar formalarının dəyişməsi ilə əlaqədar olaraq dövləti təhkimçilik dövlətinə çevrildi. Təhkimçilik cəmiyyəti quldarlıq quruluşunda daha mürəkkəb olmuşdur. Öz hökmranlığını əldə saxlamaq və hakimiyyətini davam etdirmək üçün mülkədarlara elə bir aparat lazım idi ki, o çoxlu insanı onun itaətində saxlaya

bilsin, bu adamları müəyyən qanunlara qaydalara tabe edə bilsin. Təhkimçilik dövləti mahiyyət etibarilə təhkimli kəndli üzərində mülkədarın hakimiyyəti idi. Təhkimçilik dövlətinin də formaları müxtəlif olmuşdur. Burada monarxiya və yaxud zəif halda olsa da respublika formasına rast gəlmək olar. Monarxiya camiyyəti tərəfindən seçilmiş nümayəndələr dövlətdə az-çox iştirak edirdilər.

Ticarətin və əmtəə mübadiləsinin inkişafı eyni bir sinfin - kapitalistlərin meydana gəlməsinə səbəb oldu. Tacirlər, sənayeçilər və sahibkarlar cəmiyyətin məzlum siniflərini itaətdə saxlamaq və öz mülkiyyətini təsdiq etmək üçün feodalizmdəkindən fərqli olan zülm maşını yaratdılar. Bu yeni zülm maşını köhnə cəbr aparatını daha da təkmilləşdirib burjua cəmiyyətinin sinfi quruluşuna və iqtisadiyyatına uyğunlaşdırdı. Burjua dövləti yoxsul kəndliləri və fəhlə sinfini itaətdə saxlamaqda kapitalistlərə yardım edən maşın oldu. Burjua dövləti təhkimçilik hökmranlığı üzərində qurulmuş bir cəmiyyətdə mülkiyyət azadlığı hamının qanun qarşısında bərabər olmasını elan etdi.

Kapitalistlərin siyasi hökmranlığını təmin edən burjüa dövləti müxtəlif formalarda ola bilər. Konstitusiyalı monarxiya - burada dövlətin başçısı kraldır və ya monarxdır. Kral öz fəaliyyətində konstitusiyaya əsaslanır, parlamentli respublika - burada seçili parlamentlə yanaşı dövlətin seçili başçısı - prezident olur, respublika - burada prezident eyni zamanda həm dövlətin başçısı, həm də hökümətin başçısı olmaqla hakimiyyətin xeyli hissəsini öz əlində saxlayır. Burjua dövlətinin bütün bu və başqa forma fərqlərinə baxmayaraq, onun mahiyyəti eyni olaraq qalır.

Dövlətin forması anlayışının göstəricilərindən biri də ***siyasi rejimdir***. Siyasi rejim hakim sinfin öz diktaturasını həyata keçirmək üçün tətbiq etdiyi üsulların məcmusudur. Siyasi rejim mövcud dövlət daxilində demokratiya və siyasi azadlığın vəziyyətini, onun irtica ilə nisbətini, hakim sinfin



diktaturasını necə və hansı istiqamətdə dəyişdiyini ifadə edir.

Burjuaziya yarandığı, öz diktaturasını həyata keçirmək üçün burjua demokratiyasından bir vasitə kimi istifadə etmişdir. Burjua demokratiyası feodal dövlətinə nisbətən böyük bir tarixi tərəqqi olsa da, insanların hüquq bərabərliyini elan edən burjua demokratiyasi əvvəldən formal xarakterə malik olmuşdur. Burjua demokratiyası dar və məhdud bir demokratiya olaraq, qalır və belə qalmaya da bilməz. Ona görə ki, burjua demokratiyasının elan etdiyi formal bərabərlik arxasında insanların çox dərin bir bərabərsizliyi gizlənmişdir. Istismar var ikən bərabərlik ola bilməz. Mülkədar fəhlə ilə bərabər ola bilməz.

Demokratik seçki qaydası öz-özlüyündə dövlətin sinfi mahiyyətini dəyişdirmir, onu çoxluğun hakimiyyəti altına çevirmir. Hətta zəhmətkeşlərin təzyiqi altında qəbul edilmiş hər hansı bir qanun da onların öz mənafeylərinə qarşı çevrilə bilər. Ona görə də kapitalist ölkələrində, ən demokratik respublikalarda belə, dövlət xalq iradəsi, bütün xalqın rəyini əks etdirmir.

Bizim yaşadığımız dövrdə də dövlətin forması və xarakterində siyasi rejimlər müəyyən dəyişikliklər baş verib.

# FƏSİL VII

## SİYASİ REJİMLƏR

Müxtəlif siyasi hadisələr bir-biri ilə qırılmaz surətdə bağlı olub, nisbi müstəqilliyə malik olan sosial orqanizmin müəyyən tamlığını təşkil edirlər ki, bu da onların xassəsidir və siyasi sistem anlayışını özündə əks etdirir.

Siyasi sistem kateqoriyasının meydana gəlməsi bilavasitə məşhur amerika sosioloqu T.Parsonsun cəmiyyətin sistemli təhlilinin inkişafı ilə bağlıdır. Siyasi sistem nəzəriyyəsi ilk dəfə XX əsrin 50-60-cı illərində məşhur amerikan politoloqu D.İston tərəfindən işlənilmişdir. Çikaqo məktəbinin "Siyasi sistem" (1953), "Siyasi tədqiqat üçün model" (1960) və "Siyasi həyatın sistemli təhlili" (1965) əsərlərində siyasi sistemin zamandan kənar modelini təklif etmişdir. Sonralar bu nəzəriyyə Q.Almondun, U.Mitçelin, G.Doyçun, A.Etisoninin, D.Divaynanın və bir çox başqa alimlərin əsərlərində inkişaf etdirilmişdir.

Siyasi sistemlərdə baş verən hadisələr məzmunu cəhətdən olduqca mürəkkəb və zəngin olduğuna görə onların müxtəlif əsaslar üzrə təsnifatını vermək olar. Cəmiyyətin tipindən asılı olaraq siyasi sistemləri ənənəvi modernləşdirilmiş demokra-tiya və totalitar siyasi sistemlərə (R.Arqon, U.Rostou və baş-qaları), mühitlə qarşılıqlı təsirin xarakterinə görə açıq və qapa-lı siyasi sistemlərə, siyasi mədəniyyətlərə və onların formala-rında ifadə olunmasına görə anqlo-amerika (ABŞ, Böyük Bri-taniya, Kanada, Avstraliya), kontinental-avropa (Fransa, Al-maniya, İtaliya), sənayeyə qədərki və qismən sənaye (Meksi-ka, Braziliya), totalitar (Q.Almond) siyasi sistemlərə bölünür.

Siyasi sistemlərin bunlardan başqa çoxlu və daha mürəkkəb təsnifatları da mövcuddur. Bunların içərisində siyasi sistemin olduqca sadə və geniş yayılan təsnifat formalarından biri onun hakim rejimlərin



xarakteristikasına əsaslanan ***totalitar, avtoritar və demokratik*** sistemlərə bölünməsidir. Bu sistemlərin bir-birindən fərqləndirilməsində başlıca meyar sistemlərə hakimiyyət, cəmiyyət (xalq) və şəxsiyyətin (vətəndaşın) qarşılıqlı münasibətlərinin xarakteri və üsulu kimi siyasi rejimlərdir. Totalitar siyasi sistem üçün cəmiyyət və şəxsiyyətin tamamilə hakimiyyətə tabe edilməsi, dövlət tərəfindən vətəndaşlara total nəzarətin olunması xarakterikdir. Avtoritarizm şəxsiyyətin və cəmiyyətin muxtariyyətinin siyasi sferalardan kənarda saxlanılmasında bir şəxsin və şəxslər qrupunun qeyri-məhdud hakimiyyətindən ibarətdir. Demokratiya və cəmiyyətin (əksəriyyətin) hakimiyyət üzərində nəzarəti ilə xarakterizə edilir.

Əgər şəxsiyyət muxtariyyətə, hüquq və azadlıqlara malikdirsə və hakimiyyətin ən mühüm mənbəyi hesab edilirsə, onda bu ***liberal demokratiyadır.*** Əgər əksəriyyətin hakimiyyəti heç bir şeylə məhdudlaşdırılmırsa və vətəndaşların ictimai və şəxsi həyatlarına nəzarət olunmasına cəhdlər olunursa, onda bu demokratiya ***totalitar demokratiyaya*** çevrilir.

Avtoritar və totalitar siyasi sistemlər tərkibcə müxtəlifdir. Belə ki, burada kimliyindən asılı olmayaraq bir şəxs və ya şəxslər qrupu hakimiyyətin mənbəyidir. Avtoritar və totalitar rejimlər avtokratik (hakimiyyətdə bir şəxsin olması) və yaxud qrupokrtik (aristokratik, oltqaraxik, etnokratik və i.a.) ola bilər.

Qeyd olunan bu bölgü başqa bölgülərlə müqayisədə siyasi sistemin ideal tipini əks etdirir. Ümumiyyətlə, totalitarizm, avtoritarizm və demokratiya bu və ya digər formada və müxtəlif dərəcədə bəşər tarixində və müasir dünyada geniş təqdim olunmuş ideala yaxındır.

***Totalitarizmin mənbələri və ilkin zəmini.*** Totalitarizm siyasi sistemin tipi kimi XX əsrdə yaranmışdır. Bu sözün özünə, həmçinin totalitar ideyalara gəldikdə isə onlar çox əvvəllər meydana gəlmişdir. "Totalitarizm" termini latın sözü "totalitas"

(tamlıq, bütövlük) və "totalis" (çəki, tam, bütöv) sözlərindən yaranmışdır. Totalitarizmi siyasi leksikona ilk dəfə Mussolini 1925-ci ildə öz hərəkatını xarakterizə etmək üçün gətirmişdir. XX əsrin 20-ci illərinin sonlarında ingilis qəzeti "Tayms" totalitarizm haqqında təkcə İtaliyada faşizmi deyil, həm də SSRİ-nin siyasi quruluşunu xarakterizə edən neqativ siyasi hadisə kimi yazmışdır.

Totalitarizmin nəzəriyyəsi XX əsrin 40-50-ci illərində təşəkkül tapmış və sonrakı onilliklərdə inkişaf etmişdir. Totalita-rizmdən Qərbdə kommunist ölkələrinə qarşı ideoloji mübarizə məqsədilə geniş istifadə olunmuşdur.

"Totalitarizm" anlayışı elmi ədəbiyyata, XX əsrin 30-cu il-lərində Qərb ədəbiyyatlarında gətirilmişdir. 1933-cü ildə nəşr edilən "Oksford ingilis lüğəti"nin əlavə cildində "totalitar" sözü ilk dəfə olaraq "Kontemprorari revyu" jurnalının 1928-ci il aprel sayında iqtibas kimi götürülmüşdür.

Qərb ədəbiyyatlarında totalitarizmin mahiyyətinin elmi tədqiqinə isə XX əsrin 40-cı illərindən başlanılmışdır. 1944-ci ildə məşhur iqtisadçı Nobel mükafatı laureatı Fridrix Nayekin "Köləliyə gedən yol" adlı kitabı nəşr edilmişdir. Müəllif bu kitabda ilk dəfə təmiz iqtisadi nəzəriyyə çərçivəsindən kənara çıxaraq XX əsrin dramatik münaqişələrinin - olduqca müxtə-lif olan liberalizmlə antiliberal siyasi cərəyanlar arasındakı münaqişələrin yaratdığı sosial-siyasi, psixoloji və etik problemlərin geniş dairəsinə müraciət etmişdir. Hayek XIX əsrin ikinci yarısından başlayaraq Qərbi Avropa humanitar fikir tarixinin son dərəcə dəqiq təhlilini vermiş və totalitarizmin sosialist təlimləri ilə genetik əlaqəsinin olduğunu bildirmişdir.

1951-ci ildə Nyu-Yorkda nəşr olunan "Totalitarizmin mən-bələri" adlı klassik əsərin müəllifi Hanna Arendt



totalitarizmin modeli kimi nasist həbs düşərgələrini götürmüşdür. Əgər Ha-yeki ilk növbədə totalitarizmin intellektual yaranma tarixi ma-raqlandırırdısa, Arendt isə ən çox diqqəti "totalitar şəxsiyyə-tin" özünə və bu şəxsiyyətin totalitar rejimin ideal obyektinə çevrilməsi prosesinə yetirmişdir.

1954-ci ildə Barrinqton Mur nəşr etdirdiyi "SSRİ-də terror və tərəqqi: sovet diktaturasında dəyişikliklərin və stabilliyin bəzi səbəbləri" əsərində zorakarlığın mövcudluğundan asılı olaraq totalitarizmi mərkəzləşdirilmiş (şaquli) və mərkəzləş-dirilməmiş (Üfiqi) totalitarizmə ayırmışdır.

Ümumiyyətlə, Qərb politologiyasında və sosiologiyasında totalitarizmə xüsusi siyasi rejim kimi baxılırdı. Karl Fridrix və Zbiqnev Bjezinski 1956-cı ildə yazdıqları "Totalitar diktatura və avtokratiya" adlı kitabda totalitar sindromun xarakterik əlamətlərini üzə çıxarmağa səy göstərmiş və onun aşağıdakı əlamətlərini vermişlər:

*1.Xarizmatik liderlərin rəhbərlik etdiyi vahid kütləvi partiya;*

*2.Hamının qəbul etməli olduğu rəsmi totalitar ideologiya;*

*3.Kütləvi informasiya vasitələri üzərində inhisar;*

*4.Silahlı mübarizə vasitələri üzərində inhisar;*

*5.Terrorçu polis nəzarəti sistemi;*

*6.İqtisadiyyat üzərində dövlət nəzarəti.*

Belə ki, 50-60-cı illərin Qərb ədəbiyyatlarında totalita-rizmin mənbələri və müqəddəm şərtlərinin tədqiqinə daha geniş yer ayrılmışdır. Həmin tədqiqat əsərlərinin əksəriyyəti Sovet İttifaqı ilə faşist İtaliyası və Hitler Almaniyasında mövcud olan rejimlərin müqayisəli təhlili əsasında meydana gəlmişdir.

Keçmiş sovet ədəbiyyatlarında "totalitarizm",

"totalitar" terminləri müharibə dövründən sonra meydana gəlmiş, bu terminlərdən faşist və faşistpərəst rejimləri xarakterizə etmək üçün təbliğat məqsədi ilə istifadə olunmuşdur. Ancaq bu terminlərdən istifadə olduqca epizodik xarakter daşımış və totalitarizmin əsl mahiyyəti açılıb göstərilməmişdir.

60-cı illərdə emprik məlumatların toplanmasının təbii pro-sesi, həmçinin nəzəri baxımdan edilən tənqidlər Qərb müşahi-dəçilərinin əksər hissəsini bu anlayışdan imtina etməyə məcbur etdi.

XX əsrin 70-ci illərində Cənubi Avropa ölkələrində - Yunanıstanda, İspaniyada, Portuqaliyada inqilabi hərəkatlar baş-landı. Bu ölkələrin xalqları demokratiya uğrunda mübarizəyə başladılar. Bütün planetin bir çox ölkələrini demokratiya dalğası bürüdü. Demokratiya uğrunda mübarizədə Latın Amerikası ölkələri təsir bağışlayan uğur qazandılar. 1991-92-ci illərdə Afrikanın bir çox ölkələrində (Benin, Burkina, Faso, Kamerun, Kano Berde, Kondo, Kot-d'Ybyare, Cibuti, madaqaskar, Mavritaniya, Namibiya, Nigeriya, Zambiya, qvineya, Keniya, Seneqal) çoxpartiyalılıq əsasında seçkilər keçirildi. Oxşar irəliləyişlər dünyanın bir sıra başqa ölkələrində də baş verdi. Bu istiqamətdə həqiqi nəhəng dağılma SSRİ-nin və Sovet bokunun çökməsindən sonra baş verdi. Şərqi Avropa ölkələrində və Sovet İttifaqı respublikalarında antitotalitar inqilablar seriyası başlandı.

Keçmiş SSRİ totalitarizmin mövcud olduğu klassik dövlət-lərdən biri olduğuna görə SSRİ-nin süqutu ərəfəsində və onun süqutundan rus və Qərb mütəxəssislərinin əsərlərində totalita-rizm mövzusu yenidən populyarlaşdı. Fəlsəfi, politoloji, sosio-loji ədəbiyyatlarda totalitarizmlə bağlı məqalələr, kitablar nəşr olunmağa və diskussiyalar aparılmağa başlandı. Bu dövrdə nəşr olunan əsərlərdə və



aparılan diskussiyalarda totalitariz-min genezisi, mənbələri və mahiyyətindən daha çox totalitar idarəçilik prinsiplərindən demokratik idarəçilik prinsiplərinə keçidin xüsusiyyətlərinin tədqiqi və müəyyən edilməsi məsə-ləsi müzakirə obyektinə çevrilmişdir.

***Totalitar siyasi sistemlərin xarakterik əlamətləri və müxtəlifliyi.*** Totalitar sistemlər kortəbii deyil, müəyyən ideoloji obrazlar əsasında yaranır. Totalitar cəmiyyətin ən mühüm əlaməti bütün ictimai həyatın ideologiyalaşdırılmasından ibarətdir. Totalitar ideologiya özünün məzmununa görə inqilabidir. O, yeni cəmiyyətin və insanın formalaşdırılması zərurətini əsaslandırır. Onun bütün bünövrəsi sosial miflərə kapitalizm və kommunizm haqqında, fəhlə sinfinin rəhbər rolu haqqında, ari irqinin üstünlüyü haqqında və i.a. miflərə əsaslanır. Bu miflər tənqidə məruz qalmır və dini simvollar xarakterinə malikdir.

Totalitarizm üçün hakimiyyətin informasiya və KİV üzə-rində tam nəzarət, özgəfikirliliyə qarşı həddindən artıq dözümsüzlük, ideya opprnentlərinə siyasi düşmən kimi baxmaq halları xarakterikdir. Bu quruluş ictimai rəyi kənarlaşdıra-raq onu rəsmi siyasi qiymətlərlə əvəz edir.

Totalitar sistemin məntiqinə uyğun olaraq cəmiyyətin bütünlükdə ideologiyalaşdırılması onun totalitar siyasiləşdiril-məsi, hakimiyyət aparatının həddindən artıq inkişafı və onun sosial orqanizmin bütün boşluqlarına müdaxiləsi ilə tamamla-nır. Güclü hakimiyyət əhali üzərində ideoloji nəzarətin başlıca təminatı kimi çıxış edir. totalitarizm vətəndaş cəmiyyətinin tamamilə aradan qaldırılmasına cəhd göstərir.

Totalitar cəmiyyətin xüsusi siyasi əlamətlərinə, həmçinin sosial nəzarət və zorakarlıq (təhlükəsizlik xidməti, ordu, milis və i.a.), aparatının mövcud olması, kütləvi terror, əhalinin qor-xu totalitar idaretmənin başlıca resurslarıdır.

Ali hakimiyyətin və onun daşıyıcılarının saflaşdırılması həyata keçirilir, rəhbər-lərin şəxsiyyətinə pərəstiş yaradılır.

Totalitarizm özünə adekvat sosial struktur yaratmağa çalışır. O kütləvi dayaq tapmağa cəhd göstərərəu müəyyən sinfin, millətin və yaxud irqin üstünlüyünü elan edir, bütün insanları dixotomik şəkildə özlərininkinə və yadlara bölür. Bunun üçün mütləq daxili və xarici düşmən-burjuaziya, imperializm, pantürkist, panislamist, xalq düşməni, qolçomaq və s. obrazları yaradılır. Xüsusi mülkiyyətin ləğvi prosesində əhalinin kütləvi yoxsullaşması baş verir. Fərd dövlətdən total şəkildə asılı vəziyyətə düşür və insanların əksəriyyəti iş, mənzil və i.a. kimi yaşayış vasitələri əldə edə bilmir.

Şəxsiyyət hər cür müstəqilliyini və hüquqlarını itirərək hər şeydən güclü hakimiyyət qarşısında tamamilə müdafiəsiz qalır və onun total nəzarəti altına düşür.

Əvvəlki sosial strukturun dağılması ilə eyni vaxtda yeni so-sial struktur formalaşır. Totalitarizmin başlıca dayağı olan yeni, nomenklaturalı hakim sinif formalaşır.

İdeologiya və siyasətin hökmranlığı təkcə sosial sahədə deyil, həm də ***iqtisadiyyatda*** da təzahür edir. Burada totalita-rizmin fərqləndirici əlaməti təsərrüfat həyatının dövlətləşdi-rilməsindən ibarətdir. İdeal halda isə xüsusi mülkiyyət, bazar münasibətləri, rəqabət tamamilə aradan qaldırılmış və inzibati-amirlik idarəetmə metodu tətbiq edilmişdir.

Totalitar siyasi sistemin başlıca institusional əlamətlərinin ümumiliyi ilə yanaşı həm də özünəməxsus xüsusiyyətlər də vardır. Bu da onun müxtəlif növlərə ayrılmasına imkan verir. Siyasi fəaliyyətin məzmununa təsir edən hakim ideologiyadan asılı olaraq totalitar siyasi rejimləri adətən kommunizmə, fa-şizmə və nasional-sosializmə ayırırlar.



Totalitarizmin tarixən ilkin və klassik forması sovet tipli kommunizmdir (sosializmdir) ki, bunun da başlanğıcı hərbi-kommunist sistemi şəklində qoyulmuş və ümumi əlamətləri 1918-ci ildə formalaşmışdır. Totalitar siyasi sistemin ikinci növü faşizmdir. Totalitarizmin üçüncü növü isə nasional-sosializmidir. Nasional-sosializm real siyasi və ictimai quruluş kimi Almaniyada 1933-cü ildə yaranmışdır.

Totalitarsiyasi sistemin qeyd olunan növləri arasında daxilən mahiyyət fərqlərinin olmasına baxmayaraq, istənilən totalitar dövlət bu və ya digər dərəcədə totalitarizmin bu üç əsas növlərinin əlamətlərini özündə birləşdirir. Məsələn, SSRİ-dəki stalinizm ilə Kampuçiyadakı Pol-Pot diktator rejimi ara-sında fərq yoxdur.

***Avtoritarizm.*** Siyasi rejimlərin tipləri tarixində ən geniş *yayılanlarından biri avtoritarizmdir.* Avtoritarizm özünün xa-rakterik əlamətlərinə görə totalitarizmlə demokratiya arasında sanki aralıq mövqeyi tutur. Avtoritarizm totalitarizmlə adətən hakimiyyətin qeyri-məhdud qanunlara malik olması xarakteri, demokratiya ilə isə dövlət tərəfindən nizamlanmayan muxtar ictimai sahənin, xüsusilə, iqtisadiyyat və xüsusi həyatın, və-təndaş cəmiyyəti ünsürlərinin mühafizəsinin mövcudluğu ya-xınlaşdırır. Bütövlükdə isə avtoritar siyasi sistemə aşağıdakı əlamətlər xasdır:

***1.Avtoritarizm (təkhakimiyyətçilik) və yaxud hakimiyyətin azsaylı daşıyıcılarının mövcudluğu.*** Onlar bir nəfər (monarx, tiran) və yaxud şəxslər qrupu (hərbi xunta, oliqarxiya qrupu və i.a.) ola bilər.

***2.Hakimiyyətin qeyri-məhdudluğu, onun vətəndaşların nə-zarəti altında olmaması.*** Bunun üçün hakimiyyəti qanun-ların köməyi ilə idarə etmək olar. Ancaq onlar qanunları öz-lərinin maraqlarına və rəylərinə uyğun olaraq qəbul edirlər.

***3.Gücə (real və ya potensial gücə) arxalanmaq.*** Avtoritar rejim kütləvi repressiyalar keçirməyə bilər və əhalinin geniş təbəqələri arasındakı populyarlıqdan istifadə edə bilər. Ancaq avtoritar rejim zərurət yarananda özünün maraqlarına uyğun olaraq gücdən istifadə etmək imkanlarına və vətəndaşları itaətdə saxlamaq üçün kifayət dərəcədə gücə malikdir.

***4.Hakimiyyətin və siyasətin inhisarlaşması, real siyasi müxalifətə və rəqabətə imkan verilməməsi.*** Avtoritarizm şəraitində məhdud sayda siyasi partiyaların, həmkarlar təşkilatlarının və başqa təşkilatların mövcudluğu mümkündür. Ancaq onların fəaliyyəti hakimiyyətin nəzarəti altında olur.

***5.Cəmiyyət üzərində total nəzarətdən imtina olunması, siyasətdən kənar sahələrə və hər şeydən əvvəl iqtisadiyyata müdaxilənin olmaması və yaxud məhdud müdaxilənin olması.*** Hakimiyyət başlıca olaraq xüsusi təhlükəsizliyin təmin edilməsi, ictimai qayda-qanun yaradılması, müxalifət və xarici siyasət məsələləri ilə məşğul olur. Avtoritarizm iqtisadi inkişaf strategiyasına da təsir göstərə bilər və bazar özünütənzimləmə mexanizmini dağıtmadan kifayət dərəcədə fəal sosial siyasət yeridə bilər.

***6.Hər hansı bir seçilən orqanın*** öz heyətinə seçkisiz olaraq yeni üzvlər daxil etməsi yolu ilə səfərdən edilən siyasi elitanın rəqabət və elektoral mübarizə vasitəsi ilə deyil, yuxarıdan təyin edilməsi.

Qeyd olunan bu əlamətləri nəzərə alaraq ***avtoritarizmə siyasi müxalifətə imkan verməyən, şəxsiyyətin və cəmiyyətin muxtariyyətini siyasətdən kənar sahələrdə saxlayan bir şəxsin və şəxslər qrupunun qeyri-məhdud hakmiyyəti kimi tərif vermək olar.*** Avtoritarizmin şəraitində başlıca olaraq fəaliyyətin yalnız siyasi forması qadağan olunur, başqa fəaliyyət növlərində isə vətəndaşlar adətən azad olurlar. Avtoritarizm şəxsiyyətin siyasi hüquqlarından başqa, digər hüquqlarına hörmətlə yanaşır. Eyni



zamanda avtoritarizm şəraitində vətəndaşlar özlərinin təhlükəsizliyi və muxtariyyəti baxımından (müstəqil məhkəmə, müxalifət partiyaları və i.a.) hansısa institusional təminata malik deyillər.

*Avtoritar siyasi rejimlər çox müxtəlifdir. Bunlara monarxiyanı, despotik, diktator rejimlərini, hərbi xuntaları, idarəetmənin populist sistemlərini və i.a. aid edirlər.* Avtoritar hökumətlər özlərinin əhali tərəfindən tanınmasına təkcə güc vasitəsilə deyil, həm də kütləvi qırğınlar törətmək düşmən xofu yaratmaq və nisbətən daha hümanist vasitələrlə nail ola bilirlər. Avtoritar rejimlər min illiklər ərzində degetimləşmənin başlıca olaraq ənənəvi və xarizmatik üsullarına istinad edirlər. XX əsrdə degetimləşmə məqsədi ilə millətçilik ideologiyalarından və formal hakimiyyətin nəzarəti altında keçirilən seçkilərdən geniş istifadə olunmuşdur. Asiya, Afrika və Latın Amerikasındakı avtoritar rejimlərin əksəriyyəti özlərinin sövcudluğuna milli azadlığın və milli dirçəlişin zəruriliyi ilə haqq qazandırırlar.

Son onilliklər ərzində avtoritar siyasi rejimlər beynəlxalq ictimaiyyətin, öz vətəndaşlarının etibarını qazanmaq və bey-nəlxalq sanksiyalardan yayınmaq üçün bəzi demokratik insti-tutlardan - seçkilərdən, ümumxalq səsverməsindən və i.a. da-ha çox istifadə edirlər. Məsələn, Meksikada, Braziliyada, Cə-nubi Koreyada, Rusiyada, Qazaxıstanda və bir çox dövlətlərdə avtoritar və yaxud yarımavtoritar rejimlər rəqabətsiz və yaxud yarırəqabətli seçkilərdən istifadə etmişlər. Bu cür seçkilərin fərqləndiriciəlamətləri rəqabətliliyin məhdud və yaxud görüntülü olmasından (bu zaman bütün namizədlər hakimiyyət üçün münasib olur), seçkilərin rəsmi nəticələrinin hakimiyyə-tin tam və yaxud qismən nəzarəti altında olmasından ibarətdir. Bunun üçün hakimiyyətin əlində özünün formal qələbəsini təmin etmək üçün bir çox üsul və

vasitələr mövcuddur: KİV üzərində inhisar, hələ namizədlərin irəli sürülməsi mərhələ-sində özlərinə münasib və namizədliyə münasib olmyaan şəxslərin seçilməsi, bülletenlərin və yaxud səsvermənin nə-ticələrinin birbaşa saxtalaşdırılması və i.a.

İkinci dünya müharibəsindən sonra, xüsusilə son onilliklər ərzində avtoritar siyasi quruluşlar hər şeydən əvvəl keçid xa-rakteri daşıyır və formal olsa da demokratiyaya tədrici keçidə doğru istiqamətlənir.

XX əsrin 80-ci illərinin sonunda və 90-cı illərinin əvvələrində dünyanın kommunist dövlətlərini əksəriyyətində, o cümlədən keçmiş sovet imperiyasında üstünlük təşkil edən to-talitar siyasi sistemin süqutu ilə əlaqədar olaraq avtoritarizmə elmi və siyasi maraq əhəmiyyətli dərəcədə artdı. SSRİ-nin süqutu nəticəsində müstəqillik əldə etmiş dövlətlərin bəziləri ictimai zərurəti və şərtləri nəzərə almadan demokratiyanı sürətli şəkildə tətbiq etmələri uğurla nəticələnmədi və çoxsay-lı dağıdıcı nəticələrə səbəb oldu.

Eyni zamanda bir sıra avtoriatr dövlətlər (Cənubi Koreya, Çili, Çin, Vyetnam və s.) özlərinin iqtisadi və sosial səmərəli-liyini parktiki cəhətdən nümayiş etdirdilər, iqtisadi çiçəklən-mənin siyasi stabilliyə uyğunlaşdırmaq qabiliyyətlərinə, azad iqtisadiyyatın, şəxsi təhlükəsizliyin və sosial plüralizmin müqayisəli inkişafının mövcud olduğu güclü hakimiyyətə ma-lik olduqlarını sübut etdilər.

Avtoritarizmi bəzən məhdud plüralizm vasitəsilə həyata keçirilən idarə üsulu kimi də müəyyən edirlər. O tamamilə iqtisadi, sosial, mədəni, dini, qismən də ideoloji plüralizmlə eyni zamanda bir yerdə mövcud olur. Onun ictimai inkişafa təsirinin həm zəif, həm də güclü tərəfləri vardır. Zəif tərəflərinə siyasətin dövlət başçısının və yaxud ali rəhbərlər qrupunun mövqeyindən tam asılı olmasını, vətəndaşların siyasi avantüraların və yaxud özbaşınalıqların qarşısını almaq



imkan-larının olmamasını, ictimai maraqların siyasi cəhətdən ifadə olunmasının məhdudluğunu aid etmək olar.

Avtoritar siyasi rejim eyni zamanda üstün cəhətlərə də malikdir ki, bu da ekstermal şəraitlərdə xüsusi olaraq hiss olunur. Avtoritar hakimiyyət siyasi stabilliyin və ictimai qayda-qanunların təmin edilməsində, müəyyən məsələləri həll edərkən ictimai resursların səfərbər edilməsində, siyasi düşmənlərin müqavimətinin qırılmasında nisbətən yüksək qabiliyyətə malikdir. Bütün bunların hamısı avtoritar hakimiyyətə kifayət dərəcədə səmərəli vasitələrlə radikal ictimai islahatlar aparmasına imkan yaradır.

Demokratik yönümlü avtoritar rejimlər əbədi deyil. Onların real perspktivi müasir şəraitdə siyasi sistemin daha möhkəm tipi olan demokratiyadır.

***Demokratiya.*** XX əsrdə "demokratiya" sözü bütün dünyanın xalqlarının və siyasətçilərinin ən populyar sözlərindən birinə çevrilmişdir. Bu gün elə bir nüfuzlu siyasi hərəkat, təşkilat və yaxud partiya yoxdur ki, demokratiyanın həyata keçirilməsi iddiasında olmasın. Demokratiya nədir, o özündə nəyi ifadə edir və onun populyarlığının səbəbləri nədədir?

***Demokratiyanın etimoloji mənası.*** Müasir dildə "demokratiya" sözünün bir neçə mənası vardır. Onun ***birinci,*** başlıca mənası bu terminin yaranması ilə, etimologiyası ilə bağlıdır. "Demokratiya" qədim yunan dilindən "xalq hakimiyyəti" kimi tərcümə olunur.

Demokratiyanın etimoloji anlayışından yaranan ***ikinci*** şərhi daha geniş olub, idarəetmədə üzvlərin bərabər hüquqlu iştirakına və çoxluğun razılığı ilə qərarların qəbul edilməsinə əsaslanan istənilən təşkilatların quruluş formaları kimi qeyd olunur. Bu mənada partiyaların, həmkarlar təşkilatlarının, istehsal müəssisələrinin və hətta ailə demokratiyasından danışırlar. Sözün geniş mənasında dərk olunan demokratiya isə təşkilatların, hakimiyyətin və idarəetmənin olduğu hər bir yerdə

mövcud ola bilər.

Demokratiyanın etimoloji anlayışı həmçinin bu terminin başqa - üçüncü və dördüncü mənaları ilə də əlaqəlidir. Demokratiya ***üçüncü*** mənada ictimai quruluşun ideal dəyərlər sisteminə əsaslanması kimi baxılır. Bu ideal dəyərlərin tərkib hissəsinə azadlıq, bərabərlik, insan hüquqları, xalqın suverenliyi və bir sıra başqa dəyərlər daxildir.

Demokratiyaya ***dördüncü*** mənada xalq hakimiyyəti, demokratik məqsədlər və ideallar uğrunda sosial və siyasi hərəkat kimi baxırlar. Bu hərəkatlar Avropada mütləqiyyətə qarşı mübarizə bayrağı altında üçüncü silkin azadlıq və bərabərlik uğrunda mübarizəsi nəticəsində meydana gəlmiş və tarixin gedişi nəticəsində tədricən özünün məqsəd və iştirakçılarının əhatə dairəsini genişləndirmişdir. Müasir demokratik hərəkatlar olduqca müxtəlifdir. Bunlara sosialdemokratik, milli-demokratik, xristian-demokratik, liberal-demokratik və başqa hərəkatları daxil edirlər.

***Demokratiyaya normal yanaşma.*** Demokratiya anlayışı xalq hakimiyyəti (demokratiyanın xalq hakimiyyəti anlayışından yaranan başqa şərhləri) kimi normal anlayışdır. Çünki demokratiya fenomeni insan ideallarından, dəyərlərindən, arzu və istəklərindən çıxış edən kateqoriyaların qurulmasını şərtləndirən normal yanaşmaya əsaslanır. Demokratiya bu baxımdan azadlıq, bərabərlik, insan ləyaqətinə hörmət, əməkdaşlıq və s. kimi başlıca dəyərlərə əsaslanaraq ideal kimi xarakterizə olunur. Demokratiya özünün dəyər məzmununa görə müasir dünyada ilk növbədə məhz belə populyarlığı ilə məşhurdur.

Demokratiyanın normal anlayışının həm güclü, həm də zəif tərəfləri vardır. Onun güclü tərəfi onda mövcud olan dəyərlərin cəlbedici olmasından, demokratik ideallların əməli cəhətdən həyata keçirilməsinə çoxlu sayda insanları cəlb etmək qabiliyyətinə malik olmasından ibarətdir. Demokratiyanın zəif tərəfi isə onun gerçəklikdən ayrılmasından və ideallaşdırılmasından ibarətdir. Real demokratiya heç yerdə və heç vaxt qeyri-dövlət və ictimai özünüidarəetməni ifadə edən xalqın hakimiyyəti olmayıb.



Demokratiya anlayışı meydana gəldiyi andan etibarən dövlətlə bağlı olub. Bu da onun məcburiyyətlə bağlı olduğunu, ən yaxşı halda isə çoxluğun azlıq üzərində hakimiyyətinin, hər şeydən yaxşı təşkil olunmuş imtiyazlı azlığın az və ya çox dərəcədə xalqın nəzarəti altında olan idarəetmə forması olduğunu göstərir. Real demokratiya məsələsinə hələ gələcəkdə daha ətraflı şəkildə çox baxılacaqdır, bir çox hallarda isə real demokratiya demokratik dəyərlərdən - azadlıq, bərabərlik və i.a. dəyərlərindən demək olar ki, hələ çox uzaqdır.

***Demokratiyaya empirik yanaşma.*** "Poliarxiya". Utopizm elementlərinin üzə çıxarılması, demokratiyanın normal anlayışı ilə reallıq arasındakı, idealla həyat arasındakı uyğunsuzluq demokratiyanın təhlilinə empirik yanaşmanın nəticəsidir. Belə yanaşma ideallar və apriori qiymətləndirmə mühakimələrinin mücərrədləşdirilməsi həm də demokratiyanı işdə necə varsa olduğu kimi tətbiq edilməsini tələb edir. Belə halda demokratiya kateqoriyası reallıqdan çıxış edərək dövlət dəyəri elan olunmasından asılı olmayaraq qurulur. Demokratiya potensial rəhbərlərin seçicilərinin etimadını qazanmaq, seçkilərdə təmsil olunmaq uğrunda rəqabətə əsaslanan idarətmə forması kimi şərh olunur.

Demokratiyanın noromalı və emprik anlayışlarının ziddiyyətli olmasını və bu kateqoriyaların elmdə, gündəlik dildə istifadə olunması zamanı yaranan qeyri-münasibətliyini nəzərə alaraq Robert Alen dal və bir sıra başqa politoloqlar real dövlətlərdə mövcud olan demokratiyanın ifadə olunması üçün xüsusi termin "poliarxiya" termininin tətbiq edilməsini təklif etmişlər.

R.Dala görə poliarxiya konkret seçkilərdə xalqın seçdiyi

azlığın idarəetməsidir. Belə idarəetmə həm antik polislərdə (şəhər dövlətlərində), həm orta əsrlərdəki respublikalarda mövcud olmuş, həm də ən ümumi seçki hüququ və siyasi partiyaların hakimimyyət uğrunda rəqabəti nəticəsində yaranan müasir konstitutsiyalı dövlətlərdə də geniş yayılmışdır. Demokratiya isə poliarxiyadan fərqli olaraq idarəetmədə bütün vətəndaşların bərabər iştiarkını şərtləndirən bir idealdır.



# FƏSİL VIII

## SİYASİ PARTİYALAR

### *§1.Partiyanın mənşəyi və mahiyyəti*

Məlum olduğu kimi, cəmiyyətdə siniflərlə yanaşı, əhalinin öz məqsəd və maraqları ilə fərqlənən çoxlu sayda müxtəlif peşə, regional, cins, yaş və digər qrupları da vardır. İnsanın müxtəlif mənafe və tələbatları içərisində onun həyati mənafe və tələbatları və ya ən azı onun özü üçün xüsusilə mühüm hesab etdiyi mənafe və tələbatlar prinsipial əhəmiyyətə malikdir. Partiyalar bu mənafeləri ayırmaq və formalaşdırmaq, onları siyasət səviyyəsində ifadə etmək üçün fəaliyyət göstərir.

"Partiya" termini latınca hissə, qrup mənasını ifadə edir. Siyasi partiyalar haqqında ilkin təsəvvürlər hələ qədim sivilizasiyanın məskəni olan Yunanıstanda və Romada mövcud idi. Platon, Aristotel və digər alimlərin əsərlərində siyasi partiya haqqında fikirlərə rast gəlmək olar.

Partiyaların formalaşması uzun proses olub parlamentarizm normalarının yayılması, qanunverici və icraedici hakimiyyətin seçilməsi praktikası və tədricən ümumi seçki hüququna keçilməsi ilə bağlıdır. Xüsusi siyasi partiyalar XVIII-XIX əsrlərdə parlamentarizmin təşəkkülü prosesində təzahür edir. İlk əvvəl bunlar parlamentdə fəaliyyət göstərən elitar klublar olmuşlar. Bu klublar parlamentdən kənarda yalnız seçkilər zamanı özlərini biruzə verirdilər və təşkilati cəhətdən formalaşmamışdılar, onlar partiyaya üzv olmaq prinsipini qəbul etmirdilər. Elitar klublar cəmiyyətdə qərarlaşan plüralizmə və siyasi sferadakı rəqabətə daha uyğun gəlir. Bu tip klubun strukturlarından sonralar çoxsaylı yeni tipli qruplaşmalar yarandı ki, bunun da bariz nümunələrinə XIX əsrin əvvəllərində Avropa ölkələrində, ilk növbədə isə Fransada və İngiltərədə təsadüf olunur. 1831-ci ildə ingilis

toriləri (mühafizəkarları) "kartlon klub"un, viqilər (liberallar) isə "Reform klub"un əsasını qoydular. İlk başlanğıcda "kartlon klub" ənənəvi torpaq aristokratiyası ilə, "Reform klub" isə liberal burjuaziya ilə əlaqəli idi. İngilis klubları eyni zamanda parlament fəaliyyətinə diqqət yetirir, eləcə də parlamentdən kənar fəaliyyət göstərirdilər.

Elitar klublar aristokratik qruplaşmalardan sosial bazasına, ideoloji əlaqələrinə, əhatəli təşkilatlarına və bunlardan irəli gələn daha böyük ictimai fəaliyyətlərinə görə seçilirlər. Siyasi klublar İtaliya və Polşada da mövcud olub.

Müasir partiyalar XIX əsrdə Avropa və Amerikada yaranmışdır. Onlar Avropanın siyasi həyatına və mədəni ənənələrinin məcmusuna müəyyən ideologiyaların daşıyıcısı, başqa sözlə, cəmiyyətin sosial, siyasi, iqtisadi və digər məqsədlərini müəyyən edən dünyagörüşü sistemi kimi daxil olmuşdur.

İngiltərədə partiyalar 1832-ci ildə seçki islahatı nəticəsində, ABŞ-da XIX əsrin 30-cu illərində prezident Consonun vaxtında, Fransada 1848-ci il inqilabı dövründə təşkil olunmuşdur. Avropada isə kütləvi partiyalar XIX əsrin ikinci yarısında meydana gəlmişdir. Bu partiyalar kütlələrin geniş təbəqəsini əhatə etməsi və çoxcəhətli siyasi təsir vasitələrindən istifadəsi ilə səciyyələnirlər. İlk dəfə kütləvi partiya kimi İngiltərədə "Seçkiləri qeydə almağın liberal yoldaşlığı" yarandı(1861). 1863-cü ildə isə Almaniyada Fridrix Lassalın rəhbərliyi ilə "Ümumalman fəhlə ittifaqı" adlı kütləvi partiya meydana gəldi.

Siyasi elmə dair ədəbiyyatda partiyaya dair çoxlu sayda tərif verilmişdir. Bu fenomenini tədqiq edən alimlər onun müxtəlif cəhətlərini, yaranma şəraitlərini və təsnifatını verərkən partiyanın ümumi hamı tərəfindən qəbul edilmiş variantının yaradılmasının qeyri-mümkün olduğunu qeyd etmişlər. Bu isə daha çox tədqiq edilən obyektin çoxaspektli və çoxfunksiyalı olmasından irəli gəlirdi. Universal tərifin belə hal-



larda yaradılması adətən mümkün olmur. Buna görə də, belə vəziyyəti nəzərdə tutan alimlər problemə özünəməxsus tərzdə yanaşmağa məcbur olurdular. Bu baxımdan məsələn, partiyaların geniş təhlilini aparmış tədqiqatçı S.Eldersveld göstərirdi ki, "partiyanı müəyyən edəcək universal anlayış vermək çox çətindir". O, bu tezisdən çıxış edərək güman edirdi ki, demokratiya şəraitində partiya seçkilər vasitəsilə siyasi hakimiyyət uğrunda yarışan, sosial maraqları səfərbər edib onların ideoloji mövqeyini həyata keçirən, vətəndaşların siyasi sistemlə əlaqələndirən qrupudur

Ümumiyyətlə, müəlliflərin əksəriyyəti partiyalara nəzəri tərif vermək və məqsədlərini təsvir etmək əvəzinə onun varlığı üzərində diqqəti cəmləşdirməyin daha səmərəli olmasını qəbul edirdilər. Onlar siyasi partiyaların müxtəlif aspektlərə malik ol-duğunu iddia edərək bu problemə müxtəlif prizmada yanaşır, onu müsbət və ya mənfi hadisə kimi qiymətləndirirdilər.

Partiyanın fəaliyyətinə dair mənfi münasibət daha çox onun mövcudluğunun ilk illərində özünü xüsusən qabarıq göstərirdi. Siyasi partiya, ölkənin siyasi idarəçilik dayaqlarına ən böyük təhlükə hesab olunurdu. Bunu ABŞ prezindenti C.Vaşinqton da təsdiq edirdi. Onun fikrincə, "partiya xalqın sarsıdılması və hökumətin hakimiyyətinin qəsb edilməsi üçün "hazır silah" rolunu oynayır".

Bu cür münasibətin olması daha çox o dövrdə hakimiyyət uğrunda siyasi mübarizələrin amansızlığı və siyasi arenaya yenicə çıxmış siyasi partiyaların mahiyyətini cəmiyyətdə düzgün başa düşülməməsindən, həmçinin də, partiyaların özlərinin də hələ cəmiyyətdə yerlərini və oynadıqları rollarının nədən ibarət olmasını müəyyən etməkdə çətinlik çəkmələri ilə əlaqədar idi. Zaman keçdikcə, seçki institutlarının tətbiq edilməsi ilə münasibət tədricən dəyişməyə başlamış, sağlam mövqe formalaşmışdır. Belə ki, artıq 18-ci əsrin əvvəllərində Patterson belə hesab edirdi ki, partiyalar labüddən özlərində

xeyir və şəri birləşdirir və bununla da cəmiyyətə sağlam yarış ruhu gətirirlər.

Analoji surətdə siyasi partiyalara nisbətən loyal münasibəti biz N.Makiavellinin fikrində görə bilərik. Onun fikrincə, "siyasi partiyalar müəyyən mənada xeyirlidir, belə ki, vətəndaşlar onların öz aralarındakı nifaq və düşmənçiliyin yaratmış olduğu acı nəticələrindən dərs alaraq daha sıx birləşməyi öyrənə bilərlər".

Bütün bu kimi çətinliklərə baxmayaraq, siyasi partiyalar haqqında əsas fikirlərin təhlilini aparmaq mümkündür. Bunun üçün ilk növbədə Qərb siyasi fikir tarixində böyük rol oynamış tədqiqatçı alimlərin yanaşmalarına müraciət edərək onları aşağıdakı şəkildə qruplaşdırmalıyıq.

Müəlliflərin əksəriyyəti partiyalar haqqında yaranmış ənənəvi baxışlara tərəfdar çıxır və siyasi partiyaların seçki prosesi ilə əlaqəsinə daha çox diqqət yetirirlər. Bu baxımdan C.Sartori belə hesab edir ki, "siyasi partiya - seçkilərin keçirilməsində fəal iştirak edən və bununla da dövlət təsisatlarında öz namizədlərinin təmsil olunması imkanını əldə edən siyasi qrupdur".

Bu baxışa tərəfdar çıxan digər mütəfəkkir, ABŞ politoloqu R.Xakşorinin fikrinə görə isə, "siyasi partiyalar dövlət müəssisələrində vəzifələrin tutulması və hökumətin təşkili yolu ilə hakimiyyətə nəzarət etmək ümidində olan və bu məqsədlə də seçkilərdə iştirak edən və öz namizədlərini irəli sürən vətəndaşların muxtar qrupudur".

Bəzən qanunverici orqana namizədlərin irəli sürülməsi hər bir partiyanın ayrılmaz xüsusiyyəti kimi təsvir edilir. Bu münasibətlə digər politoloq, F.Riqst qeyd edir ki, "bütün partiyalar deputatlığa namizədlər irəli sürməlidir, əks təqdirdə onlar partiya deyillər".

Siyasi partiyaların fəaliyyətini bilavasitə mənafelərin təmin edilməsində görən ingilis siyasi məktəbinin görkəmli nümayəndəsi E.Berkin fikrincə, "siyasi partiyalar milli mənafe üzrə ümumi prinsiplərdə razılığa gəlib onu təmin etmək üçün birləşən insanlar qrupudur".



Buradan göründüyü kimi, bu istiqamətin tərəfdarları partiyaların seçki prosesi ilə bağlılığına əsas diqqəti verməklə onların funksiyalarını məhdudlaşdırırlar. Halbuki, müxtəlif ölkələrin siyasi inkişafının özünəməxsusluğu, siyasi sistemin spesifikliyi və s. kimi xüsusiyyətlərə baxmayaraq, bütün ölkələrdə siyasi partiyalar mürəkkəbliyi, çoxcəhətliliyi, o cümlədən çoxfunksiyalılığı ilə fərqlənir. Bu baxımdan ənənəvi yanaşmada partiyaların seçkilərdə qələbə qazanmaqla siyasi hakimiyyətə can atan qruplar kimi başa düşülməsi partiyaların mahiyyətini tam açıqlamır, çünki partiyalar seçki kampaniyasında iştirak etməkdən başqa da müxtəlif fəaliyyətlə məşğul olurlar. Belə halın olması, başqa bir yanaşmanın yaranmasına gətirib çıxarmışdı. Burada əsas istiqaməti partiyaların **struktur** xüsusiyyətlərinin tədqiqi təşkil etmişdir. Bu yanaşmaya görə partiya dedikdə, öz xüsusi strukturu olan insan birliyi kimi başa düşülməlidir. Həm də partiyalar siyasi səhnədə partiya liderlərini onların tərəfdarları ilə idarəetmə mərkəzlərində birləşdirən, daxili təşkilati struktura malik və dövlət hakimiyyətini əldə etməyə can atan nisbətən möhkəm, uzunmüddətli təsisatlar kimi qiymətləndirilir.

Struktur cəhətdən partiyalara tərif verən C.Lappalombara və M.Vinner daha çox onun əlamətlərini göstərməyə üstünlük verirlər. Onların fikrincə buraya daxildir:

- təşkilatın zaman etibarilə fasiləsizliyi;
- yerli və milli təşkilatlar arasında mütəmadi əlaqələri təsbit edən partiya strukturu;
- partiya funksionerlərinin yalnız hakimiyyətin idarə edilməsində sadəcə təsir etmək deyil, həmçinin yerli və milli səviyyələrdə hakimiyyəti ələ almaq və əldə saxlamaq, təkbaşına və ya başqa funksionerlərlə birlikdə qərarlar qəbul etməyə doğru yönəlmiş şüurlu, qətiyyətli fəaliyyəti;
- təşkilatın öz ardıcıllarına və tərəfdarlarına qayğısı;

- xalq kütlələrinə kömək və yardımı təmin etmək üçün tədbirlər görmək.

Amerika politoloqu S.Lipset isə iddia edirdi ki, müasir demokratik ölkələrdə partiyaların mövcudluğu stratifikasiya və mədəni dəyərlərlə bağlı olan amillərlə şərtlənir. Birinci tipin (stratifikasiyanın) prototipi sinfi partiyadırsa, ikinci tipin prototipi dini partiyalardır.

Bu yanaşmadan göründüyü kimi, partiya strukturlarının tədqiqi özünün birtərəfliyi və məhdudluğu ilə seçilir. Çünki, burada partiyaların fəaliyyəti və cəmiyyətdə rolu ilə bağlı bəzi mühüm aspektlər diqqətdən kənar qalmışdır. Bu boşluğun nisbətən doldurulması üçün **funksional** yanaşma həyata keçirilmişdir. Məcmu halında o siyasi partiyaların mühüm əlamətlərinin fərqləndirilməsində üçüncü istiqaməti təşkil edir.

Partiyaların funksional xüsusiyyətləri, cəmiyyətin siyasi sistemində yeri və rolu nöqteyi-nəzərindən tədqiqi qərb politoloji və sosioloji ədəbiyyatında geniş yayılmışdır. Funksional yanaşmanın tərəfdarları partiyaların həyata keçirdikləri funksiyalar baxımından səciyyələndirilməsini qənaətbəxş hesab edirlər. Onların fikrincə, partiyalar haqqında təriflərin heç biri hələ tam və qənaətbəxş deyildir, lakin bunların içərisində ən ümumi və faydalı olanı partiyaların həyata keçirdikləri hərəkət və fəaliyyət nöqteyi-nəzərindən qiymətləndirilən təriflərdir. Bu münasibətlə K.Louson aşağıdakı tərifi təklif edir:

"Siyasi partiya - seçkilər, həmçinin, xalq və ya onun bir hissəsi vasitəsilə özünün xüsusi üzvləri üçün səlahiyyət müddətini uzatmağa və müəyyən hökumət təsisatlarında siyasi hakimiyyəti həyata keçirməyə çalışan və bu zaman həmin hakimiyyətin xalqın adından həyata keçiriləcəyini iddia edən fərdlərin təşkilatıdır".

Funksional yanaşmanın tərəfdarlarından biri olan P.Merkel bu fikri davam etdirərək yazır ki, partiya siyasi təsisat növü olub, öz sıralarına yeni üzvlər cəlb edir və onları sosiallaşdırır, seçki yolu ilə liderləri seçir, daxili mübahisələri həll edir və siyasətin həyata keçirilməsi haqda qərarlar qəbul edir.



Göründüyü kimi, funksional yanaşma özü də birtərəfliyi ilə seçilir. Bu istiqamətin tərəfdarları yalnız partiyaların funksiyalarına nəzər salarkən partiya strukturunun təşkiledici əlamətlərini, həmçinin onun siyasi və ideoloji təşkilatçılıq cəhətlərini yaddan çıxarırlar.

Funksional yanaşma tərəfdarlarının çatışmayan cəhətlərindən biri də budur ki, onların yalnız partiyaların cari, gündəlik və daimi təkrarlanan funksiyalarını vurğulamaqla kifayətlənirlər. Onlarda partiyaların perspektiv və son məqsədləri göstərilmir. Halbuki, nümayəndəli orqanlara namizədlərin irəli sürülməsi, hökumətin siyasətinə təzyiq və onun fəaliyyətinə nəzarət, kütləvi şüura təsir və s. bu kimi funksiyalar çox mühümdür.

Bəzi qərb müəllifləri həm funksional, həm də struktur yanaşmanın çatışmayan cəhətlərini aradan qaldırmaq üçün yeni üsul - **struktur funksional** analiz metodunu təklif edirlər. Bu mövqenin tərəfdarlarından olan S.Noyman partiyaya belə tərif verir ki, "o hökumətin hakimiyyəti ilə əlaqəli olan və başqa baxışlara malik qruplarla xalqın etimadı uğrunda mübarizə aparan cəmiyyətin fəal siyasi agentlərinin nizamnaməyə uyğun təşkilatıdır".

Eyniliklə bu cür mövqedə duran fransız mütəfəkkiri J.Şarlo siyasi partiyaların dörd əsas cəhətini verməklə problemə münasibət göstərmişdir.Onun fikrincə bura daxildir:

***Birinci***, uzun müddət ərzində fəaliyyət göstərə bilmək qabiliyyəti;

***İkinci***, təşkil olunma xüsusiyyətinə görə;

***Üçüncü***, mövcud siyasi sistem çərçivəsində ölkəyə siyasi rəhbərliyin təklikdə və ya digər qüvvələrlə ittifaqda aparılmasının dəqiq müəyyən edilmiş formada əks olunması;

*Dördüncü*, siyasi klublardan fərqli olaraq, öz siyasətini həyata keçirmək üçün partiyalar çoxlu sayda tərəfkeşləri öz ətrafında toplamağa cəhd edir.

Struktur və funksional elementləri birləşdirməklə qərb müəllifləri müəyyən mənada məhdudluqdan və birtərəflikdən yaxa qurtara bilmişlər. Bu yanaşma tərəfdarları partiyaların fəaliyyət göstərdikləri sosial mühiti, partiyaya və onun namizədlərinə səs verən seçicilərin sosial-iqtisadi statusu və s. bu kimi problemlərin öyrənilməsinə xüsusi diqqət verirlər. Onun nümayəndələrindən ilk növbədə S.Lipseti göstərmək olar. O, özünün "siyasi insan" adlı kitabında qeyd edir ki, "hər hansı demokratiyada müxtəlif qruplar arasındakı konflikt siyasi partiyalardan keçir ki, bu da əsasən sinfi mübarizənin demokratik ifadəsi kimi təcəssüm edir. Hətta əksər partiyalar sinfi konflikt və loyallıq prinsipini inkar etsələr belə, onların çağırışlarının təhlili göstərir ki, bu partiyalar müxtəlif siniflərin maraqlarını ifadə edirlər".

Beləliklə, bütün bu dediklərimizdən belə nəticəyə gəlmək olur ki, siyasi partiya dedikdə, özünəməxsus siyasi funksiyalara malik olan və hakimiyyət strukturlarında milli mənafeyin təcəssüm etdirilməsində fəal iştirak edən mühüm demokratik təsisatdır

## *§2.Partiyaların tipologiyası və funksiyaları*

Qərb siyasi elmində partiyaların mahiyyətini açıqlamaq üçün müxtəlif səviyyədə tipologiyalaşdırılması həyata keçirilir. Bu metodun düzgün tətbiqi partiyaların daha mühüm əlamətlərə görə qruplaşdırılmasına imkan verir. Müəyyən konkret tarixi tipə aid siyasi partiyaların ümumi əlamətləri özünü bu tipə aid olan hər bir ayrıca götürülmüş partiyanın fəaliyyəti və təşkilində açıq aydın biruzə verir. Bu partiyanın tarixi inkişafı, fəaliyyət göstərdikləri sosial mühitin xüsusiyyətləri və başqa amillərlə bağlıdır. Ona görə də partiyaları bu və ya di-



gər tipə aid etmək üçün onun milli spesifik struktur xüsusiyyətlərini və fəaliyyətinin ümumi, köklü, mühüm və sabit elementlərini bilmək zəruridir.

Ümumi cəhətlərin aşkar edilməsi konkret siyasi partiyanın quruluş və fəaliyyətini öyrənməkdə özünəməxsus "kompas" rolunu oynamış olur. Ən nəhayət, nəzərə almaq lazım gəlir ki, partiyaların tipologiyasından onların cəmiyyət həyatındakı rolunun müqayisəli təhlili zamanı istifadə oluna bilər.

Siyasi ədəbiyyatda siyasi partiyaların tipologiyalaşdırılmasında müxtəlif təsnifatlardan istifadə olunur. Bu baxımdan məsələn, üzvlüyün xarakterinə görə partiyaların təsnifatının verilməsi müasir siyasi elmdə çoxdan qəbul olunmuş bölgüdür. Siyasi elmdə həmçinin partiyaların proqramlarina və ideologiyalarına, praqmatizmə və liderlik kultuna görə də təsnifatı verilir. Bu münasibətlə R.Makridis müasir siyasi ədəbiyyatda mövcud olan bütün bu tipologiyaları aşağıdakı kimi qruplaşdırmağı təklif edir: avtoritar və demokratik, inteqrasiya və nümayəndəli, ideoloji və praqmatik, müxtəlif məsələlərin öyrənilməsi və həllinə istiqamətlənmiş yerli və milli, dini və dünyəvi, demokratik və inqilabi, kütləvi və elitar, demokratik və oliqarxik partiyalar və s.

Müasir siyasi elmdə partiyaların kadr və kütləvi partiyalara bölünməsi təcrübəsi də geniş yayılmışdır. Burada söhbət əlbəttə ki, kadr partiyaları ilə kütləvi partiyalar arasındakı fərq böyüklüyündən və üzvlərin sayından deyil, daha çox quruluş fərqinə görə bölgüdən gedir. Kütləvi partiya sistemində üzvlərin seçkilərdə iştirakı və qələbəsi üçün külli-miqdarda pul vəsaitinin əldə edilməsi probleminə xüsusi diqqət verilir. Belə ki, partiyaların irəli sürdükləri namizədlərin adətən şəxsi maliyyə imkanları məhdud olur və buna görə də o, böyük sənayeçilərə, bankirlərə, iş adamlarına yardım üçün müraciət edir, bu isə həmin namizədin bu adamlardan asılılığına gətirib çıxarır. Bunu həll etmək üçün "kütləvi partiya" sistemində üzvlük haqqları və könüllü yardım-

ların yığılması təcrübəsindən geniş istifadə olunur. Kadr partiyaları sistemində isə tamamilə fərqlidir. Burada seçkiləri hazırlamaq, kampaniyanı təşkil etmək üçün seçicilərin özlərini müəyyən mənada bir yerə toplamaq lazım gəlir. Bu seçicilər dolayısı ilə kadr partiyalarının üzvləri, M.Dyuverjenin təbirincə desək, ilk növbədə nüfuzu və əlaqələri sayəsində namizədi müdafiə edə biləcək nüfuzlu adamlar, seçiciləri istiqamətləndirən və seçki kampaniyasını təşkil etməyi bacaran ekspertlər və mübarizənin pul və maddi ehtiyatlarla təmin edən maliyyəçilərdir.

Kadr partiyası sistemində partiyaya üzvlük də çox fərqlidir. Belə ki, burada əvvəlcədən müəyyən edilmiş insanlar öz qabiliyyətlərinə və statusuna əsasən tamamilə fərdi şəkildə bu qrupa qəbul edilir. Bu proses az sayda insana aid edilir və qapalı seçkiyə əsaslanır. Bu o deməkdir ki, kadr partiyaları amorf üzvlüklə, partiyaya rəsmi qəbul olunma mexanizminin və ciddi müəyyən olunmuş üzvlük statusunun olmaması ilə xarakterizə olunan sistemdir.

Kütləvi və kadr partiyalarının təhlili müəyyən etmişdir ki, onların sırf bu və ya digər modelə uyğun gəlməsini ayırd et-mək çox çətindir. Belə ki, bəzən kadr partiyaları kütləvi partiyaları təqlid edərək öz qapılarını üzvlərin üzünə açır. Bu isə onun məhz hansı tipə aid olmasını müəyyənləşdirməkdə çətinlik yaradır. Ümumiyyətlə, dünyada saf kadr partiyalar sayca çox azdır. Onu digər sistemdən fərqləndirmək üçün ən sağlam meyar kimi üzvlərin qeydiyyata alınması sisteminin olmaması və nizamlı şəkildə üzvlük haqlarının toplanılmasını əsas kimi götürmək lazımdır. Həmçinin, kadr və kütləvi partiyalar arasındakı fərq onların təşkili ilə də bağlıdır. Kadr partiyaları federalist və zəif birləşmiş partiyalara, kütləvi partiyalar isə əksinə, daha çox mərkəzçi və sıx birləşmiş partiyalara oxşayır.

Bəzi müəlliflərin fikrincə, partiyaların çoxistiqamətli inkişafı nəticəsində həm kütləvi, həm də kadr partiyalardan fərqlənən üçüncü tip partiyalar ortalığa çıxmışdır. Bu tip partiyalar kütləvi



partiyalardan daha qapalı və kadr partiyalarından isə nisbətən açıqdır.

Stiv Koyen isə partiyaların təsnifatını aşağıdakı kimi verməyi təklif edir:

- Totalitar partiyalar (möhkəm intizamlı, yad fikirliyi boğması və ideologiyalığı, dövləti və cəmiyyəti özünün tam nəzarətinə tabe etdirmək istəyi ilə fərqlənir).
- Parlament partiyaları(seçkilərdə öz namizədlərini irəli sürür və qələbə qazanmasına kömək edir. Bundan sonra partiya özünün parlament funksionerləri ilə daimi əlaqə saxlayır, yaxud seçiciləri idarə edir).
- Seçki maşını partiyaları (təkcə seçki kampaniyası ilə məşğul olur, faktiki olaraq paritya aparatına malik deyildir, hər na-mizəd partiya bayrağı altında öz komandasını formalaşdırır).
- Hərəkat partiyaları (hakimiyyətə nail olmaqdan daha çox konkret problemin həllində hökumət orqanlarına təzyiq göstərmək üçün cəmiyyətin səfərbər edilməsi məqsədini güdürlər: məsələn, yaşıllar, hərb əleyhinə, qadınlar hərəkatı və s.).

Sanistebana görə isə, partiyalar həmçinin, yarışqan və inhisarçı ola bilər. Yarışqan partiyalar plüralist sistemdə olur. Onlar ya siyasi sistemdə ali hakimiyyəti həyata keçirir, ya da bu hakimiyyət uğrunda mübarizə aparırlar. İnhisarçı ("tək partiya" kimi tanınan) partiya siyasi sistemdən istənilən başqa partiyanı sıxışdırıb çıxararaq ali hakimiyyəti təkbaşına idarə edir.

Müasir siyasi ədəbiyyatda mövcud olan tipologiyalardan biri də partiyaların "təmsilçi" və "səfərbəredici" partiyalara bölgüsüdür. Onların bir-birindən fərqləndirən cəhət odur ki, təmsilçi partiya öz ardıcıllarının baxışlarını ifadə edir. Bu baxışların dəyişməsi ilə partiyanın siyasəti də dəyişikliklərə məruz qalmış olur. Bu tipə aid edilən partiya və onun rəhbərliyi öz üzvlərinin baxışlarını ifadə edir.

Səfərbəredici partiyaların əsas xüsusiyyəti isə odur ki, onlar əhalinin şürunu dəyişdirməyə və yenidən qurmağa meyllidirlər. Öz həyat fəaliyyətlərində bu partiyalar təbliğata ciddi diqqət yetirir, başqalarının əks təbliğatla məşğul olmasına ma-ne olurlar. Bu partiyaların yaranmasına qeyri-demokratik rejimlər güclü təsir göstərir. Bu rejimlər yalnız öz ideologiyalarının doğruluğunu sübut etməyə çalışır və bununla da kütləvi şüurla öz istədiyi kimi manipulyasiya edirlər. Belə partiyalara kommunist və faşist partiyalarını misal göstərmək olar.

Partiyaların cəmiyyətdə yeri, rolu hər şeydən əvvəl onun funksiyalarında öz əksini tapır.

Partiyaların mühüm funksiyalarından biri ictimai inkişafın məqsədlərini müəyyənləşdirmək, siyasi inkişafın strategiyasını və proqramını işləyib hazırlamaqdır. Siyasi proseslərdə iştirakı zamanı, xüsusilə də seçki kampaniyalarının gedişində partiyanın irəli sürdüyü proqramlarda sosial tərəqqinin və siyasi inkişafın yeni modeli təklif olunur. Partiyanın seçkilərdə qələbəsi vətəndaşların əksəriyyətinin məhz bu proqramı və yolu seçdiyini ifadə edir.

Partiyaların fəaliyyəti vətəndaşların siyasi sosiallaşmasına güclü təsir göstərir ki, bu da onların daha bir funksiyasından xəbər verir.

Partiyaların yerinə yetirdiyi funksiyalardan biri də liderlərin və siyasi elitanın formalaşdırılmasıdır.

Bundan əlavə, siyasi partiyalar aşağıdakı funksiyaları da yerinə yetirir:

- təmsil olunduğu sosial təbəqələrin mənafelərinin üzə çıxarılması və bəyan edilməsi;

-qrupdaxili və qruplararası inteqrasiya,

-siyasi sistemin ümumi prinsipləri və komponentlərinin formalaşdırılmasında iştirak etmək;

-ictimai rəyin formalaşdırılmasında iştirak etmək.

Siyasi partiyaların fəaliyyətinə dair elmi ədəbiyyatdan



bizə məlum olduğu kimi, beynəlxalq təcrübənin ən əsas istiqamətlərindən birisi siyasi partiyaların fəaliyyətinin hüquqi tənzimlənməsi problemidir. Demokratik cəmiyyət şəraitində siyasi partiyaların fəaliyyətinin hüquqi əsasları konstitusiya və xüsusi qanunvericilik aktları vasitəsilə tənzim edilir.

Hüquqi cəhətdən tənzimlənməsi mümkün olan münasibətlər və ya problemlər bunlardır:

1. Siyasi partiyaların hüquqları, vəzifələri və fəaliyyəti;

2. Partiyaların yaradılması, fəaliyyətinin dayandırılması və ləğv edilməsi qaydaları;

3. Partiyaların təşkil edilməsi və onun ideologiyası;

4. Partiyaların maliyyə və sahibkarlıq fəaliyyəti;

5. Partiya sisteminin digər institutlarla qarşılıqlı münasibəti. Bu institutlara aiddir: dövlət və onun orqanları, qeyri-hökumət ictimai birlikləri, kütləvi informasiya vasitələri;

6. Partiyaların beynəlxalq əlaqələri və s.

Siyasi partiyaların konstitusiya vasitəsilə tənzimlənməsinin əhatə dairəsi nə qədər geniş olsa da, o yalnız partiyanın hüquqi statusu üçün əsas rolunda çıxış edir, onun ətraflı tənzimlənməsini digər normativ aktlar vasitəsilə həyata keçirirlər. Bu normativ aktların içərisində birinci yeri siyasi partiyalar haqqında xüsusi qanunlar tutur. Bu cür qanunların qəbul edilməsi müasir dövrdə hüquqi institutlaşdırmada üstün forma hesab edilir.

Xüsusi qanun siyasi partiyaların özünəməxsus cəhətləri ilə birlikdə onun hüquqi statusunu müəyyən etməyə şərait yaradır. Siyasi partiyalar haqqında bir çox ölkələrin qəbul etdiyi qanunların təhlili göstərir ki, artıq müasir siyasi partiyaların fəaliyyətlərində cəmiyyət və dövlətlə qarşılıqlı münasibətləri yeni formada inkişaf edir.

Siyasi partiyalar haqqında qəbul edilmiş xüsusi normativ aktlarda diqqəti cəlb edən məsələlərdən birisi də, bu siyasi təsisatın yaradılması, fəaliyyətinin dayandırılması və onun ləğvini nəzərdə tutan qanunlarla tənzimlənməsi qay-

dalarının müəyyən edilməsidir.

Müasir demokratik ölkələrin bir çoxunda siyasi partiyaların leqallıq statusunun ləğv edilməsinin və eynilikdə bu statusun verilməsi prosesinin qanunvericilikdə tənzim edilməsi formaları müəyyən edilmişdir.

Siyasi partiyaların leqallıq statusunun verilməsinin əsas etibarilə üç qaydası vardır: qabaqcadan razılaşdırılmış; icazəli və icazə alınaraq qeydiyyata alınması.

**Birinci qayda** əsas etibarilə onunla fərqlənir ki, burada partiyaların yaranması öz-özlüyündə baş verir və onlara öz yaranışları üçün dövlətdən icazə almırlar. Bu bir növ mövcud faktın təsdiqlənməsidir.

**İcazə qaydasının** mahiyyəti isə odur ki, burada partiyanın yaradılması və təsis qurultayının keçirilməsi üçün əvvəlcədən dövlət orqanından icazə almaq lazımdır. Bu qayda partiyaların sərbəst şəkildə yaradılmasını məhdudlaşdırır və daha çox avtoritar və totalitar mahiyyətli rejimlərdə təsadüf olunur.

**İcazə alınaraq qeydiyyata alınması qaydası** özü də iki əlamətə malikdir:

Birincisi, siyasi partiyalar azad şəkildə, heç bir xəbərdarlıq etmədən yaradılır, lakin leqallıq statusunu yalnız səlahiyyətli dövlət orqanı tərəfindən qeydiyyata alındıqdan sonra almış olur.

İkincisi, partiyaların leqallıq statusunun alması və bu və ya digər şəkildə qeydiyyatdan keçməsini xüsusi qanunda təsbitini tapması.

Siyasi partiyaların qeydiyyata alınması qaydası sözsüz ki, onun yaranması və fəaliyyət göstərməsində müəyyən çərçivələndirməyə və deməli, müstəqil şəkildə hərəkətinin məhdudlaşdırılmasına gətirib çıxarır. Bu özünü xüsusən siyasi partiyaların qeydiyyatı üçün müəyyən şərtlərə uyğun gəlməsi zamanı göstərir.

Eyni zamanda, qeydiyyata alınma prosesində mühüm



yeri hansı dövlət orqanının bunu həyata keçirməsi tutur. Dünya təcrübəsindən məlum olur ki, bu prosedura üçün əsasən dörd orqan nəzərdə tutulmuşdu: Dövlət idarəçiliyinin mərkəzi orqanları (nazirliklər); məhkəmə orqanları; seçki komissiyaları və xüsusi inzibati orqanlar.

Bir qayda olaraq, siyasi partiyaları qeydiyyata alan nazirliklərə "Daxili İşlər Nazirliyi" və "Ədliyyə Nazirliyi" daxildir. Xarici ölkələrdə məsələn, Qvineyada, Seneqalda, Slovakiyada qeydiyyataalma işilə DİN məşğul olur, MDB məkanında isə, eyniliklə Azərbaycan Respublikasında bu funksiyanı Ədliyyə Nazirliyi yerinə yetirir. Belə ki, Azərbaycan Respublikasının "Siyasi partiyalar haqqında Qanun"un 14-cü maddəsində gö-stərilmişdi ki, "siyasi partiyaların nizamnaməsini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi qeydə alır".

Ümumi ölkə qanunvericiliyində "icazəli-qeydiyyat" qaydası üçün bir sıra tələblər də müəyyən edilmişdir ki, onlara riayət olunması siyasi partiyaların leqallıq statusun alınmasına gətirib çıxarır. Bu tələbləri aşağıdakı kimi təsnif etmək olar:

Birincisi, siyasi partiyaların təbiətinə və xarakterinə aid tələblər. Əgər partiyaların yaranması və fəaliyyət göstərməsi konstitusiyaya və digər normativ aktlara ziddirsə, o qeydiyyata alına bilməz;

İkincisi, siyasi partiyaların sayına olan tələblər. Bu o deməkdir ki, partiyaların qeydiyyata alınması üçün minimal üzvlərin sayı müəyyən edilməlidir. Müqayisə üçün qeyd edək ki, bu göstərici ayrı-ayrı ölkələrdə müxtəlifdir. Belə ki, məs; Qvineya-Bisauda ən azı 2 min nəfər; Portuqaliyada 5 min nə-fər (özüdə 18 yaşından yuxarı və vətəndaşlığın bütün hüquqla-rına malik olan şəxs olmalıdır); Slovakiya və Çexiyada 1000 nəfər, Meksikada 65 min nəfər üzv olmalıdır".

Ölkə qanunvericiliyində mühüm yerlərdən birisini də, siyasi partiyaların fəaliyyətinin dayandırılmasının hüquqi

tənzimlənmə qaydaları tutur.

Siyasi partiyaların mövcud olması hüququnu əsaslı şəkildə məhdudlaşdıran amil kimi, onun ümumiyyətlə fəaliyyətinin dayandırılması çıxış edir. Siyasi partiyaların fəaliyyətinin day-andırılması müəyyən hüquqi qaydaların pozulması müqabilində həyata keçirilən müvəqqəti addımdır (fövqəladə vəziyyət elan edilən dövrdə bu addımın tamam başqa məqsədlərindən irəli gələn məcburi addım kimi istisnalıq təşkil edir).

Siyasi partiyaların fəaliyyətinin dayandırılması üçün ciddi əsas kimi Konstitusiyanın, qanunların və nizamnamədəki məqsədlərin pozulması çıxış edir. Adətən bu prosedurанın həyata keçirilməsi bir sıra hüquqi nəticələrə gətirib çıxarır. Belə ki, bir qayda olaraq siyasi partiyaların istənilən formada açıq fəaliyyətinə (iclas, mitinq, nümayiş keçirməsinə, KİV-dən istifadə etməsinə) qadağa qoyulur, onun öz maliyyə vəsaitlərindən istifadə etməsi (məs; bank hesabına) məhdudlaşdırılır. Ən əsası isə, siyasi partiyalar seçkilərdə iştirak etmək hüququndan məhrum edilir. Bununla əlaqədar olaraq da, siyasi partiyaların fəaliyyətinin dayandırılması haqqında qərar qəbulunda ən vacib şərt kimi, bunun qanuni şəkildə həyata keçirilməsi çıxış edir. Hüquqi dövlətlərdə bu cür qanuni təminatı yalnız məhkəmə verir ki, bu da, icra orqanlarına özbaşınalıq etməsinə imkan vermir.

Siyasi partiyaların maliyyə fəaliyyəti haqqında xüsusi qanunların qəbul edilməsi müasir konstitusiya qanunvericiliyinin əsas cəhətini təşkil edir. Bu qanun bir qayda olaraq siyasi partiyaların maliyyə ehtiyatlarının mənbələrinə, eləcə də partiyaların maliyyə fəaliyyətlərinə həsr olunubdur. Belə ki, bir çox ölkələrin qanunlarında qeyd edilir ki, siyasi partiyaların xarici dövlətlərdən maliyyələşdirilməsi qadağan olunur (məs: Siyasi partiyalar haqqında Azərbaycan Respublikası qanunun 17-ci maddəsində). Həmçinin siyasi partiyalar özlərinin ümumi maliyyə vəziyyətlərindən konkret dövlət orqanına hesabat



vermədir. Bu baxımdan hüquqi tənzimləmə obyekti kimi aşağıdakı sahələr çıxış edir:

1. Partiyanın maliyyə vəsaitini təşkil edən mənbələrin müəyyənləşdirilməsi;

2. Siyasi partiyaların siyasi proseslərdə iştirakı (məs; seçkilərdə və parlamentin fəaliyyətində iştirakı) ilə əlaqədar olan onun maliyyə fəaliyyəti;

3. Partiyanın bütün maliyyə fəaliyyətinin dövlət nəzarətini nəzərdə tutan mexanizmlərin müəyyənləşdirilməsi.

Dünya praktikasında siyasi partiyaların maliyyələşdirilməsində üç mənbə göstərilir. Bunlar:

a) Siyasi partiyaların şəxsi vəsaitləri hesabına. Bura aiddir:

- üzvlük haqları;əmlakdan götürülən gəlir;tədbirlərdən, mətbu nəşrlərin və məqalələrin yayılmasından, gəlirlərlə bağlı olan buna bənzər fəaliyyətdən götürülən gəlir;ianələr şəklində gəlir; seçki kampaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait və s.

b) Siyasi partiyaların fəaliyyətinin fərdi qaydada maliyyələşdirilməsi.

Bura əsasən siyasi partiyanın xeyrinə fiziki və hüquqi şəxslər tərəfindən könüllü şəkildə pul vəsaitlərinin verməsi daxildir.

v) Dövlət maliyyələşdirilməsi.

Dünya praktikasında bunun aşağıdakı formaları vardır:

Ümumi və xüsusi, birbaşa və dolayısı.

Ümumi şəkildə maliyyələşdirmə əsasən partiyanın təşkilati işlərinin həyata keçirməsi üçün (məs; konfransların və iclasların keçirilməsi, müəyyən binaların arendaya götürülməsi və s.) dövlət tərəfindən müəyyən qədər vəsait ayrılır.

Xüsusi şəkildə maliyyələşdirmə konkret işlərin (məs; seçki kampaniyalarının keçirilməsi və s.) həyata keçirilməsi üçün dövlət tərəfindən təmin edilir. Bunu nəzərdə tutan "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanunu (maddə

17) dövlətin yalnız xüsusi hallarda müdaxiləsini məqbul sayır və bunu belə izah edir ki, "siyasi partiyaların fəaliyyəti xalq deputatları seçkiləri haqqında Qanuna müvafiq surətdə seçki kampaniyalarının maliyyələşdirilməsi istisna olmaqla, dövlət büdcəsindən təxsisat ayrılmadan bu partiyaların vəsaiti hesabına maliyyələşdirilir".

Ümumən dövlət-partiya münasibətlərində mühüm yeri dövlətin partiyaları seçki prosesində maliyyələşdirilməsi çıxış edir. Bununla da dövlət siyasi partiyaların fəaliyyətinin maliyyə hissəsinə nəzarət edir və onların xarici dövlət, beynəlxalq təşkilat və firmaların təsiri altına düşməsinin qarşısını almış olur.

Beləliklə, siyasi partiyalar haqqında qanunvericilik aktları bir tərəfdən dövlətin mövcud problemlə əlaqədar mövqeyini göstərir, digər tərəfdən isə, siyasi partiyaların cəmiyyətdə oynadığı rolu daha dəqiq müəyyən etməyə imkan verir.

## § 3. *Partiya sistemləri*

İctimai quruluşun xarakterindən, sosial-siyasi, iqtisadi, mənəvi və ən başlıcası siyasi inkişaf səviyyəsindən, demokratik ənənələrin möhkəmliyindən asılı olaraq siyasi sistemdə fəaliyyət göstərən partiyalar müəyyən sistem əmələ gətirir. ***Partiya sistemi dedikdə müxtəlif partiyaların bir-biri ilə və dövlətlə sabit, davamlı əlaqə və münasibətləri sistemi başa düşülür.*** Partiya sistemi siyasi dinamikanın xarakterini təcəssüm etdirir və cəmiyyətin siyasi sisteminin bütün aspektlərinə güclü təsir göstərir. Bu baxımdan F.Burlaski qeyd edir ki, partiya sistemi, hakim və müxalifət partiyalarının sosial bazası və fəaliyyəti müasir cəmiyyətin siyasi mahiyyəti barədə daha dolğun təsəvvür yaradır.

Qərb siyasi ədəbiyyatında partiya sistemlərinin heç də yekcins olmayan təsnifatı verilmişdir. Onları ən müxtəlif tipo-



loji əlamətlər əsasında qruplaşdırmaq olar. Bu əlamətlərdən ən çox istifadə olunanı kəmiyyət meyarına - yəni cəmiyyətdə fəaliyyət göstərən və hakimiyyət uğrunda mübarizə aparan, müəyyən məqsədlər naminə hakimiyyəti həyata keçirən siyasi partiyaların sayına əsaslanan tipologiyasıdır. Lakin məlumdur ki, heç də hamı tərəfindən kəmiyyət meyarı dəstəklənmir. Bu münasibətlə biz müəllifləri üç qrupa ayıra bilərik. Onlardan bəziləri bu meyarı demək olar ki, tam qəbul edir (məs; M.Dyuverje), başqaları kəmiyyətə görə tipologiyaya praktik baxımdan yararsız olduğuna görə ciddi etiraz edir (M.Vinner və C.La Palombara), üçüncülər isə (C.Sartori) kəmiyyət meyarından əl çəkməyin hələ tez olduğunu qeyd edərək onun təkmilləşdirilməsini zəruri hesab edirlər.

Bu münasibətlə C.Sartori belə hesab edir ki, cəmiyyətdə fəaliyyət göstərən partiyalar siyasi sistemin mühüm əlamətlərini - siyasi hakimiyyətin fraqmentasiya dərəcəsini əks etdirir. Siyasi həyatda iştirak edən partiyaların sayı partiyalararası rəqabəti şərtləndirir ki, bu da öz növbəsində hökumət koalisiyalarının yaranmasına təsir edir. C.Sartori partiya sistemlərinin yeddi tipini təklif edir:

1. İki partiyalı sistem (ABŞ, Böyük Britaniya);
2. Bir partiyalı sistem (keçmiş SSRİ, Albaniya);
3. Hegemon partiya sistemi (Meksika);
4. Üstünlük təşkil edən bir partiyalı sistem (Yaponiya, Hindistan);
5. Məhdud və ya mülayim plüralizm sistemi (Belçika, AFR);
6. Qəti (qütbləşmiş) plüralizm sistemi (İtaliya, Niderland);
7. Atomlaşmış sistem (Malayziya).

***İki partiyalı sistem:*** Bu tip iki aparıcı partiyanın hakimiyyətdə əvəzlənməsi ilə xarakterizə olunur. C.Sartori qeyd edir ki, iki partiyalı sistem o vaxt yaranır ki, digər partiyaların mövc-

udluğu iki aparıcı partiyaya ölkəni idarə etməyə mane olmur. Seçki sisteminin majoritar xüsusiyyəti ondadır ki, dairələrdə nisbi çoxluğu qazanan partiya nümayəndələri seçkidə qalib gəlir və koalisiya üzrə tərəfdaşa ehtiyac duyulmur. Bununla da böyük olmayan partiyalar siyasətin kəndarında sürüklənməyə məhkum edilir.

***Bir partiyalı sistem:*** Onun xüsusiyyəti ondadır ki, həmin sistemdə hər hansı digər partiyanın yaradılması sadəcə mümkün deyildir. Bunun üçün lazımi hüquqi mexanizm yox-dur və partiya yaradılması üçün edilən hər hansı bir cəhdin qarşısı cəza orqanları tərəfindən alınır. Partiya dövlət üzərində hakimdir və idarəetmə orqanları ilə birləşir. Bu tip partiya sistemi sözsüz ki, məhvə məhkum olunur.

***Hegemon partiya sistemi:*** Müəllifin fikrincə, hegemonçu partiya xoşa gəlib-gəlməmədiyindən asılı olmayaraq, hakimiyyətdə qalır. Başqa sözlə, ölkədə bir neçə partiya ola bilər, bununla belə hakimiyyət uğrunda formal və faktiki rəqabət tam istisna edilir. Bu sistem bütün partiyaların hegemonçu partiyaya tabe edilməsi ilə xarakterizə olunur. Onun rəhbər funksiyası qanunvericilikdə təsbit olunur. Seçki dairələrində hakim partiyanın müəyyən etdiyi kvotalarla yeganə namizədlər irəli sürülür. Bu sistem dekorativ çoxpartiyalılığa yol verir, ancaq həm qanunverici səviyyədə, həm də faktiki olaraq ölkədə hegemonçu partiyanın hakimiyyət üzərində inhisarına hər hansı tərəddüd imkanını istisna edir.

***Üstünlük təşkil edən bir partiyalı sistem:*** Belə sistem bir partiyanın demək olar ki, uzun müddət hakimiyyətdə qalması ilə xarakterizə edilir. Bütün digər partiyalar hətta öz səylərini birləşdirdikdə də ona qalib gələ bilmirlər. Həmin sistemdə faktiki olaraq partiya və dövlət nomenklaturasının birləşməsi baş verir. Bununla belə, demokratik azadlıqların mövcudluğu, liberal konstitusiya və qanunvericilik bazası bir partiyanın üstünlüyünün diktaturaya çevrilməsinə yol vermir. Seçkilər fiksiya deyil, bununla belə dövlət strukturlarının hakim partiyanın xeyrinə cəhdi onun nəticələrini demək olar ki, əvvəlcədən müəyyən edir.



***Məhdud və ya mülayim plüralizm sistemi:*** Bu növ sistemin əsas əlamətləri aşağıdakılardır:

-Cəmiyyətdə fəaliyyət göstərən partiyalar arasında ideoloji fərqlərin çox olmaması;

-Cəmiyyətdə fəaliyyət göstərən bütün siyasi partiyaların hökumətdə iştiraka istiqamətlənməsi;

-Bu partiyaların koalision kabinetlərdə iştirakının mümkünlüyü.

***Qəti (qütbləşmiş) plüralist sistemi:*** C.Sartori bu plüralist partiya sisteminin fərqləndirici əlamətini verərkən ilk növbədə sistemə zidd olan yəni sosial-iqtisadi və siyasi sistemin əleyhinə çıxan partiyaların olmasını göstərir. Yəni ki, hökumətə ikitərəfli həm sağdan, həm də soldan təzyiq göstərmək olar. Bu iki müxalifət qarşılıqlı surətdə bir-birini istisna edir və bundan əlavə daima permanent münaqişə vəziyyətində olurlar.

Üçüncü əlamət kimi, bir partiyanın və ya partiyalar qrupunun mərkəz mövqedə durmasıdır.

Dördüncü əlamət kimi, qütbləşmə çıxış edir. Qütbləşmə dedikdə güclü ideoloji fərqliliyin nəticəsi olan sistem başa düşülür.

Beşinci əlamət - məsuliyyətsiz müxalifətin olması. C.Sartori məsuliyyətsiz müxalifətin yaranmasını hökumətin işində iştirak etməkdən onun məhrum olması ilə izah edir.

Altıncı əlamət - qütbləşmiş plüralizmə əsas olan cəhətlərdən biri də siyasi partiyaların bir-birinə üstün gəlmək cəhdləridir. Onlar həyata keçirməyə məsul olmadıqları vədləri sağa, sola paylayaraq özləri üçün dividend əldə edir-

lər. Sartori bunu "yüksək vədlər siyasəti" adlandırır.

***Atomlaşmış sistem:*** Bu formalaşmış siyasi, sosial, iqtisadi strukturları və birliyi olmayan cəmiyyətlər üçün xarakterikdir. Partiyaların sayı belə sistemdə həddən artıq, bəzən yüz və daha çoxdur. Bununla belə onların çoxu partiya deyil. Yaranan koalisiya, partiya blokları müvəqqəti və qeyri-möhkəmdir. Bəzi partiyaların birliyi, digərlərinin dağılması ilə müşayət olunur. Hər hansı bir partiya və ya partiya koalisiyası əsasında hakimiyyətin formalaşması son dərəcə çətinləşir. Belə vəziyyət cəmiyyətin modernləşməsi yolunu tutan ölkələrdə rast gəlmək mümkündür.

Partiya sistemini tədqiq edən digər Amerika tədqiqatçısı A.Leyzersona görə qərb siyasi elmində partiya sistemini müəyyən edən üç cəhət barəsində təsəvvür vardır:

Birincisi, partiya-müəyyən ideologiyanın daşıyıcısıdır, bu mənada partiya ictimai rəyin müəyyən çərçivədə inikası kimi çıxış edir;

İkincisi, partiya - onun tərəfkeş qismində çıxış edən sosial qrupların təmsilçisidir;

Üçüncüsü, partiya-özünün təşkilatçılığı və rəhbərliyi sayəsində nüfuza malik olan qrupdur.

Partiyalar və partiya sistemləri sahəsində ən samballı mütəxəssis Fransız alimi Moris Dyuverje "Siyasi partiyalar" kitabında partiya sistemlərini təsnif edərkən onları üç yerə ayırır:

Bir partiyalı, iki partiyalı və çoxpartiyalı sistemlər.

Bu sonuncunun özü də müəllifə görə aşağıdakı növləri vardır:

Üç partiyalı, dörd partiyalı və polipartiyalı, yəni beş və daha artıq partiyanın mövcud olduğu sistem.

M.Dyuverje partiya sistemlərini tədqiq edərkən "üç sosial qanunu" işləyib hazırlamışdır:



1. Proporsional seçki sistemi bir-birindən asılı olmayan, sərt daxili struktura malik çoxlu partiyalarla səciyyələnən çoxpartiyalı sistemin yaranmasına gətirib çıxarır;

2. İki turda keçirilən majoritar səsvermə sistemi qarşılıqlı əlaqələrə və kompromislərə can atan, öz mövqeyini çevikliklə dəyişə bilən bir neçə partiyanın mövcud olduğu sistemin meydana gəlməsinə şərait yaradır;

3. Bir turda keçirilən majoritar səsvermə sistemi iki partiyanın rəqabətdə olduğu partiya sisteminin formalaşmasını şərtləndirir.

Amerika politoloqu C.La Palombaranın fikrincə, "partiya sistemi yalnız iki və ya daha çox partiyanın azad seçkilərdə bir-biri ilə mübarizə apardığı zaman meydana çıxır".Buradan da partiya sistemini səciyyələndirən iki element ayrılır:

1. Müəyyən sayda partiyaların olması;

2. Onların seçkilərdə bir-biri ilə rəqabəti.

La Palombaranın təklif etdiyi bu baxışda bəzi məsələlər kölgədə qalır. Belə ki, məsələn; burada seçkilərin son nəticələri, yəni iqtidar-müxalifət münasibətləri qaranlıq qalır, həm də müəllif yalnız iki və ya daha çox partiyanın olduğu halda sistemdən söhbət açır. Müəllif qeyd edir ki, yalnız bir partiyanın fəaliyyət göstərdiyi ölkələrdə partiya sistemindən söhbət gedə bilməz. Onun bu cür yanaşması sözsüz ki, mübahisə etmək olar. Bu məqsədlə biz digər müəlliflərin yanaşmalarına müraciət etsək görərik ki, onların əksəriyyəti bir partiyalı sistemi müstəqil tip kimi qəbul edirlər və partiya sistemini müəyyənləşdirən tamam başqa bir meyarı əsas kimi götürürlər (məs: R.Şvarsenberq). Belə ki, onların fikricə, partiya sistemi haqqında yalnız o zaman danışmaq olar ki, onu təşkil edən elementlər (partiyalar, koalisiyalar) öz aralarındakı münasibəti fundamental və möhkəm əsaslar üzərində qurmuş olsun. Partiyaların və koalisiyaların sayını məhz bu baxımdan bilmək ona görə zə-

ruridir ki, onlara məxsus gücün və nüfuzun daimiliyi və ya nisbi inkişafı nəzərdən yayınmasın. Ən nəhayət, partiya və koalisiyalar bir-birilərindən o dərəcədə asılı olmalıdır ki, onların birinin vəziyyəti digərinkini şərtləndirmiş olsun. Bunu nəzərdə tutan alman politoloqu X.Kaak partiya sistemini parlamentdə təmsil olunmuş və ya ən azı buna can atan siyasi qüvvələrin məcmusu kimi başa düşür. Onun fikrincə, partiyaların sayı, onun azlığı və ya çoxluğu siyasi sistemə daha çox təsir edə bilən partiyalar arasında münasibətlərin məhdudlaşdırılmasına gətirib çıxarır.

Müəllifin bu cür yanaşmasına bəzi tənqidi qeydlər etmək də mümkündür. Belə ki, partiya sisteminə siyasi qüvvələrin məcmusu kimi baxmaq onun əsasız şişirdilməsinə səbəb olur. Qərb siyasi elmində siyasi qüvvələr anlayışına təkcə partiyaları deyil, həmçinin müxtəlif ictimai-iqtisadi münasibətləri şərtləndirən təsisatları, o cümlədən ordunu, dini təşkilatları və s. aid edirlər. Bundan başqa bizə məlumdur ki, siyasi həyatda iştirak etmək və ilk növbədə deputatlığa namizəd irəli sürmək hüququ qanunvericiliklə bu qüvvələrdən yalnız birinə - partiyalara məxsusdur. Parlamentdə yalnız bu və ya digər partiyaya məxsus olan deputatlar öz partiya fraksiyalarını yaratmaq hüququna malikdir. X.Kaakın təklif etdiyi interpretasiyada isə daha bir məsələ mübahisəli qalır. Bu ondan ibarətdir ki, o yalnız siyasi sistemə güclü təsir edə bilən partiyaları partiya sisteminin tərkibinə daxil edərək, yerdə qalan nisbətən zəif partiyaları sistemdən kənarlaşdırır. Bu isə partiya sistemi barədə tam təsəvvür yaranmasına imkan ver-mir. Bu nöqsanı qismən düzəltmək üçün başqa bir alman politoloqu, Klaus fon Boyme partiya sistemlərinin daha geniş tipologiyasını vermişdir. Burada o, "çox" və ya "az" nüfuzlu partiyalar bölgüsündə yeni "iki yarım partiya sistemi" anlayışını əlavə etmişdir. Bu tip partiya sisteminin mahiyyətini açıqlamaq üçün başqa bir tədqiqatçı, Fransız politoloqu J.Şarloya müraciət etməliyik. O, belə hesab edirdi ki, iki yarım partiya sistemi dedikdə, elə bir sistem başa



düşülməlidir ki, burada üçüncü bir partiya nisbətən böyük nüfuza malik olur və bu nüfuz ənənəvi iki partiya arasındakı "oyun"u pozmağa qabildir. Lakin nə üçün iki partiya "tam güclü", üçüncü isə "yarım" hesab edilir sualına belə cavab vermək olar ki, görünür bu partiyaların parlamentdə yaratdığı fraksiyalara görə müəyyənləşdirilir. Belə ki, burada iki partiya daha böyük, üçüncü isə nisbətən kiçik fraksiya təşkil edir.

Ümumiyyətlə, siyasi fikrin təhlili müəyyən etmişdir ki, çoxpartiyalı sistemin müxtəlif alimlər tərəfindən tədqiqində nəzərə çarpan ən əsas cəhət ondan ibarət olur ki, bu sistemin tipologiyasını verməkdə onlar müəyyən çətinliklərlə qarşılaşırlar. Bu tip çətinliklərə misal olaraq, partiyaların sayını göstərmək olar. Belə ki, əgər partiyaların sayı ikidən sonsuza qədər ola biləcəyi təqdirdə bu sistemin müxtəlif modellərini qruplaşdırmaq çox çətin olur. Bu isə öz növbəsində bitərəfliyə və yanlış mövqeyə gətirib çıxaran səbəblərdən birisidir.

Çoxpartiyalı sistemi təhlil edən alimlərdən birisi də Fransız politoloqu F.Borel olmuşdur. O, çoxpartiyalı sistemi plüralist sistem adlandırmışdı. Bu sistemdə ya koalisiyalara imkan verməyən bir partiya hegemonluq edir (Fransa, İtaliya), ya da dominant partiya ümumiyyətlə olmur (Danimarka, Belçika, Niderland).Sonuncu partiya sisteminin mövcud olduğu ölkələr daha dərin sistemə malikdirlər çünki, bu zaman maksimal sayda alternativlərin "siyasi oyunu" mümkün olur. Çoxpartiyalı sistemə malik olan ölkələrdə antisistem partiyaları siyasi sistemin fəaliyyətinə güclü təsir göstərir. Bu əsasən o zaman baş verir ki, həmin partiya cəmiyyətdə daha güclü dayaqlara malik olur. Buna misal olaraq, İtaliyanı göstərmək olar. Burada iyirmi ilə yaxın bir müddət ərzində Xristian Demokrat Partiyası həmişə hakimiyyətdə, İtaliya Kommunist Partiyası isə həmişə müxalifətdə olmuşdur. İtalyan politoloqları öz sistemlərini ifrat dərəcədə qütbləşmiş partiya sistemi kimi səciyyələndirmişlər.

# FƏSİL IX

# DEMOKRATİYA

## *§ 1. Demokratiya anlayışı*

"Demokratiya" yunan sözü olub (demos-xalq, kratos-hakimiyyət) xalqın hakimiyyəti deməkdir. İlk dəfə bu anlayış Qədim Yunanıstanda meydana gəlmiş və sonralar digər xalqların dillərinə daxil olmuşdur; demokratiya sözünü ilk dəfə Fukudidi işlətmişdir. Lakin Periklin adı ilə bağlı tarixdə qalan ilk demokratiya qədim Afina dövlətində meydana gəlmişdir. Deməli, demokratiya quldarlıq quruluşunda bizim eradan əvvəl IV əsrdə Qədim Yunanıstanda yaranmış və inkişaf etmişdir. Quldarlıq dövründə demokratiya diktaturaya, tiraniyaya qarşı mübarizə şəraitində inkişaf edirdi. Afinada, Spartada meydana gəlmiş demokratik dövlət quruluşunu buna misal göstərmək olar. Demokratiya quldarlıq quruluşunda təşəkkül tapsa da, heç də qullar üçün nəzərdə tutulmamışdır. Demokratiyanın gətirdiyi bəhrələr elə quldarların özlərinə çatırdı. Orta təbəqə olan politiyaya demokratiyadan bir balaca pay düşürdü. Maraqlı burasıdır ki, demokratiyanı əldə bayraq edən demokratlar (Yunanıstanda Perikl, Lisandr, Romada Oktavian Avqust, Sezar və başqaları) sonradan diktatorlara çevrildilər.

Demokratiya tarixi hadisədir, cəmiyyətin inkişafı və tarixi mərhələlərin bir-birini əvəz etməsi ilə dəyişir. Sinifli cəmiyyətdə demokratiya dövlət forması kimi hakim sinfin iradəsinin təzahürüdür.

Deməli, cəmiyyətin təşkilinin demokratik formalarının meydana gəlməsi tarixin dərin qatlarına gedib çıxır. Demokratiyanın ilkin ünsürləri bəşəriyyətin yaranması ilə yanaşı meydana gəlmişdir. İbtidai icma cəmiyyətində insan üçün azadlıq və hüquq bərabərliyi əsas me'yar idi. Cəmiyyətin icma-qəbilə təşkili xalq hakimiyyətinin həm birbaşa formasından (yə'ni icmanın bütün üzvlərinin ümumi iclası), həm də nümayəndəli formasından (ağsaqqallar və başçıların iclası) istifadə edirdi. Məhz bunu demokratiyanın ilkin cücərtiləri hesab etmək olar. Deməli, demokratiya quldarlıq quruluşunda, sinifli cəmiyyətdə yaranmış olsa da, onun sistemləri hələ ibtidai icma quruluşu dövründə təşəkkül tapmışdı. Müasir etnoqrafik tədqiqatlarda demokratiyanın insanların bərabər şəkildə təmasının, onların özünü dərk etməsinin və təfəkkürünün, şəxsi ləyaqətinin inkişafına stimul yaradaraq, insan nəslinin formalaşmasında mühüm rol oynadığını təsdiqləyən tutarlı materiallar mövcuddur. Bununla bərabər demokratiyanın bir sosial hadisə kimi tarixi inkişafın müəyyən pilləsində meydana gəldiyini iddia edən və inandırıcı faktlara əsaslanan nəzəriyyələr vardır. Demokratiyanın başlanğıc pilləsinin müəyyənləşdirilməsinə münasibət onun mahiyyətinə, mə'na tutumuna yanaşmadan asılı olaraq öz həllini tapa bilər. Demokratiya dövlət forması kimi qəbul edilərsə, onda demokratiyanın dövlətlərin meydana gəlməsindən sonra ortaya çıxması haqqında iddianın sübutuna ehtiyac qalmır. Demokratiya təkcə dövlət forması kimi deyil, həm də bütövlükdə cəmiyyətin sosial təşkili forması kimi başa düşüldükdə, onda onun başlanğıcının yuxarıda qeyd edildiyi kimi sinifli cəmiyyətdən qabaq mövcud olduğunu göstərmək olar.

Sosial hadisə kimi demokratiya Qədim Yunanıstanda polis həyatı kimi başa düşülürdü. Orada bizim müasir anlamda başa düşdüyümüz dövlət mövcud deyildi. Dövlət (polis) insandan özgələşmişdi. İnsan yalnız polisdə mə'na kəsb edirdi. Dövlətə aid olan qərarların hamısı meydanlarda qəbul edilirdi. Bu mə'nada qədim siyasi sistemdə qeyri-dövlət idarə forması mövcud idi. Orada təşəkkül tapan demokratiya mühüm qərarların qəbul edilməsində vətəndaşların iştirakını nəzərdə tutur və onunla başa çatırdı. Təsadüfi deyildir ki, həmin demokratiya aqora, yə'ni vətəndaşlar respublikası adlanırdı.

Vətəndaş olmayanların (qulların) siyasi həyatda iştirak etmək hüququ yox idi.

Qədim yunan mütəfəkkirləri həmin siyasi praktikadan çıxış edərək, "demokratiya" məfhumunu dövlət formaları haqqında tə'limə müncər edirdilər. Onların fikrinə görə, demokratiya cəmiyyətin müəyyən siması deyil, dövlət hakimiyyətinin xüsusi təşkili forması idi.

Bizim eradan əvvəl beşinci əsrdə yaşamış qədim yunan tarixçisi Herodot ilk dəfə olaraq demokratiyanın bərabərliyə əsaslanan dövlət kimi başlıca əlamətlərini aşağıdakı kimi göstərmişdir.

***1. Vəzifələrin püşk atmaq yolu ilə tutulması.***

***2. Mə'murların öz işləri, o cümlədən maliyyə vəzifələri haqqında hesabat verməsi.***

***3. Müzakirəsi tələb olunan işlərin xalq məclisində olması.***

Qədim yunan mütəfəkkirlərinin heç də hamısı demokratiya tərəfdarı olmamış və ya demokratiyanı düzgün izah edə bilməmişdir. Platon oxlokratiyanı demokratiyanın yeganə düzgün forması hesab etmişdir. Onun fikrincə, demokratiya qara camaatın hakimiyyətidir, qara camaat isə heç bir qanunla razılaşmır və yaxud onu başa düşmür, kortəbii qərarlar qəbul edir, bütün hallarda özbaşınalıq edir. Platon qeyd edirdi ki, demokratiya elə bir quruluşdur ki, onun çərçivəsində istədiyin hər şeyi etmək olar. Ona görə də o, demokratiyanın əleyhinə olmuşdur. Digər yunan filosofu Aristotel də demokratiyanın əlehinə çıxır və onu dövlət həyatının təhrif olunmuş forması hesab edirdi. Aristotel demokratiyanı özündə birləşdirən "politiya" anlayışını irəli sürmüşdür.

Qədim demokratiyanın digər formaları öz ifadəsini qədim Roma dövlətində tapmışdır. Roma demokratiyasının meydana gəlməsi demosların aristokratiya ilə mübarizəsinin kəskinləşməsi kimi qiymətləndirilir. Bu mübarizə sayəsində b.e.ə. 470-ci ildə qanunvericilik səlahiyyətinə qadir olan plebey yığıncaqları təşkil edilirdi. Aristokratiyanın nəzarəti altında olan xalq yığıncaqları tam demokratikləşdirildi. Siyasi həyatda tribunaların rolu getdikcə möhkəmlənirdi, onlar toxunulmaz şəxsiyyət hesab olunurdu. Onlar konsulların sərəncamlarını, Senatın qərarlarını dayandıran veto hüququna malik idilər. Bu tribunaya Xalq tribunası adı verilmişdi. Konsul hakimiyyəti sanki çarı, senat aristokratiyanı, xalq tribunası isə xalq hakimiyyətini təcəssüm etdirirdi.



Qədim Romada qüvvədə olan ostrakizm prinsipi isə ayrı-ayrı görkəmli adamların ətrafında partiyaların yaranmasının qarşısını alırdı. Sonralar isə senzuralar tə'sisatı adlanan xüsusi orqan yeni qəbul olunmuş qanunların əvvəllər qəbul olunmuş və polisin fəaliyyət prinsiplərini müəyyən edən qanunlara və qaydalara uyğun gəlib-gəlmədiyini yoxlayırdı. Xalqın hakimiyyətdə iştirakına şərait yaradılması nöqteyi nəzərindən Roma demokratiyası Afina demokratiyası səviyyəsinə yüksələ bilməsə də, o, əhalinin müxtəlif təbəqələrinin mənafeyini dövlət hakimiyyətində təmsil edən institutların tə'sis edilməsi nöqteyi nəzərindən özünəməxsusluğu ilə fərqlənir.

Feodalizm cəmiyyətində demokratiyanı feodal əsarətindən azad olan və seçilən hakimiyyət orqanları (posadnik, mer və başqaları) tərəfindən idarə olunan, özünü idarə edən şəhər icmaları təmsil edirdi. O dövrdəki şəhər dövlətlərində idarəetmə yuxarı təbəqəyə aid idi. Bu cür demokratiya azlıq təşkil edirdi. Bununla belə bə'zi şəhər dövlətlərində demokratik üsulidarələr mövcud olmuşdur.

Orta əsrlərdə demokratiyadan danışarkən qeyd etmək lazımdır ki, İslam dünyasında da demokratik üsul-idarə mövcud olmuşdur. Bu üsul-idarə VII əsrdə qeyri-adi iste'dada, zə'ka və qabiliyyətə malik olan Məhəmməd peyğəmbər (570-1632) tərəfindən ilk dəfə həyata keçirildi. Belə ki, o, Ərəbistanda bir-biri ilə ədavət saxlayan icmaların məslək birliyi ilə təşkilini alovlandırdı. Tanınmış görkəmli siyasi və dövlət xadimi C. Nehru bu haqda belə demişdir: "İslam özü ilə insanlara qarda-

şlıq ideyası və bütün müsəlman olanların hamısının bərabərliyi ideyasını da gətirmişdir. Demək olar ki, xalqa müəyyən dərəcədə demokratiya verilmişdir".

Məhəmməd peyğəmbərdən sonra seçilən əsas dörd xəlifə demokratiyanı qorumağa çalışmışdır; onlar birbaşa demokratik yolla seçilmiş şəxslər, ərəblərin və islamın ucalıq təməlini qoymuş görkəmli siyasi rəhbərlər idi. Onlar yüksək mövqe tut-malarına və xilafətin qüdrətinin artmasına baxmayaraq, sadə həyat tərzi keçirir, cah-cəlalı və dəbdəbəni bəyənmirdilər. İs-lamda demokratiya müvafiq illərdə hakimiyyətdə olan xəlifələr Əbubəkr (632-634), Ömər (634-644), Osman (644-659) və Əli (659-663) üçün böyük əhəmiyyət kəsb etmişdir.

Orta əsrlərdə Azərbaycanda da demokratiya yaranıb inkişaf etmişdi. Məzdəkizm hərəkatı və Xürrəmilik hərəkatı buna parlaq misaldır.

Babək başda olmaqla Xürrəmilər bərabərhüquqlu dövlət yaratmaq ideyasını irəli sürmüş və belə azadlıq dünyası uğrunda mübarizə aparmışlar. Onlar qismən də olsa, bu demokratik prinsipləri qərarlaşdıra bilmişlər.

Orta əsrlərdə avtoritar monarxiya rejimlərinin qərar tutması ilə xalq hakimiyyəti ideyası siyasi həyatdan kənarlaşdırıldı. "Demokratiya" ifadəsi isə leksikondan çıxarıldı. Lakin monarx hakimiyyətinin sıxışdırılması, onun xalqın mənafelərinə xidmət göstərməyə məcbur edilməsi ideyasını və cəhdlərini orta əsrlə-rin siyasi tarixini xarakterizə edən əsas amillərdən biri hesab etmək olar. Elə bu cəhət yeni dövrdə demokratiyanın yeni formalarının bərqərar olmasında özünəməxsus rol oynamışdır.

Orta əsrlərdə, XI-XII əsrlərdə demokratiya haqqında təsəvvürlər və dövlət idarəçiliyi taktikası əsas e'tibarilə liberalizmin təsiri altında formalaşdı. Dövlətin mülki cəmiyyətlə və və-təndaşla qarşılıqlı münasibətlərində, azlığın hüquqlarının



müda-fiə edilməsində, bütün insanların siyasi cəhətdən bərabərliyinin bəyan edilməsində liberalizm prinsipləri əsas rol oynayırdı.

Liberalizm prinsipləri ilk dfə İngiltərə siyasi sistemində öz əksini tapmışdır. Monarx hakimiyyətinin məhdudlaşdırılmasına yönəldilmiş liberallaşdırma 1215-ci ildə Azadlığın Böyük Xartiyasının qəbulu ilə nəticələndi. Bununla da liberal demokratiyanın reallaşması praktiki olaraq həyata keçirildi.

Liberal demokratiyanın əsas cəhətləri aşağıdakılardır:

***1. Hakimiyyətin subyekti kimi xalqın mülkiyyət sahibləri ilə eyniləşdirilməsi.***

***2. Şəxsiyyətin muxtariyyətinə üstünlük verilməsi.***

***3. Dövlətin səlahiyyətlərinin və ictimai asayişin qorunması.***

***4. Hakimiyyətin demokratikləşdirilməsi və tarazlaşdırılması mexanizminin yaradılması.***

Yeni dövrün antik demokratiya ideyaları üzərində köklənmiş demokratiya nəzəriyyəsi, xalqın bütövlüyü, tamlıq prinsipi Ş.L.Monteskye və C.Lok tərəfindən işlənib hazırlanmışdır. Onlar tamlıq prinsipindən çıxış edərək, əzəldən xalqda ümumi iradənin formalaşdığını və həmin ümumi iradə ilə hakimiyyət nümayəndələrinin fəaliyyətinin eyniliyini əsaslandırdılar.

J.J.Russo ilk dəfə demokratiya tə'limində suverenlik prinsipinə xüsusi yer ayırmış və onu demokratiyanın əsas müddəası hesab etmişdir. O, qeyd edirdi ki, xalqın ümumi iradəsi mövcuddur və bu iradə toplantılarda ifadə olunur. Russonun ideyaları 1791-ci il Fransa Konstitutiyasında öz əksini tapmışdır.

Russo tərəfindən yeni dövrün formulə edilmiş klassik de-mokratiya nəzəriyyəsi İ.Şumpetr tərəfindən tənqidə mə'ruz qalmışdır; onun fikrincə, formalaşdırılmış ümumi iradə əslində xalqın ümumi iradəsini ifadə etməyə də bilər.

Ona görə ki, ümumi iradənin formalaşmasında xalq deyil, liderlər əsas rol oynadığı üçün ümumi iradə siyasi prosesin hərəkətverici qüvvəsi deyil, məhsuludur. İ.Şumpetrin fikrincə, demokratiya xalqın idarəçiliyi ola bilməz, xalq yalnız hökuməti seçə bilər. O, sonra qeyd edir ki, demokratiya fərdlərin xalqın səsi uğrunda rəqabət mübarizəsi nəticəsində hakimiyyətə can atmasına imkan yaradan tə'sisatlanmış bir sistemdir.

İ.Şumpetr demokratiyanın normal fəaliyyəti üçün aşağıdakıları göstərmişdir:

***Dövlət vəzifələrinə seçilmək üçün xalqın layiqli nümayəndələri olmalıdır.***

***Xalqın başa düşə biləcəyi qərarlar qəbul edilməlidir.***

***İdarəçilik işi yüksək məsuliyyətli bürokratiyaya həvalə edilməlidir.***

Siyasi mədəniyyəti yüksək olan özünənəzarət mexanizmi olmalıdır. Yeni dövrdə elə hesab edirdilər ki, ictimai cəhətdən mühüm qərarların qəbul olunması demokratiya deməkdir. Hər hansı bir dövlətdə əgər bu haqda müvafiq qanun yox idisə, o, demokratik ola bilməzdi. Məhz buna görə də J.J.Russo qeyd edirdi ki, ingilis xalqı yalnız parlament seçkisi günü azad olur, sonra xalq yenə kölə kimi yaşayır. Müasir demokratiya nəzə-riyyəsinin işlənib hazırlanmasında fransız politoloqu, dövlət xadimi ***A.Tokvilin (1805-1859)*** böyük xidməti olmuşdur. Tokvil qeyd edirdi ki, demokratiya öz inkişafında bir neçə mərhələdən keçir. ***Birincisi,*** mütləq monarxiyanın yaranmasıdır. Müəyyən bir mərhələdə bütün monarxiyalar mütləq olur. Bütün bunlar, görünür, bir ümumi səbəbdən irəli gəlir. Ümumi səbəb cəmiy-yətin bir vəziyyətdən başqasına, feodal bərabərsizliyindən demokratik bərabərliyə keçməsidir. Bu mərhələ bir əsr davam etmişdir. ***İkinci mərhələ*** inqilablar dövrü ilə başlanır. İnqilablar mütləqiyyəti süpürüb atır. Lakin onun irsini, mərkəzləşdirilmiş dövlət hakimiyyəti-



ni saxlayır. Bundan sonra keçmiş rejimin devrilməsi və feodal imtiyazlarının tamamilə ləğv edilməsi, bərabərlik ideologiyasının təntənəsi, ayrı-ayrı şəxsiyyətlərdən öz məqsədlərinə xidmət etmək üçün istifadə edən, sadəcə alətə çevirən dövlət hakimiyyətinin görünməmiş dərəcədə güclənməsi başlanır. Bu nəhəng sosial hakimiyyət şəksizdir. O, demokratik despotizm adlandırılan tiraniyanın xüsusi bir formasıdır.

Tokvil demokratiyanı cəmiyyətin idarə edilməsində bir forma kimi deyil, bir proses kimi başa düşürdü. Onun fikrincə, hər bir kəsin qanuna tabe olması demokratiyanın həyata keçməsidir.

Tokvilin ideyalarının bir çoxu öz dövrünü xeyli qabaqlamış və müasir burjua cəmiyyətində özünü doğrultmuşdur. Onun mülahizələri demokratiya nəzəriyyəsinin inkişaf etdirilməsində rol oynamışdır.

R.Tauna, E.Viqfors XX əsrin əvvəllərində yazırdılar ki, sosial-iqtisadi bərabərsizliyin bazar iqtisadiyyatı sistemi demokratiya üçün bir bəladır, təhlükədir. Lakin sonralar bu fik-rin doğru olmadığı sübut olundu.

Müasir dövrdə bir çox Qərb politoloqları belə hesab edirlər ki, bazar iqtisadiyyatı demokratik quruluş yaratmaq üçün əsas şərtdir. Bununla belə, demokratiya ilə bazar iqtisadiyyatı arasındakı birbaşa əlaqə bə'zi politoloqları razı salmır. Onlar qeyd edirlər ki, Afinada bazar iqtisadiyyatı yox idi, ancaq Afina dövləti demokratik idi. Əksinə, Almaniyada bazar iqtisadiyyatı var idi, lakin Almaniyada faşizm yarandı. Amerikalı politoloq S.Hattinqton yazır ki, əgər iqtisadiyyatın modernləşməsi yeni siyasi təşkilatların yaradılması ilə müşayət olunmursa, onda iqtisadi tərəqqi dağıdıcı qüvvə kimi çıxış edir. Nəticədə üsyan və yaxud inqilab baş verir və diktatura yaranır. Digər Amerikalı alim Q.Almond özünün 1963-cü ildə yazdığı "Vətəndaş mədəniyyəti" adlı əsərində göstərirdi ki, demokratiya hər şeydən əvvəl yüksək siyasi mədəniyyətə

möhtacdır. İqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, siyasi mədəniyyət demokratiyanın yaradılmasında əsas şərtdir. Görkəmli Amerika alimi B.Mor isə yazır ki, nə iqtisadi inkişaf demokratiyada aparıcı rol oynayır, nə də mədəniyyət demokratiya üçün əsas şərtdir. Morun fikrincə, cəmiyyətin tarixi inkişaf prosesində siniflərarası qarşılıqlı münasibətlər demokratiyanın yaranması üçün mühüm amildir.

Müasir emprik siyasi elmin elitasına daxil olan tanınmış amerikalı politoloq R.İnqlehart qeyd edirdi ki, sabit demokra-tiyada iqtisadi, siyasi və mədəni amillərin qarşılıqlı tə'siri öz əksini tapmışdır. İqtisadi inkişaf yalnız o zaman demokratik tə'sisatların həyat qabiliyyəti üçün dayağa çevrilir ki, o, sosial strukturda və siyasi mədəniyyətdə demokratiya üçün lazım olan dəyişiklikliyə gətirib çıxarır. İqtisadi inkişaf səviyyəsi ilə sıx qarşılıqlı əlaqədə olan siyasi mədəniyyət demokratiyanın sabitliyi ilə sıx bağlıdır. Demokratiyanın sabitliyi xeyli dərəcədə iqtisadiyyatın səviyyəsi ilə bağlıdır.

İnqlehartın söylədiyi fikirlər bir daha sübut edir ki, demokratiyanın təşəkkülü prosesinin tarixinə istinad edərək, demokratiyanın ancaq kapitalizmlə əlaqədar olduğunu söyləmək düzgün olmaz.

Görkəmli holland politoloqu Liipyart parlament demokra-tiyası rejimlərinin tədqiqatçısı kimi tanınır. O, mövcud demokratik rejimləri iki yerə bölür və belə hesab edir ki, onlar 1) hökumət hakimiyyətinin çoxpartiyalılıq səviyyəsinə görə və 2) dövlət hakimiyyətinin mərkəzləşmə səviyyəsinə görə fərqlənir. O, qeyd edir ki, demokratik rejimlərin hər biri majoritar (bir-birini hakimiyyətdə əvəz edən iki partiya), yaxud konsensus (proporsional-nümayəndəlik) kimi səciyyələndirilə bilər. Eyni zamanda demokratik rejimlərin hakimiyyətin mərkəzləşməsi səviyyəsinə görə qiymətləndirilməsi unitar və federal rejimləri fərqləndirməyə imkan verir. Plyüralizm səviyyəsi nə qədər yüksək olursa, rejim də konsensus formasına



bir o qədər uğurla uyğunlaşır.

Amerikanın tanınmış ictimai xadimi və ABŞ-ın dördüncü prezidenti Ç.Medison plyüralist demokratiya konsepsiyasının tərəfdarı idi. O göstərirdi ki, müvafiq sistemdə demokratiyanın səviyyəsi siyasi prosesdə iştirak edən qrupların miqdarından asılıdır. Medison qeyd edirdi ki, siyasi həyatda öz mənafeləri olan qruplar nə qədər çox olarsa, onlardan hər hansı birinin üstün olması şansı bir o qədər az, onların müdafiəsi üçün tə'minatlar isə bir o qədər güclü olar. O, siyasi prosesi ayrı-ayrı fərdlərin deyil, qrupların siyasi mənafelərinin qarşılıqlı tə'siri kimi başa düşürdü. Plyüralizm tərəfdarları sübut etməyə çalışırdılar ki, xalq idarəsi adlanan bir şey abstraksiyadan başqa bir şey deyildir. Onlar belə düşünürdülər ki, dövləti xalq idarə edə bilməz. Siyasi səhnəyə bir fərd çıxır, o, hökumət vəzifələrini tutmaq üçün mübarizə aparır, xalq isə bu və ya digər bir namizədə səs verir, sonra isə fərdlər birləşib dövləti idarə edirlər.

Demokratik dövlətin mahiyyəti mülki cəmiyyətə xidmət edən dövlətin olmasındadır. Demokratik dövlət hər şeydən əvvəl fərdi, qrup, milli, sinfi, mədəni və s. ziddiyyətləri tənzim etmək, sosial mənafeləri əlaqələndirmək üçün bir vasitədir. Bu vasitə də iki yolu nəzərdə tutur:

Birinci yol müəyyən mənafelər, münaqişə və konsensus qrupunun geri çəkilməsi, bə'zən də güzəştə getməyə məcbur edilməsidir. Siyasi inteqrasiyanın bu yolu zor tətbiq etməyə tə-ləbat yaradır. Lakin zor tətbiq etməklə məsələ həll olunmur. Onda ikinci yola ehtiyac yaranır; konsensus cəmiyyətdə arzu edilməz münaqişələri aradan qaldırmaq vasitəsi kimi müxtəlif mənafelərin və onların daşıyıcılarının olmasını təbii bir hal kimi qəbul edir və onları düzgün əlaqələndirməyə çalışır. Konsensus siyasi fəaliyyətin bütün iştirakçılarını razı salan ümumi prinsiplərə, dəyərlərə əsaslanır və siyasi münaqişələrin həllində ümumi razılığın mümkünlüyünü

tə'min edir.

ABŞ-ın Kolumb universitetinin professoru C.Sartori de-mokratiya nəzəriyyəsinə münasibətdə cəmiyyətdə mümkün olan yekdilliyin üç səviyyəsini göstərir:

*1. Cəmiyyət səviyyəsində konsensus.*

*2. Rejim səviyyəsində konsensus.*

*3. Siyasət səviyyəsində konsensus.*

Politologiyada müxtəlif alimlər demokratik sistemi müəyyən edən şərtləri aydınlaşdırmağa çalışmışlar. Belə alimlərdən biri amerikalı R.Dalın fikri maraqlıdır. R.Dalın fikrincə, bu və ya başqa bir sistemi demokratik edən iki əsas amil vardır. Birinci amil sistemin aşkarlığı (açıq olması), ikincisi orada bəhsləşmənin olmasıdır. O, belə hesab edirdi ki, sistemin aşkarlığı cəmiyyətdə hadisələrin müzakirə edilməsi səviyyəsini, bəhsləşmə isə orada müxalifətin nə qədər güclü olmasını göstərir.

Partisepasiya (iştirak deməkdir) nəzəriyyəsinin tərəfdarları demokratiyanın tə'min edilməsi üçün çıxış yolunu ictimai həyatın bütün sahələrinin "total siyasiləşməsi" ideyasında görürlər. Onlar qeyd edirlər ki, demokratiya siyasi prosesdə iştirak edənlərin sayından asılıdır. Ona görə də bu nəzəriyyəyə partisepasiya demokratik nəzəriyyəsi və yaxud iştirak nəzəriyyəsi də deyilir.

Eyniyyət nəzəriyyəsinin tərəfdarlarının fikrincə, təmsilçilik. səlahiyyətlər, aralıq hakimiyyət strukturlarının yaradılması həqiqi demokratiyaya zidd olan amildir. Xalq iradəsi ilə aralıq (hakimiyyət) eyni, uyğun olmalıdır. Burada tam uyğunluq yaratmaq, əlbəttə mümkün deyildir. Ona görə də vəzifə dövlət hakimiyyətini xalqın iradəsinə maksimum yaxınlaşdırmaqdan ibarətdir.

Demokratik rejimi qurmaq üçün partiya sistemi fəaliyyət göstərməlidir. Tarixi təcrübə göstərir ki, yaxşı təşkil olunmuş. cəmiyyətdə real zəminə əsaslanan partiyaların fəaliyyəti, de-



mokratik qanunlarla tənzimlənən siyasi proses təkcə siyasətçilərin deyil, bütün cəmiyyətin, insanların öz fəaliyyətidir. Demokratiya üçün əsas şərt odur ki, insanlar seçməyi öyrənsinlər, bacarsınlar.

Bütün yuxarıda deyilənləri yekunlaşdırsaq, demokratiyanın tarixi tipləri və formalarını aşağıdakı kimi göstərmək olar.

***Demokratiyanın tarixi tipləri:***

İbtidai icma demokratiyası.

İbtidai icma quruluşundan quldarlıq quruluşuna keçid dövründə yaranmış "hərbi" demokratiya.

"Hərbi" demokratiya ilə ibtidai icma demokratiyasını özündə birləşdirən Şərq demokratiyası.

Antik demokratiya. Qədim yunan və Roma mərhələsi.

Burjua demokratiyası.

Burjua liberal demokratiyası.

Proletar demokratiyası və yaxud proletar diktaturası de-mokratiyası.

Xalq milli və ya inqilabi demokratiyası.

***Demokratiyanın tarixi idarə etmə formaları.***

Qəbilə və icma özününidarə (Tayfa özünü idarə) forması.

Hərbi icma, tayfaların veçesi və tayfa konfederasiya forması.

Xalq yığıncağı olan şəhər özünü idarə forması.

Qədim yunan və Roma demokratik forması (Yunan polisi, erkən xristian icmaları).

Qərbi Avropanın şəhər kommunaları: şəhər və kənd özünüidarəsi. Zadəgan nümayəndəliyi demokratiyası.

Parlamentli respublikası forması.

Prezident respublikası, konstitusiyalı monarxiya forması.

Paris Komunası, Sovetlər forması.

Xalq demokratik və milli demokratik formalar.

## § 2. Demokratik prinsiplər

Demokratiyanın ən əsas prinsipi qanunun aliliyinin rəhbər tutulması və plüralizm yolu ilə dövlətin idarə edilməsidir. Bunlar aşağıdakıları nəzərdə tutur:

***Hakimiyyətin bölüşdürülməsi prinsipi.***

***Çoxpartiyalılıq sisteminə şərait yaratmaq prinsipi.***

***Mərkəzçilikdən qaçmaq prinsipi.***

***Söz və mətbuat azadlığı prinsipi.***

Bu prinsiplər dövlətin idarə edilməsində əsas plüralist demokratik prinsiplərdir. Antik demokratiya siyasi prosesdə xalqın roluna üstünlük vermiş, klassik demokratiya fərdin rolunu əsas götürmüş, plüralist demokratiya isə hərəkətverici qüvvəyə uyğun olaraq, çoxluğa istinad edir.

Demokratiyanın əsas prinsiplərindən biri çoxluğun idarə etməsi prinsipidir. Burada xalq suverenliyi əsas ideyadır. Bu prinsipi rəhbər tutan demokratiyada iki əsas dövlət forması mövcuddur:

***Milli demokratiya.***

***Sosial demokratiya.***

Müasir şəraitdə demokratiyanın 1) separativ demokratiya və 2) elitar demokratiya nəzəriyyəsi siyasi praktikada həyata keçirilməkdədir.

Separativ demokratiya nəzəriyyəsinə görə, real demokratiya xalq təmsilçiliyi hakimiyyətinin yaradılması ilə mümkündür. Bu prinsipdə demokratik prosesin iştirakçılarının dairəsi məhdudlaşdırılır.

Elitar demokratiya xalqın razılığı ilə elitanın idarə etməsini nəzərdə tutur. Bu prinsipdə xalqın rolu elitanın formalaşmasında, onun demokratik mexanizminin yaradılmasında və tərkibinin müntəzəm yeniləşdirilməsində özünü göstərir.

Demokratiyanın ən başlıca prinsiplərindən biri hakimiyyətin funksiyalarının bölüşdürülməsi prinsipidir. Bu prinsipə əsasən hakimiyyətdə qanunverici, icraedici və məh-



kəmə sis-temi müstəqil fəaliyyət göstərir.

Demokratiya idarə üsulu üçün harmoniyalılıq əsas şərtdir. Demokratik dövlət yaratmaq üçün çoxpartiyalılıq sistemindən istifadə olunmalıdır. Çoxpartiyalılıq prinsipi heç də tam demokratik dövlət demək deyildir. Olduqca vacibdir ki, ölkədə azad seçkilər keçirilsin. Mühüm demokratik prinsiplərdən biri də cəmiyyətin siyasi həyatında vətəndaşların azadlıqları və məs'uliyyətlərinin qarşılıqlı vəhdətidir; şəxsiyyətin azad, şüurlu və könüllü surətdə obyektiv zərurəti qəbul etməyə hazır olması və bu istiqamətdə hərəkət etməsidir. Azad fəaliyyət yalnız zərurətin dərk edilməsində həyata keçir. Obyektiv olanla subyektiv meylin vəhdəti, şəxsiyyətin azadlığı, öz gündəlik davranışında sosial zərurətə uyğun hərəkət etməsi mühüm şərtdir. Azadlıq və zərurətin fərdi şüurda qarşılıqlı əlaqəsi şəxsiyyətin azadlığı və məs'uliyyətinin qarşılıqlı əlaqəsi ilə bağlıdır. Şəxsiyyətin azadlığı və mə'suliyyəti bir-birindən ayrılmazdır. Cəmiyyətin hər bir üzvünün mə'suliyyəti olmadan onların azadlığı mümkünsüzdür. ***Məs'uliyyət obyektiv şəraitin dərk edilməsi və qarşıya qoyulmuş məqsədin tələbinə uyğun fəaliyyət metodunun seçilməsi və məqsədi həyata keçirməyin zəruriliyi deməkdir. Məs'uliyyət azadlığı istiqamətləndirir və azadlıqdan əmələ gəlir.***

Məs'uliyyət hissi, fərdin, cəmiyyət üzvlərinin şüur və dav-ranışında siyasi, hüquqi əxlaqi tələblərin obyektiv məzmunu demokratiya şəraitində formalaşır. Obyektiv məzmun şəxsiyyət tərəfindən dərk edilərək, onun şüurunun əlamətinə çevrilir. Bu da insanın hərəkət və davranışına məs'uliyyət hissi, şüurlu münasibət yaradır. Obyektiv məzmun subyektiv forma alır. Cəmiyyətlə şəxsiyyətin qarşılıqlı əlaqəsi, onun davranış və şüurluluğunun cəmiyyətdə mövcud olan normalara uyğunluğu şəxsiyyətin məs'uliyyətli olması üçün mühüm şərtdir.

Məs'uliyyət və azadlığın vəhdəti qanunvericiliyin ümumi əsasını təşkil edir. Vətəndaşların azadlıq və vəzifələrinin

vəhdəti yeni yaranmış müstəqil dövlətlərin konstitusiyalarında öz aydın ifadəsini, əksini tapır. İnsanların azadlıqları və hüquqları, onların öz vətəndaşlıq borclarını məs'uliyyətlə yerinə yetirməsi mühüm demokratik prinsiplərin necə reallaşdırılmasından asılıdır. Lakin şəxsiyyətin hüquq və azadlıqlarını məhdudlaşdırmaq da demokratiyanın tələbidir.

Qərb demokratiyasının sənədlərində hər bir şəxsin azadlıq və hüquqlarını, eyni zamanda dövlətin mənafelərini nəzərə almaq kimi vətəndaşlıq özünü göstərmişdir. Amerikanın "Hüquqlar haqqında bil", Fransa burjua inqilabı dövründəki "İnsan və vətəndaş hüquqlarının deklorasiyası" kimi sənədləri misal çəkmək olar. Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1949-cu ildə "İnsan hüquqlarının ümumi deklorasiyası"nda da insanların hüquq və azadlıqlarının onların bəşəriyyət və cə-miyyət qarşısında məs'uliyyətindən, öz vəzifələrini yerinə yetirməsindən asılılığı göstərilmişdir. İnsan hüquqları və azadlıqlarının toxunulmamazlığı haqqında müddəalar 1975-ci ildə Helsinkdə və 1990-cı ildə Parisdə keçirilən Avropa Təhlükəsizlik Şurasının müşavirələrində imzalanmış sənədlərdə öz dolğun ifadəsini tapmışdır. Burada insan hüquqlarına və azadlıqlarına, o cümlədən din və əqidə, vicdan və fikir azadlığına hörmət bütün dövlətlər arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişafı, sülhün, ədalətin, əmin-amanlığın tə'min edilməsi ilə sıx əlaqələndirilmişdir.

Demokratik prinsiplərin beynəlxalq aləmdə qorunmasında və möhkəmləndirilməsində 1993-cü ildə İnsan hüquqları üzrə Beynəlxalq Konfransın qəbul etdiyi Vyana bəyannaməsi, sonralar Budepeşt və Lissabon sammitində imzalanmış sənədlər mühüm əhəmiyyət kəsb edir.

Demokratik prinsiplərin qorunması, vətəndaşların hüquq və azadlıqları demokratik hüquqi şüurun inkişafından çox asılıdır. İctimai şüurun formalarından biri olan



hüquqi şüur sosial-iqtisadi və eləcə də başqa münasibətləri spesifik formada əks etdirir. Şəxsiyyətin hüquq və vəzifələrinin qarşılıqlı asılılığı hüquqi şüurun əlamətlərindən biridir. Azadlıq və məs'ulliyyətin, hüquq və vəzifələrin qarşılıqlı asılılığı əsrlər boyu bütün sivilizasiyalı cəmiyyətlərdə e'tiraf olunmuş mə'lum məsələdir. Hal-hazırda yeni yaranmış müstəqil dövlətlərdə demokratik prinsiplərin qorunub saxlanılmasını müasir mərhələdə onun inkişafının ən mühüm amillərdən biri hesab etmək olar.

Cəmiyyətin sosial-siyasi həyatında demokratik prinsiplərə riayət edilməsinin ən mühüm me'yarı ictimai rə'yin nəzərə alınmasıdır. İnsanların sosial gerçəkliyin hadisə və faktlarına, müxtəlif qrupların və ayrı-ayrı fərdlərin fəaliyyətinə münasibətini gizli və ya açıq şəkildə ifadə etməsi ictimai rə'yin öyrənilməsini zəruri edir. İnsanların, partiya və tə'sisatların fəaliyyətində ictimai rə'yin rolu böyükdür. İctimai rə'y fərdlərin, qrupların, sosial tə'sisatların fəaliyyət və davranışında səciyyəvi cəhətlərin üzə çıxarılmasına imkan verir və müxtəlif formalarda (məsələn, tələblər, tövsiyyələr hazırlanması, aktual problemlərə, xalqın xüsusi maraq göstərdiyi məsələlərə münasibətin bildirilməsi və s.) təzahür edir. İctimai rə'yin öyrənilməsi insanların fikirlərinin kütləvi şəkildə aşkar olunması deməkdir. İnsanların fikirləri, mövqeləri demokratik prinsiplərin qorunmasında, inkişaf etdirilməsində əsas rol oynayır. Eyni zamanda bu fikirlər, mövqelər birbaşa demokratiya və nümayəndəli demokratiya vasitəsilə həyata keçirilir. Deməli, ictimai rə'y demokratik prinsiplərin həyata keçirilməsində müstəsna əhəmiyyətə malikdir.

Demokratik prinsiplərin başlıca üstünlüklərindən biri onların açıq-aşkar olmasındadır. Mə'lum olduğu kimi, demokratik ölkələrin tarixi tərəqqisində siyasi həyatda aşkarlığın olması və onun inkişafının xüsusi xidməti vardır. Aşkarlıq cəmiyyətin demokratikləşməsinə və sosial-iqtisadi tərəqqiyyə istiqamət verən mühüm amillərdən biridir. Cəmiyyətdə mə'nəvi

mühitin tənzimlənməsi və sağlamlaşması üçün aşkarlığın olması vacib, zəruri şərtdir. Aşkarlıq bürokratik idarə üsullarının ləğv edilməsinə, müxtəlif ictimai-siyasi qüvvələrin qarşılıqlı əlaqəsinin möhkəmlənməsinə köməklik edir. ***Aşkarlıq dövlət və ictimai təşkilatların fəaliyyətində açıqlıq və düzgünlük cəmiyyətin əsas problemlərinin demokratik həllində ictimai rə'yin tə'sirli və fə'al iştirakı formasıdır.***

Tənqid üçün bağlı zonaların olmaması, geniş diskussiyaların keçirilməsi aşkarlıq şəraitinin ünsürləridir. Buraya eyni zamanda şəxsi mövqeyi ifadə etmək hüququ, hər bir fikrə hörmətlə yanaşmaq vəzifəsi, fikirlərin sərbəst mübadiləsi və s. də aiddir. Aşkarlığı hər hansı insan qrupunun inhisarına çevrilməsi qeyri-normal haldır. Aşkarlığa birtərəfli yanaşmaq düzgün olmazdı. Aşkarlıq hüquqi cəhətdən ölkənin konstitusiya normaları və qanunvericilik vasitələri ilə möhkəmləndirilir və inkişaf etdirilir.

Demokratik prinsipləri həyata keçirməkdə əsas amillərdən biri də qanunun aliliyi prinsipidir. Qanunun aliliyi mövcud qanunların aşağıdan-yuxarı və yuxarıdan-aşağı cəmiyyətin bütün təbəqələri tərəfindən bərabər qaydada həyata keçirilməsidir. İnsanlar bu prisipi qoruyub saxlamaqla demokratiya üçün əsaslı zəmin yaradırlar. Qanun hər bir ölkə vətəndaşı üçün eynidir və hamı onun keşiyində durmalıdır.

Qeyd etmək lazımdır ki, istər keçmişdə, istərsə də müasir dövrdə tam demokratik dövlətin qurulması ideal olaraq qalma-qdadır. Demokratiya istər ibtidai icma, antik quldarlıq dövründə, istərsə də müasir dövrdə nisbi xarakter daşıyır. O, həmişə ideal olaraq qalacaqdır. Demokratiya, sözün tam mə'nasında həmişə idealdan başqa bir şey olmayacaqdır. Kimsə ona lap yaxınlaşa bilər, kimin üçünsə o, həmişə üfüqdə işıldayacaqdır, ona doğru aparan yollar yaxşı, yaxud pis olacaqdır, lakin ona tamamilə nail olmaq heç vaxt mümkün olmayacaqdır.



# FƏSİL X

# PARLAMENT

### *§ 1. Parlament anlayışı, quruluşu və iş qaydası*

Demokratiyanın əsas təsisatı kimi cəmiyyətdə hakimiyyət bölgüsü prinsipinə uyğun olaraq qanunvericilik hakimiyyətinin rolu dövlət hakimiyyəti budaqları arasında xüsusi yer tutur.

Qanunvericilik hakimiyyəti yüksək seçkili nümayəndəli orqandır. Lakin bəzi hallarda o qismən də olsa təyin olunma formasında təşkil edilir. Qanunverici hakimiyyət orqanın müxtəlif adları ola bilər: ABŞ, Braziliya, Boliviya, Meksikada konqres, İsveçdə riqsdaq, Finlandiyada, Polşada seym, Norveçdə stortinq, Azərbaycanda, Fransada milli məclis, Ukraynada ali rada, Misirdə xalq məclisi, Türkiyədə böyük millət məclisi, Çində xalq nümayəndələri məclisi və s. Lakin müxtəlif ölkələrdə qanunverici orqana bir sıra adlar verilməsinə baxmayaraq, onlar ümumiləşdirilmiş formada "parlament" adlanır. "Parlament" termini fransız mənşəli "parle" sözündən olub "danışmaq" mənasını ifadə edir. Qeyd etmək lazımdır ki, parlamentin ilk sələfi kimi Qədim Yunanstanda və Qədim Romada nümayəndəli orqanlar və Avropada orta əsrlərdə silki-nümayəndəli təsisatlar olmasına baxmayaraq, müasir parlamentin əsası XII-XIII əsrlərdə İngiltərədəki hadisələrlə bağlıdır. 1215-ci ildə İngilis azadlığının böyük toplusunun (Maqna Sarta) imzalnması nəticəsində kralın səlahiyyətləri məhdudlaşdırıldı, baronların razılığı olmadan artıq o heç bir mühüm siyasi və iqtisadi qərarlar qəbul edə bilməzdi. İngilis azadlığının böyük toplusu parlamentin meydana gəlməsinin əsasını qoydu. 1265-ci ildə isə ilk dəfə olaraq, İngiltərənin ali şurası parlament adlandırılmağa başladı. İngiltərədə parlamentin yaranması ilə təxminən eyni vaxtda Av-

ropanın digər dövlətlərində də parlamentlər meydana gəlməyə başladı. Azərbaycanda parlamentin yaranması isə XX əsrin əvvəllərinə təsadüf edir. 1918-ci il dekabrın 7-də Bakıda Azərbaycanın ilk müstəqil parlamenti fəaliyyətə başladı. Lakin Azərbaycan Cümhuriyyətinin süqutu ilə ölkəmizdə parlamentçilik təcrübəsi fasilə verməli oldu. 90-cı illərin əvvəllərində Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra müstəqil Azərbaycan parlamenti yenidən fəaliyyətə başladı.

Müasir parlamentilər dövlətin ali orqanı olub, xalqın suveren iradəsini ifadə edir. Parlament mühüm ictimai münasibətləri qanunların qəbul edilməsi yolu ilə tənzimləyir, dövlət büdcəsinin təsdiqi və ona nəzarəti həyata keçirir, icra hakimiyyəti orqanlarının və ali vəzifəli şəxslərin fəaliyyətinə nəzarəti həyata keçirir. Bu səlahiyyətlərlə yanaşı, parlament həmçinin dövlətin digər ali orqanlarını təşkil edir. Belə ki, bəzi ölkələrdə prezidentin seçilməsi, hökümətin təşkili, konstitusiya məhkəməsinin təyini və s. onun səlahiyyətinə aid edilir.

Qanunverici hakimiyyət orqanı kimi parlamentin fəaliyyətinin təşkili başlıca olaraq, onun quruluşu palatalarının təşkili xüsusiyyətlərindən asılıdır. Parlamentlər bir qayda olaraq bir palatalı və iki palatalı olur. Parlamentin bir palatalı və ya iki palatalı olması bir sıra səbəblərlə bağlıdır. Bu səbəblərə ölkənin siyasi quruluşunu, tarixi ənənələrini, demokratik durumunu, cəmiyyətdəki siyasi qüvvələrin nisbətini və s. göstərmək olar. İlk parlamentin iki palatalı formada təşəkkül tapması əslində aristokratiyanı təmsil etmək məqsədi ilə yaradılmışdı. Hazırda unitar dövlətlərdə iki palatalı parlament əsasən dövlət hakimiyyətinin yüksək orqanları sistemində demokratik ünsürlərə malik olan aşağı palata ilə tarazlığı saxlamaq üçün təşkil olunur.



Federativ dövlətlərdə isə iki palatalı parlamentin olması iki əsas şərtin gözlənilməsini nəzərdə tutur: bir tərəfdən bütövlükdə ölkə anlayışı, digər tərəfdən isə federasiya subyektləri anlayışı (məsələn: ABŞ-da Braziliyada, Hindistanda ştatlar, Rusiya federasiyasında respublikalar, AFR-da torpaqların nümayəndələri və s.). Federativ dövlətlərin parlamentin palatalarından biri bütövlükdə ölkənin, millətin təmsilçiliyi prinsipi üzrə digəri isə federasiya subyektlərinin təmsilçiliyi prinsipi üzrə formalaşdırılır.

Hazırda unitar dövlətlərin əksəriyyətində bir palatalı parlamentə üstünlük verilir. Bəzi ölkələrdə (Danimarka, Lüksemburq, Yeni Zellandiya və b.) iki palatalı parlamentdən təkpalatalı parlamentə keçid baş vermişdir. Bundan əlavə Asiya və Afrikanın müstəqillik qazanmış dövlətlərində və post-sovet respublikalarının əksəriyyətində təkpalatalı parlamentə üstünlük verilmişdir. Azərbaycan respublikasının parlamenti də təkpalatalıdır. İki palatalı və təkpalatalı parlamentlərin formalaşması ümumi və fərqli cəhətlər kəsb edir. İki palatalı parlamentlər aşağı və yuxarı palataya bölünür və aşağı palatanın üzvləri adətən deputat və ya millət vəkili, yuxarı palatanın üzvləri isə senator adlanır. Parlamentin yuxarı palatası müxtəlif üsullarla: birbaşa və dolayı seçkilərlə, təyin olunma üsuluna görə, vəzifəyə görə yer tutma yolu ilə təşkil olunur. Senatorların birbaşa vətəndaşlar tərəfindən seçilməsi ABŞ-da, Braziliyada, İtaliyada və digər dövlətlərdə mövcuddur. Məsələn: ABŞ-da hər ştatdan iki senator hər iki ildən bir tərkibinin üçdə biri yenilənmək şərti ilə, Braziliyada hər ştatdan üç. senator, İtaliyada hər vilayətdən ən azı yeddi senator seçilir. Dolayı seçkilər yolu ilə Fransa Respublikasının yuxarı palatası olan senat təşkil olunur. O, Respublika ərazi kollektivlərinin təmsil olunmasını əks etdirir. Hindistanda yuxarı palata sayılan ştatlar sırasının yarıdan çoxu

ştatların və ittifaq ərazilərinin qanunvericilik məclislərinin seçkili üzvləri tərəfindən dolayı seçkilər yolu ilə seçilir. Bəzi ölkələrin parlamentlərinə seçkilərdə birbaşa və dolayı seçkilər birləşdirilir (məsələn: İspaniyada senatorların bir hissəsi birbaşa vətəndaşlar tərəfindən, bir hissəsi isə muxtariyyətlərin nümayəndəli orqanları tərəfindən seçilir, Belçikada isə senatorların bir hissəsi əyalətlərin şuraları tərəfindən dolayı seçkilərlə, bir hissəsi isə birbaşa seçilirlər). Elə ölkələr də vardır ki, onların parlamentinin yuxarı palatasının senatorları ya tamamilə ya da qismən təyin olunur (Almaniyada bundesrat millət vəkilləri torpaqların hökumətləri tərəfindən təyin olunur, İngiltərədə lordlar palatasının üzvləri, Belçikada senatorların bir hissəsi, Malaziyada əksər hissəsi təyin olunur). Dövlət başçısı tərəfindən senatorların təyin olunması halları da mövcuddur. Belə ki, Kanadada, İordaniyada, Yamaykada və s. ölkələrdə palatalar tamamilə Hindistanda isə 12 nəfər dövlət başçısı tərəfindən təyin olunur. İtaliyada senatın 5 nəfər üzvü İngiltərədə isə 20 apellasiya lordu dövlət başçısı tərəfindən ömürlük təyin olunur. Bəzi ölkələrdə isə daşıdığı vəzifəyə görə yer tutma baxımından senator təyin olunma hallarına da rast gəlmək olur (İtaliyada konstitusiyanın 59 maddəsinə uyğun olaraq imtina etməsi halları istisna olmaqla hər bir sabiq ölkə prezidenti ömürlük senatordur).

Bir sıra ölkələrdə isə yuxarı palata aşağı palata tərəfindən üzvləri arasından seçilir (məsələn: Norveçdə və İspaniyada belə meyl vardır. Norveçdə 1/4-i İslandiyada isə 1/3-i).

Aşağı palatanın və birpalatalı parlamentin millət vəkilləri isə 2-4-5 il müddətinə bilavasitə əhali tərəfindən. birbaşa seçkilər yolu ilə seçilir. Aşağı palatanın və bir palatalı parlamentin deputatlarının bir hissəsi dolayı seçkilərlə də seçilə bilər. Bundan əlavə bəzən dövlət başçısı vətən qarşısında xüsusi xidmətləri olan vətəndaşları birpalatalı parlamentə təyin



edə bilər (məsələn: Misirdə 10 nəfər deputat, Butanda, Bruneydə yerlərin müəyyən hissəsini vəzifəsinə görə müəyyən şəxslər tuturlar). Bəzi ölkələrdə müəyyən dinlərin və millətlərin nümayəndələri üçün, habelə qadınlar, hərbçilər və digər təbəqələr üçün yerlər ayrılır (məsələn: Pakistanda induist etiqadının tərəfdarları üçün, Çində hərbçilər üçün müəyyən sayda yerlər nəzərdə tutulur).

Parlamentin quruluşunda diqqəti cəlb edən əsas cəhətlərdən biri də palatalar arasında səlahiyyətlərin bölgüsüdür. Ölkələrin bir qismində palatların hər ikisi bərabər səlahiyyətlərə malik olur. Lakin bəzən bu meyl pozulur, yuxarı palata əlavə səlahiyyətlərə malik olur (məsələn: AFR-da bundesrat heç kim tərəfindən buraxıla bilməz. O, konstitusiyanın dəyişdirilməsi, torpaqların sərhədlərinin dəyişdirilməsi və digər məsələlər üzrə aşağı palatanın qəbul etdiyi qanunlarla razılaşmazsa, o zaman öz veto hüququndan istifadə edir).

Hazırda iki palatalı parlamenti seçmiş, unitar dövlətlərdə palatalara bərabər hüquqlu səlahiyyətlər verilməsi meyli göz-lənilir (məsələn: İtaliyada və Yaponiyada parlament iki bərabər hüquqlu palatadan ibarətdir).

Parlamentin fəaliyyətində nəzərə çarpan əsas məsələlərdən biri də onun iş qaydasıdır. Parlamentlər öz fəaliyyətini müxtəlif formalarda qurur. Palatalar ayrılıqda və birgə iclaslar təşkil edir, daimi və müvəqqəti komissiyalar yaradır və s. Birgə iclaslar konstitusiyada qəbul olunmuş və müəyyən olunmuş hallarda keçirilir. Parlamentin başlıca iş forması sessiya hesab olunur. Sessiya parlamentin iclaslarının çağrıldığı və daimi komissiyaların işlədiyi dövrdür. Sessiyalar adətən yaz və payız sessiyalarına bölünür (məsələn: Barziliyada 15 fevraldan, 30 iyunadək və 1 avqustdan 30 dekabradək, Ukraynada parlament fevralın və sentyabrın birinci çərşənbə axşa-

mı toplaşır. Türkiyədə parlament hər il sentyabr ayının ilk günü müstəqil surətdə toplanır, məclis bir qanunvericilik ilində ən çoxu üç ay tətil edə bilər, Azərbaycan Respublikasınn milli məclisi də ildə iki sessiyaya - yaz və payız sessiyasına toplaşır. Yaponiyada və Fransada parlamentin növbəti sessiyaları ildə bir dəfə çağrılır. Almaniyada isə bundestaq daimi sessiya vəziyyətində hesab edilir və lazım gəldikdə palata sədri tərəfindən geniş iclaslara çağırılır və s.).

Parlamentdə növbədənkənar sessiyalar da çağrıla bilər. Beldə sessiyalar adətən dövlət başçısının, hökumətin və deputatların tələbi ilə çağrıla bilər (məsələn: Ukraynada deputatların 1/3-nin, Yaponiyada palata üzvlərinin ümumi sayının 1//4-nin, Misirdə deputatların əksəriyyətinin tələbi ilə və s.). Adətən növbədənkənar sessiyalarda onun çağrılmasına səbəb olmuş məsələlər müzakirə obyekti ola bilər. Parlamentin işləməsi və onun qərarlar qəbul etməsi üçün yetərsayın olması zəruridir. yetərsay üçün adətən millət vəkillərinin yarıdan çoxunun olması vacibdir. Lakin bəzi ölkələrdə yetərsayın aşağı həddi də müəyyən edilir. Əgər Böyük Britaniyanın parlamentində aşağı palatanın 40 üzvü və yuxarı palatanın 3 üzvü iştirak edirsə, onda iclas baş tutmuş hesab edilir.

Yetərsay parlamentdə qərar qəbul etmək üçün kifayət deyildir. Əsasən qərarlar parlamentin say tərkibinin səs çoxluğu ilə qəbul edilir. Konstitusiya qanunlarının qəbul edilməsi üçün daha ciddi tələblər müəyyən edilir. Azərbaycan Respublikasının əsas qanununun 94-cü maddəsinin 2, 3, 4 bəndləri üzrə qanunlar 83 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 63 səs çoxluğu ilə qəbul edilir. Lakin elə ölkələr də vardır ki, iclaslar keçirmək və qərar qəbul etmək üçün yetərsay nəzərdə tutulmamışdır. İsraildə parlamentin üzvlərindən 15-20 nəfər iştirak etdiyi hallarda da qanunların qəbul



edildiyi hallara təsadüf edilmişdir.

Parlamentin iclasları adətən, açıq və qapalı olur. Açıq iclaslara nisbətən qapalı iclaslarda yalnız parlamentin üzvləri və xüsusi dəvət olunmuş şəxslər iştirak edə bilər. Parlamentin iş qaydasında maraqlı məqamlardan biri də bəzi ölkələrdə müxalifət günlərinin mövcudluğudur. İngiltərənin parlamentində belə meyl özünü göstərməkdədir. Həmin müddətdə azlıq istənilən məsələni sessiyanın gündəliyinə salmaq hüququna malikdir. Bu müddət azlığa hökuməti tənqid etmək üçün qanunla verilmişdir.

Müasir dünya təcrübəsi parlamentin buraxılması prosedurasını müxtəlif kombinasiyalarda həyata keçirir. Bu prinsip bir qayda olaraq parlament idarəçiliyinə əsaslanan ölkələrdə həyata keçirilir. Əgər parlament iki palatalıdırsa, aşağı palata buraxılır, yuxarı palata öz fəaliyyətini müvəqqəti dayandırır, lakin onun səlahiyyət müddəti saxlanılır (məsələn: Yaponiyada nümayəndələr palatasının buraxılması ilə eyni vaxtda müşavirlər palatası da iclasını dayandırır. Həmin müddətdə kabinet müşavirlər palatasının fövqəladə sessiyasını çağıra bilər).

Parlamentdə qanunyaratma prosesi onun iş vaxtının yarıdan çoxunu təşkil edir. Qanunvericilik prosesi bir neçə mərhələdən ibarətdir: qanun layihəsinin təqdim edilməsi, onun müzakirə olunması, qanunun qəbul edilməsi və onun promulqasiyası. Parlamentdə qanunvericilik təşəbbüsü hüququna bəzi ölkələrdə dövlət başçısı, hökumət, parlamentin palataları, onların daimi komissiyaları, müəyyən sayda deputatlar qrupu, tək-tək deputatlar və bəzi dövlət orqanları malikdirlər (məsələn: Ukraynada milli bank). Bəzi qanun layihələrini, məsələn, dövlət büdcəsi haqda qanun layihəsini yalnız dövlət başçısı və hökumət təqdim edə bilər. Ayrı-ayrı ölkələrdə konstitusiyaya yenidən baxılması təşəbbüsü dövlət başçı-

sından irəli gəlir. Bəzi ölkələrdə qanun layihələri istənilən palataya təqdim edilə bilər (İtaliyada, ABŞ-da). Maliyyə qanun lahiyələri aşağı palataya təqdim olunur.çox vaxt yuxarı palat belə qanunlara münasibətdə veto hüququna malik olmur. Lakin AFR-in yuxarı palatası bunddesrat veto hüququndan istifadə edə bilər. Yaponiyada büdcə əvvəlcə nümayəndələr palatasının müzakirəsinə təqdim olunmalıdır.

Azərbaycan Respublikasının konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq Milli məclisdə qanunvericilik təşəbbüsü hüquqi ölkə prezidentinə, Milli məclisin deputatlarına, ali məhkəməyə, Naxçıvan Muxtar Respublikasının Ali məclisinə və 2002-ci il referendumunun nəticələrinə əsasən konstitusiya məhkəməsinə mənsubdur.

Qanunların qəbul edilməsi parlamentin geniş iclaslarında müəyyən səs çoxluğu ilə həyata keçirilir və qanun parlamentdə qəbul edildikdən sonra onun ölkə başçısı tərəfindən promulqasiyası mərhələsi başlayır. Bu proses bir neçə mərhələdən keçir. Bu qanunun və onun lazımi qaydada təsdiqi, imzalanması, dərc olunması, icraya yönəldilməsi və habelə yenidən baxılmaq üçün geri göndərilməsidir. Qanunun geri göndərilməsi o deməkdir ki, dövlət başçısı qanunu imzalamamaq hüququna (veto hüququ) da malikdir. Qanun imzalanmazsa, o, qüvvəyə minmir. Bu prosedura ayrı-ayrı ölkələrdə müxtəlif cür həyata keçirilir. Əgər konstitusiya qanunları Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmazsa qüvvəyə minmir. Lakin Milli məclisin 83 səs çoxluğu ilə qəbul edilən qanunları 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul edilən qanunları isə 83 səs çoxluğu ilə yenidən qəbul edilirsə onda belə qanunlar təkrar səsvermədən sonra qüvvəyə minir. Türkiyə respublikasının Prezidenti Türkiyə Böyük Millət məclisi tərəfindən qəbul olunan qanunları 15 gün içində dərc edir. Dərc olunması lazım bilin-



məyən qanunlar isə yenidən qanunverici orqana göndərilir (büdcə qanunları bu hökmə daxil deyildir). Qanunverici orqan göndərilən qanunu eynən qəbul edərsə onda qanun dövlət başçısı tərəfindən dərc olunur.

### *§ 2. Parlamentin səlahiyyətləri və funksiyaları*

Parlamentin mahiyyətini dolğun və daha düzgün anlamaq üçün bu təsisatın səlahiyyətləri və funksiyaları barədə geniş təsəvvürə malik olmaq lazımdır. Ümummilli nümayəndəli təsisat olmaq etibarı ilə onun səlahiyyətlərinin müəyyənləşdirilməsi ilə bağlı siyasi elmdə müxtəlif fikirlər mövcuddur. Bu onu göstərir ki, müxtəlif ölkələrdə parlamentlərin səlahiyyətləri eyni deyildir. Siyasi ədəbiyyatda parlamentin səlahiyyətlərinin müəyyənləşdirilməsi istiqamətində mühüm addamlar atılmışdır. Məsələn, V.Y.Çirkin səlahiyyətlərinə görə parlamentin təsnifatını aşağıdakı qaydada nəzərdən keçirir:

1. Qeyri məhdud səlahiyyətli parlament;
2. Məhdud səlahiyyətli parlament;
3. Məşvərətçi parlamentlər.

Məşvərətçi parlamentlər bəzi islam ölkələrində mövcuddur. Belə parlamentlər bəzi hallarda monarxların razılığı ilə qanunlar qəbul edirlər. Elə hallar da olur ki, ümumiyyətlə onlar qanun qəbul edə bilmirlər (məsələn: BƏƏ qanun qüvvələri, aktları Əmirlər Şurası qəbul edir, Səudiyyə Ərəbistanında isə belə aktları kral qəbul edir).

M.Ə.Əfəndiyev isə səlahiyyətlərinə görə parlamentin təsnifatını verərkən məhdud və qeyri məhdud səlahiyyətli parlamentlərlə yanaşı səlahiyyət sferası vahid prinsip üzrə müəyyən olunan parlamentləri də nəzərdən keçirir.

Təsnifata uyğun olaraq məhdud və qeyri məhdud sə-

lahiy-yətli parlamentləri nəzərdən keçirək. Məhdud səlahiyyətli parlamentin mahiyyəti ondan ibarətdir ki, qanunvericiliyə uyğun olaraq həmin fəaliyyətin obyekti olan məsələlərin dəqiq siyahısı hazırlanır və konstitusiyada öz əksini tapır. Adətən bu tip parlamentlər öz səlahiyyətlərinin həddini aşmaq hüququna malik olmurlar. Parlamentin fəaliyyətindən kənarda qalan məsələlər hakimiyyətin digər qollarına aiddir. Həmin məsələlər üzrə prezident, hökumət və nazirlər normativ aktlar qəbul edirlər, qanunverici orqan isə bu sahəyə müdaxilə etməməlidir. Səlahiyyətlərinə görə birinci qrupa aid olan parlamentin klassik forması Fransada və bəzi fransızdilli ölkələrdə (Seneqal, Madaqaskar və s.), ABŞ və başqa ölkələrin konstitusiyalarında daha aydın əks olunmuşdur. Həmin ölkələrin konstitusiyalarında qanunverici orqan üçün müəyyən fəaliyyət növləri öz əksini tapmışdır. Parlamentin fəaliyyət sferasından kənarda qalan məsələlərin də dəqiq siyahısı verilmişdir. Fransa respublikasının konstitusiyasının 37-ci maddəsində göstərilir ki, qanunvericilik sahəsinə aid olmayan məsələlər inzibati qaydada həll olunur. ABŞ-ın konqresinin fəaliyyət sferasından kənarda qalan məsələlər isə ayrı-ayrı ştatların səlahiyyətlərinə aid edilir. Azərbaycan Respublikasının konstitusiyasında da Milli Məclisin öz səlahiyyətlərinə aid məsələlər üzrə konstitusiya qanunları, qanunlar və qərarlar qəbul etmək (maddə 93). Milli Məclisin müəyyən etdiyi ümumi qaydalar (maddə 94) və Milli məclisin bilavasitə həll etdiyi məsələlər (maddə 95) üzrə səlahiyyətlər müəyyənləşdirilmişdir. Milli Məclisin səlahiyyətlərindən kənarda qalan məsələlər isə icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmişdir.

Qeyri-məhdud səlahiyyətli parlamentlər isə istənilən məsələlər üzrə qanun və qərarlar qəbul edə bilərlər. Lakin bu tip parlamentlərin də suverenliyi nisbidir. Çünki belə ölkələrdə ya dövlət başçısının müstəsna səlahiyyətləri olur, ya da konstitusiya nəzarəti tətbiq olunur ki, bu da parlamentin geniş səlahiyyətlərinin məhdudlaşdırılması deməkdir. Belə hüquqi qayda İtaliya konstitusiyasının 136-cı maddəsində də təsbit olunmuşdur. Həmin maddədə qeyd olunur ki, "konstitusiya məhkəməsi bir qanun və ya qanun qüvvəli akt hökmünün konstitusiyaya zidd olduğuna qərar verərsə, bu hökm qərarın dərc olunduğu gündən başlayaraq öz qüvvəsini itirir".



Qeyri-məhdud səlahiyyətli parlamentlər anqlosakson hüququ ölkələrin əksəriyyətində də mövcuddur. Böyük Britaniyada parlament geniş səlahiyyətlərə malik olsa da mühüm məsələlərin həllini nazirlər kabineti həyata keçirir.

Səlahiyyətlərinin həcminə görə bəzi ölkələrin parlamentlərin fəaliyyətini isə şərti olaraq səlahiyyətləri üç səviyyədə həyata keçirilən fəaliyyət qrupuna aid edə bilərik. Birinci səviyyə xüsusi səlahiyyətlərə malik olan ittifaq parlamentinin fəaliyyətini, ikinci səviyyə federasiya subyektlərinin parlamentinin səlahiyyətini, üçüncü səviyyə isə ittifaq və federasiya (ştatların) parlamentinin birgə səlahiyyətlərini əks etdirir (məsələn: AFR, Hindistan və s.).

Parlamentin səlahiyyətini əhatəli dərk etmək üçün onun yerinə yetirdiyi funksiyalar haqqında dürüst məlumata malik olmaq lazımdır. Parlamentin yerinə yetirdiyi funksiyaların çeşidi genişdir. Bu funksiyalardan ən önəmlisi artıq yuxarıda deyildiyi kimi qanunvericilik funksiyasıdır. Parlament xalqın suveren hüquqlarını və iradəsini müvafiq qanunlar şəklində ifadə etmək səlahiyyətlərinə malikdir. Parlamentin fəaliyyəti təkcə qanunlar işləyib hazırlamaq və qəbul etməklə kifayətlənmir. Bu təsisat hökumətin fəaliyyətinə nəzarət etmək üçün geniş imkanlara da malikdir. Parlament hökumətin fəaliyyətinə nəzarətinin əsas vasitələrindən biri

kimi dövlət büdcəsinin təsdiqi və ona nəzarət olunması ilə həyata keçirilir.

Parlamentin əsas funksiyalarından biri də parlament idarəçiliyi sistemində icra hakimiyyəti orqanlarının formalaşdırılması, müxtəlif dövlət vəzifələrinə təyinatların həyata keçirilməsi ilə bağlı səlahiyyətlərin geniş çeşidli olmasıdır. Bəzi ölkələrdə prezidenti parlament seçir (Türkiyə, İsrail, İtaliya, AFR və s.), bundan əlavə ëparlament demokratiyası" şəraitində həmçinin hökumətin formalaşdırılması da parlamentin səlahiyyətlərinə aiddir. Bəzən parlament baş naziri seçir (AFR, Yaponiya) və ya təyin edir (adətən iki palatalı parlamentdə bu aşağı palata tərəfindən həyata keçirilir). Prezident üsul-idarəsinə əsaslanan ölkələrdə parlament icra hakimiyyətinin formalaşmasında birbaşa iştirak etmir, lakin parlament eyni zamanda dövlət başçısının təklifi ilə bir sıra ali dövlət vəzifələrinə təyinatların həyata keçirilməsinə razılıq verir. Məsələn, Ukraynada parlament (Ali rada) prezidentə Antiinhisar komitəsinin sədrini, Dövlət əmlak fondunun sədrini və baş prokuroru təyin etməyə razılıq verir. Azərbaycan Respublikasının Parlamenti Prezidentin təqdimatına əsasən Baş nazirin vəzifəyə təyin edilməsinə razılıq verməsini, konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin, İqtisad Məhkəməsinin hakimlərinin təyini, Baş prokurorun vəzifəyə təyin və azad edilməsi, Milli Bankın İdarə Heyətinin üzvlərinin vəzifəyi təyin və azad edilməsi və s. kimi vəzifələri də yerinə yetirir. İki palatalı parlamentə malik olan dövlətlər də ali orqanların təşkili və ali vəzifəli şəxslərin təyin edilməsi üzrə səlahiyyətlərlə bağlı funksiyaları adətən palatalar ayrılıqda yerinə yetirir.

Parlamentin yerinə yetirdiyi funksiyalardan biri də ali vəzifəli şəxslərin impiçmentidir. Bu prosedura öz başlanğıcını 16-cı əsrdən etibarən ingilis parlamentindən götürmüşdür.



İmpiçment yolu ilə prezidentin və digər vəzifəli şəxslərin vəzifədən kənarlaşdırılması həyata keçirilir. Bu zaman parlamentdə vəzifəli şəxslərə qarşı (iki palatalı parlamentdə aşağı palata) ittiham irəli sürülür. Yuxarı palata isə məhkəmə prosesi qaydasında vəzifədən kənarlaşdırma haqqında məsələni həll edir. Bəzi ölkələrdə isə parlament yalnız ittiham formulə edir, işə isə xüsusi məhkəmələr baxır. Azərbaycan Respublikasında konstitusiyanın 95-ci maddəsinə müvafiq olaraq konstitusiya məhkəməsinin təqdimatına əsasən Prezidentin impiçment qaydasında vəzifədən kənarlaşdırılması, ABŞ-da federal hakimlərin impiçmenti, Fransa və Polşada nazirlərin və digər ali vəzifəli şəxslərin məhkəməyə verilməsi haqqında qərarın qəbul edilməsi də parlamentin impriçmentidir. Ümumiyyətlə siyasi ədəbiyyatda parlamentin həyata keçirdiyi funksiyaların təsnifatı üçün bu cəhətlər əsas meyar hesab oluna bilər: hakimiyyətin hər hansı orqanının dövlət aparatında yeri; parlamentin digər idarəetmə orqanları ilə qarşılıqlı əlaqəsi; bu orqanın cəmiyyətə dövlət rəhbərliyinin həyata keçirilməsi prosesində praktiki rolu və s.

"Parlamentin" mahiyyəti ilə bağlı təsəvvürümüzü zənginləşdirmək baxımından parlament üzvünün (millət vəkilinin) hüquqi statusu haqqında məlumata malik olmaq siyasi əhəmiyyətə malikdir. Parlmaent üzvləri peşəkar parlamentarilər olmaqla bütünlükdə dövləti təmsil edirlər. Onlar öz deputat fəaliyyətlərinə görə dövlət xəzinəsindən əmək haqqı alırlar. Hər bir deputat qanunverici orqanın, onun komitələrinin, daimi və müvəqqəti komissiyalarının işində iştirak etmək, habelə dövlətin ali vəzifəli şəxslərinə parlamentin iclaslarında və ya ondan kənar sorğular vermək hüququna malikdir. Hər bir deputat özünün deputat vəzifəsinə uyğun olaraq parlamentin işində iştirak etməyə borcludur. Deputat üzürsüz səbəbə görə mütəmadi olaraq parlamentin işində iştirak etmədikdə, habelə müəyy-

ən hüquq pozuntularına yol verdikdə, etik normaları pozduqda cəzalandırıla bilər və deputat mandatını itirə bilər. Əgər deputat partiya siyahısı ilə seçilibsə o başqa partiyaya keçdiyi zaman da mandatından məhrum edilə bilər. Parlamentin üzvü həmçinin deputat indemnitetinə malik olur. Müasir demokratik ölkələrin əksəriyyətinin konstitusiyasında deputatın toxunulmazlığı onun cəmiyyət qarşısında məsuliyyətdən azad olması kimi deyil, parlamentdə söylədiyi fikir və mülahizələrə görə və üzərinə düşən vəzifələri yerinə yetirmək zərurəti ilə əlaqədar olan çıxışlarında ifadə etdiyi fikirlərə görə məsuliyyətə cəlb edilməsinin yol verilməz olması kimi müəyyənləşdirilir. Parlament toxunulmazlığı deputatın törətdiyi hüquq pozuntularına və ya cinayətlərə cəlb edilməsinin xüsusi proseduraası kimi tətbiq edilir. Bəzi ölkələrdə parlament üzvləri deputat immunitetinə malikdirlər. Lakin bu deputatın bilavasitə cinayət yerində yaxalındığı halda istisna təşkil edir. Fransa konstitusiyasınn 1995-ci ildə edilmiş düzəlişinə əsasən immunitet yalnız sessiya dövründə qüvvədədir və cinayət kimi cəzalandırılan əməllərə aid edilmir. ABŞ-da immunitet ağır cinayət və ictimai əsayişin pozulması hallarına aid edilmir. Azərbaycan respublikasının əsas qanununun 90-cı maddəsinə müvafiq olaraq Milli Məclisin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz. Milli məclisin deputatının toxunulmazlığına yalnız baş prokurorun təqdimatına əsasən Milli Məclisin qərarı ilə xitam verilə bilər.



# FƏSİL XI

## SEÇKİ SİSTEMİ

Seçkilər cəmiyyətin demokratikliyinin əsas fundamentidir. Cəmiyyətin siyasi sisteminin formalaşması xeyli dərəcədə siyasi hakimiyyət orqanlarına seçkilərin sistemindən asılıdır. Seçkilərin səmərəli olmasından bir sıra siyasi, iqtisadi, sosial, psixoloji və s. amillər mühüm rol oynayır. İqtisadi amillərə mülkiyyətə sahib olma, maddi rifah halının və əmək haqqının səviyəsi, işlə təmin olma, istehsalın səmərəli təşkili aiddir. Seçkilərdə absen-teizm (seçkilərdə iştirakdan imtina etmə) halı yoxsulluğa, əmək haqqının ödənilməməsinə, sabahkı günə inamsızlığa qarşı etiraz forması kimi meydana çıxa bilər. Mülkiyyətə sahib olanlar keçid dövrlərində seçkilərə xüsusi əhəmiyyət verir, seçkilərdə mütləq iştirak edirlər, çünki onlar sahib olduqlarını itirməkdən qorxurlar. Stabillik dövründə bu qəbildən olan şəxslərdə də seçkilərə müəyyən etinasızlıq yarana bilər.

Sosial amillər sırasına "imkanlı orta sinfin" olmasını, oturaqlığı, ailə münasibətlərinin möhkəmliyini və s. kimi şərtləri aid edirlər. Mənəvi amillər seçicilərdə siyasi yetkinlik, savadlılıq, öz tarixi-milli köklərinə bağlılıq-patriotizm, qanunlara hörmət, vətəndaş məsuliyyəti kimi keyfiyyətlər formalaşdırır.

Psixoloji faktorlar daha yaxşı həyat uğrunda mübarizəyə hazırlıq, ümumi yüksəlişin nəticələrindən bəhrələnməyə inam, öz millət və sosial qrupunun perspektivinə əminlik və s. kimi hissləri ehtiva edir.

Demokratik seçkilər üçün zəruri olan siyasi şərait daxilində öz struktur təsisatları ilə birlikdə vətəndaş cəmiyyətinin inkişafını, inkişaf etmiş çoxpartiyalılığı, möhkəm qanunvericilik bazasını, tarixi ənənələri xüsusi qeyd edirlər.

Seçkilərin əsas funksiyası dövlət hakimiyyəti orqanlarının formalaşdırılmasıdır. Lakin bununla yanaşı seçkilər bir

sıra digər funksiyaları da yerinə yetirir ki, onların da sırasına aşağıdakıları aid etmək olar:

-Müxtəlif sosial qrupların öz mənafe və maraqlarını dərk etməsi. Seçkilər dövründə adamlar öz həyati əhəmiyyətli problemlərini daha kəskin şəkildə dərk edirlər. Namizədlərin seçkiqabağı proqramları bu problemləri daha dəqiq, konkret, dərkolunan formada ifadə edir və bununla da seçiciləri həm siyasi cəhətdən maarifləndirir, həm onların fəal mövqeyinin formalaşmasına kömək edir. Seçki vasitəsilə xalq nəinki hakimiyyət orqanlarının formalaşmasında iştirak edir, habelə seçilən orqanların və ya konkret şəxslərin fəaliyyətinə nəzarət etmək mexanizmi yaradır.

-Müxtəlif sosial qrupların mənafelərinin bir növ yarışı meydana çıxır və bu mənafelərin dominant meylləri müəyyən olunur.

-Təmsilçilik münasibətlərinin təsisatlanması müxtəlif formalarda öz təzahürunu tapır. Öz müdafiəsi üçün zəruri miqdarda imza toplamış namizəd öz seçki kompaniyasını aparmaq üçün xüsusi bazaya malik olur və bunun üçün qanunla nəzərdə tutulmuş maddi və ideoloji vasitələrdən istifadə edir. seçki prosesində seçicilər ilə namizədlər arasında qarşılıqlı əlaqələr yaranır ki, bunun da nəticəsi olaraq, cəmiyyətdə təmsilçilik münasibətləri təsisatlanmış olur.

-Əhalinin fəallıq dərəcəsi bir qayda olaraq seçkilər vasitəsilə, xüsusən də seçkilərin keçirildiyi dövrdə xeyli dərəcədə yüksəlmiş olur, xalq özünü hakimiyyətin mənbəyi kimi dərk edir.

***Seçkilərin prinsipləri:*** Demokratiyanın əsası olan seçkilər humanist dəyərləri ehtiva edən bir sıra prinsiplərə malik olur. Bu prinsiplər ayrı-ayrı ölkələrdə müxtəlif çalarlara malik olsalar da insanların ən mühüm hüquqlarından biri olan səsvermə hüququnu rəhbər tutur və seçki qanunlarında təsbit edilir. Bütün siyasi nəzəriyyələr, o cümlədən marksizm, insanların səsvermə hüququnu onların ən mühüm hüququ



kimi qəbul edir.

Dünya ölkələrinin çox böyük əksəriyyətinin konstitusiyasında ümumi seçkilər yolu ilə nümayəndəli orqanların seçkili olması prinsipinin özü birinci növbədə qanunvericilik yolu ilə təsbit olunmuşdur. Ümumilik prinspi onu nəzərdə tutur ki, müəyyən yaş həddinə çatmış vətəndaşlar seçmək və seçilmək hüququna malik olur. Ümumilik prinspi uzun illərin kəskin mübarizəsi nəticəsi olaraq hüquqşünaslığa daxil olmuşdur. "Ümumi seçki hüququndan bir qayda olaraq yalnız psixi xəstələr, məhkəmənin qərari ilə fəaliyyət qabiliyyətini itirmişlər, məhkəmənin qərarı ilə məcburi surətdə müalicəyə göndərilmiş adamlar məhrum edilirlər" ABŞ-da 1787-ci ildə səsvermə hüququ yalnız ağdərili mülkiyyət sahibi olan kişilərə verilirdi. Yalnız XIX əsrin sonunda əmlak senzi ləğv edilmişdir. XX əsrin 20-ci ilində, qaradərililər isə 60-cı illərn sonunda səsvermə hüququ əldə etdilər. 1970-ci ilə qədər ABŞ-ın bir sıra ştatlarında savadlılıq və oturaqlıq senzi qalmaqda idi. Qərbi avropanın əksər ölkələrində səsvermə hüququ 21 yaşına çatmış şəxslərə verilirdi. 1968-70-ci illərin tələbə həyəcanlarının təsiri ilə bu yaş həddi 18-ə endirildi.

Seçkilərin ikinci prinspi-bərabər seçki hüququdur. Bu prinsipin mahiyyət ondan ibarətdir ki, hər bir deputat-nümayəndə eyni sayda seçicilərdən seçilir. Bu prinspə əməl edilməsi seçki dairələrinin düzgün müəyyən edilməsindən daha çox asılıdır. Əks halda isə bu hal seçicilərin səsi ilə manipulyasiya etmək üçün əlverişli vasitəyə çevrilə bilər.

III prinsp - birbaşa seçkilər prinspidir. Bu prinspin isə mahiyyəti ondan ibarətdir ki, seçicilər parlament üzvlərini və ya digər hakimiyyət nümayəndələrini birbaşa (yəni - vasitəçilər, müvəkkillər olmadan) seçirlər. Əvvəllər geniş istifadə olunan vasitəli dolayı seçkilər seçki prosedurasının demokratizmini xeyli dərəcədə kasadlaşdırır. Bu qəbildən olan seçkilər absenteizmə etinasızlığı seçkilərə insanların laqeydliyinə gətirib çıxarırdı.

IV prinsp səsvermə prosedurasına aid olan prosesdir və gizli səsvermə nəzərdə tutur. Bu prinsp müxtəlif texniki vasitələrlə təmin edilir və seçicilərə xarici təsirin mümkünlüyünü xeyli dərəcədə azaldır.

Nəhayət V prinsp seçkilərdə ədalətli bəhsləşmə, yarışma prinspinin təmin edilməsidir. Bu demokratiyanın bərqərar olmasının mühüm şərtidir. Seçicilərin öz arzu və istəklərinə, mənafe və maraqlarına daha çox uyğun gələn siyasi partiya və ya blokların, fərdi namizədlərin proqramları, vədləri ilə yaxından tanış olaraq, ən layiqli hesab etdiyi xalq təmsilçilərini hakimiyyət gətirmək imkanı əsasən bu yolla reallaşır. Seçki prinspinin pozulmasına görə qanunlarda çox cüzi cəza tədbirləri nəzərdə tutulmuşdur.

Dünya demokratiya praktikasında əhalinin səsvermə iştirakına iki əsas münasibət mövcuddur. Bu münasibətlərdən birinə görə səsvermə iştirak etmək seçicilərin hüququ, başqa bir münasibətə görə isə seçicilərin vəzifəsi kimi nəzərdə tutulur.

"Səsverməni əhalinin hüququ kimi qəbul edən nöqteyi-nəzər xalq suverenliyi nəzəriyyəsinə əsaslanır. Hər bir vətəndaş suverenin bir hissəsi kimi onun iradəsini ifadə etmək prosesində iştirak hüququna malikdir. Bu vətəndaşa səsvermədə iştirak etmək hüququ verir. Səsvermədə iştirakı seçicinin vəzifəsi kimi qəbul edən konsepsiya milli suverenlik nəzəriyyəsinə əsaslanır. Həmin nəzəriyyəyə görə suverenliyin daşıyıcısı məcmu halında xalqı əmələ gətirən ayrı-ayrı insanlar deyil, tarixi-etnik və siyasi birlik kimi çıxış edən millətdir. Millət öz suveren huquqlarını həyata keçirən vahid tam şəklində fəaliyyət göstərir. Suverenin hüquqlarını ifadə edən müəyyən təsisatlar mövcuddur və bu cür təsisatlardan biri də seçicidir. Buna görə də fərdin səsvermədə iştirakı onun tam halında çıxış edən millətin bir hissəsi kimi üzərinə düşən öhtəliyin yerinə yetirilməsi zərurətini ifadə edir"

Seçki sistemləri: Ümumi seçki hüququnun bərqərar ol-



duğu dövrdə inkişaf etmiş demokratik ölkələrdə seçki sistemlərinin üç tipi müəyyən olaraq öz təsdiqini tapmışdır: majoritar, proporsional və bu sistemlərin ayrı-ayrı ünsürlərini özündə əks etdirən qarışıq seçki sistemi. Bunlardan hər biri əvvələn hakimiyyətin seçkili, xüsusən nümayəndəli orqanlarının formalaşdırılması qaydalarını II-ci isə səsvermənin nəticələri müəyyən ediləndən sonra seçkili orqanlarda yerlərin bölüşdürülməsi sistemini özündə təcəssüm etdirir. İlkin dövrlərdə mojaritar sistem daha geniş yayılmışdı. (Mojaritar Fransız dilində çoxluq deməkdir) Bu sistemin mahiyyəti ondan ibarətdir ki, hər seçki dairəsindən bir nəfər nümayəndə, deputat seçilir. Səsvermədə daha çox səs toplamış namizəd seçkilərdə qalib gəlmiş hesab edilir. Lakin bu səs çoxluğu iki növdə ola bilər. I - mütləq çoxluq, II - nisbi çoxluq. I halda səsvermədə iştirak edən seçicilərin 50% + 1 səsini toplamış namizəd qalib hesab edilir. Məsələn: Rusiya qanunvericiliyinə görə prezident və federasiya subyektlərinin rəhbərləri bu qayda ilə seçilir. Əgər namizədlərdən heç biri nəzərdə tutulan səs çoxluğuna (yəni 50% +1) malik olmursa, bu halda iki daha çox səs toplamış namizəd II turda rəqabəti davametdirir, seçkiyə qatılır. II turun qalibi isə səslərin nisbi çoxluğunu əldə etmiş namizəd hesab edilir.

II halda isə səslərin əksəriyyətini əldə etmiş namizəd qalib gəlmiş hesab edilir.

Seçkilərin mojaritar sistemi Azərbaycan respublikasında, İngiltərədə, ABŞ-da, Fransada, Yaponiyada və s. ölkələrdə qüvvədədir və fəaliyyət göstərir.

Hər hansı bir ölkədə bu və ya digər seçki sisteminə üstünlük verilməsi ölkənin siyasi rejiminin xarakterindən, siyasi sistemindən, sosial - etnik tərkibindin, həyata keçirilən dövlət siyasətindən, dövlətçiliyin qərarlaşması prosesində meydana çıxmış müəyyən ənənələrdən asılı olur.

Bir çox Avropa ölkələri isə proporsional seçki sistemini tətbiq edirlər. Proporsional seçki sisteminin mahiyyəti on-

dan ibarətldir ki, hər seçki dairəsindən bir deyil, bir neçə nümayəndə deprutat seçilir ki, onlar da müxtəlif partiyaları təmsil edirlər. Belə seçki sistemi tətbiq edilərkən bir neçə nümayəndənin deputat seçilməsinə daha uyğun şərait yaratmaq üçün kifayət edəcək dərəcədə iri miqyaslı seçki dairələri təşkil edilir. Belə seçkilərdə partiyalar ümumi səslərin qazandıqları faizinə uyğun olaraq seçkili orqanda nümayəndə, deputat yeri əldə edirlər. Bu sistemin tətbiq edildiyi ölkələrdə nisbətən kiçik partiyalar da seçkili orqanlarda nümayəndə yeri əldə edə bilirlər. Avropa ölkələrinin təcrübəsi əsasında daha güclü, nüfuzlu təsir qüvvəsinə malik partiyaların parlamentdə təmsil olunması məqsədi ilə seçki baryeri adlanan prinsip tətbiq edilir. Bu prinspin tələblərinə görə seçkili orqanlarda nümayəndə, deputat yerlərnin bölgüsündə iştirak etmək hüququ müəyyən edilmiş seçki baryerini keçdikdən sonra, konkret müəyyən edilmiş minimum miqdarda səs topladıqdan sonra partiyalar əldə edirlər. Müxtəlif ölkələrdə seçki baryeri seçkilərdə iştirak edənlərin ümumi sayının 1%-dən 18%-nə qədəri təşkil edir.

1891-92-ci illədən İsveçdə, 1893-cü ildən Belçikada, 1906-cı ildən Finlandiyada, 1908-ci ildən İsveçdə bu seçki sistemi tətbiq edilir.

Bir sıra ölkələrdə isə qarışıq mojaritar-proporsional sistem mövcuddur. Məsələn: Almaniyada bundestaqın tərkibinin yarısı bir turda mojaritar sistem əsasında seçilir. Avstraliya nümayəndələr palatası mütləq əksəriyyətin (50%+1) mojaritar sistem əsasında formalaşdırılır, senat isə proporsional nümayəndəlik əsasında seçilir. Rusiyada Dövlət dumasına seçkilərdə qarışıq sistem fəaliyyətdədir: 225 deputat nisbi çoxluq əsasında mojaritar sistemdə, 225 deputat isə siyasi partiya və hərəkatlardan proporsional sistemdə seçilir. Yuxarı Palata - Federasiya şurası ilə seçilmir. Federasiya subyektlərinin rəhbərlərindən və ya onların qanunverici yığıncaqlarının nümayəndələrindən təşkil edilir.



Türkiyə respublikasının 1982-ci il konstitusiyasına əsasən birpalatalı qanunverici orqan təsis edilmişdir. Milli məclis 550 nəfərdən ibarət olub birbaşa, ümumi, bərabər seçkilər əsasında 5 il müddətinə seçilir. Deputatlığa namizədlər müstəqil şəkildə və ya hər hansı bir partiyanın nümayəndəsi kimi qeydə alına bilər. Qarışıq idarəetmə formasının tətbiq edildiyi Türkiyə respublikasında Dövlət başçısı vəzifəsini Böyük Millət Məclisi tərəfindən 7 il müddətinə seçilmiş prezident həyata keçirir. Qüvvədə olan konstitusiyaya görə prezident təkrar seçilmək hüququna malik deyildir, prezident seçildikdən sonra heç bir partiyanın üzvü ola bilməz.

Hər bir seçki sisteminin müsbət və eyni zamanda çatışma-yan cəhətləri vardır.

Mojaritar sistemdə, xüsusən səslərin nisbi çoxluğu ilə müəyyən olunan hallarda bəzi əyintilər meydana çıxır. Məsələn: Əgər müəyyən bir seçki dairəsindən 5 nəfər namizəd qey-də alınmışdır və onlardan bir nəfəri səslərin 30%-ni toplamaqla qalib gəlir. Əhalinin 70%-nin səs verdiyi digər namizədlər isə seçkili orqanda yer qazanmır. Bu qayda ilə davam edən seçkilərdə nəticə etibarilə seçicilərin yarıdan az hissəsinin iradəsini ifadə edən deputatlar seçkili orqanda (parlamentdə) həlledici səs çoxluğuna malik olur. Deməli, mojaritar sistemdə seçicilərin səslərinin itkisi halı baş verə bilir.

Seçkilərin proporsional sistemi daha demokratik seçki sistemi kimi təqdim olunur. Bu seçki sistemində, xüsusən seçki baryerinin ən minimal həddə olan ölkələrdə seçicilərin həllediləcək səs itkisinə, demək olar ki, yol verilmir. Yalnız seçki baryerinin yüksək olduğu hallarda müəyyən qədər səs itkisi mümkün olur (məsələn: 5%-dən yuxarı). Hətta bu hal da seçki baryerinin qoyulmasına haqq qazandırmaq olur, belə ki, cəmiyyətdə ən çox nüfuz sahibi olan partiyalar xalq tərəfindən sanksiya alır. Seçicilər müəyyən proqrama, xalq qarşısında qəbul edilən öhtəliyə səs verirlər. Bu öhtəliklərin yerinə ye-

tirilməsi isə həm seçicilər tərəfindən, həm də səs çoxluğu əldə etmiş partiyanın rəhbər orqanları tərəfindən nəzarətdə saxlanır. Proporsional sistemin nöqsan cəhəti kimi partiyaların çoxalmasına, xırdalanmasına stimul yaratmasını, bu sistemin seçicilərlə namizədlər arasında birbaşa ünsiyyət yarada bilməməsini qeyd edirlər.

Mojaritar və porporsional sistemin müəyyən nöqsanlara malik olduğu üçün bəzi ölkələrdə bu sistemlərin heç birini sırf şəkildə tətbiq etmək mümkün olmur və optimal variant kimi bu sistemlərin hər ikisinin ayrı-ayrı ünsürlərdən istifadə etməklə qarışıq seçki sistemi tətbiq edirlər.

Bütün seçkilər qanunla dəqiq müəyyən edilmiş vaxtda həyata keçirilir. Bu müddət seçki kompaniyası adlanır. Hər bir seçki kompaniyasınn seçkiqabağı tədbirlər təqvimi mövcud olur və bu da qanunçuluqda nəzərdə tutulmuş vaxtı əhatə edir. Bir qayda olaraq seçki kompaniyasının həyata keçirilməsi üçün partiyalar, ayrı-ayrı namizədlər tərəfindən seçkiqabağı qərargahlar yaradılır və həmin qərargahlara bir sıra mütəxəssislər, sərəncam verən şəxs, maliyyə agenti, mətbuat katibi, siyasi təşkilatçı, gündəlik planların tərtibatçısı, texniki katib, namizədin xüsusi köməkçisi və s. daxil olur. Bundan başqa ictimai rəyin öyrənilməsi üzrə mütəxəssislər, kütləvi informasiya vasitələri üzrə məsləhətçilər, vəsait tapması üçün bilgili şəxslər, imicmeykerlər də dəvət edilirlər. Təbliğat - təşviqat tədbirləri, seçicilərlə namizədin görüşü planı işlənib hazırlanır, seçki komissiyalarına namizədin nümayəndələri təyin edilir. Dünya ölkələrinin əksəriyyətində bir qayda olaraq seçki məntəqlərinin açılmasına bir gün qalmış seçkiqabağı təşviqat dayandırılır. Bu isə seçicilərə müstəqil düşünərək, heç bir təsir hiss etmədən kim səs vermək haqqında qərar qəbul etməsi məqsədi güdür.

Seçki kompaniyası aparılmasının üsul və metodlarının hazırlanması, həmçinin müəyyən partiya və ya siyasətçinin imicinin formalaşdırılması eyni zamanda həyata keçirilir.



Seçki kompaniyasının konkret strategiyası əsasən real situasiyaya uyğun əldə olunan resurslarla, kompaniyanın özünün miqyası və bundan doğan digər şərtlərlə müəyyənləşir.

Miqyasına görə seçkilərin ümummilli və yerli seçkilərə ayırmaq olar. Ümummilli seçkilərə parlament və prezident seçkiləri aiddir. Yerli seçkilər isə inzibati ərazi başçıları seçkilərinə (əgər bu, qanunla nəzərdə tutulursa) və bələdiyyə seçkilərinə ayrılır.

Təşkilati-texniki nöqteyi-nəzərdən seçkilər böyük miqdarda iştirakçılara, xeyli maddi və mənəvi resurslara malik çox ciddi bir tədbirdir. Seçkilər namizədin qalib gəlməsi seçki kompaniyasının düzgün təşkil edilməsindən, etibarlı informasiya təminatından - yəni seçkilərin texnologiyasından xeyli dərəcədə asılıdr. Bu texnologiyalar seçki kompaniyalarının keçirilməsinin mərhələlərni, onu təşkil edən orqanların struktrunu, elmi-sosioloji tədqiqatları, monitorinq tədbirlərini, namizədin imicini, təbliğatın təsir vasitələrinin səmərəlilyini dəqiq müəyyən edir. bir qayda olaraq seçki kompaniyaları seçkinin tipindən asılı olmayaraq (prezident, parlament, regional, yerli özünüidarəetmə seçkiləri) eyni mərhələlərə malik olur ki, bunun da hüdudları seçkilər haqqında qanunla (əsasnamə ilə) müəyyən edilir. Həmin mərhələlər əsasən aşağıdakı qaydada mövcud olur:

-seçkilərin keçirilməsi vaxtının müəyyən edilməsi;

-namizədin irəli sürülməsi və onun komandasının formalaşdırılması;

-namizədin müdafiəsi üçün imzaların toplanması;

-namizədin qeydə alınması;

-dairə seçicilərinin sosial-psixoloji və siyasi durumunu müəyyən edən tədbirləri həyata keçirməsi;

-namizədin seçkiqabağı proqramının hazırlanması;

-seçicilərin onunla yaxandan tanış edilməsi;

-namizədin seçicilərlə görüşlərinin və təşviqat-təbliğat

tədbirlərinin planının hazırlanması;

-seçki kompaniyasının monitorinqi;

-namizədin pul fondunun formalaşdırılması, təşkilat-texniki vasitələrin (nəqliyyat, rabitə və s. texniki vasitələr) səfərbər edilməsi;

-səsvermə günü nəzarətin təmin edilməsi səsvermənin gedişi haqqında operativ məlumatın toplanması;

-yekun sosial-siyasi tədqiqatın həyata keçirilməsi;

Bir qayda olaraq mərkəzi hakimiyyət orqanlarına seçkilərin vaxtını dövlət, başçısı, regional orqanlara isə həmin vaxtı regionun qanunverici orqanı müəyyən edir.

Seçkilərin keçirilməsini dövlət sturkturları - seçki komissiyaları, icra hakimiyyətləri, məhkəmələr və prokurorluq təmin edir.

Bir qayda olaraq, seçkilərin nəticələri hər hansı namizədi irəli sürmüş partiya və ya hərəkatın rəhbər orqanlarının icla-sında, təşəbbüs qruplarının yığıncaqlarında müzakirə edilir.



# FƏSİL XII

# SİYASİ ŞÜUR VƏ SİYASİ MƏDƏNİYYƏT

## *§ 1. Siyasi şüur*

Siyasi həyatın subyektiv tərəfi öz əksini siyasi şüurda tapır. Siyasi şüurun cəmiyyətin həyat fəaliyyətində rolunu dəyərləndirmək çox çətin problemlərdəndir. Çünki o, siyasi mövcudluğun passiv şəkildə in'ikası deyildir. Siyasi şüur praktikanı qabaqlaya bilər, ictimai-siyasi prosesin inkişafını proqnozlaşdıra bilər ki, bu da siyasi həyata, cəmiyyətin siyasi mədəniyyətinin dinamikasına müəyyən tə'sir göstərə bilər. Bundan başqa, siyasi davranış, ayrı-ayrı adamların, habelə ictimai-siyasi birliklərin fəaliyyətinin xarakteri siyasi şüurun səviyyəsindən çox asılıdır.

***Beləliklə, siyasi şüur sosial subyektlər (fərd, qrup, icma və s.) tərəfindən siyasi mühitin dərk olunmasıdır.***

Siyasi şüur formaları etik dəyərlərlə sıx bağlıdır.

Siyasi şüurun aşağıdakı funksiyalarını göstərmək olar:

***Tənzimləyici funksiya.*** Siyasi şüur gerçəkliyin qavranılması əsasında insanların sosial davranışını tənzimləyir. Siyasi şüur həmçinin insanların siyasi ideya, norma, təsəvvür və inamlarının məcmusu əsasında sosial davranışın tənzimlənməsində mühüm rol oynayır.

***Dərketmə-mə'lumat funksiyası.*** Müasir dövrün tələblərinə uyğun olaraq hər sahədə olduğu kimi, siyasi sahədə də insan-lar seçim qarşısında qalırlar. Bütün bunlar, istər-istəməz insanları siyasi aləmi dərk etməyə, siyasi mə'lumat əldə etməyə sövq edir. Bu əsasda siyasi şüur siyasi bilikləri və mə'lumatları qavramaqda insanların köməkçisinə çevrilir, onların ictimai-siyasi həyatda öz yerini müəyyən etməsində və düzgün istiqamətlənməsində böyük rol oynayır.

***Dəyərləndirmə funksiyası.*** Siyasi gerçəkliyin dəyərləndirilməsi əsasında insanlar özlərinin siyasi baxışlarını, mövqe

və inamlarını müəyyən edirlər.

***Səfərbərlik funksiyası.*** Bu funksiyanın köməyi ilə siyasi şüur insanları siyasi cəhətdən istiqamətləndirilmiş davranışa, özlərinin sosial-siyasi maraqlarını müdafiə etmək xatirinə ictimai həyatda iştiraka sövq edir.

Siyasi şüur müxtəlif səviyyələrdə və müxtəlif formalarda olur.

Siyasi şüurda aşağıdakı səviyələrini göstərmək olar:

***Dövlət səviyyəsi.*** Bu səviyyədə rəsmi siyasətin əsaslandırılması və hazırlanması həyata keçirilir. Dövlət siyasi münasibətləri müxtəlif qanunyaratma mərhələlərini, proqramların konstruksiyasını və s. tənzimləyir. Bu səviyyədə siyasi şüur mövcud siyasi durumu və idarəetmə prinsiplərini müdafiə edir.

***Nəzəri səviyyə.*** Siyasi şüur müxtəlif növlü siyasi xarakterli konsepsiyaları, ideya baxışlarını əks etdirir. Siyasətin nəzəri səviyyədə dərk olunması imkan verir ki:

a) onun (siyasətin) həm fundamental (strateji), həm də cari (taktiki) məqsəd və vəzifələrini qarşıya qoysun və həll etsin;

b) onların nailiyyətlərinin vasitə və metodlarını müəyyən etsin;

v) yaranmış problemlərin həll olunması dövründə təşkila-ti - siyasi tə'minatın istiqamətini müəyyən etsin;

q) siyasi qərarların və məqsədli proqramların qəbul olunmasında sosial nəzarətin konsentual yanaşmaları hazırlansın;

d) siyasi təcrübə əsasında siyasət təhlil edilsin.

***Empirik səviyyə.*** Bu səviyyədə siyasi şüur təcrübəyə, müxtəlif sosial icmaların siyasi prossesdə iştirakına əsaslanır. Bu səviyyə siyasi gerçəkliyi duyğu, illüziya, təsəvvür və həyəcan formasında əks etdirir.



***Adi səviyyə.*** Bu səviyyə bir tərəfdən empirik səviyyə ilə sıx bağlıdır, digər tərəfdən onunla müqayisədə bir sıra fərqlərə malikdir. Belə ki, empirik səviyyə subyektin praktik sə-viyyəsini xarakterizə edir və yaxud insanlar qurupunun gü-ndəlik ideyalarının, baxışlarının məcmusunu xarakterizə edir. Adi səviyyə empirik səviyyədən onunla fərqlənir ki, o, ideo-loji və nəzəri elementlərə malikdir. Bu səviyyəyə sosial-psixoloji əlamətlər - əhval-ruhiyyə, hiss, emosiya aiddir. Bunun sayəsində o, xüsusi dinamiklik, siyasi şəraitin dəyişməsinə dəqiq reaksiya vermək xüsusiyyətinə malik olur.

Siyasi şüurun iki foması var: xüsusiləşmiş və kütləvi siyasi şüur.

***Xüsusiləşmiş şüur*** bir növ ideoloji şüurdur. Bu formada ən başlıcası ictimai sinfin sıravi nümayəndələrində, sosial qruplarda və s. müəyyən istiqamət və təşəkküllərin yaradılması, inkişafı və həyata keçirilməsidir. Xüsusiləşmiş şüurun daşıyıcıları siyasi partiyalar və digər siyasi təşkilat və birliklərdir.

***Kütləvi siyasi şüur*** bilavasitə cəmiyyətin tələbatının səviyyəsini, məzmununu, həmçinin siyasi gerçəklik haqqında cəmiyyətin dünyagörüşünü əks etdirir. Kütləvi siyasi şüur çox dinamik şüur formasıdır.

Siyasətin işlənib hazırlanması və həyata keçirilməsi insanların fərdi xüsusiyyətlərindən, daha dəqiq desək, onların şüurundan və davranışından çox asılıdır. Aydındır ki, siyasi həyat cəmiyyət həyatının ayrıca bir sferası kimi təşəkkül tapan vaxtdan e'tibarən ictimai şüurun xüsusi bir forması olan siyasi şüur formalaşmış, sosial sistemin özü ilə həmahəng inkişaf etmiş və təkmilləşmişdir. Tarixi təcrübə sübut etmişdir ki, bütün ictimai-iqtisadi formasiyalarda baş verən siyasi hərəkatlar, inqilablar və s. ilk öncə fəlsəfi təsəvvürlərin və ideyaların şüurda baş verən dramatik toqquşması zamanı ortaya çıxmışdır. Digər tərəfdən cəmiyyətin siyasi şüurunu

öyrənmədən real siyasət işləyib hazırlamaq və həyata keçirmək mümkün deyildir.

Tarixən hər bir siyasi sistem müvafiq sosial birlik üzvlərinin davranışına tə'sir göstərməyi daim diqqət mərkəzində saxlamış, bununla da onu siyasi cəhətdən əhəmiyyətli hərəkətlərə, nəzərdə tutulan məqsədələrə doğru yönəltmişdir. Həmin tə'sir mexanizmini öyrənmək, onun formaları və üsullarını aydınlaşdırmaq politologiya elminin əsas məqsədlərindən biri olaraq qalır.

Aydın məsələdir ki, ictimai şüur ictimai varlığın inikasıdır, müvafiq cəmiyyətdə qərarlaşan maddi münasibətlər sisteminin az və ya çox dəyişikliyə uğramış şəkildə həmin sosial birlik üzvlərinin beynində əks etdirilməsidir. Buna uyğun olaraq ictimai şüur, əvvəla, psixoloji səviyyədə və ikincisi isə ideologiya formasında ictimai varlığı əks etdirir. Bu da müəyyən adamlar üçün adi həyat tərzi (adi şüur) kimi. digər adamlar üçün isə ictimai inkişaf qanunlarının dərk edilməsi formasında (nəzəri şüur) həyata keçir. İctimai varlığın in'ikası ayrı-ayrı sosial təbəqələr üçün müvafiq sosial birlik səviyyəsində olur.

Bir növ ikinci dərəcəli hadisə tə'siri bağışlayan. ictimai varlıqdan "asılı olan" ictimai şüur, tarixi təcrübənin dəfələrlə, o cümlədən sovet imperiyasının tarixinin sübut etdiyi kimi, lazımi diqqət yetirilmədikdə, deformasiyaya uğrayır. nəticədə sosial orqanizm normal inkişaf edə bilmir. İctimai şüurun mürəkkəbliyi və özünəməxsusluğu ondan ibarətdir ki, mənşəcə "törəmə" hadisə olmasına baxmayaraq. o. bütövlükdə cəmiyyətdə gedən proseslərə fəal əkstə'sir göstərir. Hətta bir çox hallarda onların gedişi məhz onun vəziyyəti ilə aydınlaşır.

İctimai şüur dedikdə adətən fərdi şüurdan fərqli olaraq. bütövlükdə müəyyən cəmiyyət, sosial qruplar üçün səciyyəvi



olan baxışlar və ideyalar nəzərdə tutulur. İctimai şüur bilavasitə və ya dolayı yolla ayrı-ayrı adamlar tərəfindən yaradılsa da. həmin adamların ixtiyarından çıxaraq bütün cəmiyyətin mə'nəvi sərvətinə çevrilir. Məsələn, elmi kəşflər, ayrı-ayrı şəxslərin zəkasının məhsulu olsa da, bütöv bəşəriyyətə məxsusudur. Cəmiyyət sadəcə olaraq ayrı-ayrı fərdlərin məcmusu olmadığı kimi ictimai şüur da müxtəlif şəxslərin şüurlarının toplusu deyildir. İctimai şüur daha dərin bir məzmuna malik olub, keyfiyyətcə xüsusi bir mə'nəvi sistemdir. Bu sistem nəticə e'tibarilə ictimai varlıqdan asılı olub onun in'ikası olsa da, nisbi müstəqilliyə malikdir. O, ictimai inkişafa tə'sir edən fəal, güclü amildir.

İctimai şüurun strukturunda adi şüur və nəzəri şüur səviyyələri fərqləndirilməlidir. Adi şüur insanların gündəlik praktiki həyat fəaliyyətindən meydana gələn ideyalar, təsəvvürlər və baxışların məcmusudur. Gerçəkliklə, həyatla əlaqə nəticəsində formalaşan adi şüuru fərdi şüurla eyniləşdirmək doğru olmazdı. Adi şüurun başlanğıc nöqtəsi təkcə şəxsiyyət deyil, həm də böyük sosial qruplardır. O, özündə bilavasitə empirik təcrübəni və biliyi, insanlar arasında təşəkkül tapan əxlaq normalarını, insanın təbiət və öz sosial vəziyyəti haqqında kortəbii təsəvvürlərini birləşdirir. Adi şüurun sosial-psixoloji cəhətləri cəmiyyətin sosial şəraitinin tə'siri altında formalaşır və dəyişir.

Nəzəri şüur adi şüurun mühüm əlaqələrinin və qanunauyğunluqlarının in'ikası olub, öz ifadəsini elmdə və başqa şüur formalarında tapır. Nəzəri və adi şüur bir-biri ilə sıx bağlıdır. Onlar bir-birini əvəz edə bilməz, bir-birinə qarşılıqlı tə'sir göstərə bilər.

İctimai şüurun aşağıdakı formalarını göstərmək olar: siyasi, hüquqi, əxlaqi, estetik, dini, ekoloji, fəlsəfi şüur və s. İctimai şüurun bu formalarının hər birinin təşəkkül tapması

və bərqərar olması yalnız əks etdirdikləri ictimai həyat sferasının deyil, həm də ictimai şüurun digər formalarının birbaşa tə'siri altında baş verir. Bu formaların bir-birindən ayrılıqda nəzərdən keçirilməsi yalnız abstraksiyalarda, fikri ümumiləşdirmələrdə mümkündür. Real həyatda isə onlar, sosial orqanizmdə baş verən müxtəlif səviyyəli proseslərin özləri kimi, qarşılıqlı surətdə, çulğalaşmış şəkildə mövcud olur, birbirinə fəal təsir göstərir.

İqtisadi dəyişiklərin xarakterini və sür'ətini xeyli dərəcədə iqtisadi şüur müəyyən edir; bu dəyişikliklər isə, öz növbəsində, siyasi münasibətlərin dəyişilməsinə gətirib çıxarır. Həmin proses siyasi şüurda öz əksini tapır. Burada siyasətdən kənar kimi görünən fəlsəfi şüur da siyasi şüura mühüm tə'sir göstərir. Siyasət elm kimi fəlsəfənin metodoloji, sənət kimi isə onun dünyagörüşü funksiyasına müraciət edir.

İctimai şüurun ictimai varlıqla nisbəti məsələsinin marksist şərhində bütövlükdə səmərəli cəhətlər az deyildir. Lakin əslində nəzəriyyədə, daha çox isə real praktikada bu nisbət ictimai varlığın xeyrinə yozulmuş, onun rolu həddindən artıq şişirdilmişdir.

K.Marks ictimai şüurla ictimai varlığın qarşılıqlı münasibəti məsələsində ictimai varlığa daha ciddi fikir vermiş, ictimai şüuru isə ikinci dərəcəli hesab etmişdir. V.İ.Lenin ictimai şüur məsələsində həmişə "sinfi mübarizə" prinsipini əsas götürərək, ortodoks marksist kimi çıxış etmişdir.

Totalitar rejim sosializm quruculuğu illərində ictimai şüurun digər formalarını siyasətin qurbanı etmiş, eyni zamanda həmin siyasəti həyata keçirənlərin özləri müəyyən mə'nada rəhbər tutduqları ideologiyanın qurbanı olmuşlar. Yetmiş ildə nəhəng bir dövlətin ərazisində siyasi şüurun öyrənilməsi ideoloji ştamplara tabe etdirilmiş, ehkam halına salınmışdır; metodoloji müddəalar bir çox cəhətdən elmi



tədqiqatların nəticələrini irəlicədən müəyyən etmişdir. Bu dövrdə cəmiyyətin siyasi şüurunun real vəziyyəti geniş kütlələr, hətta mütəxəssislər üçün də gizli qalmış, empirik tədqiqatların nəticələri mə'lum ideoloji ehkamlara uyğunlaşdırılmışdır.

SSRİ kimi nəhəng bir imperiyanın dağılması ilə onun yerləşdiyi ərazidə ictimai şüurun təkamülü yeni amillərlə üzləşməli oldu. Burada baş verən proseslər ictimai şüurun formalarına tə'sirsiz qalmadı. Sovetlər birliyində yaşayan insanlar üçün dünya sivilizasiyasına qovuşmaq şəraiti yarandı. Xalqların suverenlik və müstəqillik uğrunda mübarizəsi kimi mütərəqqi bir hərəkat eyni zamanda cinayətkarlıq, milli-etnik münaqişələr, əxlaqa və hüquqa zidd hadisələrlə müşayiət olunmağa başladı. Şüurların siyasiləşməsi adi hal aldı və beləliklə, siyasi şüurun öyrənilməsi günün aktual vəzifəsinə çevrildi. Siyasi şüurun ideoloji və kütləvi şüur səviyyələrinin, habelə reformist, inqilabi, mühafizəkar, liberal və s. tiplərinin məzmununu açıqlamaq ciddi əhəmiyyət kəsb etdi. Lakin hələ də əhalinin müəyyən qismində siyasi şüurun formalaşması haqqında bəsit təsəvvürlər qalmaqdadır. Empirik tədqiqatlar siyasi şüuru öyrənərkən çox vaxt birölçülü me'yarlardan istifadə edir ki, bu da e'tibarlı nəticələr vermir. Bu da müstəqilliyə qədəm qoyduğumuz bir dövrdə respublikamızda baş verən siyasi dəyişikliklər praktikasını, kütləvi siyasi şüurun bütün xüsusiyyətlərini siyasi sosiologiya metodları ilə qeydə alıb öyrənməyi tələb edir.

***Siyasi şüur siyasi reallıqların dərk edilməsi sayəsində meydana gələn inam, e'tiqad, baxışlar, dəyərlər və onlara əsaslanan siyasi mövqe ilə ictimai rə'yin məcmusu şəklində fəaliyyət göstərir, siyasi prosesin mühüm hissəsi kimi çıxış edir.*** Başqa cür desək, siyasi şüur sosial gerçəkliyin siyasətlə bağlı hissəsinin subyekt tərəfindən qavranılması, siyasi sistemin onun

üçün subyektiv obrazıdır. Siyasi şüur ən əvvəl kütləvi siyasi şüur səviyyəsində formalaşır, sonra fərd onu özününküləşdirir və özünü bu və ya başqa siyasi mövqe ilə eyniləşdirir.

Siyasi şüur insanın obyektiv şəkildə cəmiyyətdə tutduğu mövqeyə reaksiyası və bu mövqeyə münasibətə uyğun olaraq fəaliyyət forması seçmək üsulu kimi dərk edilməlidir. Bu dərk edilmə siyasi şüurun passiv tərəfidir. Siyasi şüurun fəal rol oynamaq imkanları da vardır; siyasi həyatın dəyişdirilməsi prosesi bu qəbildəndir.

Müvafiq hadisə haqqında təsəvvürlərin formalaşması çox vaxt siyasi informasiyadan asılıdır. Bu nöqteyi-nəzərdən totalitar rejim şəraitində bizdə informasiyaya inamsızlıq yaranmışdır və hələ də xeyli dərəcədə davam edir. Bə'zi kütləvi informasiya vasitələrinin verdikləri yalan mə'lumatlar fərdlərin siyasi şüurunda bir müddət kök sala bilir. Buna çoxlu misal göstərmək olar. Məsələn, Moskvanın və Ermənistanın informasiya vasitələrinin Qarabağın dağlıq hissəsində baş verən hadisələr haqqında yaydıqları yalan və böhtanlar dünya ictimaiyyətində xalqımıza qarşı qeyri-obyektiv rə'y formalaşdırmışdır. Ona görə də Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün gərgin əmək sərf etmək lazım gəldi. Bu işdə demək olar ki, son zamanlar müəyyən nailiyyətlər əldə edilmişdir.

Fərdin siyasi davranışı onun siyasi şüuru ilə bilavasitə bağlıdır. Bu səbəbdən insanın fəaliyyəti nə qədər mürəkkəbləşirsə, onu in'ikas etdirən şüur da bir o qədər əhəmiyyətli olur. Sosial birlik öz üzvlərinin davranışına diqqət yetirərək, siyasi cəhətdən əhəmiyyətli hərəkətləri müvafiq məqsədlərinə doğru istiqamətləndirir. Məhz bu baxımdan siyasi partiyalar, təşkilatlar, hərəkatlar müəyyən siyasi hadisələr zamanı (məsələn, seçkilər, referendum və s.) insanların siyasi davranışını istiqamətləndirmək məqsədilə onların şüuruna tə'sir göstərməyə çalışırlar.



Yadda saxlamaq lazımdır ki, vətəndaşın siyasi davranışına bu cür tə'sir birtərəfli xarakter daşımır. İnsan sosial hadisələri öz şüur və dünyagörüşü səviyyəsinə uyğun qavrayır, dərk edir. Bildiyimiz kimi, bə'zən seçkilər zamanı boş-boş və'dlər verən gələcək deputatlar, bələdiyyələr və başqaları vətəndaşların siyasi şüuruna məqsədyönlü tə'sir göstərmək üçün müxtəlif manevrlərə əl atırlar. Onlar vətəndaşlara seçicilərə müəyyən müvəqqəti yardımlar edirlər ki, istədiklərini kürsüdə əyləşə bilsinlər. Siyasi şüurun istiqamətlənməsi kortəbii və yaxud şüurlu xarakter kəsb edə bilər. Lakin XX əsrdə aparılan emprik tədqiqatlar sübut edir ki, insanlar əksər hallarda siyasi proseslərdə kortəbii şəkildə iştirak edirlər.

Siyasi şüurun formalaşması və təzahürü müxtəlif xüsusiyyətlərə malikdir. İnsanların hakimiyyətə, siyasi reallıqlara öz mə'nafelərinin reallaşmasından irəli gələn baxışları, inam və e'tiqadları həm fərdi, həm də qrup xarakteri daşıyır. Siyasi şüurda fərdi şəkildə formalaşma o zaman baş verir ki, vətəndaş öz mənafelərinə uyğun şəkildə münasibətlərini qurur və *konkret mövqe seçir. Siyasi şüurun kollektiv* qaydada meydana gəlməsi də tələbat və mənafelərin dərk edilməsi ilə bağlıdır. Kollektiv ideya və baxışlar formasında meydana gələn siyasi şüur çox zaman insanların bilavasitə tələbatları ilə əlaqədar olmur, onlara kənardan qəbul etdirilir. Bu zaman siyasi şüur obyektiv reallıqdan, şəxsiyyətin tələbatı isə ictimai tələbat kimi reallaşmaqdan sanki uzaqlaşır.

Yuxarıda qeyd etdiyimiz kimi, siyasi şüur mahiyyət e'tibarilə mə'nəvi hadisədir. Siyasi şüurun əsasını insanların siyasi reallıqları dərk etməsində təşəkkül tapan inam, e'tiqad və baxışlar sistemi təşkil edir. Siyasi fəaliyyətin və siyasi reallıqların obrazının yaradılması siyasi şüurun mühüm xüsusiyyətidir. Lakin siyasi şüurun təkamülü uzunmüddətli prosesdir; cəmiyyət gözləyə bilməz ki, hər bir insan siyasi cəhət-

dən yetkinləşsin. Buradan da cəmiyyətin hər bir üzvündə yüksək siyasi mədəniyyət tərbiyə etmək vəzifəsi meydana çıxır.

## § 2. Siyasi mədəniyyət

"Siyasi mədəniyyət" termini elmə ilk dəfə XVIII əsrdə alman filosofu İ.Herder tərəfindən gətirilmişdir. Lakin müasir politologiyada siyasi mədəniyyət probleminin ilk tədqiqatçıları Amerika politoloqları Q.Almond və S.Verba sayılır. Amerika alimləri 1963-cü ildə yazdıqları "Vətəndaş cəmiyyəti" əsə-rində ABŞ, Böyük Britaniya, Almaniya, Hindistan və Yuqo-slaviya ölkələrinin təcrübəsini ümumiləşdirərək. politologiyada yeni bir istiqamətin əsasını qoydular. Onlar adı çəkilən həmin ölkələrin vətəndaşlarına eyni sualı verməklə onların siyasi mədəniyyət səviyyəsini müəyyən etmək istəmişlər. Nəticədə müəyyən olunmuşdur ki, ABŞ və Böyük Britaniya sabit, Al-maniya, Yuqoslaviya və Hindistan isə qeyri-sabit dövlətlərdir. Onlar nəyə əsaslanmışlar? Onlar cavabları ümumiləşdirərək, belə bir nəticəyə gəlmişlər ki, demokratik rejim hər şeydən əvvəl yüksək siyasi mədəniyyət tələb edir.

Müasir politoloqlar siyasi mədəniyyət anlayışına psixoloji, sosial psixoloji, normativ, kompleks, ümumiləşdirici, aksioloji və evristik mövqelərdən yanaşırlar.

Q.Almondun adı ilə bağlı psixoloji yanaşma məktəbi siyasi mədəniyyəti sosial-siyasi proseslərlə istiqamətlənən psixoloji amil hesab edir.

***Sosial psixoloji mövqe*** siyasi mədəniyyəti müəyyən çərçivəyə salınmış davranış norması kimi qiymətləndirir.

***Normativ yanaşmada*** (D.Pol, L.Pay və başqaları) siyasi mədəniyyət siyasi sistem tərəfindən qəbul edilən siyasi davranış nümunələri və normaları kimi səciyyələndirilir.

***Kompleks, ümumiləşdirici yanaşma*** siyasi mədəniyyəti siyasətdə baş verən proseslərlə məhdudlaşdırır.

***Aksioloji yanaşma*** siyasi mədəniyyəti həm müsbət, həm də mənfi dəyərlərin məcmusu hesab edir.

***Evristik yanaşmaya*** görə isə siyasi mədəniyyət fərziyyəyə əsaslanan mədəniyyətdir.

Siyasi mədəniyyətin formalaşdırılması hər şeydən əvvəl siyasi şüurun tərbiyə olunmasıdır. O, özündə şüur, siyasət və mədəniyyətin əlamətlərini birləşdirir. Siyasi mədəniyyət bir sistem kimi götürülən mədəniyyətin nisbi müstəqil komponentidir. Mədəniyyət sistemində siyasi mədəniyyətin xüsusi yeri onun siyasətlə bağlı olması ilə şərtlənir. Adamların siyasi mədəniyyəti onların siyasi şüuru ilə vəhdət təşkil edir.

***Siyasi mədəniyyət vətəndaşların siyasi təcrübə ilə şərtlənən fəaliyyətini və davranışını, ümumi əhəmiyyət kəsb edən siyasi biliklərin səviyyəsini və xarakterini səciyyələndirir.*** Başqa sözlə desək, siyasi mədəniyyət bu və ya başqa bir fərdin, milli, yaxud siyasi birliyin siyasət dünyası, onun qanunauyğunluqları və fəaliyyət qaydaları haqqında təsəvvürlərinin məcmusudur. Siyasi mədəniyyətdə yalnız real hərəkətlər və tədbirlər deyil, eyni zamanda onların geniş xalq kütləsi tərəfindən qavranılması və qiymətləndirilməsi mühüm əhəmiyyətə malikdir.

Əhalinin əksəriyyətinin qəbul etdiyi sərvət-normativ sistem siyasi mədəniyyəti siyasi birlikdə şərh etməkdir. Buraya inamlar, məqsədlər, mənafelər, simvollar və siyasi praktikanın qüvvədə olan normaları daxildir.

Siyasi sistemdə siyasi mədəniyyət əhəmiyyətli rol oynayır. Siyasi tə'sisatlar mədəniyyətin məzmununa və təzahürünə güclü tə'sir göstərə bilir. Lakin bu o demək deyildir ki, cəmiyyətin siyasi sistemi ilə siyasi mədəniyyət arasındakı siyasi həyatın yarımsistemləri olduğuna görə bunların arasında fərq dərkolunmazdır. Siyasi mədəniyyət və siyasi sistem bir-birindən ayrılıqda mövcud ola bilməz. Siyasi sistemdə siyasi mədə-

niyyətin fəaliyyəti siyasi münasibətlərin xarakteristikası kimi özünü göstərir.

Demokratik sistemdə cəmiyyətdə müxtəlif təşkilatlar, sosial qruplar, sosial təbəqələr, dini, gənclər və digər peşə assosiasiyaları mövcud olur. Bundan başqa, burada öz mənafelərini qarşılıqlı münaqişələrə, bir-biri ilə toqquşmalar və əməkdaşlıq şəraitində müdafiə edən müxtəlif demokratik klublar və qruplar da fəaliyyət göstərir. Belə şəraitdə göstərilən fəaliyyət sosial plüralizm adlandırılır. Siyasi tə'sisatların və partiyaların, müxtəlif cərəyanların və mövcud olduğu siyasi sistem plüralizm kimi xarakterizə olunur. Sosial plüralizm siyasi plüralizmi müdafiə edir və formalaşdırır.

Siyasi mədəniyyəti təşkil edən sərvətlər siyasi sistemin formalaşmasına və inkişafına imkan yaradır. Cəmiyyət üzvləri mədəni sərvətləri nə qədər dərindən mənimsəsələr, cəmiyyətdə bir o qədər sabitlik olar. Siyasi fəaliyyət mədəniyyətinin özü elə bütövlükdə siyasi mədəniyyətdir. Siyasi mədəniyyətin subyekti cəmiyyət, sinif, qruplar, tə'sisatlar və şəxslərdir. O, eyni zamanda cəmiyyətin siyasi həyat tərzinin fəal tənzimləyicisidir.

Biliklər, inam və fəaliyyət siyasi mədəniyyətin strukturuna daxildir. Siyasi mədəniyyətin strukturuna uyğun olaraq, əsas mərhələləri ayırd etmək olar. Bunlar idrak, praktika və sərvətlərdir ki, o da substansional və funksional məqamlarda yaranır. Biliklərdə, ən'ənələrdə, vərdişlərdə təcəssüm edən müəyyən siyasi təcrübə substansional məqamda, siyasi sərvətlərin hərəkəti isə funksional məqamda özünü göstərir.

Siyasi strukturlar bir tərəfdən siyasi mədəniyyətin in'ikas məhsullarıdır, digər tərəfdən isə onlar siyasi mədəniyyəti formalaşdıran başlıca amillərdir. Siyasi mədəniyyətin inkişafı və dəyişilməsi imkanları ilk növbədə onun mövcud siyasi sistemlə, eyni zamanda başqa amillərlə qarşılıqlı tə'sirdə olması ilə əlaqədardır. Siyasi mədəniyyət mövcud siyasi sistemə uyğun gələ, yaxud gəlməyə bilər.

Politologiyaya dair bə'zi ədəbiyyatlarda siyasi mədəniyyətin



strukturu aşağıdakı kimi verilir: dünyagörüşü, ictimai-siyasi hadisələri qiymətləndirmə və hakimiyyətə münasibət. Dünyagörüşü fərdi və kollektiv sərvətlərə münasibəti, zorakılığa və azadlığa münasibəti və yaxud başqa bir ideologiyanı qəbul etməyi və ya rədd etməyi səciyyələndirir. İctimai-siyasi hadisələri qiymətləndirmə insanların müxtəlif siyasi hadisələrə nüfuz etmək qabiliyyətidir, siyasi hadisə və prosesləri obyektiv mövqedən təhlil etmək və onu əks etdirmək qabiliyyətidir. Dövlətin şəxsiyyət üzərində üstünlüyünü və ya şəxsiyyətin hüquqlarının dövlətin hüquqlarından aliliyini hakimiyyətə münasibət strukturunda görmək mümkündür.

Siyasi mədəniyyətin formalaşmasında siyasi davranış da mühüm rol oynayır. Onlar bir-biri ilə sıx əlaqədədir. Siyasi davranış siyasi mədəniyyətin ilkin əsasını təşkil edir. Siyasi mədəniyyət siyasi davranışsız mövcud ola bilməz. Siyasi mədəniyyət siyasi sistemdə davranış normalarını xeyli dərəcədə müəyyən edir. Siyasi davranışın başlıca prinsipləri, siyasi normalar və ideallar da siyasi sferanın tamlığını və birliyini tə'min edir və siyasi mədəniyyətdə reallaşır.

Siyasi mədəniyyətin əsasını sosial gerçəkliyin hadisə və proseslərinə elmi cəhətdən əsaslandırılıb qiymət verilməsi, ictimai inkişaf qanunlarını dərindən bilmək, siyasi baxışların, təsəvvürlərin və ideyaların vəhdəti, mövcud cəmiyyətin hüquq və vəzifələrinə, nəsillərdən gələn ən'ənələrə və gündəlik sosial-siyasi təcrübənin mənimsənilməsi tələbatına yiyələnmək təşkil edir. Siyasi mədəniyyətin fəaliyyət dairəsi cəmiyyətin bütün siyasi həyatını, eyni zamanda siyasətlə iqtisadiyyatın, siyasətlə hüququn və siyasətlə mə'nəviyyatın qarşılıqlı əlaqə və tə'sir sahəsini səciyyələndirir.

Siyasi mədəniyyətin spesifikliyini göstərən bir çox əlamətlər mövcuddur. Həmin əlamətlər aşağıdakılardır:

*1. Hakimiyyətə münasibət;*

*2. Siyasi fəaliyyət davranışı;*

*3. Vətəndaşların siyasi qərarların qəbul edilməsi prosesinə tə'sir etmək imkanı;*

*4. Cəmiyyətin siyasi əhval-ruhiyyəsi.*

Sosial hadisə və prosesləri siyasi cəhətdən qiymətləndirmədə, siyasi təfəkkürün formalaşmasında siyasi mədəniyyətin funksiyalarının mühüm yeri vardır. Politoloqlar siyasi mədəniyyətin aşağıdakı funksiyalarını göstərirlər:

*1. Siyasi yönüm funksiyası*-mövcud siyasi sistemdə vətəndaşların öz hüquq və azadlıqlarını reallaşdırmasını ifadə edir.

*2. Sosiallaşma funksiyası*-fərd siyasi hadisələrin mahiyyətini dərk edərək, müəyyən siyasi sistemdə öz yerini, siyasi davranış norma və vərdişlərini müəyyənləşdirir.

*3. Uyğunlaşma funksiyası*-insanların öz hüquqlarını və idarə-etmə səlahiyyətlərini həyata keçirmək şəraitini səciyyələndirir.

*4. Qovuşma funksiyası*-siyasi sistem daxilində müxtəlif yönümlü siyasi qüvvələrin yanaşı yaşamasını və cəmiyyətin bütövlüyünü tə'min edir.

*5. Eyniləşdirmə funksiyası*-insanın yaşayıb fəaliyyət göstərdiyi cəmiyyətin mənafeyini müdafiə etməsini və siyasi sferada münasib üsullara yiyələnməsini xarakterizə edir.

*6. Əlaqələndirmə funksiyası*-hamılıqla dərk edilən qaydaların, normaların və stereotiplərin tətbiq edilməsi vasitəsilə hakimiyyət tə'sisatlarının və siyasi fəaliyyət subyektlərinin qarşılıqlı əlaqəsinin tə'min edilməsidir.

Bütün ölkələr və xalqlar üçün yeganə siyasi mədəniyyət mövcud deyildir. Siyasi mədəniyyətin tiplərinin müəyyən olunmasında müxtəlif ölkələrin və xalqların siyasi mədəniyyətinin qiymətləndirilməsi çox mühüm şərtdir. Bu və ya digər millətin, xalqın siyasi mədəniyyətinin təşəkkülü və inkişafı bir sıra obyektiv və subyektiv xarakterli sosial, təbii amillərin tə'sirinə mə'ruz qaldığı üçün, siyasi mədəniyyətin tiplərinin təsnifatı bir me'yar əsasında izah oluna bilməz.

Siyasi mədəniyyətin tiplərinin təsnifatı ictimai-tarixi, coğrafi, milli, mə'nəvi, dini və sair amilləri nəzərə almaq əsasında mümkündür.



Siyasi mədəniyyətin ayrı-ayrı ölkələrdə geniş yayılmış norma və prinsiplər əsasında ona daxilən aid olan xüsusiyyətləri əks etdirməklə müxtəlif tiplərini politologiyada ilk dəfə daha dolğun S.Verba və Q.Almond göstərmişlər. Bunlar pat- riarxal, vətəndaşlıq və tabelik-itaətetmə mədəniyyətidir.

Patriarxal siyasi mədəniyyət onunla səciyyələnir ki, cəmiyyətdə vətəndaşlar nə siyasi həyata, nə də idarəçiliyin nəticələrinə heç bir maraq göstərmirlər.

Vətəndaşlıq siyasi mədəniyyətində cəmiyyət üzvləri hakimiyyətin fəaliyyəti ilə öz mənafeləri arasında əlaqəni dərk edirlər. Burada fərdlər həm siyasi sistemə maraq nümayiş etdirir, həm də siyasi proseslərdə fəal iştirak edirlər. Məhz elə buna görə də bə'zən siyasi mədəniyyətin bu tipinə fəal siyasi mədəniyyət deyilir. S.Verba və Q.Almond iddia edirlər ki, vətəndaşlıq siyasi mədəniyyət tipi İngiltərədə və ABŞ-da əsas yer tutur. Onlar bunu əsas tuturlar ki, cəmiyyət üzvlərinin azadlığı ilə siyasi sistemin sabitliyinin üzvi surətdə əlaqələndirilməsi bu iki ölkədə daha çox tə'min olunur.

Tabelik-itaətetmə siyasi mədəniyyətini səciyyələndirən əsas cəhət odur ki, cəmiyyətdə vətəndaşlar siyasi hakimiyyətə, onun fəaliyyətinə müəyyən maraq göstərirlər, lakin burada siyasi fəallıq güclü deyildir. Siyasi mədəniyyətin bu tipi inkişaf etmiş kapitalist ölkələrində yayılmışdır. Tabelik-itaətetmə siyasi mədəniyyət tipinə təbəəçi siyasi mədəniyyət də demək olar.

İngilis-amerikan siyasi sistemini və siyasi mədəniyyətini Verba və Almond beynəlxalq etalon kimi təqdim etməyə çalışırlar. Bu siyasi mədəniyyət əhalinin orta təbəqələrinin vəziyyəti baxımından araşdırılmışdır. Həmin təbəqələrin maddi tə'minatı məqbul olduğu üçün onların mənafeləri mə'lum məsələdir ki, müdafiə olunur, məhz buna görə də orta təbəqələrin siyasətdə iştirakı siyasi sistem daxilində nor-

malara uyğun gələn amil kimi tədqiq olunur. İstər ABŞ-da, istərsə də İngiltərədə siyasi sistemin fəaliyyətinin milli mənafelərin və fərdi mənafelərin maksimum nəzərə alınması istiqamətinə yönəlməsi siyasi sistemdə fərdlər arasında qarşılıqlı anlaşmanı tə'min etmişdir. Eyni zamanda burada insanların fərdi azadlığı ilə siyasi sistemin sabitliyi arasında sıx əlaqə formalaşmışdır.

S.Verba və Q.Almond ingilis-amerikan siyasi mədəniyyətinin əsas dəyərlərini aşağıdakı kimi səciyyələndirirdilər: xalqın rifahı və cəmiyyətin sabitliyi, mərkəzləşdirilmiş rəhbərlik, hökumətin fəaliyyətinin məhdudlaşdırılması və başlıcası ümumi rifah və azadlıq naminə fəaliyyət göstərən idarəetmə sisteminin olması.

Siyasi nailiyyətin qeyd etdiyimiz üç əsas tipi ilə yanaşı Q.Almond digər tiplərin də mövcudluğunu irəli sürür. O, homogen (yekcins), qarışıq, natamam və totolitar siyasi mədəniyyət tiplərinin formalaşmasını göstərir. Bunların içərisində homogen siyasi mədəniyyət tipi ABŞ-da və İngiltərədə və anqlosaks ölkələrdə daha çox yayılmışdır. Natamam siyasi mədəniyyət siyasi qaydalara münasibətdə müxtəlif sosial qruplar arasında zəruri konsensusun zəif olması ilə səciyyələnir; bundan başqa natamam siyasi mədəniyyətdə baxışları bir-birinə uyğun gəlməyən etnik qruplar fəaliyyət göstərirlər. Bu özünü daha çox İtaliya, Fransa və Balkan ölkələrində biruzə verir.

Alman totalitar siyasi mədəniyyəti homogen siyasi mədəniyyət tipinə oxşayır; fərq isə ondadır ki, burada yekcinslik daha yekrəng xarakter daşıyır.

Amerika politoloqu D.Elizar siyasi mədəniyyət tipini ayırd edir: ***fərdi, ən'ənəvi və əxlaqi.***

Y.Vyatrin 1979-cu ildə çap olunmuş "Siyasi münasibətlərin sosiologiyası" kitabında siyasi mədəniyyətin üç başlıca tipi göstərilmişdir:

***1. Ən'ənəvi siyasi mədəniyyət.***



***2. Silki demokratiyanın siyasi mədəniyyəti.***

***3. Kütləvi siyasi mədəniyyət.***

Ən'ənəvi siyasi mədəniyyətin bir neçə əsas prinsipi mövcuddur: hakimiyyətin müqəddəsliyinin dərk edilməsi; təbəələrin və hakimiyyətin ən'ənəvi münasibəti qorumaları; siyasi sistemin daim dəyişməz olduğunun qəbul edilməsi prinsipi.

Ən'ənəvi siyasi mədəniyyət üçün səciyyəvi olan üç əsas əlaməti göstərmək olar: ***Birincisi,*** siyasi mədəniyyətin fəaliyyət göstərdiyi siyasi sistemlərdə qəbilə başçısının toplantılarda və s. yerdə davranışının xalq və kütlə tərəfindən yüksək səviyyədə qəbul edilməsidir. ***İkincisi,*** hakimiyyəti idarə edən şəxsin Allah kimi qəbul olunmasıdır. ***Üçüncüsü,*** kütlə ölkənin hökmdarını mütləq mə'nada özünün ağası kimi qəbul etməlidir. Bu məqamları əsas tutaraq, ***1-cisi,*** ən'ənəvi qəbilə siyasi mədəniyyəti, ***2-cisi,*** ən'ənəvi dini (teokratik) siyasi mədəniyyət, ***3-cüsü*** isə ən'ənəvi despotik siyasi mədəniyyət növünü ayırd etmək olar.

Y.Vyatr silki demokratik siyasi mədəniyyəti orta əsrlər dövrünə aid etsə də, onun ilk əsasının antik yunan və Romada patris mədəniyyəti olduğunu göstərmişdir. O, yeni dövr siyasi mədəniyyətini kütləvi siyasi mədəniyyət hesab edir; burada demokratik və avtokratik siyasi mədəniyyət növləri seçilir.

Demokratik siyasi mədəniyyətə vətəndaşların siyasi işə cəlb olunması, insan hüquq və azadlıqlarının tə'min edilməsi, azad fikrin və siyasi plüarizmin müdafiə edilməsi aiddir.

Demokratik siyasi mədəniyyətin əksi hesab olunan avto-kratik siyasi mədəniyyət iki formada özünü göstərir: ***1) avtoritar və 2) totalitar.***

Avtoritar siyasi mədəniyyətdə əsas diqqət mərkəzində siyasi sistem deyil, siyasi lider olur. Parlament siyasi liderin istəyinə uyğun təşkil olunur. Müxtəlif tə'sisatlar əsasən siyasi liderin iradəsini ifadə edir.

Totalitar siyasi mədəniyyətin avtoritar siyasi mədəniyyətdən fərqli cəhəti əsasən ondan ibarətdir ki, burada demokratik pərdə arxasında zor tətbiq olunur. Bu halda Sovet dövrünü xatırlamaq kifayətdir.

Siyasi mədəniyyətin tipləri insanın bu və ya digər keyfiyyətlərinin hakimiyyətin bütün strukturlarının və tə'sisatlarının tə'siri altında formalaşdığını sübut edir. Eyni zamanda həmin strukturlar və tə'sisastlar siyasi mədəniyyət normalarını, prinsiplərini və sərvətlərini özündə əks etdirir.



# FƏSİL XIII

# SİYASİ İDEOLOGİYA

## *§1. Siyasi ideologiya anlayışı*

İdeologiya termini qədim yunan sözü olub "ideya", "obraz" haqqında elm deməkdir. İdeologiya cəmiyyətin və ya sosial hərəkatın müxtəlif təbəqələrinin maraqlarını, dünyagörüşünü, ideallarını ifadə edən ideyalar sistemidir. İdeologiya termini XIX əsrin əvvəllərində fransız filosofu və iqtisadçısı A.Destyut de Trasi (1734-1836) tərəfindən elmə gətirilmişdir. O, ideologiyanı ideyalar haqqında elm kimi işlətmişdir. Fransız alminin fikrincə ideologiya hissi təcrübədən yaranan ideyaların meydana gəlməsi və inkişafı haqqında elmdir. Sonralar insan maraqlarına xidmət etməyən "təmiz ideyalar" haqqında təsəvvürlər yararsız hesab edilmişdir. Belə olduqda ideoloqlar cəmiyyətdə sabitliyin qorunub saxlanılmasında sosial illüziyaların, miflərin, dini ideyaların əhəmiyyətini önə çəkmiş, ideyaların cəmiyyətə tətbiq edilməməsini siyasi sadəlövhlük adlandırmışlar. Müasir sosioloji cərəyanlara görə, ideologiya kollektiv inam və düşüncə səviyyəsinə qalxmış fikir və ideyaların məcmusudur. Onun siyasi cəhəti sosial gerçəkliyə spesifik münasibət ifadə edilməsində üzə çıxdığından, ideologiyanın təsvir etdiyi gerçəkliyə uyğunluğu tam olmaya bilər və hətta ideologiya gerçəkliyi təhrif edə bilər. K.Manheym ideologiyanı reallığı qeyri-adekvat əks etdirən ideyalar məcmusu sayırdı. Siyasi ideologiyanın mövcudluğu və funksional mahiyyəti onun siyasi şüurun bir forması olmasında öz ifadəsini tapır. Siyasi ideologiyanın məzmununu müəyyənləşdirən əsas cəhət ideologiyanın hakimiyyət münasibətlərinə güclü təsir göstərməsidir. İdeologiya bu və ya digər qrupun hakimiyyət iddialarına haqq qazandırmağa istiqamətlənmiş ideya və fikirlər məcmusu kimi ortaya çıxır. Siyasi ideologiya elə bir doktrinadır ki, bu və ya digər insan qrupunun hakimiyyət iddialarını əsaslandırmağa, buna müvafiq

olaraq ictimai fikri öz mənafelərinə tabe etdirməyə yönəldilmişdir.

İdeologiya siyasi, fəlsəfi, sosioloji, iqtisadi, əxlaqi, dini, bədii və digər görüşlər sistemidir. İctimai şüur mürəkkəb sosial fenomendir, özünün spesifik strukturu və müxtəlif konkret formaları vardır. Alimlər ictimai şüurun əsas struktur komponentləri kimi ictimai psixologiyanı, ideologiyanı və elmi-nəzəri şüurun müxtəlif formalarını ayırırlar. İctimai psixologiya özündə insanların emosiya, əhval-ruhiyyəsi, həyəcanları və iradəsində ifadə olunan şüur səviyyəsini əks etdirir. İctimai psixologiyanın komponentlərinə (ictimai əhval-ruhiyyə, inam, dünyaya münasibət, emosional təzahür, milli xarakterin psixoloji tərəfi və s.) bilavasitə və müəyyənedici təsiri ideologiya göstərir. Yeri gəlmişkən qeyd edək ki, M.Veber ideologiyanı inamla əlaqədar hadisə kimi nəzərdən keçirmişdir.

İdeoloji sahə insanlar arasında ictimai münasibətlərin xüsusi növüdür. İdeoloji prosesin tədqiqi ona mürəkkəb sosial sistem kimi baxılmasını tələb edir. İdeoloji proses mürəkkəb sosial sistemdir, o, geniş mənada ideoloji fəaliyyət kimi başa düşülür. Bu isə özündə görüşlər sistemi kimi ideologiyanın işlənib hazırlanmasını, onun qorunması, yeniləşməsi, habelə təbliği və geniş xalq kütlələri tərəfindən mənimsənilməsini əks etdirir. R.Moska, R.Mixels, V.Pareto və b. siyasi ideologiyanın məzmununu həddən artıq geniş mənada qəbul edərək, dini və estetik şüur formalarını da onun təzahürü hesab edirdilər. Dar mənada isə bu, ideologiyanın yayılması prosesi, kütləvi şüurda hakim ideologiyaya çevrilməsi, habelə hər bir adamın şüuruna hakim kəsilməsi deməkdir. İdeoloji proses strukturunda ideoloji münasibətlər xüsusi yer tutur və bu, ideoloji fəaliyyətin subyektlərinin qarşılıqlı əlaqəsinin nisbətən kütləvi formasıdır. İdeoloji münasibətlər, ideoloji fəaliyyətin və onun nəticələrinin mübadiləsi formasında mövcuddur. Bu fəaliyyət əhalinin müxtəlif təbəqə və qrupları arasında geniş yayılır və ikitərəfli istiqamət xarakteri daşıyır, yəni insanların bu qarşılıqlı münasibətləri əsasən siyasi, sosial, iqtisadi və b. proseslərdə əks olunur. İdeoloji münasibətlər elə bir mexanizmdir ki, onun köməyilə ideologiya ilə cəmiyyətdəki sosial-iqtisadi proseslər arasında əlaqə yaranır.



İdeoloji fəaliyyətin subyekti ilə ideoloji təsirin obyekti arasında qarşılıqlı münasibətlərin xarakterini izah edərkən belə bir cəhətə diqqət vermək lazımdır ki, o hər şeydən əvvəl, ideoloji münasibətlərin iki tipi - təsir və qarşılıqlı təsir tipi kimi təzahür edir. Bu və ya digər tipin üstünlüyü həm subyektin, həm də obyektin hazırlıq səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. İdeoloji təsirin obyekti nə qədər hazırlıqlıdırsa (təhsili, informasiyalılığı), o qədər də o, qarşılıqlı təsirə oxşar olur. İdeoloji təsəvvürlər sosial-siyasi mühitin təsiri altında, insanların həyat fəaliyyəti şəraitində formalaşır. Kiçik və böyük sosial qrupların həyat təcrübəsi onların həyat mövqeyinin formalaşmasına, yəni həyat fəaliyyətinə aid olan və həyat mənafelərini əks etdirən mövqeyinin bərqərar olmasına kömək edir.

İctimai şüurun ideoloji prosesinin ümumi anlayış çərçivəsində öyrənilməsi siyasi, iqtisadi, hüquqi, dini, əxlaqi və milli şüurun ideoloji istiqaməti və sosial inkişafın keyfiyyət xarakteristikası baxımından həyata keçirilir. İdeologiyanı cəmiyyətin siyasi inkişafı haqqında təsəvvürlər vasitəsilə, xalqın ictimai özünüidarəsinin genişləndirilməsi, ölkəmizin inkişafının ən mühüm məsələlərinin həllinin konstruktiv əsası kimi aşkarlığın möhkəmləndirilməsi haqqında elmi təsəvvürlər vasitəsilə iqtisadi münasibətlərin təkmilləşdirilməsi baxımından öyrənmək lazımdır. Şüurun ideoloji istiqamətli elementləri aşağıdakılardır: 1.Siyasi ideologiya, 2.Dini ideologiya, 3.İctimai özünüidarənin inkişafında sosial-siyasi fəaliyyət.

Həm ideologiya, həm də siyasət cəmiyyətin sosial-iqtisadi münasibətləri ilə şərtlənir. Qeyd etmək lazımdır ki, ideologiya da, siyasət də konkret təbəələrin, birliklərin mənafeyinə xidmət

göstərir və hər ikisi hakimiyyət münasibətlərinə yönəlməsi ilə fərqlənir. Siyasi ideologiya siyasi fəaliyyətin nəzəri əsası kimi çıxış edir. Eyni zamanda, siyasi ideologiya siyasi hərəkatı birləşdirən amildir.

İki əsrə qədər təkamül yolu keçmiş ideoloji nəzəriyyələr hazırda sosial-siyasi proseslərə güclü təsir göstərən əhəmiyyətli amilə çevrilmişdir və bir çox elm sahələrinin, o cümlədən politologiyanın sistemli şəkildə tədqiqat sahəsinə çevrilmişdir. Siyasi şüurun forması kimi ideologiya ayrı-ayrı qrupların mənafelərinin reallaşdırılması məqsədlərinə xidmət edir. İdeologiya cəmiyyətdə mövcud olan qrup mənafelərini ifadə edən baxış və ideyaların meydana gəlməsi ilə əlaqədardır. İctimai şüur ümumi ictimai mənafeləri əks etdirən ideya və fikirlər məcmusu halından çıxıb konkret qrupların mənafe və tələbatlarının müdafiəsinə yönəldikcə ideologiyalaşır, yəni ideologiyaya çevrilir. Bir sözlə, siyasi ideologiya sosial-iqtisadi və sosial-siyasi inkişafın istiqamətləri barədə qrup baxışlarını əks etdirən şüurun növ müxtəlifliyi kimi çıxış edir.

İdeologiya ictimai şüurun zəruri struktur komponenti olan elmi-nəzəri şüurla bilavasitə bağlıdır. Gerçəkliyi əks etdirmənin spesifik forması kimi elmi-nəzəri şüur əxlaqi və bədii sərvətlərin, elmi ideya və nəzəriyyələrin istehsalı ilə sıx bağlıdır. Nəzəri şüurun ideoloji istiqaməti ictimai şüurun siyasi forması ilə onun elmi-nəzəri struktur komponentinin dialektik surətdə qarşılıqlı əlaqəsinə əsaslanır. Birinci - inkişafın sosial-siyasi və iqtisadi istiqamətini, onun prinsipial məqsəd və perspektivlərini müəyyən edir. İkinci-elm, maarif və təhsil vasitəsilə bərqərar olur, cəmiyyətin və onun inkişafının nəzəri əsasıdır. Onlar arasında daxili və üzvi birlik mövcuddur. Siyasi şüur elmi birliklərin bütöv sistemindən hasil olur. Elmi-nəzəri şüur yeni ictimai tələbatların təmin olunması və formalaşmasında üzvi surətdə iştirak edir. İctimai şüurun əsas funksiyası onun ictimai varlığa, ictimai münasibətlərə fəal təsiridir. Beləliklə, ictimai şüurda ən mühüm, müəyyənedici yeri ideologiya tutur.



İctimai şüurun ideoloji struktur komponenti cəmiyyətin sosial qüvvələrini - milləti, sinifləri, sosial qrupları, ayrı-ayrı şəxsləri fəaliyyətə gətirir ki, bu qüvvələr də mövcud ictimai münasibətləri dəyişdirir, bununla bərabər ideoloji münasibətləri də dəyişdirərək ictimai şüurun gələcək inkişafı üçün yeni əsas ya-radır. İdeoloji münasibətlərin praktik-fəaliyyət baxımından ictimai inkişafın məqsədləri subyektin nəzəri şüurunda əks olunur. Bu, keyfiyyətcə yeni cəmiyyətin əsas idealları ola bilər: cəmiyyətin bütün üzvlərinin sosial bərabərliyi, xalqın özünüidarəetməsinin ictimai həyatın təşkilinin yüksək formasına çevrilməsi, əməyin birinci həyati tələbata çevrilməsi, hər kəsin azad və hərtərəfli inkişafını təmin edən cəmiyyətin qurulması.

Hər bir ideologiya cəmiyyətdə mövcud olan siyasi rejimlə sıx bağlıdır. İdeologiya ya mövcud ictimai quruluş və qaydaları müdafiə etmək vəzifələrinə xidmət göstərir, ya da onu dəyişdirmək istiqamətində qərar tutur. Demokratik cəmiyyətlərdə çoxsaylı ideoloji cərəyanlar bir-biri ilə rəqabət halında fəaliyyət göstərir, avtoritar sistemlərdə isə müxtəlif ideoloji cərəyanların sərbəstliyi qadağan edildiyindən, rejimə qarşı müxalifətdə olan ideologiyalar çox zaman qeyri-leqal şəkildə yayılmağa, insanları birliklər və partiyalar şəklində birləşdirməyə məcbur olur.

İdeologiyanın məzmununu üç əsas tərkib ünsürü təşkil edir: - 1./ reallığın təsviri, 2./ aksioloji sistem, 3/. praktik göstərişlər. Birinci ünsür diqqəti cəmiyyətin sosial problemlərinə, həmin problemlərin həllinin zəruriliyinə yönəldir. İkinci ünsür reallığın təsvirinə əsasən mövcud dəyərlər sistemini əsaslandırır. Üçüncü ünsür ictimai fikri fəallaşdıraraq, konkret fəaliyyətə hazırlayır. İstənilən ideoloji sistemin əsaslandırılmasında həlledici mərhələ reallığın əks olunmasıdır.

Məhz bunun sayəsində insanların beyninə yeridiləcək ideyalar özünə sosial baza əldə edir. Burada mövcud reallığın

ideologiya ilə uyğun gəlib-gəlməməsinin əhəmiyyəti böyükdür. Əgər burada uyğunluq varsa, onda sosial münasibətlər ideoloji konsepsiyada obyektiv şəkildə əks olunur. Başqa halda real vəziyyət tam halda deyil, hissə-hissə təsvir edilir. Reallığın təsvirinin iki əsası - dünyagörüşü və idraki əsası vardır. Burada dünyagörüşü həm reallığın subyektiv obrazı kimi, həm də insanın ideoloji sistemdə yeri və rolu haqqında təsəvvürlər kimi çıxış edir. Reallığın təsvirinin idraki əsası isə insanın mövcud sosial mühitdəki münasibətləri nə dərəcədə dərk etməsi ilə bağlıdır.

Real gerçəkliyi arzu edilən gerçəkliyə çevirmək ideologiyanın aksioloji sisteminin mahiyyətini təşkil edir. Burada ilk növbədə sosial təbəqələrin ierarxiyasını tənzimləyən norma və dəyərlər müəyyən edilir, çünki gələcəkdə formalaşdırılacaq norma və dəyərlər üçün bunun əhəmiyyəti böyükdür. Hər bir ideologiyada mövcud sosial normaların dəyişdirilməsi bütövlükdə sosial münasibətlərin dəyişdirilməsinin vacib şərti hesab edilir. Burada sosial normalardan çox ideoloji normalara diqqət yetirildikdə sosial subyektlərin münasibətlərini tənzimləyən normaların təkmilləşdirilməsi ideoloji fəaliyyətin kölgəsində qalır.

İdeologiyanın praktik göstərişlər ünsürü cəmiyyətdə insanların fəaliyyətini əsaslandırır, ideologiya ilə siyasət arasında qarşılıqlı əlaqələr yaradılmasında özünəməxsus rol oynayır. Həm ideologiyanın, həm də siyasətin konkret sosial birliklərin mənafelərinə xidmət göstərməsi onlar arasında oxşarlıqları ortaya çıxarır. İdeologiya siyasətdə mühüm rol oynayan təbəqələrin fəaliyyət göstərdiyi real gerçəkliyi, mövcud dəyərlər sistemini əks etdirir, bu dəyərlərin reallaşması vasitələrini göstərir, eyni zamanda, fəaliyyət üçün konkret göstərişlər işləyib hazırlayır. Müxtəlif siyasi hərəkatlar siyasi ideologiyanın formula etdiyi prinsip və göstərişlərdən öz maraqlarına uyğun istifadə edir. Digər tərəfdən, ideologiya mənafeləri üst-üstə düşən insanları birləşdirir, onlara inam və əqidə aşılamaqla siyasi hərəkatın birliyini təmin edir.



İdeologiyanın mənbələri aşağıdakılardır: -1/. ideal ilə gerçəkliyin müqayisəsi, 2/. sosial gerçəkliyin ziddiyyətləri, 3./ sosial qrupların gücünə uyğun olaraq onların hakimiyyət iddialarının təmin edilməsi. İnsanlar real cəmiyyət dəyərlərinə tənqidi münasibət bəslədikcə, onlarda ideal cəmiyyət haqqında təsəvvürlər yaranır. Cəmiyyətdəki ziddiyyətlər aradan qalxmadıqca insanlarda mövcud qaydaları dəyişdirə biləcək ideyalara tələbat yaranır. Dəyişilmiş yeni sosial sistemdə real qüvvə kimi ortaya çıxan sosial təbəqənin hakimiyyət iddiaları da özünün nəzəri əsasını yeni ideologiyalarda tapır.

Siyasi ideologiyaların meydana gəlməsi, onun mənbələri politoloqların həmişə diqqət mərkəzindədir. XX əsrin ortalarından başlayaraq beynəlxalq aləmdə gərginliyin yumşalması, bəzi alimlərin ideologiyanın sonunun çatdığını bəyan etməsinə səbəb oldu. Belə bir fikir hakim idi ki, ənənəvi cəmiyyətlərdən fərqli olaraq industrial cəmiyyətlərdə sosial stratifikasiyada olan dəyişikliklər antaqonist siniflərin çox olması, əhalinin proletarsızlaşması, sosial qayda-qanunun əsası olan sosial sülhün, barışığın bərqərar olması ilə müşayiət olunduğundan sosial münasibətlərdən ideoloji ölçülər də yüksək götürülmüş olur, yəni D.Bellin sözləri ilə desək, "ideologiyanın sonu gəlib çatmışdır". E.Şelz isə "ideologiyanın sonu" konsepsiyasını ifadə etmək üçün "ideologiyasızlaşdırma" terminini elmə gətirdi. Bu dövrdə mədəniyyətin prioritetlərinə əsaslanan cəmiyyətin funksiya göstərməsinin texniki-səmərəli aspektlərinin izah edilməsini elm ilk plana keçirdi. İndustrial cəmiyyətin ideologiyanın təsirindən bu cür azad olması "ideologiyasızlaşdırma" adını aldı. Bu öz əksini D.Bellin, C.Ellyulun "ideologiya nə qədər az olsa, o qədər yaxşıdır" prinsipində tapdı. Lakin 70-ci illərdə Qərb dünyasında yaranmış yeni şərait postindustrial inkişaf ideyalarını təsdiq edən dünyagörüşü dəyərlərinin mühüm əhəmiyyətini

yenidən şərtləndirdi. Nəticədə "ideologiyasızlaşdırma"nı yenidən "ideologiyalaşdırma" əvəz etdi. D.Bell "ide-ologiyasızlaşdırma" konsepsiyasından "ideologiyalaşdırma" nəzəriyyəsinə keçid zamanı qeyd etdi ki, vaxtilə onu elə də düzgün başa düşməmişdilər. Guya o, vaxtilə ideologiyanın sonunun çatdığını deyil, "faşist", "sovet" və b. ideologiyalardan uzaq olmağın zəruriliyini, ənənəvi pozivitizm ruhunda neytrallığı qoruyub saxlamağı nəzərdə tutmuşdu. Cəmiyyətin postindustrial inkişafa keçidi sinfi ideologiyanın yeni texnokratik "postideologiya" ilə əvəz edilməsinə gətirib çıxarır ki, bu ideologiya da elm və texnikanın təsiri ilə elmilik elementlərinə malik olur. Mövcud şərait onunla səciyyələnir ki, siyasətsizləşmiş ictimaiyyətin mənəvi aləminə sosial antoqonizmlərə son qoymuş texnokratik şüur müdaxilə etmişdir. Bu cür yanaşma qlobal, planetar, panideologiya axtarışını başqa şəklə salır ki, bu da ümumbəşəri dəyərlərə, humanist, demokratik alternativlərə malik sinifüstü və zorakısız dünyaya istiqamətlənmişdir

## *§2. İdeologiyaların formaları və funksiyaları*

İdeologiyaların formalarına aşağıdakılar aiddir: - 1. Mütərəqqi, mühafizəkar və ya mürtəce ideologiyalar, 2. Sinfi, milli, irqi ideologiyalar, 3. Dini, dünyəvi, rasional, irrasional, universal, partikulyar ideologiyalar, 4. Uzunmüddətli və qısamüddətli ideologiyalar, 5. Bütün dünyada, ayrı-ayrı ölkələrdə, regionlarda fəaliyyət göstərən ideologiyalar. İdeologiyanın ümumi və siyasi fnksiyaları vardır. İdeologiyanın fəaliyyət səviyyəsinə görə nəzəri-konseptual, proqram-siyasi və kütləvi yayılma səviyyələri bir-birindən fərqləndirilir.

İdeologiyaların təsnifatı müxtəlif meyarlar əsasında aparılır. Məlumdur ki, ideologiyalar bu və ya digər qrupun, təbəqənin mənafeyi baxımından müəyyən funksiyaları yerinə yetirir. Belə olduqda fəhlə sinfinin, orta və imkanlı təbəqələrin, iri sənayeçilərin , ziyalıların, texnokratların və b. mənafelərinə xidmət edən



ideologiya sistemləri fərqləndirilir. Deməli, ideologiyalar funksiyasına görə xarakterizə edilərkən ilk növbədə onun cəmiyyətin hansı təbəqəsinin mənafelərini ifadə etməsi müəyyənləşdirilir. Bu zaman ideologiyanın mütərəqqi, mühafizəkar və ya mürtəce formaları ayrılır.

İdeologiyalar sosial bazaya görə də formalara bölünür. Aydındır ki, ideologiyaların daşıyıcıları, tərəfdarları, ondan bəhrələnənlərin tərkibi müxtəlifdir. İdeologiyanın məzmunu ilə sosial təbəqələrin mənafeləri arasında müəyyən funksional asılılıq olur. Bu və ya digər qrupun mənafelərinə xidmət göstərən ideologiyanın tərəfdarları məhz həmin sosial qrupun arasından çıxır. Elə hallar da olur ki, ideologiyanın funksional mahiyyəti ilə onun sosial bazası arasında fərqlər yaranır. Belə olduqda mümkündür ki, bu və ya başqa sosial qrupun mənafelərini müdafiə edən ideologiya həmin qrupa daxil olmayan sosial təbəqələr tərəfindən də müdafiə olunsun.

İdeologiyalar daxili strukturlarına görə də bir-birindən ayrılır. Buraya ilk növbədə dini ideologiyalar aiddir. Dini fəaliyyət sosial-siyasi fəallığa aiddir. Dindarlıq dini ayinlərin yerinə yetirilməsinə yönəldilmiş spesifik fəaliyyət formasıdır. Dindarlar bu fəaliyyətin istiqaməti və fəallıq dərəcəsi ilə fərqlənirlər. Digər fəaliyyət formaları kimi, dindarlıq da özündə dini şüur və onun obyektivləşməsinin üzvi birliyini əks etdirir. Dini təsəvvürlər, dini hisslər, dini mövhumat dini mərasimlərlə - dua, vəcdə gəlmə və s. ilə uyğunlaşır. Dini ideologiyanın məzmununda aparıcı ünsür müqəddəsliyin əsaslandırılması, müqəddəslik dərəcəsinə yüksəldilmiş subyektlərə sözsüz inamın, etiqadın formalaşdırılmasıdır.

Daxili strukturuna görə rasional və irrasional ideologiya formaları da vardır. Rasional ideologiyalar əqli (idraki) mülahizələrə, irrasional ideologiyalar hissi intuisiyaya, ehtiraslara əsaslanır. İrrasional ideologiyaların başlıca dəyərini liderin intuitiv dərk etməsindən irəli gələn tələbatlar şərtləndirir. Rasional ideologiyaların dəyərləri isə məntiqin tam nəzarətində olur.

Daxili strkturlarına görə ideologiyalar universal və partikulyar formalara da ayrılır. İdeya və baxışları olduğu kimi qəbul edən bütün insanlar üçün açıq olan ideologiyalar universal ideyalar sayılır. Məsələn, islam, xristianlıq universal mahiyyətə malikdir, bu dinlərin ehkamları, həmin dinləri qəbul edən bütün insanlara mənsubdur. Millətçi, irqçi ideologiyalar isə partikulyar ideologiyalar sayılır. Çünki həmin ideologiyaları qəbul edən insanların əhatə dairəsi əvvəlcədən müəyyənləşdirilir və onun genişləndirilməsi üçün imkan yeri qalmır.

İdeologiyalar tarixi taleyinə görə də fərqlənir. Uzun müddət tarix səhnəsindən çıxmayan ideologiyalarla (məsələn, dini ideologiya) yanaşı, müəyyən tarixi mərhələdə fəaliyyət göstərən, tez bir vaxtda yaddan çıxan ideologiyalar da olur. Fəaliyyət sferasına (coğrafi məkana) görə də ideologiyaları fərqləndirirlər. Məsələn, ideologiyaların bir qrupu bütün dünyanı əhatə etdiyi halda, digər qrupu ayrı-ayrı ölkələrdə, regionlarda yayılır.

İdeologiyaların ümumi və siyasi funksiyalarını bir-birindən fərqləndirirlər. Bu funksiyaların müəyyən edilməsində ideologiyanın hansı məqsəd və vəzifələrə xidmət göstərdiyi, cəmiyyətin həyatında oynadığı rol əsas götürülür. Reallığın özünəməxsus obrazının yaradılması, ictimai şüurun zəbt edilməsi, ictimai şüura yeni dəyərlərin tətbiq edilməsi, təbliğ edilən cəmiyyətin modelinin yaradılması və s. ideologiyanın ümumi funksiyalarına daxildir. İdeologiya, həmin funksiyaları yerinə yetirməklə ictimai şüurun konkret forması kimi idraki, qiymətləndirmə və proqnozlaşdırma vəzifələrini özünəməxsus şəkildə həyata keçirmiş olur. Cəmiyyətin siyasi inkişafının istiqamətlərinin və başlıca aparıcı qüvvələrinin müəyyən edilməsi, ideologiyanın daşıyıcılarının və tərəfdarlarının vahid məqsədi həyata keçirmək uğrunda səfərbər edilməsi, ümumi ideya və çağırışlar əsasında insanların birləşdirilməsi və s. ideologiyanın siyasi funksiyalarına daxildir.

İdeologiyanın nəzəri-konseptual, proqram-siyasi və kütləvi yayılma səviyyələri vardır. Nəzəri-konseptual səviyyədə ideologiya nəzəri müddəalar şəklində ifadə olunur. İdeologiyanın proqram siyasi mərhələsində nəzəri-konseptual səviyyəsində formula edilmiş müddəalar praktik-siyasi fəaliyyəti həyata keçirmək üçün konkret proqram və göstərişlər halına gətirilir. İdeologiyanın kütləvi yayılma səviyyəsində ideoloji sistem kütlələr arasında yayılmaqla qarşısında duran məqsədlərə nail olur.



İdeologiyanın nəzəri-konseptual səviyyəsində ideologiyanın daşıyıcıları olan sosial qrup və ya təbəqənin maraqlarını ifadə edən ideyalar formula edilir, vahid ideoloji sistem halına salınır, əsas mənəvi dəyərlər və ideallar işlənib hazırlanır. Bu mərhələdə ideologiya mənafeyi sosial qrupun qabaqcıl hissəsi olan ideoloqların fəaliyyətində təzahür edir. İdeya-konseptual mərhələsinin qarşısında duran əsas vəzifələr ideyaların ictimai fikrə təsiri, insanlara yeni baxışların aşılanmasından ibarətdir. İdeologiyanın proqram-siyasi səviyyəsində siyasi fəaliyyəti həyata keçirmək üçün hazırlanan proqram və göstərişlər normativ xarakter daşıyır, siyasi fəaliyyətdə iştirakçıların davranışının forma və metodlarını müəyyənləşdirir. İdeologiyanın kütləvi yayılma mərhələsində, ideologiyanın məzmununu təşkil edən ideya və prinsiplər, norma və dəyərlər insanlar tərəfindən mənimsənilir və onların siyasi davranışına sirayət edir. Elmi ədəbiyyatda dünyanın mənzərəsini dəyişmək imkanlarına malik olan və kütləvi surətdə yayılan ideologiyalar "total" ideologiyalar adlandırılır (faşizm, dini ideologiya, marksizm). Eyni zamanda, siyasi sistemin, hakimiyyət haqqında təsəvvürlərin dəyişdirilməsini nəzərdə tutan ideya və baxışların məcmusu kimi təzahür edən ideologiyalar isə elmi ədəbiyyatda "xüsusi" ideologiyalar adlandırılır.

### *§3. İdeoloji nəzəriyyələr və cərəyanlar*

Bəşər cəmiyyətinin müasir inkişaf dövrü ideya-siyasi cərəyanların müxtəlifliyi ilə səciyyələnir. Hazırda eyni siyasi sistemdə, eyni dövlət çərçivələrində müxtəlif ideya-siyasi cərəyan-

lar və onların əhatə etdiyi siyasi qüvvələr bərabər mövcud olmaqla yanaşı, onların əhatə etdiyi siyasi qüvvələrin timsalında bir-birilə sivil rəqabət aparır. Müasir dövrün ideya-siyasi mənzərəsi rəngarəng və mürəkkəbdir. Bir-biri ilə rəqabətdə olan ideoloji sistemlər dünyanın ideya-siyasi mənzərəsini xarakterizə edir.

Müasir dövrün ideya-siyasi mənzərəsini liberalizm, konservatizm, sosial-demokratiya, millətçi ideologiyalar müəyyənləşdirir. Liberalizm ideologiyasının əsasını azad rəqabət, azad bazar və sahibkarlıq ideyaları təşkil edir. Konservatizm isə dövlətin və ictimai həyatın tarixən qərarlaşmış formalarının - millət, din, ailə, mülkiyyətin əsaslarını qoruyub saxlayan siyasi ideologiyadır. Sosial-demokratiya sinfi mübarizə və sosial kataklizmlər yolu seçmiş marksistlərdən fərqli olaraq cəmiyyətin dəyişdirilməsinin yeganə yolunu sosial islahatlarda, tədricən xalq hakimiyyətinə, yerli özünüidarəçilik prinsiplərinə gətirib çıxara biləcək məqsədyönlü təkamül prosesində görürlər. Eyni zamanda, milli dövlətlərin formalaşması, milli birliyin möhkəmlənməsi prosesi tarix səhnəsinə siyasi həyatda mühüm rol oynayan millətçi ideologiyaların çıxması ilə müşaiyət olunmuşdur.

XX əsr ərzində Qərbdə siyasi və ideoloji mübarizə öz əksini liberal və sosialist cərəyanlarında tapmış olan konservatizmlə modernizmin qarşıdurmasında təzahür etmişdir. Siyasi ideologiya kimi həm konservatizm, həm də sosializm maarifçiliyin məhsuludur. Konservatizm və sosializm ilk olaraq maarifçiliyə reaksiya kimi meydana çıxsalar da, sonradan onun məntiqi davamına çevrilmişlər. İki əsrdən çox bu cərəyanlar əhəmiyyətli dəyişikliyə uğramışdır. İlk baxışda belə görünə bilər ki, XX əsrdə həmin cərəyanların özünəməxsus inversiyası (yerdəyişməsi) baş vermişdir. Lakin özlüyündə həm konservatizm, həm də liberalizm siyasi proqramlarını çox yeniləşdirsələr də, əslində öz əsas ideya "sub-



stratlarını" ("əsaslarını") qoruyub saxlamışlar. Lakin XX əsrin son yarıməsri xüsusilə göstərdi ki, konservatizm və liberalizm ideyaları bir-birilə heç də barışmaz antaqonist cərəyanlar kimi mübarizə aparmırlar.

İdeya-siyasi cərəyanlar bir-birindən, hər şeydən əvvəl, öz prinsipləri ilə fərqlənir. Məsələn, liberalizmin əsas prinsipləri vətəndaşların hüquq bərabərliyi, dövlətin müqavilə əsaslarında təşkilindən ibarətdir. "Yeni liberalizm" ideologiyasının ümumfəlsəfi əsasında şəxsiyyətin qrupu, sinfi, dini və digər mülahizələrdən azadlığı, insanın ən ali sərvət kimi dəyərləndirilməsi, habelə kosmopolitizm, humanizm, fərdiyyətçilik kimi prinsiplər durur.

Mühafizəkarlıq ideya-siyasi cərəyanının prinsiplərinin əsasında belə bir müddəa durur ki, hər bir yenilik əvvəlki qaydalarla varislik əlaqəsindən kənarda mövcud ola bilmədiyi kimi, cəmiyyətin təbii surətdə qərarlaşmış sosial iyerarxiyası, xüsusilə də onun ailə, din, mülkiyyət kimi təsisatları, bütünlükdə cəmiyyətin mənəvi əsasları və prinsipləri ali dəyərlər olub ötəri xarakter daşıya bilməz. Köhnə qaydaların toxunulmazlığını mütləq zərurət kimi qəbul etmə halını ənənəvilik və ya "təbii mühafizəkarlıq" adlandırmışlar. İdeya-siyasi cərəyan kimi mühafizəkarlıq məhz təbii mühafizəkarlıq, ənənəvilik dünyabaxışı prinsipləri üzərində qərar tapmışdır.

Müasir sosial-demokrat proqram hərəkatının əsasını təşkil edən "demokratik sosializm" konsepsiyasının məzmununu təşkil edən başlıca müddəalar və prinsiplər isə aşağıdakılardır:
- iqtisadi həyatın dövlət tərəfindən tənzimlənməsinə yol verilməsi və qarışıq iqtisadiyyatın üstünlüyü, bəzi iri sənaye müəssisələrinin milliləşdirilməsi, vətəndaşlara cəmiyyətin müxtəlif sferalarının idarə edilməsində geniş səlahiyyətlər verilməsi və s.

Siyasi sahədə - liberalizm antik siyasi mədəniyyətdə forma-

laşmış xalq hakimiyyəti, şəxsiyyətin siyasi azadlıqları və hüquqlarının tanınması ideyalarına əsaslanır. Liberalizmə görə şəxsiyyətin mənəvi cəhətdən azad olması onu cəmiyyət qarşısında mənəvi məsuliyyətdən azad edə bilməz. Hüquqi dövlət şəxsiyyətin azadlığı ilə onun sosial məsuliyyətinin vəhdəti zəminində bərqərar ola bilər.

Siyasi ideologiya kimi mühafizəkarlığı yalnız mühafizəçi şüur, əvvəlki qaydaları qoruyub-saxlamaq meylləri səciyyələndirmir. Keçmiş və mövcud qaydalara ehkamçı-qoruyucu münasibət zəminində mühafizəkarlığın özünəməxsus siyasi konsepsiyası, dəyərləri sistemi formalaşmışdır. Mühafizəkarlığın siyasi konsepsiyası konstitusiyanı insanın istədiyi şəkildə dəyişdirməsi yolverilməz olan ali prinsiplərin təzahürü hesab edir, dövlət fəaliyyətində qanun hökmranlığının və mənəvi məsuliyyətin zəruriliyinə inanaraq eqalitarizm prinsiplərini, səmərəli dövlət idarəçiliyi kimi demokratiyanı şübhə altına alır.

İdeya-siyasi cərəyan olaraq özündə bir-birindən kəskin şəkildə fərqlənən nəzəriyyələri birləşdirir ("elmi sosializm" və "sosial-demokratiya"). Elmi sosializm fərdin iqtisadi və siyasi müstəqilliyinə, iqtisadi və siyasi rəqabətin roluna, əməyin stimullaşdırma üsullarına lazımi qiymət vermir. Cəmiyyətdə sosial tənzimləmənin əsas mexanizmi sərvətlərin mərkəzləşdirilmiş şəkildə bölüşdürülməsində görülür. Elmi sosializm (marksizm-leninizm) fərdin müstəqilliyini kölgədə qoyan dövlət, təşəbbüskarlığı və demokratiyanı boğan, habelə iqtisadiyyat üzərində ağalıq edən siyasətdir. Sosial demokratiya isə XX əsrin ən geniş yayılmış və məşhur ideya-siyasi cərəyanı kimi dünyanın siyasi mənzərəsinin müəyyən edilməsində çox böyük rol oynamış və oynamaqdadır.

Millətçilik ideologiyası - millətin, xalqın özünü vahid tam kimi dərk etməsini, hər bir fərddə onun etnosa mənsubiyyəti hissinin meydana gəlməsi və güclənməsini şərtləndirir. Millətçilik ideologiyası rasional-pozitiv çalardan tutmuş mürtəce-şovinist çalarlaradək çox mürəkkəb və qeyri-yekcins təbiəti ilə fərqlənir. Milli mənafeləri obyektiv şəkildə əks etdirən mütərəqqi xarakterli milli ideologiyalar etnik birliyin sosial-siyasi və mənəvi yüksəlişinə güclü təkan verdiyi halda, millətin tələb və ehtiyaclarını təhrif edilmiş şəkildə ifadə edən, şovinist - mürtəce, separatçı məqsədlər güdən millətçilik ideologiyaları isə əksinə, xalqlar arasında nifaq salaraq ictimai-siyasi sabitliyin, sülh və əmin-amanlığın dayaqlarını laxladır, sosial tərəqqinin qarşısında əngələ çevrilir.

Adları çəkilən ideya-siyasi cərəyanlar dövlətə münasibətdə fərqli mövqedən çıxış edirlər. Liberalizm yarandığı gündən bu günədək dövlətə tənqidi münasibətlə seçilməkdədir. Onun problemi dövlətin fərdin şəxsi həyatına müdaxiləsinin miqyas və dərəcəsini müəyyənləşdirməkdir. Demokratiya ilə azadlığın əlaqələndirilməsi problemi də liberalların qarşısında duran mühüm vəzifədir. Ümumiyyətlə, XX əsrin ortalarına qədər liberallar "demokratiya" terminini işlətməkdən çəkinirdilər və bununla da liberalizmin başlıca dəyəri olan xüsusi mülkiyyətə üstün münasibətlərini ifadə edirdilər. Lakin tədricən dövlətin sosial funksiyalarının əhəmiyyəti yüksək qiymətləndirilərək demokratik dəyərlərə diqqət artmağa başlandı. Liberalizmin ənənəvi prinsiplərinin əksinə olaraq dövlətin roluna diqqətin artırılması, onun ənənəvi dəyərlərinin XX əsrin ikinci yarısının siyasi və iqtisadi reallıqlarına uyğunlaşdırılması yeni liberalizmin meydana çıxması ilə nəticələndi. Demokratiya, azad rəqabət, şəxsiyyətin hüquq və azadlıqları ideyasının aliliyi kimi liberal prinsiplərinə sədaqətini saxlamaqla, yeni liberalizm belə bir müddəadan çıxış edir ki, həmin prinsiplər dövlətin bilavasitə müdaxiləsi sayəsində reallaşmaq imkanı qazana bilər. Yeni liberalizmin siyasi proqramının məğzini siyasi konsensus, dövlət idarəçiliyinin təşkili və həyata keçirilməsinin plüralist əsaslarına üstünlük verilməsi kimi cəhətlər təşkil edir.

Müasir demokratiyanın aparıcı konsepsiyaları olan siyasi iştirakçılıq, demokratik elita nəzəriyyələri liberalizm prinsiplərinə əsaslanır. İnsan hüquq və azadlıqları prinsiplərinin ümumbəşəri dəyər kimi geniş yayılması bəşəriyyətin bu günü qarşısında duran fundamental problemlərin həllini mümkünləşdirərək dövlətlər arasında bir çox əkslik və ziddiyyətlərin aradan qaldırılması üçün zəmin hazırlayır. Liberalizmin ideyaları əsasında "konvergensiya", "sosial qlobalizm" , "informasiyalı cəmiyyət" və s. geniş yayılmış nəzəriyyələr yaradılmışdır.

İdeya-siyasi cərəyanlar içərisində liberalizm təkcə təşkilati - siyasi qüvvə kimi dəyil (liberalizmin qarşıya qoyduğu məqsədlərin çoxu artıq reallaşmışdır: vətəndaş cəmiyyətinin əsasları yaradılmış, parlamentarizm tətbiq olunmuş, hakimiyyətin həm dövlət, həm də federal səviyyədə bölgüsünün liberal prinsipi həyata keçmişdir), habelə etos kimi (mədəniyyətin ümumiləşdirilmiş səviyyəsi kimi), nüfuzlu sosial fəlsəfə kimi yer tutur. İngilis politoloqu E.Arblaster hesab edir ki. "bu gün Qərbdə ənənəvi mühafizəkar və yaxud inqilabi-sosialist dünyagörüşü deyil, liberal dünyagörüşü hökmranlıq edir". Bu fenomenin ilk səbəbi ondadır ki, Qərbin siyasi partiyalarının əksəriyyəti öz proqramlarına liberal ideologiyada ilk dəfə işlənib-hazırlanmış müddəaları daxil edirlər. Bu müddəalar aşağıdakılardır: iqtisadi sahədə - bazar münasibətlərinin əsası kimi azad rəqabət, siyasi sahədə - hüquqi dövlət, özünüidarəetmə, sosial sahədə - şəxsiyyətin azadlığı, söz, mətbuat azadlığı, siyasi seçki hüququ, azlıqda qalan xalqların dilinə, etiqadına və adət-ənənələrinə hörmət etmək və s. Liberalizmin bir çox müddəaları (dövlət və bazarın sintezi, fərdlərin bazar imkanları, hüquqi dövlət ideyası) artıq sosializm sistemindən qopub-ayrılmış Macarıstan, Polşa, Slovakiya, Bolqarıstan və keçmiş SSRİ-nin müstəqillik əldə etmiş respublikalarında, o cümlədən Azərbaycan Respublikasında



tətbiq edilərək istifadə olunur. 1981-ci ildə Liberal İnternasionalın 34-cü konqresində ictimai institutların effektliyinin aşağıdakı yolları göstərilmişdir: - qanunverici hakimiyyətdə proporsional nümayəndəliyə əməl edilməsi şərtilə xalqın iradəsinə uyğun nümayəndəlik yaradılması, referendumlar keçirilməsi, azlıqların müdafiəsi. Habelə qanunverici hakimiyyətin yenidən təşkili, regional və yerli hakimiyyətin mərkəzsizləşdirilməsi, həmkarlar ittifaqlarının, işgüzar və peşəkar assosasiyaların liberal-demokratik sistemə daxil edilməsi, ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək üçün beynəlxalq, qitələrarası və qlobal səviyyələrdə yeni ədalətli təşkilatlar yaratmaq.

Müasir konservatizmin bütün variantlarını üç əsas tipə bölmək olar: 1.Neokonservativ cərəyan, 2. "Yeni sağlar", 3. Ənənəvi və yaxud paternalist konservatizm. Yeri gəlmişkən qeyd etmək lazımdır ki. "neokonservatizm" termini bütövlükdə yeni konservativ hərəkatı xarakterizə etmək üçün deyil, bu hərəkatda müəyyən istiqaməti, siyasi-ideoloji istiqaməti xarakterizə etmək üçün işlənir. Bu üç tip müxtəlif maraqlar sferasını xarakterizə edir və bu da çox vaxt onun ideoloji dayaqlarını müəyyənləşdirir. Bir çox müəlliflər - K.S.Hacıyev, A.Qalkin, N.Eşvord dördüncü tipi, yəni klassik liberalizmi və yaxud libertarizm tipini də göstərirlər. Ənənəvi konservatizm Qərbi Avropada daha çox təsirə malikdir. Konservatizmin bu növünə Britaniya torizminin paternalist qanadını, Fransadakı qollizmi, AFR-dəki sosial-konservatizmi aid edirlər. "Yeni sağlar" At-lantikanın hər iki tərəfində güclü olsalar da, bir sıra məsələ-lərdə onların görüşləri ayrıdır. Neokonservatizm daha çox beynəlmiləldir. 70-ci illərdə ABŞ-da konservativ hücumun birinci mərhələsində əsas zərbə qüvvəsi rolunu yeni "sağlar" oynadı və respublikaçılar partiyasının elektoral qələbəsində əvəzsiz xidmət göstərdi. Böyük Britaniyada isə konservativ dəyərlərin

dərk olunmasının və siyasi proqram hazırlanmasının təşəbbüsçüsü kimi klassik konservativ dəyərlər (İ.Oakşot, "Solsberi" qrupu) çıxış etdi. 80-ci illərin ikinci yarısında konserva-tiv hərəkat çərçivəsində ciddi dəyişikliklər baş verdi, qüvvələr balansı mötədil konservatorların xeyrinə dəyişdi.

Mühafizəkarlığın ideya-siyasi konsepsiyasında cəmiyyət həyatının çox sahələrini bilavasitə tənzimləyən güclü dövlət ideyası həlledici yer tutur. Bununla əlaqədar olaraq, demokratiya və azadlıq şəxsiyyətin sosial mövcudluğunun təzahürü deyil, onun dövlətə itaətinin təzahürü kimi nəzərdən keçirilir. Lakin mühafizəkarlar tədricən öz baxışlarını xeyli dərəcədə dəyişdirməyə məcbur oldular. Belə ki, liberalizm kimi mühafizəkarlıq da dövlətin ictimai həyatın bütün sahələrinə, xüsusilə də iqtisadi sferaya müdaxiləsinin qeyri-rasionallığını təsdiqləyərək öz prinsiplərini mövcud reallıqlara uyğunlaşdırmaq zərurəti ilə razılaşmalı oldu. Obyektiv proseslərin təsiri altında mühafizəkarlıqda liberal meyllərin güclənməsi onun yeni təzahür formasının - yeni mühafizəkarlığın ortaya çıxmasını şərtləndirdi. Yeni mühafizəkarlıq ideologiyasında mühafizəkarlığın ənənəvi, sənaye dövrünə qədərki dəyərləri - ailə, din, əxlaq postsənaye dövrünün xüsusiyyətləri ilə, o cümlədən yaradıcı əmək, şəxsiyyətin təkrarolunmazlığı, sosial sahənin sürətli inkişaf etdirilməsi və s. bu kimi ideyalarla uğurla qovuşur.

Yeni mühafizəkarlıq dövlətlə vətəndaşın qarşılıqlı mənəvi məsuliyyətinin gücləndirilməsini, dövlət qaydalarının və intizamının möhkəmləndirilməsini təklif edir. Fərdin rolunun artırılmasını nəzərdə tutmaqla yanaşı, eyni zamanda yeni mühafizəkarlar dövlətin əxlaq prinsiplərinə əsaslanması, şəxsiyyətin həyatı üçün qanun çərçivəsində bütün zəruri şəraiti yaratması prinsiplərinə üstünlük verir. Vətəndaşla dövlətin bu cür qarşılıqlı əlaqəsinin inkişafına meydan açan ən əlverişli siyasi quruluş for-



ması kimi demokratiya qəbul edilməsinə baxmayaraq, C.Bell, Z.Bzezinski və b. kimi yeni mühafizəkarlıq ideoloqları cəmiyyətin idarə olunmasının kütlələrin həddən ziyadə siyasətə cəlb olunmasından əziyyət çəkdiyini nəzəri cəhətdən əsaslandırmağa, elitizmi müdafiə mexanizmini təkmilləşdirməyə böyük intellektual qüvvə sərf edirlər.

70-80-ci illərində mühafizəkarlıq ideologiyasının mövqelərinin əhəmiyyətli dərəcədə güclənməsinə gətirib çıxartdı. Həmin dövr konservatizm cərəyanına mənsub partiyalar seçkilərdə qalib gələrək hakimiyyət başına keçmiş və cəmiyyətdə nüfuz qazanmışdılar. Eyni zamanda sosial-reformist qüvvələr əvvəlki siyasi təsirlərini itirərək ikinci dərəcəli rol oynamağa başladılar. Lakin 90-cı illərin ikinci yarısında "konservativ da-lğa" öz yüksək nöqtəsinə çatdı və öz yerini ona əks olan meyl-lərə verərək geri çəkildi. Bütün bu baş verənlər siyasi həyatın və onunla bağlı olan elektoral davranışın dövriliyi haqqında tezisi sübüt etmiş oldu. Həqiqətən bir daha təsdiqləndi ki, siyasi olimpdə bu və ya digər qüvvələrin uzun müddət mövcudluğundan seçicilərin "bezməsi" siyasi partiyaların qalib və ya məğlub olmasının həlledici amillərindən biridir.

Artıq XX əsrin sonlarında Avropada və Şimali Amerikada seçicilərin əksər hissəsi liberalizm və sosial-demokratizmlə ənənəvi bağlılığı olan siyasi partiyalara rəğbət bəsləməyə başladılar. 90-cı illərin sonundakı sosialistlər və sosial liberallar artıq 20-30 il ondan əvvəlki cərəyanlar deyildi. Belə ki, həmin cərəyanlar neokonservatorların bir çox ideyalarını götürərək Bill Klinton və ya Entoni Bleyr stilində sosial-konservatorlara çevrilmişdilər.

Bəs ümumiyyətlə, XX əsrin 70-ci illərində "sağa dönüşün" siyasi səbəbləri nədən ibarət olmuşdur? Bəzi tədqiqatçılar bunun səbəbini praktik siyasət sferasında axtarırlar. Konservatizmin görkəmli alman nəzəriyyəçilərindən biri Q.Rormozer

XX əsrin son 30 ilindəki vəziyyətini "... bir tərəfdən konservatizmin siyasi cəhətdən zəifləməsi, digər tərəfdən isə konservatizmin mədəni, milli, tarixi ideyalarına qayıtma" kimi izah edir. Ümumiyyətlə, konservatizmin ideya sferasındakı uğurları bu sosiomədəni fenomenin daha dərin təhlilini tələb edir. Bu danılmaz faktdır ki, əgər Qərb cəmiyyətlərində konservatizmin mədəni, mənəvi əsası, o cümlədən bazası güclü olmasaydı onda bu cərəyan sosial-iqtisadi, siyasi və ideya sferalarında qələbələr qazana bilməzdi.

"Konservatizm" termini nəinki müasir siyasi şərhdə, habelə elmi ictimai ədəbiyyatda işlənir. Azərbaycanda konservatorlara milli-demokratlar da, "hakimiyyət partiyası" da aiddir, Qərbdə isə konservatorlara M. Tetçer, A. de Benua, Q.Rormozer, D.Bell və ya F.Mitteran kimi siyasətçilər aiddir.

Mühafizəkarlıq əvvəllər inkar etdiyi bir sıra dəyərləri (konstitusionalizmi, plüralist demokratiyanı, hüquqi dövləti, hakimiyyətin bölgüsü prinsipini, qanunların aliliyini və s.) qəbul edərək məşhurlaşmışdır. Eyni zamanda, mühafizəkarlığı tetçerizm və reyqanizm daha da məşhurlaşdırdı. Bunun nəticəsidir ki, 1983-cü ildə yaranan Beynəlxalq Demokratik İttifaqa dünyanın 70-dən çox mühafizəkar partiyası üzv oldu. Bu İttifaq "sol" partiyaları özündə birləşdirən Sosialist İnternasionalına (1980) alternativ kimi yaradılmışdı. Beynəlxalq Demokratik İttifaq azad bazar iqtisadiyyatı, qanunun aliliyi, sosial ədalət ideallarına sadiq qalacağını bəyan etmişdir.

Keçən əsrdə geniş yayılmış ideya-siyasi cərəyanlarından biri də sosial-demokratiyadır. XX əsrin 90-cı illərinin əvvəllərində dünyada 80-dən çox siyasi partiya sosial-demokrat proqramını qəbul etmişdi ki, bunların da 30-a qədəri ya təklikdə, ya da digər partiyalarla koalisiyada hakimiyyətdədir. Sosial-demokratiya ideya-siyasi cərəyanı bu gün siyasi cərəyan və hərəkat kimi formalaşıb. Bu hərəkatı 70 sosial-demokrat



partiyasını birləşdirən sosintern təmsil edir. Müasir sosial-demokrat proqram hərəkatının əsasını "demokratik sosializm" konsepsiyası təşkil edir.

Keçmiş sovet imperiyasının dağılması ilə hakim ideologiya kimi marksist - leninçi ideologiyanın da sonu gəlib çatdı. Təbii ki, müstəqilliyini əldə etmiş keçmiş sovet respublikalarında, o cümlədən Azərbaycan Respublikasında ideologiya axtarışları başlandı. Belə bir şəraitdə fikir plüralizmi cəmiyyətin irəliyə doğru inkişaf etdirilməsi üçün nəzərdə tutulan ideya-siyasi, sosial-fəlsəfi konsepsiyaların bərqərar olması ilə müşayiət olundu. Müxtəlif inkişaf modelləri irəli sürüldü, ictimai fikir Qərb və Şərq inkişaf yolu arasında, milli, dini, liberal, mühafizəkar, sosial-demokratiya və b. ideologiyaların seçimi qarşısında qalmış oldu. Azərbaycan cəmiyyətinin transformasiyası prosesində Qərb inkişaf yolu-açıq cəmiyyət, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yoluna üstünlük verildi. Cəmiyyətimizdə liberalizm, mühafizəkarlıq, sosial-demokratiya ideologiyaları ilə yanaşı, kommunist, islam ideologiyası, turançılıq-türkçülük, azərbaycançılıq ideologiyaları da özünə yer tapmış oldu.

# FƏSİL XIV

## SİYASİ MÜNAQİŞƏLƏR

### *§ 1. Münaqişə sosial hadisədir*

Cəmiyyətin işkişaf tarixi göstərir ki, cəmiyyətdə və ya onun ayrıca bir sahəsində daim münaqişə ilə nəticələnən ziddiyyət mövcuddur. Ziddiyyət predmet, hadisə və proseslərin daxili tərəfləri arasındakı fərqlərin dərinləşməsidir. kəskinləşməsidir, eyni zamanda mənafe uyğunsuzluğu və əksliyin ifadəsidir. Lakin hər cür ziddiyyət münaqişə demək deyildir. Ona görə də ziddiyyətlərin aşağıdakı inkişaf mərhələlərini bilmək zəruridir: ***harmoniya, disharmoniya və münaqişə.***

Harmoniya ahəngdarlıq vəziyyətidir. Amma bu o demək deyildir ki, belə halda hadisə və proseslərdə fərqli xüsusiyyətlər yoxdur. Onlar vardır və tədricən inkişaf edərək ziddiyyətlərə gətirib çıxarır. Vaxtilə Heroklit qeyd edirdi ki, harmoniya ziddiyyətlərdən (əksliklərdən) ibarətdir.

Disharmoniya isə harmoniyanın əksidir, yə'ni ahəngsizlik və qarşılıqlı tə'sirin pozulmasıdır. Əksliklərin mübarizəsinin ***kuliminasiya*** nöqtəsi, toqquşma səviyyəsi münaqişədir. Münaqişə (konflikt) latınca konfliktic sözündən olub toqquşma, ixtilaf, mübahisə mə'nalarında işlənir.

Mövcud ədəbiyyatlarda sosial münaqişəyə çoxlu təriflər verilmişdir. Məsələn, B.İ. Krasnova görə, münaqişə bir-birinə əks olan maraqların, fikirlərin, baxışların toqquşması, mübarizə edən hər hansı tərəf üçün çətinliklərlə nəticələnə bilən ciddi ixtilaf, kəskin mübahisədir.

V.N. Lavrinnikovun redaktəsi ilə nəşr olunmuş sosiologiya dərsliyində isə münaqişə qarşılıqlı tə'sir subyektlərinin əks məqsəd, mövqe və baxışlarının toqquşmasıdır.

A.V.Qluxovanın anlamında münaqişə emosiyaların, sosial birliklərin və sosial institutların elə qarşılıqlı tə'sir üsulunu nəzərdə tutur ki, burada bir tərəf digərinin əks hərəkəti ilə toqquşaraq, onun məqsədlərinin, mənafelərinin reallaşmasına maneçilik törədir.



N.X.Səfərova öz elmi araşdırmalarında münaqişəyə aşağıdakı tərifi vermişdir: sosial münaqişə maddi və mənəvi ehtiyaclardan törəyən, bir-birinə əks olan müxtəlif maraq, məqsəd və iddiaların toqquşması, onların reallaşması üçün hansısa müddətə birləşən sosial qurumların mübarizəsidir.

Sosial münaqişənin subyektləri kiçik və böyük qruplar (siniflər, etnik qruplar, millətlər), təşkilatlar ola bilər. Münaqişədəki mövqelərinə görə qruplar üç növə ayrılır:

***1. İlkin qruplar obyektiv və subyektiv baxımdan uyuşmaz məqsədlərə çatmağa dair qarşılıqlı tə'sir halında olan münaqişənin bilavasitə iştirakçıları;***

***2. Münaqişənin şiddətlənməsinə öz maddi imkanlarını daxil edən, lakin onun gedişinə qarışmağa çalışanlar.***

***3. Münaqişənin həllində maraqlı olan üçüncü qüvvələr. Bu subyektlər arasında münasibətlərin iki tipini ayırd etmək olar: a) hər hansı ümumi maraq və məqsəd güdməyən tərəflər; b) aralarında qarşıdurma olmasına baxmayaraq, hansısa ümumi maraqların birləşdirdiyi tərəflər.***

Sosial münaqişə siyasi biliyin aktiv inkişaf edən sahəsidir. Lakin bu problemlə politologiya tarixində əsasən M.Veber, K.Marks, E.Dyürkheym daha ciddi məşğul olmuşlar. Müasir dövrdə münaqişənin təbiətinə və formalarına baxışlar o qədər rəngarəngdir ki, xüsusi məktəblər və cərəyanlar, hətta elmi fənlər, məsələn, münaqişəşünaslıq (konfliktologiya) elmi yaranmışdır.

***Münaqişə əks fəaliyyət şəraitində öz maraqlarını həyata keçirmək məqsədi olan iki və daha artıq müxtəlif istiqamətli qüvvələrin toqquşmasıdır.***

Münaqişənin öyrənilməsində aşağıdakı iki istiqaməti fərqləndirmək olar.

***1. E.Dyürqheylm, T.Parsons, N.Smelzer konsepsiyası. Bu konsepsiyada diqqət stabillik və möhkəmlik probleminə verilir (funksionalizm).***

*2. M.Veber, K.Marks, R.Darendorf nəzəriyyəsi. Burada sosial proseslər və dəyişmələr zamanı münaqişə əsas yer tutur.*

*T.Parsonsa görə, münaqişə:*

1) hər bir cəmiyyət nisbətən möhkəm və stabil strukturdur;

2) hər bir cəmiyyət yaxşı yaxınlaşma strukturudur;

3) cəmiyyətin hər bir elementi müəyyən funksiyaya malikdir, yə'ni sistemin möhkəmlənməsi üçün nə isə edir;

4) sosial strukturun funksiyası stabillik və inteqrasiyanı təmin edən cəmiyyət üzvlərinin konsensusuna əsaslanır.

R.Darendorfa görə, "kim ki, qəbul etmək yolu ilə münaqişənin öhdəsindən gəlir, o, tarixin ritmini öz nəzarətinə götürür. Kim bu imkanı əldən verirsə, o, ritmi rəqibinə vermiş olur". Darendorf hesab edir ki, münaqişə hər bir cəmiyyətdə olan hakim təbəqə ilə tabe olan təbəqə arasında mövcud qarşılıqlı müqavilənin nəticəsidir. Münaqişənin əzilməsi onun dərinləşməsinə, "rasional tənzimləmə" isə "nəzarətdə olan təkamülə" gətirib çıxarır.

L.Kozerə görə, sosial münaqişə sosial qrupların, yaxud fərdlərin obyektiv məqsəd uğrunda (hakimiyyət, statusun dəyişdirilməsi və s.) fəaliyyəti və hissini əks etdirən ideoloji hadisədir. Onun fikrincə, münaqişənin dəyəri ondadır ki, o, yeniliyə yol açaraq, sosial sistemin bir formada möhkəmlənməsinə mane olur.

Tanınmış Amerika alimi K.E.Boldinqin nəzəriyyəsinə görə, ictimai münaqişələr təzahür səviyyələrinə görə üç böyük qrupa bölünür: fərd, qrup və təşkilat səviyyəsində olan münaqişələr. Boldinq münaqişənin aşağıdakı tipologiyasını təklif edir:

1) fərdlər arasında münaqişələr;

2) məkana görə izolyasiya olunmuş qruplar arasında münaqişələr;

3) qruplar arasında ekoloji münaqişələr;

4) homogen təşkilatlar arasında münaqişələr (məs: dövlətlər arasında);

5) fərdlər və qruplar arasında münaqişələr (məs. ailədə);

6) fərdlər və təşkilatlar arasında münaqişələr (məs. vətəndaş və dövlət arasında);

7) qrup və təşkilat arasında münaqişələr.

Bir çox müəlliflər münaqişəni onların inteqrativ və dezinqrativ xarakterinə görə təsnif edirlər. Bundan fərqli olaraq, A.Rappoport münaqişənin üç əsas növünü və ya üç səviyyəsini ayırır: müharibə, oyun və mübahisə.

***Müharibə*** bütün vasitələrdən, o cümlədən zorakılıqdan istifadə edərək qələbə sonluğuna qədər güzəştsiz mübarizədir. ***Oyun*** qabaqcadan müəyyən olunmuş qaydalar əsasında münaqişənin həll olunmasıdır. Nəticədə qalib tərəf həyati cəhətdən çox da önəmli olmayan üstünlük əldə edir. Mübahisə zamanı yalnız sülhməramlı vasitələrdən istifadə olunur; məqsəd rəqib tərəflə razılaşmaya gəlməkdir.

Münaqişələr aşağıdakı göstəricilərinə görə fərqlənirlər:

1) leqal və qeyri-leqal mövcudluğuna görə (açıq və gizli);

2) inkişafın istiqamətinə görə (subyektiv və obyektiv məqsədlər);

3) sürətinə, növünə görə (koqnitiv və motivli);

4) onların həlli "mexanizminə" görə;

5) mürəkkəbliyinə və zəruriliyinə görə.

Koqnitiv münaqişələr o münaqişələr adlanır ki, onlar hadisələrə, faktlara əks və ziddiyyətli nöqteyi-nəzərləri əks etdirir. Bu münaqişələr mətbuat səhifələrində diskussiya, mübahisə, disput və s. əsasında inkişaf edir. Əgər tərəflərdən hər hansı birində zorakılıqdan istifadə olunmursa, əgər diskussiya sivil qaydalara uyğun gedirsə, adətən bu zaman həmin növün motivli xarakterə keçməsi üçün heç bir təhlükə yaranmır.

Yaranma səviyyəsinə görə iqtisadi, sosial, siyasi münaqişələr, cəmiyyətin mənəvi həyatında baş verən münaqişələr, dövlətlərarası münaqişələr mövcuddur.

Münaqişələrin daha bir maraqlı tipologiyasını professor Robert Dol verir. Onun fikrincə, qarşı-qarşıya dayanmış münaqişə iştirakçılarından bipolyar (ikitərəfli) və mumipolyar (çoxtərəfli) münaqişələr; münaqişə iştirakçılarının uyğunluğu və fərqindən asılı olaraq kommulyativ və kəsişən münaqişələr; iştirakçıların antoqonizm səviyyəsindən və yaxud dərəcəsindən asılı olaraq polyarlaşmaya (qütbləşməyə) və seqmintasiyaya aparan münaqişələr mövcuddur.

Qütbləşmə dedikdə, cəmiyyətin iki barışmaz tərəflərə ayrılması başa düşülür. Bu halda ziddiyyət heç bir vasitə ilə həll olunmur. Seqmentasiya isə müxtəlif maraq və dəyərlərinə görə cəmiyyətin bir sıra təbəqələrə və qruplara parçalanmasıdır. Lakin bu zaman qarşılıqlı güzəştlər, danışıqlar və məsləhətləşmələr cəmiyyətdə stabilliyə zəmanət verir.

Hər bir sosial münaqişənin özünəməxsus əmələgəlmə səbəbləri olur. Buna görə də münaqişələri yaradan səbəblərə. onların köklərinə birmənalı cavab vermək çətindir. Bu və ya digər münaqişənin səbəblərini və köklərini müəyyən etmək üçün kompleks şəkildə bütün şərait (iqtisadi, siyasi, sosial, ideoloji, dini, yaş amili və s.) nəzərə alınmalıdır.

Cəmiyyətdə münaqişənin əsas mənbəyi cəmiyyətin təbəqələşməsi - müxtəlif qruplara, təbəqələrə, siniflərə bölünməsidir. Cəmiyyətdə istehsal qüvvələri ilə istehsal münasibətləri arasında mövcud olan ziddiyyət münaqişələrin yaranmasına təkan verir ki, bu da özünü sosial təbəqələr, qruplar, siniflər arasındakı mübarizədə; nəsillər (ailədə, təşkilatda) arasındakı ziddiyyətdə; etnik qruplar arasındakı mübarizədə; bir-birinə zidd olan müxtəlif dini icmaların fəaliyyətində; yeni yaranmış adət və ənənələrin daşıyıcıları ilə köhnə adət və ənənələrin tərəfdarları arasındakı mübarizədə göstərir.

Bu və ya digər münaqişəni təhlil edəndə biz aşağıdakıları bilməliyik:



***1. Münaqişə edən tərəflərin xarakteristikası;***
***2. Onların qarşılıqlı tə'sirlərinin tarixi;***
***Münaqişənin səbəbləri;***
***Münaqişəyə gətirib çıxaran sosial mühit;***
***Maraqlı tərəflər;***
***3. Münaqişə edən tərəflərin strategiyası və taktikası;***
***4. İştirakçılar və maraqlı tərəflər üçün münaqişənin nəticəsi.***

Sosial münaqişəni təhlil etdikdə olur ki, o, üç mərhələdən keçir:

***1. Münaqişəqabağı mərhələ.*** Hər bir münaqişənin meydana gəlməsinin xarakterik cəhəti onun obyektinin, münaqi-şəyə cəlb olunmuş iki və ya daha çox subyektin fərqli tələblərinin mövcudluğudur.

Münaqişə ərəfəsi münaqişə edən tərəflərin aqressiv fəaliyyətə və yaxud geri çəkilməyə qərar verməzdən əvvəl öz ehtiyatlarını qiymətləndirməsidir. Bu ehtiyatlara maddi dəyərlər, məlumatlar, hakimiyyət, nüfuz və s. aiddir. Bu zaman tərəflər həmçinin həmfikirlər və tərəfdarlar axtarır, qruplar təşkil edirlər. Bütün bu arzu olunanlar başa çatdıqdan sonra fərd və yaxud sosial qrup məqsədə çatmaq üçün maneçilik törədən obyekti, həmin obyektin "günahını", qüvvəsini və imkanlarını müəyyən edir. Münaqişə ərəfəsində bu məqam identifikasiya adlanır.

***2. Bilavasitə münaqişə.*** Bu mərhələ insidentin mövcudluğu ilə müəyyən olunur, yəni rəqibin davranışının dəyişməsinə istiqamətlənmiş sosial fəaliyət nəzərdə tutulur. İnsidenti təşkil edən bu fəaliyət açıq və yaxud gizli ola bilər.

Bu mərhələdə münaqişə edən tərəflərin hərəkətləri maksimum inkişaf edərək kritik nöqtəyə çatır. Bundan sonra münaqişənin kəskinliyi və gücü tədricən aşağı düşür, özünün həll olma səviyyəsinə yaxınlaşır, yaxud da əksinə, rəqiblər arasındakı münasibətin yenidən kəskinləşməsi baş verir.

***3. Münaqişənin həlli.*** Münaqişənin həllinin başlıca əla-

məti insidentin başa çatması ilə özünü büruzə verir. Bu o deməkdir ki, münaqişə edənlər arasında münaqişəli vəziyyət bitir.

Sosial münaqişənin həlli yalnız münaqişə vəziyyətinin dəyişməsi zamanı mümkündür. Bu dəyişiklik müxtəlif formada ola bilər. Lakin münaqişənin həllinin ən yaxşı variantı münaqişənin səbəblərinin aradan qaldırılmasıdır. Bundan başqa, sosial münaqişəni tərəf tələblərinin dəyişməsi yolu ilə də həll etmək olar: rəqib güzəştə gedir və münaqişədə öz davranışının məqsədini dəyişir. Sosial münaqişə həmçinin tərəflərin ehtiyatlarının tükənməsi və yaxud da üçüncü tərəfin məsələyə müdaxiləsi ilə də həll oluna bilər.

## § 2. *Siyasi münaqişə*

Siyasi münaqişə siyasi subyektlərin siyasi maraqlarının, dəyərlərinin və baxışlarının ***əksliyi əsasında*** baş verən qarşıdurmadır, toqquşmadır.

Cəmiyyətin sosial-siyasi strukturunda münaqişə bir sıra parametrlərlə səciyyələnir. Məsələn, onun səviyyəsi, miqyası, kəskinliyi, yaranma sferası və s. müxtəlif olur.

Siyasi münaqişələr aydın seçilən siyasi xarakteri ilə fərqlənir. Lakin nəzərə almaq lazımdır ki, ayrı-ayrı sferalarda baş verən münaqişələr siyasi əhəmiyyət kəsb edir, çünki onlar adətən beynəlxalq, sinfi, milli və etnik qruplararası, dini, regional və s. münasibətlərdə toxunur.

Bütün münaqişələrin, o cümlədən siyasi münaqişələrin araşdırılması ictimai münasibətləri ahəngdarlaşdırmaq baxımından olduqca əhəmiyyətlidir. Hazırda mümkün münaqişələri proqnozlaşdırmaq, onların neqativ nəticələrini azaltmaq ciddi məna kəsb edir. Münaqişə vəziyyətləri üzərində demokratik nəzarət prosesi öz həyati üstünlüklərini artıq kifayət qədər nümayiş etdirmişdir.



Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın ictimai-siyasi fikrində münaqişələrin yaranmasının fərdlərin, sosial-siyasi qüvvələrin mənəvi-əxlaqi keyfiyyətləri ilə əlaqəsinə xüsusi diqqət yetirilmişdir. Bu cəhətdən Nəsirəddin Tusinin mülahizələri xüsusi maraq doğurur.

XIII əsrdə yaşamış ensiklopedik alim münaqişələrin yaranmasının əsas səbəblərini aşağıdakı kimi izah etmişdir.

***İddialılıq*** adam özündən müştəbeh olur, layiq olmadığı mövqe iddiasına düşür. Öz eyib və nöqsanlarını bildikdən, fəzilətdə hamının payı olduğunu anladıqdan sonra iddialılığı sovuşar; özündəki istedadın başqalarında da olduğunu görən iddialı olmaz.

***İftixar*** - fəlakət və bəlalara məruz qalıb məhv ola bilən, əbədiliyinə, davam edib yaşamasına heç bir ümid olmayan şeylərlə fəxr etməyə deyirlər.

Dava-dalaş dostluq, ülfət və ünsiyyətin aradan çıxması, ziddiyyət, düşmənçilik və ədavətin ortaya düşməsi nəticəsində əmələ gələr, dünyanın yaşaması isə dostluq və məhəbbətdə-dir. Deməli, dava-dalaş dünyanın nizam- intizamını pozmaq istəyən fəsadlardandır, özü də rəzalətlərin ən təhlükəlisidir.

***Höcət*** - yersiz və lazımsız mübahisədir.

***Zarafat*** qaydasında olsa yaxşıdır, Məhəmməd peyğəmbər buyurmuşdur ki, "zarafat edin, lakin şitini çıxartmayın."

***Təkəbbür***- iddialılığa yaxındır, fərqləri orasındadır ki, iddialı özündə olmayan istedadın olduğunu guman edib özünü aldadır, təkəbbür isə həmin xüsusiyyətlə başqalarını aldatmaq istər, hər iki halda özü aldanar.

Bunun əlacı iddialılıq müalicəsinə yaxın olar.

***Təlxəklik*** - təlxək xasiyyətli, masqarabaz adamların işidir. Bununla elə adamlar məşğul olarlar ki, onlar dövlətlilərin könlünü ələ almaq, onları əyləndirmək və bu vasitə ilə güzaran keçirmək üçün başqalarını ələ salmaq, alçaltmaq və bu kimi başqa çirkin hərəkətdən çəkinməzlər.

***Xəyanət***- istər mal, istər vəzifə, istər dostluq, istərsə də mərhəmətlilikdə növü olduqca çoxdur. İnsanlıqda son dərəcə az payı olan bir adamın yanında da xəyanətdən daha alçaq rəzalət ola bilməz. Buna görədir ki, heç kəs xainliyi boynuna almaz.

***Qisas***- bu, intiqam almaq üçün başqasına verilən cəzadır, belə halda, məlum olduğu kimi, "günaha-günah", "zülmə-zülm" deyiblər. Lakin ağıllı adam nəticədə daha böyük zərər çəkməyəcəyinə əmin olmayınca qisasa əl atmamalıdır. Bunu isə götür-qoy etdikdən və ağıl ilə məsləhətləşdirdən sonra bilmək olar.

***Mübahisə, münaqişə və həsədə səbəb olan nəfis şeylərə hərislik*** qüdrət və ixtiyar sahiblərində böyük təhlükəyə səbəb ola bilər, ortabablar haqqında heç danışmağına gəlməz. Hansı padşahın xəzinəsində çox bahalı bir gövhər varsa, qəlbində xof, onu itirmək qorxusu əmələ gələr, bundan isə narahatlıq, vahimə törəyər.

Siyasi münaqişə anlayışı, siyasi münasibətlər sistemində müəyyən nüfuza görə bir subyektin başqa bir subyektlə mübarizəsi, ümuməhəmiyyətli qərarların qəbul edilməsində iştirak, cəmiyətdə öz maraqlarının qorunması, bir sözlə, hakimiyyət və hökmranlıq uğrunda mübarizə kimi başa düşülür.

Siyasi dövlət hakimiyyəti əldə etmək, hakimiyyət institutlarının quruluşu, sosial qrupların siyasi statusu, dəyərlər və rəmzlər və s. bütün bunlar siyasi münaqişənin predmeti və obyektidir.

Siyasi cəmiyyətlər arasında ziddiyyətlər bütöv bir sistem kimi siyasi münaqişənin əsas mənbəyi hesab olunur.

Tədqiqatçılar siyasi münaqişənin üç növünü müəyyən edirlər:

1. ***Maraqlar münaqişəsi.***
2. ***Dəyərlər münaqişəsi.***
3. ***İdentifikasiya münaqişəsi.***



***Maraqlar münaqişəsi*** əsasən iqtisadi cəhətdən inkişaf etmiş, möhkəm dövlət quruluşu olan ölkələrdə üstünlük təşkil edir. Bu ölkələrdə mübarizə vergi səviyyəsi, sosial təminatın həcmi uğrunda gedir. Bu tip münaqişələr adətən çox asanlıqla tənzimlənir, çünki bu vaxt kompromis qərarlar tapmaq olur.

***Dəyərlər münaqişəsi*** əsasən çox da möhkəm dövlət quruluşu olmayan inkişaf etməkdə olan ölkələr üçün xarakterikdir. Bu münaqişələrdə kompromissə getmək çətinlik törətdiyi üçün onların tənzimlənməsi çox böyük səy tələb edir.

***İdentifikasiya münaqişəsi*** zamanı subyekt cəmiyyəti (dövləti) deyil, müəyyən bir etnik, dini, dil qrupunu özü ilə bərabərləşdirir. Bu tip münaqişə irqlərin, etnik qrupların və yaxud da dil qruplarının ziddiyət təşkil etdiyi dövlətlər üçün daha çox xarakterikdir.

İştirakçıların sayından asılı olaraq münaqişələr dövlətlərarası (subyekt dövlət və onun komisiyası), dövlət (subyekt hakimiyyətin qolları, siyasi partiyalar və s.), regional (subyektregional siyasi qüvvələr) və yerli (subyekt yerli siyasi qüvvələr) münaqişələr ola bilər.

Siyasətdaxili münaqişələr horizontal və vertikal münaqişələrə bölünür. Horizontal pozision siyasətdaxili münaqişələrdə mövcud siyasi sistem çərçivəsində hakimiyyəti və rəhbərliyi həyata keçirən, lakin bu prosesdə müxtəlif mövqelər tutan siyasi institutlar, təşkilatlar iştirak edir. Məsələn, təşkilatlar və həmin təşkilatlarda birləşən insanlar, hökumətin müxtəlif qollarını təmsil edənlər, federal hakimiyyətin institutları və federasiyanın subyektləri. Belə münaqişələrin predmeti siyasi sistemin elementləri və hakim dairəyə daxil olan siyasətçilərdir. Həmin sisitemin marağına və məqsədinə hakim qüvvənin ayrı-ayrı qruplaşmalarının mövqeləri uyğun gəlir. Bu münaqişələrin həlli yeridilən siyasətdə bəzi dəyişikliklərə gətirib çıxarır.

Siyasətdaxili münaqişələrin mövqeyi (vertikal) subyekt-

ləri bir tərəfdən hakim elita, onların maraqlarını idarə edən partiyalar, dövlət institutları, təşkilatlar və liderlərlə, digər tərəfdən isə mövcud sistemin, hakim siyasi quruluşun əleyhinə olan aktiv siyasi qruplarla şərtlənir. Bu zaman münaqişənin predmeti bütün mövcud hakimiyyət sistemi, mövcud rejimdir. Münaqişənin nəticəsi siyasi sistemin dəyişməsidir. Buna görə də belə münaqişələr radikal münaqişələr adlanır.

Radikal münaqişələrin kökü siyasi maraqlarla böyük sosial qrupların əsas dəyərləri arasındakı ziddiyyətlərdir. Radikal münaqişələr əksər, bə'zi hallarda isə bütün siyasi institutları, kütlənin böyük hissəsini ziddiyyətə cəlb edir. Nisbi münaqişə isə müvəqqəti, iştirakçıların qeyri-əsas maraqları arasında baş verir. Bu münaqişədə yalnız bir neçə institut və qrup, elitanın bir hissəsi, siyasi münasibətlərin və institutların islahatında, konkret problemlərin həllində maraqlı olan rəqabət aparan partiyalar iştirak edirlər. Radikal münaqişə cəmiyyəti iki əsas, əks siyasi qüvvəyə ayırır; nisbi münaqişə isə plüarizmin "oyun" qaydası çərçivəsində hərəkət edən bir neçə siyasi qüvvə arasında baş verir.

Siyasətdaxili münaqişələr həmçinin şəraitə uyğun münaqişələrə və legitim münaqişələrə bölünür.

Şəraitə uyğun münaqişələrdə subyektlərdən biri dövlətin ərazi bütövlüyünü pozmadan hakimiyyəti ələ keçirməyə, yaxud siyasi sistemi dəyişdirməyə çalışır.

Legitim münaqişə zamanı dövlətin bir hissəsi dövlətdən ayrılmağa çalışır. Bu münaqişə çox zaman etnosiyasi münaqişə ilə üst-üstə düşür. Lakin etnosiyasi münaqişələr həmişə legitim hesab olunur (məs., milli bərabərlik, muxtariyyət tələbi).

***Siyasi münaqişə*** - siyasi böhran (yəni, hökumət böhranı, parlament böhranı, konstitusiya böhranı), hakimiyyəti bölüşdürmək, hakim olmaq, lider olmaq, hakimiyyəti ələ almaq, siyasi məqsədlərə nail olmaq, millətlər və etnik qruplararası münaqişə hər hansı millətin hüquqlarının pozulması səbəblərindən baş verir.



***Hökumət böhranı*** - hökumətin öz nüfuzunu itirməsində, sosial iqtisadi problemləri həll edə bilməməsindən irəli gəlir.

***Parlamentin böhranı*** - qanunverici hakimiyyət orqanında qüvvələr nisbətinin dəyişməsi, ölkə vətəndaşlarının əksəriyyətinin iradəsi ilə parlament qanunlarının uyğun gəlməməsində ifadə olunur.

***Konstitusiya böhranı*** - ölkənin əsas qanunun özfəaliyyətini faktiki olaraq dayandırılmasında ifadə olunur.

Milli-etnik zəminindəki münaqişələri doğuran konfliktlər aşağıdakı mərhələ kimi özünü büruzə verir.

1. ***Konfliktlərin, "psixoloji stereotiplər mərhələsi;***
2. ***İdeoloji zəmində olan mərhələ;***
3. ***"Siyasi institutlar" mərhələsi.***

***Millətlərarası münaqişələr*** - birinci stereotiplər mərhələsində sosial qaydaların qoruyucusu, ikinci mərhələsində vasitəçi, üçüncü mərhələdə, yəni "sosial institutlar"da isə prosesin əsas iştirakçısı kimi çıxış edir.

# FƏSİL XV

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ XARİCİ SİYASƏT

### § 1. Beynəlxalq münasibətlər anlayışı

Beynəlxalq münasibətlər dünya birliyinə daxil olan dövlətlər, xalqlar, millətlər, beynəlxalq millətlərarası təşkilatlar arasında siyasi, iqtisadi və mədəni münasibətlərdən yaranan bir sistemdir. Bu münasibətlərin humanist, demokratik əsaslarda qurulması dövlətlərin, istiqlaliyyət uğrunda mübarizə aparan xalqların millətlərin mənafelərinə uyğundur. Beynəlxalq sistemin subyektləri arasında müxtəlif səviyyəli, miqyaslı münasibətlərin təşəkkülü və inkişafı mürəkkəb xarakterə malikdir. Beynəlxalq münasibətlər ikitərəfli və universal şəkildə qurula bilər və çox vaxt regional xarakter daşıyır.

Dünya təsərrüfatının beynəlmiləlləşməsi prosesləri, dövlətlərin qarşılıqlı asılılığı, elmi-texniki tərəqqinin tə'siri və s. sayəsində beynəlxalq münasibətlər fasiləsiz olaraq genişlənir, məzmunca zənginləşir. Bu zaman bütün dünya dövlətlərində yaranmış yeni problemləri (ərzaq, enerji, ekoloji və s.) həll etmək üçün onlar öz səylərini birləşdirən strukturlar axtarırlar. Planetdə sülhün qorunması beynəlxalq münasibətlərin inkişafı üçün ən əsas şərt olaraq qalır. Nəticədə müasir dünyada beynəlxalq münasibətlərin rolu durmadan artır.

Beynəlxalq münasibətlərin dinamik inkişaf edən sistem şəklində nəzərdən keçirilməsi, beynəlxalq həyat hadisələrinin bütün kompleksinin öyrənilməsi və elmi cəhətdən ümumiləşdirilməsi realist siyasət işləyib hazırlamaq və onu reallaşdırmaq üçün ilkin əsasdır. Beynəlxalq sistemdə sabit əlaqələrin, qarşılıqlı asılılıq münasibətlərinin mövcud olmasını, beynəlxalq münasibətlərin dinamik inkişafının ən ümumi əlaqəsi kimi müəyyən etmək olar.

Dünyanın bu və ya digər regionunda beynəlxalq münasibətlər müxtəlif cür formalaşmış, hər bir ayrıca halda onların məzmunu spesifik xarakter kəsb etmiş, tarixin ayrı-ayrı dövrlərində müxtəlif olmuşdur.

Bəşər cəmiyyətinin maddi və mənəvi həyatının beynəlmiləlləşməsi prosesində beynəlxalq münasibətlər daha intensiv inkişaf etməyə başlamışdır. Bu prosesin başlanması ilə əlaqədar olaraq, ayrılıqda hər bir cəmiyyətin həyatında beynəlxalq amil mühüm əhəmiyyət kəsb etmişdir. Təbiidir ki, bu istiqamətdə elmi axtarışlar da güclənmişdir. Belə ki, hələ bizim eradan əvvəl antik Yunanıstanda bir sıra elm sahələri münaqişələrin və müharibələrin səbəbləri, xalqlar arasında sülh və əmin-amanlığın yaradılması yolları, onların qarşılıqlı əməkdaşlığı haqqında problemlərlə məşğul olmuşlar. Beynəlxalq münasibətlərin öyrənilməsinə antik yunan filosofları Platon, Sokrat Aristotel və başqaları xüsusi diqqət yetirmişlər.

Lakin müasir ziddiyyətli beynəlxalq münasibətlər onların politologiya elmi tərəfindən öyrənilməsini prinsipcə xeyli mürəkkəbləşdirir. Aydın məsələdir ki, indi dövlətlərin sayı çoxalıb, siyasət yeni xüsusiyyətlər kəsb edib, politoloji tədqiqatlar artıb və bu tədqiqatları sistemləşdirmək zərurəti ortaya çıxıb. Qərb politoloqları bu zərurətdən irəli gələn problemlərə müxtəlif cür yanaşırlar. Buradan çıxış edərək, politologiyada beynəlxalq münasibətlərin tədqiqinin iki əsas istiqamətini göstərmək olar.

1. ***Ümumi məsələlər nəzəriyyəsi.***
2. ***Xüsusi məsələlər nəzəriyyəsi.***

Beynəlxalq münasibətlərin ümumi yanaşma nəzəriyyələri aşağıdakılardır:

***Kaunski Raytın amillər nəzəriyyəsi.***
***Corc Lisinkin beynəlxalq tarazlıq nəzəriyyəsi.***
***Raymon Aronun sülh və müharibə nəzəriyyəsi.***
***Hans Morgentaunun siyasi realizm nəzəriyyəsi.***

***İohan Heltunqun əlaqələr nəzəriyyəsi.***

***Baqat Koronin beynəlxalq aktyorlar nəzəriyyəsi.***

Lisinskinin modellərin qarşılıqlı fəaliyyət nəzəriyyəsini, Raytın amillər nəzəriyyəsini bəzən beynəlxalq münasibətlərin güc sahəsi nəzəriyyələri adlandırılır. Burada bir-birini tamamlayan dinamik münasibətlər və dünyada bir-birinə qarşılıqlı surətdə təsir edən amillər nəzərdən keçirilir. Amillərin hərəkəti həqiqi sistem yaradır ki, onun gücünü maddi amillər, istiqamətini isə mə'nəvi amillər müəyyənləşdirir. Beynəlxalq tarazlıq nəzəriyyəsi beynəlxalq münasibətlərin sabitliyi stabilliyi, məsələlərini əhatə edir.

Beynəlxalq münasibətlər sahəsindəki siyasi fikrinin əsasını sülh və müharibə nəzəriyyəsi təşkil edir. Bu nəzəriyyənin əsas prinsipləri:

***1. Dövlətlərarası münasibətlər spesifik danışıqlardan ibarətdir.***

***2. Dövlətlərarası münasibətlər həmin ölkələrin daxilində baş verən hadisələrin tə'siri altında inkişaf edir.***

***3. Sülh əldə etmək, mövcud imkanları siyasi davranış ətrafında cəmləşdirməyə imkan verir.***

***4. Dövlətlərarası danışıqlarda dövlətlərin daxili işlərinə qarışmamaq və milli xüsusiyyətləri nəzərə almaq zəruridir.***

Siyasi realizm nəzəriyyəsi hakimiyyət mənafelərinin dərk edilməsini, beynəlxalq siyasətin daha düzgün istiqaməti hesab edir. Burada beynəlxalq siyasətin obyektiv qanunlarını dərk etmək şərti əsas götürülür.

Beynəlxalq əlaqələr nəzəriyyəsi beynəlxalq münasibətlərdə kollektivlərin yaradılmasını və onlar arasında əlaqələrin inkişafını əsas hesab edir.

Beynəlxalq aləmdə baş verən hadisə və proseslərə dair xüsusi nəzəriyyələrə aşağıdakıları aid etmək olar:

***Milli mənafe nəzəriyyəsi*** mənafeləri əsas götürən tə'limlərə daha çox yaxındır. Bu nəzəriyyədə fövqəlmilli mənafelər milli mənafelərdən üstün hesab olunur.



***Bloklara qoşulmamaq nəzəriyyəsində*** beynəlxalq münasibətlərin inkişafı dövlətlərin, millətlərin dinc, yanaşı yaşaması kimi başa düşülür.

***Münaqişə nəzəriyyəsi*** dövlətlər və beynəlxalq sistemlər arasındakı ziddiyyət və gərginliyin, münaqişələrin vaxtından qabaq üzə çıxarılmasını nəzərdə tutur.

***İnteraksiya nəzəriyyəsi*** beynəlxalq münasibətlərdə iştirakçıların hərəkətlərini onların aksiya və reaksiyalarını ümumiləşdirən proses kimi qəbul edir.

***Tərəflərin qəbul edilməsi nəzəriyyəsi,*** adından məlum olduğu kimi, xüsusi həlledici qərarların verilməsi və reallaşmasına şərait yaratmağı nəzərdə tutur.

***Beynəlxalq sistemlər nəzəriyyəsi,*** beynəlxalq təşkilatlar nəzəriyyəsi və digər nəzəriyyələri də qeyd etmək olar.

Müasir dövrdə beynəlxalq münasibətlərdə başqa millətlərin mənafelərini nəzərə almadan, hər hansı millətin mənafelərinin həyata keçirilməsinin qeyri-mümkünlüyü ideyası ümumbəşəri üstün dəyər kimi qavranılır. Bəşəriyyətin sosial inkişafının aparıcı qanunauyğunluqlarından biri dövlətlər və millətlər arasında həyatın bütün sahələrində münasibətlərin beynəlmiləlləşməsidir.

Beynəlxalq münasibətlər haqqında yuxarıda göstərilən nəzəriyyələrə və digər qeydlərə istinad edərək, belə bir qənaətə gəlmək mümkündür: ***Dövlətlər, beynəlxalq təşkilatlar, cəmiyyətlər arasında müxtəlif səviyyələrdə və formalarda həyata keçirilən ikitərəfli və çoxtərəfli əlaqə və münasibətlər beynəlxalq münasibətlərin əsasını təşkil edir.***

Beynəlxalq münasibətlər anlayışının əsas məzmunundan söhbət getdikdə iki amil xüsusi qeyd olunmalıdır: Birincisi, beynəlxalq münasibətlərin qurulması, danışıqlar, bağlanmış müqavilələr və s. İkincisi isə bu münasibətlərin, danışıqların reallaşması, həyata keçirilməsi. Bunların hər ikisi bir-biri ilə sıx bağlıdır. Beynəlxalq aləmdə qüvvələr nisbətinin durma-

dan dəyişilməsi faktı beynəlxalq münasibətlər sisteminin öyrənilməsi üçün xüsusi əhəmiyyətə malikdir.

Beynəlxalq münasibətlər sistemini öyrənərkən onun komponentlərini də bilmək vacibdir. Müasir Qərb politologiyasında dövlət və millət beynəlxalq sistemin əsas komponentləri sayılır.

Dövlət başqa dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərdə iştirak etmək, müqavilələr imzalamaq, müharibə və sülh elan etmək, bir sözlə, daxili və xarici siyasəti həyata keçirmək səlahiyyətinə malikdir.

Beynəlxalq münasibətlər yalnız dövlətlər deyil, habelə xalqlararası münasibətlərdir. Millət dövlətə nisbətən daha yayğın fenomendir. Millətlərin beynəlxalq münasibətlərin müstəqil subyekti kimi tanınması, beynəlxalq təşkilatlarda iştirakı beynəlxalq münasibətlərin xarakterini əhəmiyyətli dərəcədə mürəkkəbləşdirir. Məhz bu baxımdan beynəlxalq münasibətlərin əsas komponenti dövlətdir. Beynəlxalq münasibətlərin inkişafı ilk növbədə onun iştirakçıları arasında qarşılıqlı əlaqə və münasibətlər sahəsinin genişlənməsində özünü büruzə verir. Müasir beynəlxalq münasibətlərdə sosial-iqtisadi, mənəvi tərəqqiyə və maddi-texniki əsasların təkmilləşməsinə xas olan qarşılıqlı əlaqələr həmin münasibətlərin bütün tərəflərinə dərindən nüfuz etmişdir. Eyni zamanda bütün dünya ölkələrinin, demək olar, hamısı beynəlxalq münasibətlərdə iştirak edir.

Beynəlxalq münasibətlərin məqsədi formal surətdə beynəlxalq hüquqi sənədlərdə, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində və s.də öz əksini tapmışdır. Bu, sülhü, təhlükəsizliyi, təmin etmək əməkdaşlığı inkişaf etdirmək, bütün xalqların tərəqqisi üçün əlverişli şərait yaratmaqdır. Bunu bütün bəşəriyyətin mənafeləri tələb edir.



## § 2. *Beynəlxalq siyasətin qlobal problemləri*

Bəşər cəmiyyəti adi daş alətlərdən başlayaraq müasir kibernetik maşınlara gəlib çatınca, kosmosa uçmağı, okeanların dibinə enməyi, dənizlərin kilometrlərlə dərinliyində olan nefti çıxarmağı öyrənincəyə qədər böyük bir inkişaf yolu keçmişdir. O, indi də durmadan inkişaf edir, gələcəyə doğru irəliləyir.

Lakin cəmiyyətin inkişafına düz xətt boyunca daim irəliləyən bir proses kimi baxmaq olmaz. Burada fəlakətlər, süqutlar, dəhşətli müharibələr və s. az olmamışdır. Mayya mədəniyyətinin və bu kimi digər böyük sivilizasiyaların məhvi ilə nəticələnən kataklizmləri misal göstərmək olar. Lap qədimlərdən başlayaraq müasir dövrün ayrı-ayrı dövrlərinədək davam edə böyük imperiyalar yaratmaq cəhdləri cəmiyyətin inkişafında olan ən böyük fəlakətlərin, insan qırğınlarının törədilməsi deməkdir. Makedoniyalı İsgəndərin dünyanı fəth etməsi, səlib yürüşləri, ərəblərin istilaları, Teymurləngin nəzarətində olan böyük imperiya, monqol-tatar müharibələri, Napoleon və Hitlerin apardıqları dünya müharibələri cəmiyyətin inkişaf tarixində ən böyük qara ləkələrdir. Həmişə olduğu kimi, cəmiyyətin inkişafı bu gün də çox ziddiyyətlidir. Bu, cəmiyyətin öz daxilində baş verən proseslərdən, o cümlədən sosial-etnik münaqişələrdən törəyir.

Bəşəriyyət öz təkamülündə elə bir inkişaf mərhələsinə gəlib çatmışdır ki, bir yandan nəhəng məhsuldar qüvvələr yaratmış, biri yandan da onun doğurduğu ciddi nəticələrlə üzləşmişdir. Sosial tərəqqi və insan zəkasının qüdrəti bizə misilsiz nailiyyətlər bəxş etsə də, müharibələrin qarşısının alınması, təbii ehtiyatlardan daha səmərəli istifadə olunması, ətraf mühitin qorunması və s. kimi problemlər doğurmuşdur. Onlar olduqca kəskin və aktual problemlərdir: ictimai tərəqqini ləngidə, sivilizasiyanı məhv edə bilər: hamısı qar-

şılıqlı təbiətə malikdir, özü də ictimai və təbii prosesləri birləşdirir; onlar bütün ölkələri və regionları əhatə edir, bütün bəşəriyyətin mənafelərinə, insan həyatının əsaslarına toxunur və bu problemlərin həll edilməsi sivilizasiyanın mövcudluğu üçün zəruridir.

Bu göstərilən problemlər müasir dövrdə qlobal problemlər adlandırılır. Şübhə yoxdur ki, müasir dövrün qlobal problemləri ictimai tərəqqi ilə əlaqədar olaraq meydana gəlmişdir. "Qlobal problem" anlayışı əsrimizin 50-ci illərindən başlayaraq elmi ədəbiyyatda geniş miqyasda işlənməyə başlanmışdır.

Müasir dövrün qlobal hesab etdiyimiz problemlərinin ümumi cəhətlərini V.V.Zaqladin və İ.T. Frolov 1981-ci ildə nəşr etdirdikləri "Müasir dövrün qlobal problemləri" kitabında aşağıdakı kimi izah etmişlər.

***Birincisi,*** qlobal problemlər dedikdə bütün bəşəriyyətin mənafelərinə və eyni zamanda gələcəyinə toxunan problemlər nəzərdə tutulur.

***İkincisi,*** cəmiyyətin inkişafının obyektiv amili kimi dünyanın əsas regionlarında təzahür olunanlar qlobal problemlərdir.

***Üçüncüsü,*** sivilizasiyanın taleyinin, bəşəriyyətin gələcəyinin həllindən asılı olduğu problemləri qlobal problem hesab etmək olar.

Nəhayət ***dördüncüsü,*** təbii-elmi, elmi-texniki, sosial-siyasi xarakterli problemlər bəşəriyyətin ümumi səyi nəticəsində həll edilirsə, onları qlobal problemlər hesab etmək olar.

Ümumiyyətlə, müasir dövrün qlobal problemləri kompleksini üç qrupa bölmək olar:

***1-ci qrup*** nüvə müharibəsi və onunla bağlı ortaya çıxan problemlərdir.

***2-ci qrup*** ekoloji amillərlə bağlı problemlərdir. Buraya



atmosfer, litosfer, biosfer və hidrosferin vəziyyəti ilə bağlı problemlər aiddir. Yerin səthinin və təkinin çirklənməsi bəşəriyyətin gələcəyinə olduqca mühüm tə'sir göstərən amildir.

***3-cü qrup*** problemlərə isə azad olmuş Afrika, Asiya və Latın Amerikası ölkələrində ictimai, siyasi və mədəni sahələrdə tarixən yaranan və mürəkkəbləşən, özünü getdikcə daha çox hiss etdirən problemlər daxildir. Bunlar sırf sosial problemlərlə bağlıdır.

Lakin son vaxtlar müasir dövrün qlobal problemlərinin ədəbiyyatda başqa cür təsnifatı da öz əksini tapmışdır:

***Müharibə və sülh problemi.*** Buraya istilik nüvə müharibəsi aiddir.

***Enerji problemi.*** Buraya yeraltı enerji sərvətlərinin tükənməsi, yeni enerji mənbələrinin axtarılması və s. aiddir.

***Ərzaq problemi.*** Bu problem ərzaqın tükənməsi və əhalinin artması ilə yaranan tərs mütənasibliyi ifadə edir.

***Ekoloji problem.*** Buraya yerin təkinin, atmosferin və s. çirklənməsi aiddir.

***Demoqrafik problem.*** Buraya əhalinin artımı və yerdəyişməsi ilə bağlı yaranan problemlər aiddir.

***Xəstəliklər və emidemiyalar.*** Bu problemlər sırasına isə bəşəriyyəti düşündürən və hələlik qarşısı alınmayan xərçəng, SPİD və digər xəstəliklər aid edilə bilər.

Bəşəriyyətin sosial, iqtisadi, mənəvi sədlərlə bir-birindən fərqli hissələrə parçalanmasına baxmayaraq, bu, çox müxtəlif mədəniyyətlərə, dünyagörüşünə mənsub olan xalqları bir məqsəd ətrafında birləşdirir. Bu məqsəd insanları yuxarıda qeyd etdiyimiz qlobal problemləri birlikdə həll etmək məcburiyyəti qarşısında qoyur. Dünya nə qədər rəngarəng olsa da o, birdir, yeganədir, bütövdür. Bəşəriyyət bütün xalqlar və millətlər üçün zəruri olan bu bütöv mühiti qarşılıqlı surətdə qorumaq, onların bir-biri ilə əməkdaşlığını möhkəmlən-

dirmək vəzifəsini uğurla həll etməlidir. Xalqlar dərk edirlər ki, bu əməkdaşlıq olmasa, bəşəriyyət məhv ola bilər. Ona görə də qlobal problemlərin həll edilməsi vəzifəsi bütün ölkələrin, bütün insanların sə'ylərini birləşdirməyi tələb edir.

Müasir qlobal problemləri həll etmək üçün politoloqlar tərəfindən iki konsepsiya irəli sürülmüşdür. ***Birincisi,*** bəşəriyyətin qarşılaşdığı qlobal problemləri həll etməyin başlıca yolu yeni dünya qaydalarının yaradılmasıdır. Burada həlledici amil planetdə sülhün və ədalətin bərqərar edilməsi vəzifəsidir. ***İkinci*** konsepsiya isə yeni siyasi təfəkkürün qərarlaşmasını vacib hesab edir. Yeni siyasi təfəkkürün mənası ondan ibarətdir ki, bəşəriyyətin topladığı nəhəng texniki və intellektual potensial eyni dərəcədə həm qlobal problemlərin daha da dərinləşməsinin qarşısını alar, həm də onların aradan qaldırılmasına yönəldilə bilər.



# FƏSİL XVI

# MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

Müasir dövrümüzdə dünya siyasətində əsaslı dəyşikliklər baş verir. Dünyanın siyasi prosesləri XXI əsrin tələbatına uyğun siyasi maraqlar üzərində qurulur.Azərbaycan Respublikası əlverişli geosiyasi məkanda yerləşdiyinə görə beynəlxaq münasibətlərin təsir dairəsində olan dövlət kimi tanınır. Bəzi politoloqlara görə geosiyasi gücün başlıca amili əlverişli coğrafi məkandır. Lakin dövlət güclü olmasa əlverişli coğrafi məkandan milli mənafe üçün istifadə edilməsi qeyri-mümkündür. Müstəqillikdən sonra həyata kecirilən iqtisadi, sosial, siyasi islahatlar və demokratikləşmə prosesi dövlətin möhkəmləndirilməsində mühüm rol oynayır. Dövlət şəxsiyyət və cəmiyyəti vahid sistemdə birləşdirir. Cəmiyyət universal prosesləri əhatə edir. Dövlət unversal proseslərin siyasi forması kimi hadisələri ümumi məqsədə yönəldir. Filosoflar dövləti "xalqın mənəvi ruhu" adlandırır. Müasir dövrdə qloballaşma prosesi bütün dünya dövlətlərini əhatə edir. Qlobballaşma prosesində dövlətlər əlverişli geosiyasi iqtisadi inteqrasiyaya qovuşur. Azərbaycan dövləti ölkənin milli, səciyyəvi cəhətlərini saxlamaqla qlobballaşma prosesində iştirak edir. Dünyanın aparıcı dövlətləri geosiyasi gücə malik olan ölkələr ilə əlaqələrə üstünlük verirlər. Azərbaycanın geosiyasi gücünü aşağdakı amillər əhatə edir:

1. Azərbaycan qərb və şərq arasında körpü rolunu oynayır;
2. Avropa - Qafqaz -Asiya nəqliyat dəhlizinin yaradılmasında fəal iştirak edir;
3. İpək yolunun bərpasında iştirak edir;
4. Zəngin karbohidrogen ehtiyatlarına malikdir;

Geosiyasi gücdə millətin inkşaf səviyyəsi başlıca rol oynayır. Azərbaycan millətinin intellektual səviyyəsi yüksəkdir.

İntellektual səviyyə təhsil, elmi naliyyətlər, texnologiyanı yaratmaq, onu istesala tətbiq etmək, informasiyanı qəbul etmək qabilliyyəti ilə ölçülür. İntellektual səviyyə başlıca geosiyasi amildir. Mədəniyyət, elm, təhsil Azərbaycanın ən böyük mənəvi dəyərləridir. Mənəvi dəyərlər ölkənin stabil inkşafında mühüm rol oynayır. Qlobal dəyişikliklər prosesində dövlətin mənəvi dəyərlərin təhlükəsizliyi təmin edilməlidir. S.Hantinqoton "Sivlizasiyaların toqquşması" əsərində belə bir fikir irəli sürür: "Dövlətlər arasında toqquşmaları sivilizasiyalar arasında toqquşma əvəz edir". 90-cı illərdən başlayaraq millətlər arasında ideloji, sivilizasiya qarşıdurması yaranır. Deməli, mədəniyyət geosiyasi güc amilinin komponentinə daxildir. Geosiyasət dövlət təhlükəsizliyinin başlıca komponetidir.

Siyasi təhlükəni aradan qaldırmaq üçün nizamlayıcı qurumlar yaradılır. İcra hakimiyyəti nəzdində ictimai hərakatların fəaliyyətini nizamlayan qurumlar siyasi sabitliyin təhlükəsizliyi funksiyasını yerinə yetirir, konfliktin kəskinləşməsinin qarşısı alınır. Siyasi təhlükəsizliyin istiqamətlərindən biri də xarici siyasi təhlükəsizlikdir. Xarici siyasi təhlükəsizlik aşağdakılardır: beynalxaq təhlükə, hərbi qruplaşmalar arasında müharibə şəraitinin yaranması; regional təhlükə: Azərbaycan üçün regional təhlükə Ermənistanın təcavüzkarlığı. Şimali Qafqaz hadisələri, Xəzər problemi ilə qaldırılan "siyasi hay-küy"; dövlətə qarşı çevrilən qəsdlər, təxribatlar, beynalxaq terrorizm.

Siyasət düzgün qurulduqda, real şəraitə əsaslandıqda, milli mənafeyi müdafiə etdikdə cəmiyyətin sosial tərəqqi yolu ilə inkişafında kömək edir. Düzgün olmayan siyasət isə cəmiyyətdə qeyri-stabil vəziyyət yaradır.

Xarici siyasət sahəsində dövlətin əsas strateji vəzifəsi suverenliyin, ərazinin qorunmasıdır. Geosiyasi təhlükəsizlik cəmiyyətin ərazi bütövlüyünü qorunmasını əhatə edir. Siyasi strategiya vasitəsilə gözlənilən siyasi təhlükə hədəfinin mahiyyəti müəyyən edilməli, şəxsiyyətin siyasi hüquqları qorunmalı, siyasi sistemdə baş verən neqativ hallar aradan qaldırılmalıdır. Siyasi təhlükə idarəetməni zəiflədir, siyasi məqsədin həyata keçirilməsinə mane olur. Siyasi təhlükəsizlik milli təhlükəsizlik sisteminin növlərindən biridir.

Azərbaycan Respublikası üçün əsas siyasi təhlükə ərazinin 20 faizinin işğal edilməsidir. Separatizm, milli zəmində ziddiyyət, qeyri-stabil vəziyyət, siyasi partiyalar, parlamentdə müxalif və iqtidar qrupları arasında didişmələr, qanunların icra mexanizminin zəifliyi, korrupsiya elementləri dövlətin milli mənafeyi həyata keçirilməsinə mane olur. Ermənistanın işğalçılıq siyasəti, "Böyük Ermənistan" iddiası, Şimali Qafqaz hadisələri, Azərbaycana qarşı geosiyasi iştahası olan dövlətlərin zorakılıq siyasəti, beynəlxalq münasibətlərdə gərginlik, regional müharibələrin davam etməsi siyasi təhlükənin əsas mənbələridir.

Siyasi təhlükəsizliyi üç istiqamətdə araşdırırlar:

1. Siyasi təhlükəsizlik cəmiyyətin ictimai münasibətlərini əhatə edən siyasi hadisədir.

2. Siyasi təhlükəsizlik müstəqil hadisə olub cəmiyyətin siyasi sferasında və siyasi münasibətlərdə stabillik yaradır.

3. Siyasi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsidir.

Siyasi təhlükəsizlik siyasi sistemin stabil, effektli işləməsini təmin edir.

İntellektual səviyyənin inkişafı, yerli özünü idarə etmə, par-lament və prezident seçkiləri, siyasi həyatın demokratikləşməsi cəmiyyətin yeni elita təbəqəsini formalaşdırır. Elita milli xarakterə malik olmalıdır. Milli xarakteri olmayan, milli ideyanı qəbul etməyən, xarici ideyalara səcdə edən elitanın milli mənafeyi müdafiə etməsi qeyri-mümkündür. Dövlətin sosial bazasında hər hansı sosial qrup deyil, bütün xalq day-

anmalıdır. Hazırda Azərbaycanda milli və dövlət quruculuğu prosesi həyata keçirilir. Millətin inkişafı ilə müstəqil dövlətçilik güclənir.

Beynəlxalq hüquq qaydalarına görə, hər bir dövlət tam suverenliyə malikdir, öz siyasi və iqtisadi sistemini sərbəst və maneəsiz olaraq özü müəyyən edir. Hər bir dövlət bütün digər dövlətlərin suverenliyinə, o cümlədən ərazi bütövlüyünə hörmət etməlidir.

Bütün dövlətlər ərazinin miqyasından, əhalisinin sayından, inkişaf səviyyəsindən və hərbi siyasi potensialından asılı olmayaraq hüquqi cəhətdən bərabərdir.

Siyasi təhlükəsizlik dövlətlərarası iqtisadi, mədəni, hərbi-siyasi əməkdaşlıq prosesində yaranır. Azərbaycanın geosiyasi məkanında müxtəlif etnik qruplar, millətlər yaşayır. Bəzi politoloqlara görə monomilli ölkələr geosiyasi gücə malikdir. Lakin tarixi proseslər göstərir ki, çoxmillətli ölkələrdə geosiyasi güc daha güclüdür. ABŞ-ın etnik tərkibi müxtəlif olsa da "Amerikançılıq" ideyası onları birləşdirir. Ölkəmizdə "Azərbaycançılıq" ideyasından əməli işə keçilməsi dövlətin siyasi gücünün artmasında mühüm rol oynayır. Milli dövlət azlıqda qalan etnik qrupların hüquqi bərabərliyini təmin edir.

Azərbaycan dövlətinin düzgün siyasi strategiyası, əlverişli geosiyasi məkanı onu gələcəkdə güclü dövlətə çevrilməsinə şərait yaradır və milli təhlükəsizliyini təmin edir.

Dünyanın güclü hakimiyyət mərkəzləri hələlik Azərbaycana öz münasibətlərini açıq bildirməyiblər. İkili standartla yanaşma buradan irəli gəlir. Digər tərəfdən Azərbaycanın dünya birliyində tutacağı yer, daşıyacağı funksiya, onun regionda siyasi rolu tam dərk olunmayıb. Hərbi münaqişələrə vasitəçilik edənlərin qeyri-müəyyən bəyanatlar verməsi bundan irəli gəlir. Buna görə də Azərbaycan özünün xarici siyasət konsepsiyasını bəyan edir. Xarici siyasət konsepsiyasının əsa-



sında milli mənafe və milli təhlükəsizlik dayanır. Azərbaycanın geosiyasi vəziyyəti dünyanın hakimiyyət mərkəzlərinin maraq dairəsinə çevrilir.

Yalnız düzgün xarici siyasət və milli təhlükəsizlik konsepsiyası ilə münaqişəni tənzimləmək, gələcəkdə bizə meydan oxuyanları zəiflətmək mümkündür.

Azərbaycanın xarici siyasəti dünyanın yeni düzümünə uyğun qurulur. Azərbaycan gənc dövlət kimi onun xarici siyasəti elmi əsaslar üzərində formalaşmaq prosesindədir.

Dünyanın yenidən qurulması prosesində yaranan güc mərkəzlərinin ziddiyyətli şəraitində Azərbaycan öz təhlükəsizliyini təmin edir. Müasir dünyanın siyasi proseslərdə təmsil edən güc mərkəzləri aşağdakılardır:

1. ABŞ hegomon güc mərkəzi
2. Avropa güc mərkəzi
3. Rusiya - Çin güc mərkəzi
4. İslam dövlətləri

Milli mənafe digər dövlətlərin mənafelərinə xələl gətirməməyi tələb edir. Mənafelərin tarazlığı, birbirinin suverenliyinə hörmət başlıca şərtdir.

Xarici siyasət siyasi proseslərə fəal təsir göstərməyi tələb edir. Bunun üçün Azərbaycanda xarici siyasətin intellektual bazasını möhkəmləndirən beynəlxaq araşdırmalar mərkəzi yaradılmalıdır. ABŞ-ın gücü həmin mərkəzlərdə hazırlanan elmi, strateji konsepsiyalardan irəli gəlir. Beynəlxalq araşdırmalar mərkəzlərində güclü alimlər işləyir. Minlərlə siyasi düşüncə xarici siyasətin istiqamətlərini analitik təhlil edir.

Siyasi təhlükəsizlik cəmiyyətin milli təhlükəsizliyini təmin etməklə yanaşı, siyasi qurumların fəaliyyətini birləşdirir. İnsan yarandığı gündən təhlükəsiz yaşamaq haqqında fikirləşir. Dövlət cəmiyyətin təhlükəsizliyini təmin etmək məqsədini həyata keçirir. Təhlükəsiz yaşamaq instinkt kimi meydana gəlir. Lakin insan dünyanın ağıllı məxluqudur,

"yer üzünün əşrəfidir". Ona görə də təhlükəsizlik sivilizasiyanın tələbinə uyğun şəkildə qaydaya salınır. Təhlükəsiz yaşamaq dövlət siyasətinin məqsədyönlü fəaliyyətidir.

Milli təhlükəsizlik ərazinin, xalqın həyat tərzinin təhlükəsizliyi, idarəetmənin konstitusiya vəzifələrini yerinə yetirilməsindən ibarətdir. Bu vəzifə strateji vəzifədir. Strategiya cəmiyyətin birliyinin qorunub saxlanılması, stabil inkişafı ölkənin bütövlüyünün nəzəri və praktiki konsepsiyasıdır.

Təhlükəsizlik cəmiyyətin başlıca həyat mənafelərinin mühafizə edilməsi və cəmiyyətin inkişafının tə'min edilməsidir. Siyasi təhlükəsizlik vasitəsilə cəmiyyətdə baş verən neqativ hadisələrin, daxili və xarici konfliktlərin qarşısı alınır.

Milli təhlükəsizlik cəmiyyətin mənafeyinə xidmət edən sosial-iqtisadi konsepsiya kimi formalaşır. Milli təhlükəsizlik konsepsiyası müəyyən dövr üçün qəbul edilir. Milli təhlükəsizlik strategiyasında milli təhlükəsizliyin əsas hədəfləri müəyyən edilir. Həmin təhlükə aşağıdakılardan ibarətdir:

Daxili təhlükə:

İqtisadi böhran; siyasi böhran; mənəvi böhran; psixoloji pessimizm; ekoloji böhran; separatçılıq və ekstremizm; qiyam; əhalinin kütləvi miqrasiyası; kütləvi xəstəliyin yayılması;

Xarici təhlükə:

Azərbaycana qarşı təcavüzkarlıq; təxribat; terrorçuluq; narkomaniya; sərhəddin pozulması; xarici kəşfiyyat; xaricdən saxta valyutanın gətirilməsi.

Hər bir milli dövlətin təhlükəsizliyi regional və qlobal təhlükəsizliklə bağlıdır. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramında Azərbaycanda təhlükəsizliyin aşağıdakı istiqamətləri göstərilir: təbii fəlakətlər; iqtisadi problem; ekoloji problem; texnoloji problem; cinayətə qarşı mübarizə.



Milli təhlükəsizlik daxili və xarici siyasətin istiqamətləri arasında bir-birini tamamlayan qarşılıqlı əlaqəni yaradır. Daxili stabillik xarici təhlükənin aradan qaldırılması üçün şərait yaradır. Xarici siyasət isə ölkənin milli təhlükəsizliyini beynəlxalq miqyasda həyata keçməsini tə'min edir.

Azərbaycanın müstəqilliyini möhkəmləndirən əsas amillərdən biri milli təhlükəsizlik sisteminin yaradılmasıdır. Milli təhlükəsizlik sisteminin yaradılması aşağıdakı şərtlərdən irəli gəlir:

Azərbaycan zəngin enerji resurslarına, əlverişli təbii iqlimə, sərvətli torpağa malikdir; iqtisadi inteqrasiyanın tələblərinə cavab verən daxili bazar, əmək ehtiyatları, sosial infrastruktur mövcuddur; əlverişli geosiyasi mövqeyə malikdir; Qərblə Şərqi birləşdirən tranzit yollar Azərbaycan ərazisindən keçir;

Azərbaycan dünya dövlətləri arasında özünə layiqli yer tutur. Ölkənin yüksəldilməsini istəməyən bir çox xarici dövlətlər təxribat, terrorçuluq, narkomaniya, separatizm hadisələrindən istifadə edirlər.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsas cəhətləri: daxili və xarici siyasətdə milli mənafeyin müdafiə edilməsi; milli mənafeyə uyğun dost dövlətlərin sayının artırılması; sülh siyasəti; ərazi bütövlüyünün bərpa edilməsi; iqtisadi təxribatın qarşısının alınması; millətin sağlam inkişafının təmin edilməsi; maddi və mənəvi sərvətlərin qorunması.

Azərbaycan Respublikasının suverenliyinin, milli təhlükəsizliyinin təmin edilməsi üçün bütün vasitələrdən: dövlət siyasətindən, diplomatiyadan, təbliğatdan, hərbi strategiyadan, kəşfiyyat və əkskəşfiyyatdan istifadə edilir. Milli təhlükəsizlik bütövlükdə Azərbaycan cəmiyyətinin qorunması və inkişafı siyasətinin həyata keçirilməsidir.

Azərbaycanın milli təhlükəsizlik konsepsiyası iki yerə

bölünür: siyasi strategiyada milli təhlükəsizliyin əsas məqsədi, mənafelər, maraqlar, hədəflər, müəyyən edilir; siyasi taktikada milli təhlükəsizliyin metodları vasitələri ilə müəyyən edilir.

Milli təhlükəsizlik dövlətin Konstitusiya hüquqlarını, iqtisadi və mə'nəvi sərvətlərini qoruyur. Milli təhlükəsizlik dövlətin gücünü, siyasi sabitliyi mühafizə etməklə başlıca strateji vəzifənin həyata keçməsini tə'min edir. Azərbaycan Respublikası əlverişli coğrafi məkanda yerləşdiyinə görə ölkəni nəzarət altına almaq istəyən, əraziləri işğal altında saxlamaq istəyən xarici qüvvələrə qarşı milli təhlükəsizlik qurumları strateji və taktiki tədbirlər həyata keçirir.

Milli təhlükəsizlik siyasəti ölkənin taleyi üçün zəruri tədbirlər məcmusudur. Azərbaycanın milli təhlükəsizliyi dövlətimizin bütövlüyünü saxlamaq, siyasi, iqtisadi, sosial və di- gər məsələləri suveren həll etmək bacarığıdır.

Milli təhlükəsizlik xalqın mədəni-tarixi dəyərlərini saxlamaqla gələcəyin strateji inkişaf yolunun düzgün müəyyən edilməsidir.

Beynəlxalq hüquqda milli təhlükəsizlik sistemində ərazi, suverenlik və dövlətin təhlükəsizliyi əsas götürülür. Politologiyada milli təhlükəsizlik anlayışı daha geniş məzmuna malikdir. Milli təhlükəsizlik bütövlükdə cəmiyyətin həyat mənafeyinin, yaşayış tərzinin, müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasıdır.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi aşağıdakı vəzifələri yerinə yetirir: hər bir insanın hüquqlarının müdafiə edilməsi; insanların təhlükəsizliyinin qorunması; xal-qın təhlükəsizliyinin təmin edilməsi; heç kimin ədalətsizliyə məruz qalmaması; vətəndaşların ləyaqətinin qorunması; dövlə-tin sarsıdılmasının qarşısının alınması; qanunların pozulması-nın qarşısının alınması; dövlət işlərinə mane olmaq istəyən qüvələrin qarşısının alınması; terrorizmin qarşısının alınması; silahlı dəstə yaradanların, silah yolu ilə hakimiyyətə gəlmək istəyənlərin qarşısının alınması; dövlət əmlakının dağıdılması-nın qarşısının alınması; əks-kəşfiyyat işinin gücləndirilməsi.



Azərbaycanın ilk təhlükəsizlik təşkilatı Xalq Cümhuriyyəti dövründə yaradıldı. Daxili və xarici təxribatların qarşısını almaq üçün Hərbi Nazirliyin nəzdində 1919-cu il yanvarın 28-də Baş Qərargahın yanında kəşfiyyat bölməsi fəaliyyətə başladı. Kəşfiyyat və əks kəşfiyyat idarəsi xarici ölkə casuslarını ifşa etməli, xarici dövlətlərin ölkəyə qarşı əməliyyatları haqqında informasiya toplamalı idi. Xususilə Azərbaycanı işğal etmək istəyən denikinçilər və bolşeviklər haqqında məlumatlar əldə edirdilər. 1919-cu il iyunun 19-da Dövlət Müdafiə Komitəsi yaradıldı. S.Mehmandarov DMK-nə məktubunda bildirirdi: "Bolşevizmlə mübarizə ümumi dövlət işi olduğundan tək hərbi idarə onun öhdəsindən gələ bilməz". Buna görə də 1919-cu il iyun ayının 11-də "Əksinqilab ilə mübarizə" təşkilatı yaradıldı. Təşkilata M.Şeyxzamanov, sonra isə N.Şeyxzamanov başçılıq etdi. Təşkilatın üzvlərinin üçdə iki hissəsi Müsavat, üçdə bir hissəsi Hümmət təşkilatından idi. "Əksinqilab ilə mübarizə" təşkilatının əsas vəzifələri aşağıdakılardan ibarət idi:

Azərbaycan dövlətinə qarşı xarici qəsdləri aşkar etmək; casusluq və onların gizli təşkilatları haqqında məlumat əldə etmək; dövlətə qarşı qiyamın qarşısını almaq; dəmir yolu, körpülər, su hövzələri, teleqraf, telefon, dövlət əhəmiyyətli anbarların, hərbi hissələrin təhlükəsizliyini tə'min etmək; gizli terrorçu dəstələrin təxribatının qarşısını almaq; dövlət əleyinə aparılan təbliğatın qarşısını almaq.

Təşkilatın əməkdaşları mühüm strateji yerlərdə sənədləri yoxlayır, qaçaqmalçılığı müsadirə edirdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra fövqəladə komissiyada ruslar və ermənilər yerləşdirildi. Azər-

bay- canlılara qarşı repressiya başlandı. Fövqəladə Komissiyanın başladığı işi Azərbaycan Dövlət Siyasi idarəsi, Azərbaycan Daxili İşlər Komissarlığı davam etdirmişdir. 1920-1950-ci illər arasında məhv edilənlərin sayı 500 min nəfəri keçmişdir.

Müstəqillikdən sonra 1991-ci il noyabr ayının 1-də Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi yaradıldı. Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları cinayətkarlıq, dövlət çevrilişi cəhdlərinin, təxribatın, terror aktlarının, xarici kəşfiyyatın qarşısını almaqla dövlətin daxili və xarici siyasətinin həyata keçməsinə fəal kömək edir.

Milli Təhlükəsizlik Nazirliyi milli mənafeyi qoruyan mühüm dövlət qurumudur. MTN hər bir vətəndaşın, millətin təhlükəsizliyini təmin edir, dövlətin təhlükəsizlik sahəsində siyasətini həyata keçirir. Bu qurum, dövləti, milləti sarsıtmaq istəyən qüvvələrə qarşı mübarizə aparır, təxribatın qarşısını alır. MTN-nin əsas vəzifələrdən biri də Azərbaycan qarşı xarici dövlətlərin kəşfiyyat planlarının, casusluq əməliyyatlarının qarşısının alınmasıdır.

Xarici dövlətlərin Azərbaycana geostrateji marağı, daxili təhlükəsizlik məsələləri hər iki istiqamətin inkişaf etdirilmə-sini tələb edir. Buna görə də Milli Təhlükəsizlik Nazirliyi XİN, DİN, Müdafiə Nazirliyi ilə qarşılıqlı əlaqədə işləyir. Milli təhlükəsizlik siyasəti ölkənin ümumi təhlükəsizlik sistemini özündə birləşdirir. Geniş mənada milli təhlükəsizlik beynəlxalq münasibətlər sahəsini əhatə edir

Milli təhlükəsizlik, təhlükəsizliyin xüsusi forması olub, daim yeniləşmə tələb edir. Ölkənin milli müdafiəsi dövlətin mühüm strateji vəzifəsi hesab olunur. Müstəqillikdən sonra Azərbaycanın təhlükəsizlik təşkilatlarının işi yenidən qurulur, xarici agentlərin təxribat fəaliyyətinin qarşısı alınır.

Xarici dövlətlərin Azərbaycana qarşı kəşfiyyatının güclənməsinin əsasən iki səbəbi var:

birincisi, ölkənin əlverişli geosiyasi məkanda yerləşməsi;



ikincisi, "Əsrin müqaviləsi"nin bağlanılması.

Azərbaycan neftinin dünya bazarına çıxarılmasının qarşısını almaq üçün milli mənafeyə düşmən olan dövlətlər təxribat və kəşfiyyat fəaliyyətini genişləndirirlər.

Xarici kəşfiyyat işini aşağıdakı istiqamətlərdə qurur:

humanitar yardım pərdəsi altında; xarici dini emissarların göndərilməsi vasitəsi ilə; xarici firma və şirkətlər vasitəsi ilə; qeyri-dövlət təşkilatlar vasitəsi ilə.

Xarici kəşfiyyat mütəxəssislərdən, biznesmenlərdən, jurnalistlərdən, dini emissarlardan istifadə edir.

Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları xarici ölkələrin casusluq əməliyyatlarının qarşısını almış, iqtisadi cinayətkarlığa, qaçaqmalçılığa, təxribatçılara qarşı mübarizəni gücləndirmişdir.

İstanbul Hərb Akademiyasının çap etdiyi "Milli güvənlik siyasəti və strategiyası" kitabında deyilir: "Milli təhlükəsizlik siyasəti və strategiyasına dövlətin yaşaması, varlığının qorunması, müstəqilliyi, birliyi, ərazi bütövlüyü daxildir".

Milli təhlükəsizliyin əsas vasitələri:

Əhalinin potensial gücü; dövlətin gücü; diplomatiya; elm və mədəniyyətin inkişafı; insana yardım; informasiya və təbliğat; ekonomika və ticarət; əsgəri yardım; səfərbərlik; savaş yardımı.

Azərbaycan Respublikası Prezidenti yanında Milli Təhlükəsizlik Şurası yaradılmışdır. Təhlükəsizlik Şurasına əsas dövlət strukturları daxildir. Mühüm siyasi məsələlər, xarici strategiya Təşkilat Şurasında müzakirə edilir. Milli müdafiə, təhlükəsizik, siyasi-iqtisadi, informasiya, ekologiyanın strateji problemləri, yeraltı və yerüstü sərvətlərin, mənəvi dəyərin, dövlət quruluşunun qorunmasına nəzarət edilir.

Təhlükəsizliyi təmin edən dövlət qurumlarına ümumi rəhbərliyi Azərbaycan Respublikası Prezidenti həyata keçirir.

Azərbaycan Respublikası Prezidenti:

Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasına rəhbərlik edir; təhlükəsizliyi təmin edən dövlət qurumlarının fəaliyyətinə nəzarət və koordinasiya edir; təhlükəsizliyin təmin olunması üzrə qanunla müəyyən olunmuş səlahiyyət çərçivəsində operativ qərarlar qəbul edir.

Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası təhlükəsizliyin təmin edilməsi sahəsində Azərbaycan Respublikası Prezidentinin qərarlarının hazırlanmasını həyata keçirən Konstitusiya orqanıdır.

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının əsas vəzifələri aşağıdakılardı:

Şəxsiyyətin, cəmiyyətin dövlətin həyatı üçün vacib maraqların müəyyən edilməsi, daxili və xarici təhlükənin aşkarlanması; Azərbaycan Respublikası təhlükəsizliyinin təmin olunması strategiyasının əsas prinsiplərinin işlənməsi və onun təmin olunmasının dövlət proqramının hazırlanması; Sosial-siyasi, iqtisadi, hərbi, ekoloji və başqa fəlakətlərlə nəticələnə biləcək fövqəladə şəraitin qarşısının alınması; Təhlükəsizlik təmin olunması üçün icra hakimiyyəti orqanlarının fəaliyyətinin koordinasiyası.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi nəzdində Akademiya yaradılmışdır. Akademiyanın nizamnamə və strukturu Azərbaycan prezidentinin sərəncamı ilə 15 aprel 1999-cu ildə təsdiq edilmişdi. Akademiya təhlükəsizlik strukturlarını milli kadrlarla təmin edir.

1992-ci ildən başlayaraq türkdilli xalqların Milli Təhlükəsizlik Nazirlikləri arasında qarşılıqlı əlaqələr yaranır. Dövlətlər daxilində baş verən müxtəlif siyasi proseslər, təxribatlar xarici amillərlə bağlıdır. Ölkələrarası əlaqələr yaratmaqla təhlükəsizliyin daha yaxşı təmin edilməsi mümkündür.

Azərbaycanın təhlükəsizlik qurumları xarici dövlətlərin



təhlükəsizlik xidməti rəhbərliyi ilə geniş əlaqələr saxlayır. Təhlükəsizlik qurumlarının əlaqələri dövlətçiliyin, iqtisadiyyatın, "İpək yolu", TRASEKA nəqliyyatının, neft magistralının təhlükəsizliyi üçün əhəmiyyət kəsb edir.

"İpək yolu"nun bərpası, Transqafqaz, Transxəzər müqavilələri region dövlətlərinin təhlükəsizlik orqanlarının əməkdaşlığının gücləndirilməsini tələb edir. 1999-cu il martın 26-da Türkiyə, Qazaxıstan, Qırğızıstan, Gürcüstan, Özbəkistan, Türkmənistan Azərbaycan təhlükəsizlik orqanlarının Bakı görüşündə narkomaniya, terrorizm, ekstremizm, transmilli cinayətlərin yayılmasının, xarici dövlətlərin pozuculuq təxribatının qarşısının alınması, siyasi sabitliyin və suverenliyin qorunması üçün əməkdaşlığın genişlənməsi nəzərdə tutulur.

ABŞ-ın Milli Təhlükəsizlik Şurasının əməkdaşı ABŞ politoloqu R.Morrinsin fikrinə görə: "İndi dünyada sülhü qorumaq "soyuq müharibə" dövründən baha başa gəlir". ABŞ hazırda dünya üzrə fəvqəldövlət funksiyasını yerinə yetirir. Dünyada baş verən siyasi hadisələri izləmək üçün kəşfiyyat informasiyası toplayan informasiya peyklərindən istifadə edilir. Bir peykin hazırlanması isə 1,5 milyard dollara başa gəlir. ABŞ Xarici Kəşfiyyatı Kommersiya mərkəzində, müxalif siyasi partiyalar arasında, elmi strateji əhəmiyyətli idarələrdə iş aparır.

Milli təhlükəsizlik yalnız təhlükəsizlik qurumlarının yaradılmasını deyil, həm də ölkənin iqtisadi sisteminin siyasi, mənəvi ənənələrin, tarixi psixoloji yaddaşın saxlanılmasını və qorunmasını tələb edir. Azərbaycan heç bir dövlət üçün təhlükəli deyildir. Lakin ona qarşı təhlükəli siyasət aparan dövlətlər vardır. Buna görə də istər beynəlxalq, istərsə də daxili şəraitdə millətin təhlükəsizliyi təmin olunmalıdır. Müstəqilliyin qorunmasının əsas şərti onun təhlükəsizliyinin təmin edilməsidir. Dövlət dünyada gedən yeni dəyişikliklər prose-

sində özünü qoruyub saxlamalı, diplomatik əlaqələr yaratmaqla beynəlxalq siyasətin fəal subyektinə çevrilməlidir.

Milli təhlükəsizliyin konseptual məsələləri:

Ölkənin beynəlxalq təhlükəsizliyinin təmin edilməsi; milli mənafe siyasətində milli təhlükəsizlik strukturunun yaradılması; idarəetmə qurumlarının stabil iş rejimini həyata keçirən mexanizmin yaradılması; hərbi texniki, strateji, demoqrafik geosiyasi, resursların qorunması; milli ideoloji, mənəvi dəyərlərə ziyan gətirən müdaxilənin qarşısının alınması.

Xarici siyasət sahəsində təhlükəsizliyin konseptual məsələləri:

Separatizmin qarşısının alınması, ərazi bütövlüyünün təmin edilməsi; Ermənistanın işğal etdiyi ərazilərin qaytarılması; təhlükəsizliyin təmin edilməsində beynəlxalq təşkilatların gücündən istifadə olunması.

Azərbaycan ərazi bütövlüyünün təmin edilməsində beynəlxalq təşkilatlarının gücündən istifadə edir.

Milli təhlükəsizlikdə başlıca rol oynayan qurumlardan biri də Gömrük Komitəsidir. 1992-ci il yanvarın 30-da Azərbaycan Dövlət Gömrük Komitəsi yaradılmışdır. Gömrük Komitəsi milli təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Azərbaycan Gömrük Komitəsi Ümumdünya Gömrük Təşkilatının, MDB, Qara dəniz İqtisadi Əməkdaşlıq təşkilatının gömrük xidməti təşkilatlarının işində iştirak edir.

Gömrük Komitəsi aşağıdakı vəzifələri yerinə yetirir:

Ölkənin maddi və mə'nəvi sərvətlərini qoruyur; ölkənin milli iqtisadi mənafeyini qoruyur; iqtisadi təhlükəsizliyi tə'min edir; Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsinə şərait yaradır; narkotik, zəhərli məhsulların qeyri-qanuni valyutanın ölkəyə gətirilməsinin qarşısını alır; qaçaqmalçılığa qarşı mübarizə aparır.



Gömrük Komitəsi müstəqil dövlət quruculuğunun tərkib hissəsi kimi yaranmışdır. Gömrük xidməti işçiləri yüksək peşə qabiliyyətinə və siyasi mədəniyyətə malik olmalıdır. Xaricdən ölkəmizə gələn insanlar gömrük işçilərinin davranışına uyğun millətin səviyyəsini qiymətləndirirlər.

Azərbaycanın milli təhlükəsizliyində də daxili və xarici təhlükənin aradan qaldırılması mühüm yer tutur. Milli təhlükəsizlik güc qüvvələrinin fəaliyyətini istiqamətləndirir, ölkə üçün təhlükəli məqamlarda birgə əməliyyat planı həyata keçirirlər. Milli təhlükəsizlik millətin, dövlətin və onun ərazi bütövlüyünün təhlükəsizliyini nəzərdə tutur. Milli təhlükəsizlik konsepsiyasında suverenliyin qorunması, dövlətçiliyin möhkəmləndirilməsi, beynəlxalq siyasətdə ölkənin təhlükəsizliyinin təmin edilməsi əsas yer tutur.

1999-cu il sentyabrın 11-də Yaltada "Baltik-Qara dəniz əməkdaşlığı: XXI əsrdə ayrıca xətləri olmayan inteqrasiya" mövzusunda keçirilən konfrans siyasi regionun təhlükəsizlik məsələlərinə həsr olundu. Konfransda Qara dəniz iqtisadi əməkdaşlığı, GUÖAM, Baltik dənizi ətrafı ölkələrin nümayəndələri iştirak etdi. Konfransda iqtisadi, siyasi əməkdaşlıq, humanitar əlaqələr inkişafı təhlükəsizlik məsələləri ilə əlaqələndirilmişdir.

Milli təhlükəsizlik strategiyasında əhalinin mülki müdafiəsi məsələsi mühüm yer tutur. Dövlətin hakimiyyət orqanları, hüquqi və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının sərhədləri daxilində torpaq, su, hava məkanı, istehsal və sosial obyektlər, ətraf mühit mühafizə edilməsi, təhlükəsizliyi təmin edilmişdir. Ölkədə əhalinin mühafizəsini təmin etmək üçün Milli Müdafiə sistemi yaradılır, strateji sahələr qorunur. Əhalinin mülki müdafiəsi dövlətin siyasi strategiyasının əsas istiqamətlərindən biridir. Əhalinin təhlükəsizliyinin təmin edilməsinin vahid elmi-texniki siyasəti həyata keçirir, normativ sənədlər qəbul edir.

Beynəlxalq hümanitar hüquq qaydalarına görə müharibə apa-ran tərəflər mülki əhalinin kütləvi məhv edilməsinə yol verməməlidir. Hərbi əməliyyatlar gedişində işğal edilmiş ərazilərdə insanlara işgəncələr vermək, güllələmək, kütləvi həbsdə saxlamaq, mənzillərini dağıtmaq, yaşayış yerlərindən zorla qovmaq, qadınlara və uşaqlara qarşı törədilən bütün repressiya və qəddar, insanlıqdan kənar davranış formaları cinayətkar hərəkət sayılır.

30 dekabr 1997-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi Mülki Müdafiə haqqında qanun qəbul etmişdir.

Mülki müdafiənin təşkili prinsipləri:

Ərazi prinsipi; fərdi və kompleks yanaşma prinsipi; kütləvilik və məcburilik prinsipi; daimi hazırlıq prinsipi; dərhal xəbərdarlıq prinsipi; qarşılıqlı əlaqə prinsipi.

Mülki müdafiənin məqsədi: fövqəladə hadisələrin qarşısını almaq məqsədilə profilaktik tədbirlər görülməsidir. Dövlət vahid elmi-texniki siyasət həyata keçirməklə əhalinin təhlükəsizliyini təmin edir.

Mülki müdafiə torpaq, su və hava məkanının, istehsal sahələrinin, təyinatlı obyektlərin dövlət tərəfindən mühafizə edilməsi sistemidir.

Mülki müdafiə sisteminin strukturu:

Mülki müdafiə vəzifələrinin yerinə yetirən icra orqanları; qüvvə və vasitələr; xüsusi fondlar; rabitə, xəbərdarlıq və informasiya.

Azərbaycan Respublikasında mülki müdafiə ümumdövlət müdafiə sisteminin tərkib hissəsidir.

Milli təhlükəsizliyin əsas cəhətlərindən biri dövlət sirrinin qorunmasıdır.

Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik haqqında Qanunda" (iyul 2004) deyilir:

"Azərbaycan respublikasının Milli təhlükəsizliyi dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, Konstitusiya quruluşunun, xalqın və ölkənin Milli maraqlarının, insanın cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir".



Azərbaycan Respublikasının milli maraqları, Azərbaycan xalqının fundamental dəyər və məqsədlərinin, dövlət siyasi, iqtisadi, sosial, mədəni və həyati fəaliyyət üçün zəruri tələbatların məcmusudur.

Azərbaycan Respublikasının əsas milli maraqları aşağıdakılardır:

Dövlət müstəqilliyinin, suverenliyin və konstitusiya quruluşunun qorunması; ərazi bütövlüyünün bərpa edilməsi və təmin olunması; demokratik, hüquqi, dünyəvi dövlətin qurulması; Azərbaycan xalqının vahidliyi və bütövlüyünün qorunub saxlanılması; vətəndaş cəmiyyətinin formalaşdırılması, vətəndaş hüququ və azadlıqlarının, siyasi stabilliyin təmin olunması; İqtisadi potensialın artırılması,ölkədə həyat səviyyəsinin yüksəldilməsi; ictimai təhlükəsizliyin təmin edilməsi; hərbi potensialın artırılması ilə müdafiə qabiliyyətinin yüksəldilməsi; Azərbaycan xalqının genofondunun, onun fiziki və mənəvi sağlamlığının qorunması; informasiya ehtiyatlarının qorunması və inkşaf etdirilməsi; cəmiyyətin üçün təhlükəsiz ekoloji və texnoloji şəraitin yaradılması; elmi-texniki potensialın səmərəli istifadəsi və artırılması.

Beləliklə, milli təhlükəsizlik siyasəti suverenliyin, ərazi bütövlüyünün, milli maraqların, milli mənafeyin, şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin qorunmasından ibarətdir. Təhlükəsizlik dedikdə şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyi nəzərdə tutulur. Şəxsiyyətin təhlükəsizliyi onların hüquq və azadlıqlarının, cəmiyyətin təhlükəsizliyi maddi və mənəvi dəyərlərin, dövlətin təhlükəsizliyi konstitusiya quruluşunun, suverenliyin və ərazi bütövlüyünün qorunmasıdır.

# FƏSİL XVII
# DEMOQRAFİYA PROBLEMİ

## §1. Demoqrafiyanın mahiyyəti

Müasir dövrdə bəşəriyyətin bu gününü, sabahını, gələcəyini təhlükə altına alan bir sıra problemlər vardır. Bu problemlər qlobal problem adlanır. Qlobal problemlər bəşəriyyəti ən çox narahat edən problemlərdir.

Demoqrafik problemlərin yaranmasının bir çox səbəbləri vardır. Bu problemin yaranmağı, hər şeydən əvvəl, əhalinin təbii təkrar istehsalı ilə - doğum, ölüm və təbii artımla əlaqədardır. Çünki əhalinin say tərkibində baş verən dəyişikliklər ilk növbədə onun təbii təkrar istehsalı ilə müəyyən olunur.

Əhalinin təkrar istahsalından irəli gələn demoqrafik problem bir çox cəhətlərə malikdir. Bu cəhətlərdən biri iqtisadi cəhətdir. Demoqrafik proseslər bir çox sosial-iqtisadi amillərlə yanaşı özü də bir sıra sosial-iqtisadi nəticələr doğurur. İstehsala cəlb, maddi ehtiyatların və insan ehtiyatlarının məhdudluğunu son zamanlar getdikcə daha çox hiss etdirir. Doğumun artması, ömür müddətinin artması ilə əlaqədar yaşlıların çoxalması və onların cəmiyyət tərəfindən saxlanılması, ayrı-ayrı ərazilərdə mövcud iş qüvvəsi ilə iş yerlərinin sayı arasında uyğunluq yaradılması və s. demoqrafik proseslərin müasir dövrdə yaratdığı problemlərdir.

Qlobal problemlər içərisində demoqrafik problem xüsusi əhəmiyyət kəsb edir. Bütün qlobal problemlər bəşəriyyətin taleyi üçün təhlükə törədir. Çünki insan cəmiyyəti mürəkkəb bir orqanizmdir. Bu orqanizmdə insan, əhali ilkin şərtdir, digərləri isə onunla balğıdır.

Əhali cəmiyyətin bütün tərəfləri ilə qarşılıqlı əlaqədə olub, bu əlaqələri təşkil və idarə edir. Əhalinin sürətlə və ya ləng arması bir sıra problemlər doğurur və cəmiyyətdə sosial-iqtisadi problemlərin həllini çətinləşdirir. Əhali problemi ətraf mühit, ərzaq problemi, ekoloji problem, nüvə müharibə təhlükəsi və s. məsələlərlə bağlıdır.



Demoqrafiya iki yunan sözünün - demos- xalq, qrafika- təlim sözlərinin birləşməsindən əmələ gəlib əhali artımı haqqında elm deməkdir. Bu elm sahəsinin banisi ingilis alimi Con Qraunt (1620-1674) hesab olunur. Bu elm ayrı-ayrı ölkələrdə əhalinin ümumi sayını, cinsi və yaş tərkibini, artım sürətini öyrənməklə məşğuldur. Əhalinin təkrar istehsalı, məskunlaşması, yerdəyişməsi, sosial, milli-etnik, irqi və dini strukturu, təhsil səviyyəsi, işlə təmin olunması və nəsillərin bir-birini əvəz etməsi dinamikası demoqrafiya elminin əsas tədqiqat obyektidir. Əhali artımı müəyyən müddət ərzində doğulanlarla ölənlərin say nisbətindən ibarət olduğu üçün ölkədə nigah bağlanmasının, boşanma hallarının və ölüm faizinin araşdırılması da bu elmin vəzifəsinə daxildir. Yer kürəsində, ayrı-ayrı dövlətlərin ərazisində əhali artımının qanunauyğunluqlarını müəyyənləşdirmək böyük əhəmiyyətə malikdir. Ona görə də demoqrafik göstəricilərə təsir edən amillər tədqiq edilməlidir. 1984-cü ildə Yer kürəsinin əhalisi 4,6 milyard, 1987-ci ildə 5 milyard və hazırda isə 6 milyarddan çoxdur. 6 milyard əhalinin 2 milyarddan çoxu, yəni üçdə biri Çin və Hindistanın payına düşür. Ümumiyyətlə, dünyanın 168-dövlətindən 60-nın əhalisi həddən artıq sürətlə artır. Əhalinin sayına görə birinci yerdə Çin, əhlinin artım sürətinə görə isə birinci yerdə Hindistan durur.

Əhalinin bu cür sürətlə artması bəşəriyyətə narahatlıq yaradır. Hələ XVIII əsrin sonlarında ingilis keşişi və iqtisadçısı T.Maltus "Əhali məskunlaşması qanunun haqqında təcrübə" (1798) əsərində əhali artımının ziddiyyətlərinə toxunmuş, onun təhlükəli tərəflərini izah etmiş və qarşısını almaq yollarını göstərmişdir. Qeyd olunmuşdur ki, maddi nemətlər ədədi silsilə ilə (yəni toplama ilə), insanlar həndəsi silsilə ilə (yəni vurma ilə) artırlar. Ona görə də insanlar o qədər

artacaq ki, onları maddi nemətlərlə təmin etmək mümkün olmayacaq. Buna qarşı tədbir görmək lazımdır. Çoxlu xəstəliklər yaymaq, müharibələr etmək, insanın nəslinin artmasının qarşısını almaq xüsusi ilə zəruridir. İrəli sürülən bu təklif antihumanistdir. Lakin bu onu göstərir ki, hələ XVIII əsrdə artıq demoqrafik problemin həyacanı səslənməyə başlamışdır.

Bütün bunlara görə əhalinin özündə baş verən demoqrafik dəyişikliklər diqqət mərkəzindən kənarda qala bilməz.

Ümumiyyətlə əhalinin artması ölümlə doğumun nisbətindən asılıdır. Həm doğuma, həm də ölümə bir çox sosial xarakterli amillər: iqtisadi münasibətlər, əhalinin rifah səviyyəsi, mənzil şəraiti, səviyyənin inkinşafı və s. təsir göstərir. Əhalinin təkrar istehsalı tipləri də sosial-iqtisadi şəraitdən asılıdır.

Əhalinin artması öz əsas etibarilə kortəbii prosesdir. Lakin dövlətin siyasəti, doğumu həvəsləndirməyə və ya əksinə, məhdudlaşdırmağa yönəldilən hüquqi və digər tədbirlər ona çox və ya az təsir göstərir. Məsələn, hazırda ən çox əhalisi olan Çində doğumun qarşısını almaq üçün dövlət elə tədbirlər görmüşdür ki, artıq Çin əhalinin artım sürətinə görə birinci yerdə durmur.

Bəşəriyyət tarixinin bir çox əsrlər boyu əhalinin təkrar istehsalı dəyişməz qalmışdır. Bu ölüm və doğum üzərində heç bir nəzarətin olmaması ilə əlaqədar olmuşdur. Əsrimizdə isə vəziyyət dəyişmiş, doğum və ölüm üzərində güclü nəzarətə meyl artmışdır. Hazırda əhalinin təkrar istehsalının yeni tipinə keçid baş vermişdir. Bunun isə dərindən və hərtərəfli öyrənilməsi, onun bəşəriyyətin qarşısında duran tələblərə uyğun şəkildə həll edilməsi müasir dövrün başlıca vəzifələrindəndir.

Demoqrafik proseslərin ayrılıqda öyrənilməsi bu proses



haqqında tam təsəvvür vermir, bu hadisənin digər proseslərlə əlaqə və asılılığını aşkar etmir. Deməli, əhali sakinliyi proseslərinə məqsədyönlü təsir etmək məqsədilə iqtisadi və demoqrafik siyasətdə həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin seçilməsi və hərtərəfli əsaslandırılması lazımdır.

Demoqrafik proseslərin öyrənilməsindən çıxarılan məntiqi nəticələr əhalinin inkişafında baş verən proseslərin dəyişilmə meylini təhlil və izah etməyə, bunun əsasında hazırda və perspektivdə demoqrafik proseslərin inkişafını qabaqcadan görməyə imkan verməlidir. Başlıca olaraq isə demoqrafik proseslərin sosial-iqtisadi hadisələrə təsirini və cəmiyyətin bu proseslərə məqsədyönlü təsir göstərmək imkanını aşkar etməyə kömək etməlidir.

Əhali ilə bağlı olan problemlərin tədqiqinin ali məqsədi onun inkişaf qanunauyğunluqlarını aşkar etməklə, bu inkişafa məqsədyönlü qaydada, cəmiyyətin mənafeyinə uyğun şəkildə təsir göstərməkdir.

Bütün cəmiyyət miqyasında ictimai inkişafı, həmçinin əhalidə baş verən prosesləri şüurlu surətdə idarə etmək üçün demoqrafiya siyasətini dərindən bilmək lazımdır.

### *§2. Demoqrafiya siyasəti*

Cəmiyyətdə demoqrafik problem ya nəzərə alınmadan kortəbii formada, ya da bu proseslər nəzərə alınmaqla, müəyyən təsir etməklə şüurlu formada həll olunmalıdır. Şüurlu təsir isə əhalinin təbii təkrar istehsalında özünü büruzə verir. Bu təsir nəticəsində demoqrafik davranışın sosial normaları formalaşır. Çünki demoqrafik davranış milyonlarla fərdi insanların davranışından yaranır. Bu isə demoqrafik proseslərdə öz izini qoymaya bilməz. Lakin cəmiyyət bu prosesləri elmi idarə etməyə getdikcə daha çox nail olur.

Dövlət demoqrafik proseslərin idarə olunması üçün xüsusi

siyasət həyata keçirir. Bu siyasət demoqrafiya siyasəti adlanır. Dövlətin demoqrafiya siyasəti iqtisadi və sosial-siyasətlə qarşılıqlı əlaqədə həyata keçirilir. Demoqrafiya siyasəti həm kəmiyyət, həm də keyfiyyət cəhətdən əhalinin təkrar istehsalının idarə olunmasına və tarazlı inkişafına kömək etməlidir. Demoqrafiya siyasətini səmərəli həyata keçirmək üçün cəmiyyətin inkişaf qanunlarını və qanunauyğunluqlarını dərk etmək, baş verən dəyişikliyin meylini nəzərə almaq lazımdır. Lakin demoqrafiya siyasətində bu çox çətindir. Bu çətinliyin aradan qaldırılması demoqrafik proseslərlə iqtisadiyyat və cəmiyyətin digər tərəfləri arasında uyğunluğun təmin olunması və demoqrafik proseslərin özündən doğan potensial imkanların və üstünlüklərin reallaşması ilə bağlıdır.

Elmi surətdə əsaslandırılmış demoqrafiya siyasəti sosial tərəqqinin mühüm sürətləndiricisidir. Demoqrafik proseslər iqtisadi amillərlə yanaşı, qeyri-iqtisadi amillərlə də, yəni bioloji, sosial, hüquqi, psixoloji, coğrafi, mədəni, ailə-məişət və s. amillərlə də müəyyən olunur.

Demoqrafiya siyasəti əhali sakinliyi sahəsində dövlətin sosial siyasətinin bir hissəsidir. Lakin demoqrafiya siyasəti sosial siyasətin müstəqil hissəsidir. Çünki sosial siyasətlə demoqrafiya siyasətinin vəhdəti çərçivəsində demoqrafiya siyasəti özünəməxsus istiqamətə malikdir, yəni sosial-iqtisadi amillərin təsirindən istifadə etmək əsasında demoqrafik proseslərin əhalinin təkrar istahsalının optimal nisbətinin yaradılması məqsədinə xidmət edir.

Əgər dövlət əhalinin demoqrafik problemlərinə dair mühüm tədbirlər həyata keçirmirsə bu passiv demoqrafik siyasət adlanır. Aktiv demoqrafik siyasət-demoqrafik proseslərin sosial-iqtisadi və hüquqi tədbirlərin birlikdə arzu olunası istiqamətində ardıcıl olaraq həyata keçirilməsinə deyilir. Bu siyasət əhali sakinliyinin əsas prosesləri, bir sözlə, doğum, ölüm, təbii artım, nigah, boşanma, miqrasiya, əhalinin yerləşməsi ilə əlaqədar məsələləri, cəmiyyətin milli,



sosial, peşə quruluşu, əmək şəraiti, sosial rifah halı və s. ilə bağlıdır.

Demoqrafiya siyasəti tədbirlərini şərti olaraq üç: ***iqtisadi, inzibati-hüquqi, təbliğati*** qrupa bölürlər. Bunları şərti olaraq demoqrafiya siyasətinin metodu da adlandırmaq olar. ***İqtisadi tədbirlərə*** çoxuşaqlı analara müavinət, mənzil kirayəsinin azaldılması, analığa görə məzuniyyətin verilməsi və s. daxildir. ***İnzibati-hüquqi tədbirlərə*** isə doğumun qarşısının alınması üçün müəyyən vasitələrin istehsalının və satışının məhdudlaşdırılması, doğumun stimullaşdırılması, nigaha daxilolma yaşı, ailədə uşağın sayına görə ataya hərbi xidmətə çağırışda müxtəlif güzəştlər, çoxuşaqlı ailələrə mənzil alınmasında güzəştlər və s. haqqında qanunçuluq aktlarını göstərmək olar. Bu tədbirlərə həmçinin nigah və boşanma, ailə dağılarkən ananın və uşağın əmlak hüququ, tək analara münasibət, uşaqlı qadınların işə qəbulu və işdən çıxarılması, əmək fəaliyyəti və s. məsələlər üzrə aktlar da daxildir.

***Təbliğat xarakterli tədbirlər*** dedikdə, bütün informasiya vasitələri ilə ailədə uşaqların arzu olunan sayı ictimai rəy yaratmaq nəzərdə tutulur. Burada sağlamlığın möhkəmləndirilməsi, əhalinin müəyyən bir əraziyə yerdəyişməsi haqqında təbliğat da mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə əhali sakinliyi probleminin qlobal miqyasda kəskinləşməsi müşahidə olunduğu bir zamanda müxtəlif ölkələrdə fəal demoqrafiya siyasəti özünü büruzə verir.

Müasir demoqrafiya siyasəti tədbirləri və əhalinin həyatında baş verən müsbət dəyişikliklər əhalinin demoqrafik davranışında da müsbət dəyişikliklərə gətirib çıxarır. Demoqrafik siyasətdə mərkəzi yeri əhalinin təbii təkrar istehsalının cəmiyyətin mənafeyinə müvafiq şəkildə baş verməsi üçün həyata keçirilən tədbirlər tutur.

### §3. *Demoqrafik problem haqqında nəzəriyyələr*

Demoqrafik problem mürəkkəb bir prosesdir. Əhalinin həm artmasına, həm də artmamasına tələbat var. Əhalinin sürətli artımı bir sıra dövlətlərdə, xüsusilə Asiya, Afrika və Latın Amerikasında olduqca çətin vəziyyət yaratmışdır. Lakin dünyanın bir sıra inkişaf etmiş ölkələrində Şimali Amerika, Avropa, Rusiya və keçmiş sovet məkanında olan bir sıra dövlətlərdə əhali artımına ehtiyac vardır. Bütövlükdə yer üzərində əhalinin artması çox böyük sürətlə gedir. Ona görə də bu problem təkcə mütəxəssis alimləri, siyasi xadimləri deyil, həmçinin dünya ictimaiyyətini də narahat edir. Son illərdə bir çox disskusiyaların mərkəzində əhali artımı probleminin durması faktı buna sübut ola bilər. Bu bir daha sübut edir ki, əhali problemi bəşəriyyəti dərindən düşündürür.

Bir çox alimlər bəşəriyyətin gələcəyi üçün təhlükə olan demoqrafik problemin həllinə müxtəlif cür yanaşırlar. Bəşəriyyətin gələcək inkişafı haqqında müxtəlif nəzəriyyələr irəli sürürlər.

İlk nəzəriyyə əvvəldə qeyd etdiyimiz kimi hələ XVIII əsrin sonunda ingilis keşişi və iqtisadçısı Maltus tərəfindən irəli sürülmüşdür. Bu isə müasir dövrdə demoqrafik problem haqqında bioloji şərhi üstün tutan alimlərin mövqeyinə yaxındır. Demoqrafik biologizm mövqeyində duran alimlər göstərir ki, əhalinin say dinamikası artım qanununa elə tabedir ki, ibtidai artım dövründə o yüksəlir, müəyyən pilləyə çatdıqdan sonra enməyə, yəni azalmağa başlayır. Yəni insan həm də bioloji varlıq olduğu üçün bioloji qanunauyğunluqlara tabedir. Buradan isə belə nəticə çıxartmaq olar ki, əhali artımı bəşəriyyəti narahat etməməlidir. Çünki bioloji qanunlar əhali artımını tənzimləmək qüdrətinə malikdir. Əslində isə bununla arxayınlaşmaq olmaz. Çünki əhali artan zaman onun yerləşdirilməsi, maddi nemətlərlə təmin olunması zərurəti meydana çıxır.

Demoqrafik problemlə məşğul olan alimlərin bir hissəsi isə belə qənaətə gəlmişlər ki, əhali nə qədər artsa da yer onları öz üzərində məskunlaşdırmağa və maddi nemətlərlə təmin etməyə qadirdir. Ona görə də əhalinin artması bəşəriyyəti narahat etməməlidir. Bu nəzəriyyənin tərəfdarlarını demoqrafik maksimalistlər, nəzəriyyəni isə demoqrafik maksimalizm adlandırırlar.



Digər qrup alimlər, demoqrafik fatalizm nəzəriyyəsini müdafiə edən demoqrafik fatalistlərin əhali artımı haqqında baxışları da maraqlıdır. Bu nəzəriyyəyə görə əhali problemləri öz-özünə həll olunacaqdır. Bəşəriyyət özü-özünə nizamlanan sistem olduğundan öz sayını avtomatik olaraq nizamlayacaqdır. Bu isə əslində əhali probleminə münasibətdə biganəlik və laqeydlik, alın yazısına inanmaq, kənar qüvvə tərəfindən bu problemin həll olunacağına əminlikdir. Demoqrafik problem haqqında düşünən alimlər bəzən xəyallara da gedib çıxırlar. Onlar yer üzərində əhalinin artması probleminin qarşısını almaq üçün ən yaxşı vasitə kimi yer üzərində olan əhalinin bir hissəsini kosmosa köçürmək və orada yerləşdirmək ideyasını irəli sürürlər. Lakin hər kəs gözəl başa düşür ki, belə bir ideya yalnız utopiyadır. Çünki kosmosa insanların köçürülməsi və orada yaşayışın təmin olunması xəyaldan başqa bir şey deyildir. Ona görə də bu nəzəriyyə demoqrafik utopizm adlanır.

Yuxarıda qeyd olunan nəzəriyyələr bir daha onu göstərir ki, dünya alimləri demoqrafik problemin müxtəlif yollarını axtarırlar.

Müasir dövrdə Maltusun ideyalarına müraciət edən alimlər bir qədər də artmağa başlayıb. İngilis təbiətşünası T.Heksli, Q.Teylor və başqaları əhalinin sürətlə artması hesabına bəşəriyyətin məhv olacağı ideyasını irəli sürürdülər. Əhali artımı iqtisadi artımdan yüksək olur, bu isə onların inkişafında böyük çətinliklər yaradırdı.

Fransa sosioloji tədqiqatlar institutunun gəldiyi nəticəyə görə, əgər yer üzərində əhali bu cür sürətlə artarsa, 3000-ci ildə planetimizdə hər adambaşına on kvadrat santimetr ərazi düşəcək. Ona görə də, əhali artımının qarşısını hansı yolla olur-olsun almaq lazımdır. Əhalinin yüksək artımı bəşəriyy-

ətin gələcəyi üçün təhlükə hesab edilir. Bunun üçün ilk növbədə əhalinin artmaması üçün doğum üzərində nəzarətin qoyulmasını tələb edirlər. Bunu necə həyata keçirməyin yollarını isə B.Berelson belə göstərir: 1) içməli suda hamiləliyin qarşısını alan dərman verməklə əhalinin ümumi dölsüzləşdirilməsi; 2) insanın təkrar istehsalına məhdud sayda lisenziyaların satışı; 3) nəsil artıran qadınları çıxmaq şərti ilə yerdə qalan qadınların sterilizə edilməsi; 4) müəyyən sayda uşağı olan kişilərin məcburi sterilizə edilməsi; 5) nəslin artırılmasını çətinləşdirən sosial siyasətin, vergilərin, həmçinin hüquqi tədbirlərin həyata keçirilməsi.

Bunlar antihumanist təkliflərdir. İnsanın gələcəyini qorumaq naminə bugünkü səadətini məhv etmək deməkdir. Bu cür nəzəriyyənin tərəfdarlarını yeni maltusçular da adlandırmaq olar.

Əhali problemi ekoloji problemlə, sosial-iqtisadi problemlərlə, ərzaq problemi ilə də sıx surətdə bağlıdır.

Rus akademiki Y.K.Fyodorov isə göstərir ki, Yer kürəsi təbii sərvətlərlə olduqca zəngindir. Onlardan səmərəli istifadə edilsə Yer kürəsi 60-65 milyard əhalini öz üzərində saxlaya və maddi nemətlərlə təmin edə bilər.

Azərbaycan ərazisində də demoqrafiya problemi özünü göstərməyə başlamışdır. Bunun səbəbləri: 1) Ermənistan ərazisində yaşayan azərbaycanlıların öz doğma yurdlarından qovulması və Azərbaycana, ilk növbədə Bakıya gəlib burada məskunlaşması; 2) erməni qəsbkarları tərəfindən Azərbaycanın torpaqlarının iyirmi faizinin zəbt edilməsi nəticəsində Azərbaycanda bir milyondan çox adam ev-eşiyindən məhrum olaraq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür və onlar da əsasən Bakıda məskunlaşmışlar; 3) hazırda kənd və rayon yerlərində əhalinin yaşayış səviyyəsi aşağı olduğu üçün, iş axtarmaq və yaşamaq üçün əhalinin çox hissəsi şəhərdə məskunlaşıb. Azərbaycan əhalisinin yarısına qədəri Bakı və onun ətrafında məskunlaşmışdır. Ona görə də Bakıda əhalinin su, ərzaq və yaşayış evləri ilə təmin



olunması problemi meydana gəlmişdir. Əhali tam işlə təmin olunmur. Şəhərin ucqarları hesab olunan Günəşli, Əhmədli, Yeni Günəşli artıq şəhərlə tam birləşmişdir.

Doğrudur, Azərbaycanda dövlət əhalinin məskunlaşması problemi ilə ciddi məşğul olarsa, onda bu problem aradan qaldırıla bilər. Lakin demoqrafik problem bütün bəşəriyyətin problemidir. Bu isə dünya ölkələrinin birliyinin artırılmasını, ümumbəşəri mənafelərin ön plana çəkilməsini zəruri edir.

Demoqrafik problemlərin həll olunmasında bir çox çətinliklər özünü göstərir. Çünki *ilk növbədə* bu çətinliklər bir ölkəni, bir xalqı deyil, bütün bəşəriyyəti əhatə edir, həlli üçün isə bütün dünya miqyasında fəaliyyət göstəmək tələb olunur. *İkincisi,* insanın təbiətə vurduğu zərbə o dərəcədə ağırdır ki, təbiət insanın tələbatını ödəyə bilmir. ***Üçüncüsü,*** əhalinin səhiyyə problemlərinin həll olunması çətinləşir. Kütləvi xəstəliklərin yayılması və insan ömrünün kəskin surətdə qısalması ərzaq problemi ilə də bağlıdır.

Dünyada hər il on milyonlarla adam aclıqdan ölür. Yer üzərində yaşayan əhalinin üçdə iki hissəsi içməli sudan məhrumdur. Aydın görünür ki, demoqrafiya problemi bəşəriyyəti narahat edən digər problemləri: ərzaq, enerji, ekoloji və s. problemləri qabarıq şəkildə üzə çıxarır. Həmin problemlər də bəşəriyyəti narahat edən qlobal problemlərdəndir. Ona görə də demoqrafiya probleminin həll olunması kompleks xarakter daşımalıdır. Yəni digər qlobal problemlərlə birlikdə həll olunmağa səy göstərilməlidir.

# KİTABIN İÇİNDƏKİLƏR


Ön söz ....................................................................3
**Fəsil I.** Politologiyanın predmeti, cəmiyyətdə yeri və rolu ....................................................................5
§1. Siyasət və onun mahiyyəti, politologiyanın predmeti 5
§2. Politologiyanın kateqoriyaları, metodları, funksiyalar və sosial-siyasi elmlər sistemində yeri .........13
§3. Müasir şəraitdə cəmiyyət həyatında politologiyanın rolunun artması..........................................................21
**Fəsil II.** Siyasi fikrin yaranması və inkişafı ..................25
§1. Qədim dünyada siyasi fikrin yaranması və inkişafı ..25
§2. Orta əsrlərdə və yeni dövrdə siyasi fikrin inkişafı......31
**Fəsil III.** Azərbaycanın siyasi fikir tarixindən .............51
§1. Qədim Azərbaycanda siyasi fikrin yaranması və inkişafı ..........................................................51
§2. Orta əsrlərdə Azərbaycanda siyasi fikir ..................52
§3. Azərbaycan maarifçilərinin və mütəfəkkirlərin siyasi fikirləri..........................................................62
**Fəsil IV.** Siyasət..........................................................70
§1. Siyasət haqqında anlayış və fikirlər ........................70
§2. Siyasətdə məqsəd və mənafelər ...............................78
**Fəsil V.** Siyasi elita və siyasi liderlik ...........................82
§1. Siyasi elita anlayışı...................................................82
§2. Siyasətdə liderlik .....................................................94
**Fəsil VI.** Cəmiyyətin siyasi təşkili ................................106
§1. Cəmiyyətin siyasi təşkili anlayışı ............................106
§2. Dövlətin mənşəyi və mahiyyəti haqqında nəzəriyyələr ...............................................................110
§3. Dövlətin əlamələri və funksiyaları ..........................113
§4. Dövlətin tipləri və formaları.....................................118
**Fəsil VII.** Siyasi rejimlər ..............................................124





**Fəsil VIII.** Siyasi partiyalar ..........................................139
§1. Partiyanın mənşəyi və mahiyyəti ..... ......................139
§2. Partiyaların tipologiyası və funksiyalar ...................146
§3. Partiya sisemləri.......................................................156
**Fəsil IX.** Demokratiya.....................................................164
§1. Demokratiya anlayışı..................................................164
§2. Demokratik prinsiplər ................................................176
**Fəsil X.** Parlament..........................................................181
§1. Parlament anlayışı, quruluşu və iş qaydası...............181
§2. Parlamentin səlahiyyətləri və funksiyaları ...............189
**Fəsil XI.** Seçki sistemi ....................................................198
**Fəsil XII.** Siyasi şüur və siyasi mədəniyyət ....................205
§1. Siyasi şüur ...............................................................205
§2. Siyasi mədəniyyət ....................................................214
**Fəsil XIII.** Siyasi ideologiya ..........................................223
§1. Siyasi ideologiya anlayışı .........................................223
§2. İdeologiyanın formaları və funksiyaları ...................230
§3. İdeoloji nəzəriyyələr və cərəyanlar .........................233
**Fəsil XIV.** Siyasi münaqişələr ........................................244
§1. Münaqişə sosial hadisədir .........................................244
§2. Siyasi münaqişə ........................................................250
**Fəsil XV.** Beynəlxalq münasibətlər və xarici siyasət ......256
§1. Beynəlxalq münasibətlər anlayışı .............................256
§2. Beynəlxalq siyasətin qlobal problemləri...................261
**Fəsil XVI.** Milli təhlükəsizlik siyasəti.............................268
**Fəsil XVII.** Demoqrafiya problemi ..................................282
§1. Demoqrafiyanın mahiyyəti .......................................282
§2. Demoqrafiya siyasəti ...............................................285
§3. Demoqrafik problemlər haqqında nəzəriyyələr .......288

# POLİTOLOGİYA

*(Ali məktəblər üçün dərslik)*

*(Təkrar nəşr)*

# ПОЛИТОЛОГИЯ

*(Учебник для вузов)*


*Авторский коллектив*

*Теймурлу Магомед А., Вахидов Фазил Г., Абдиева Адалят М., Алиев Сакит Г., Гасанов Мехман З., Гусейнов Хафиз Ф., Джафарова Васхатым Г., Зейналов Элмидар Г., Мамедов Гусейн Г., Мамедов Эмин Г., Ибадов Назим С., Иманов Панах А.,Исмаилов Шахин М., Исмаилов Дилгам Ю., Пириев Аббас М., Рустамов Ариф С., Ширинова Наиля Ф.*



**Kompüter tərtibatçısı:** *Əminə Rzaqızı*
**Dizayner:** *Nərgiz Bəyişqızı*
**Korrektor:** *Zeynallı Kənan*

Yığılmağa verilmişdir: 01.07.2007
Çapa imzalanmışdır: 25.07.2007.
Formatı: 60x84 1/16. Sifariş 27
Tirajı: 100.

"MBM" mətbəəsində çap olunmuşdur.